AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

(Ədəbiyyat, dil, mədəni quruculuq)

BAKI - «Qoliot Qkup» QSC - 2009

Nizami adına Ədəbiyyat İnstitutu Elmi Şurasının
9 iyun 2008-ci il tarixli (protokol №3)
qərarı ilə çap olunur.

Redaksiya heyəti: **Bəkir Nəbiyev**
(məsul redaktor)
Nikpur Cabbarlı
Alxan Məmmədov

Azərbaycan Xalq Cümhuriyyəti.
(Ədəbiyyat, dil, mədəni quruculuq)
«Qoliot Qkup» QSC nəşriyyatı,
Bakı, 2009. 336 səh.

ISBN 978-9952-455-09-0

Bu kitab 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə «Elm» nəşriyyatında çap olunmuş eyni adlı monoqrafiyanın yenidən işlənilmiş, təkmilləşdirilmiş, əlavə və düzəlişlər edilmiş variantıdır.

Monoqrafiyada Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat, dil mədəni quruculuq məsələləri sistemli tədqiqata cəlb edilir.

© «Qoliot Qkup» QSC nəşriyyatı - 2009

«Azərbaycan Xalq Cümhuriyyətinin
80 illiyinin keçirilməsi haqqında»
Azərbaycan Respublikası Prezidentinin
S Ə R Ə N C A M I

1998-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 ili tamam olur. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atriibutlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi, Azərbaycanda sovet hakimiyyəti quruldu. 1922-ci ilin dekabrında Sovet Sosialist Respublikaları İttifaqı yarandı və Azərbaycan bu ittifaqa daxil oldu. SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycan bir çox dövlətçilik atributlarını saxlaya bilmiş, iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmişdir. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi

süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının xalqımızın tarix salnaməsində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi respublikada geniş qeyd edilsin.

2. Yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi məqsədilə Dövlət Komissiyası yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 yanvar 1998-ci il

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 90 İLLİK YUBİLEYİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2008-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi tamam olur. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika Günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələnmiş, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə də şərait

yaratmışdır. Əlimərdan bəy Topçubaşov və başqa ziyalıların siyasi proseslərə qatılması, Dumaya seçilməsi və Rusiya müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir.

Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya Müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirdi.

İlk qərar ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən Cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris sülh konfransında 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazalara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Hmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son iclasında bolşevik ultimatumunun qəbul edilməsi aprel işğalı ilə nəticələndi.

Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məmmədəmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu.

1920-ci il aprelin 28-də ikinci respublika – Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İki il ərzində öz müstəqilliyini qoruyub saxlamağa nail olan respublika 1922-ci ildə SSRİ-nin tərkibinə daxil olduqdan sonra öz müstəqilliyinin ancaq formal atributlarını saxlaya bilmişdi. Yalnız onu əvəz edən üçüncü respublika müstəqillik ideyasını yaşatmış və Azərbaycan bütün sərvətlərinin, o cümlədən neftinin tam sahibi kimi çıxış edə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə milli dövlətçilik tarixində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və

Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin yaranmasının 90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə olunsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 fevral 2008-ci il

İNSTİTUTDAN

Dövlət-mədəniyyət münasibətlərinin klassik tipoloji modeli bizim yaxın milli tarixin real gerçəkliyində artıq bir neçə dəfə olub. XX əsrin əvvəlinin böyük istiqlal hərəkatı ədəbiyyatda və mətbuatda, böyük ədəbiyyatı isə milli və ideoloji mübarizələrin səngərində yaranıb. «Molla Nəsrəddin» və «Füyuzat», «Açıq söz» və «Dirilik», «İqbal», «Həyat» və «İrşad» - az qala hərəsi bir partiya qədər bədii və ideya-siyasi iş görüb. Və əslində, istiqlalın fəlsəfəsi və ideologiyası ədəbi mətbuatda yaranıb, yayılıb, qalib gəlib. Milli qurtuluşun konsepsiyası, azadlıq və suverenliyin məfkurə və ideya təlimi böyük Mirzə Fətəlinin, Mirzə Cəlilin və Sabirin, Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun, Məhəmməd Hadinin və Üzeyir bəyin, Məhəmməd Əmin Rəsulzadənin və Mirzə Bala Məhəmmədzadənin elmi, ədəbi və təşkilati fəaliyyəti ilə hazırlanıb, bərqərar olub.

Xüsusən, 1918-20-ci illərin Cümhuriyyət hərəkatı əvvəlcə «ideya hərəkatı» kimi formalaşdı. Mənəvi birlik və həmrəylik axtarışlarında ədəbi-ictimai fikir bir neçə mərhələdən keçdi, milli ideya öz bəxtini islamçılıqda, turançılıqda sınadıqdan sonra, nəhayət, özünü azərbaycançılıqda tapmış oldu. Həmişə olduğu kimi, yenə də xalq doğma torpaqdan, milli yaddaşdan, gendən doğulan ideyanı öz «mən»i, öz şəxsiyyəti, öz əxlaqı ilə ifadə və təmsil edənin - Rəsulzadənin ardınca getdi. Simvolikdir ki, məhz ən yeni Azərbaycan ideologiyasının öndəri olan Rəsulzadə ilk Azərbaycan Cümhuriyyətinin də banilərindən biri oldu. Başqa cür ola da bilməzdi: «Azərbaycan ideologiyası» yaran-

madan müasir, azad, suveren Azərbaycan dövləti, milləti, dili, ədəbiyyatı yarana bilməzdi.

Gördüyümüz kimi, qaynayıb-qarışıb, bir bütöv olan dövlət - mədəniyyət fenomeni həyatın, tarixin özündə olmuşdur. Belə birliyi bir ideya kimi öz janrı, strukturu, məzmunu ilə ifadə edən bir kitabın - Azərbaycan Xalq Cümhuriyyətində ədəbiyyat, dil və mədəni quruculuğuna həsr olunmuş yubiley nəşrinin də meydana çıxması eyni dərəcədə təbiidir.

«Başları istiqlala hazırlamaq» işində əsrin əvvəlinin ədəbi xidmətini, bu və ya digər dərəcədə, əsrin ortasının (altmışıncı illər) və sonunun (səksəninci və doxsanıncı illər) ədəbiyyatı da icra etdi. Bunu etiraf etməmək olmaz. Fərq yalnız görülən işin miqyasında, həcmində və səviyyəsində oldu.

Milli dövlətçilik və milli ədəbi-mədəni «mən» şüurunun çağdaş suveren zirvəyə çatmasında yetmiş-səksəninci illərin məxsusi tarixi rolunu ayrıca qeyd etmək lazımdır. Hər iki on il hər iki sahədə milli mentaliteti bəşəri meyarlar səviyyəsində, o vaxtkı ittifaq məkanında, həmçinin islam və türk arealı, Yaxın və Orta Şərq miqyasında etiraf olunan dəyərlər səviyyəsində ifadə və təsdiq edən klassik bədii nümunələrlə zəngindir.

Doxsanıncı illərin lap əvvəli, hər şeydən əvvəl, təzadlarla, yüksəliş və böhranlarla, növbələşən intibah və faciələrin bir-birini əvəz etməsi ilə əlamətdar oldu. Ədəbiyyatın milli «mən»ə, əcdada, kökə, kültürdə suverenliyə qlobal miqyasda qayıtmaq çağırışları artıq ilk real bəhrələrini verməyə başladı. Azadlıq bir stixiya və əməl kimi hər sahədə vüsət tapdı. Latın əlifbası bərpa olundu, üç rəngli bayraq, səkkiz guşəli ulduz, ənənəvi milli dövlət simvolikası real əməli, hüquqi status əldə etdi.

Bu yüz ildəki üçüncü milli Respublika - müstəqil Azərbaycan yenidən həmhüquq dünya səltənətləri sırasına daxil oldu. Millətin «imzalar içində imzası» seçilməyə, BMT-də bayrağı dalğalanmağa başladı.

Eyni zamanda Vətən torpağının beşdə biri işğal zolağına, millətin yeddidə biri qaçqına və didərginə məhz XX yüz ilin sonunda çevrildi. Milli iflas, daxili siyasi, hüquqi, mənəvi hərc-mərclik, hərbi xəyanətlər, dövlət və parlaman çevrilişləri, əbədi, əzəli dəyər və sərvətlərin qiymətdən düşməsi, hətta mənəvi, ictimai, əxlaqi münasibətlərdə də «bazar dövrü»nün əlamətləri bu vaxtdan başladı. Qara yanvar (1990), Ermənistandan, həmçinin, torpağının beşdə biri işğala məruz qalan Azərbaycandan (Əsgərandan, Xankəndindən, Ağdamdan, Laçından, Şuşadan...) Bakıya qaçqınlar, Sumqayıt, Bağanis-Ayrım, Ağdam, Xocalı, Şuşa faciələri bu vaxt baş verdi. Beş ilə seçilən, lakin bir il də duruş gətirməyən iqtidarlar, parlament hakimiyyət dəyişmələri mənəvi-ədəbi-bədii həyatda da qeyri-sabitliyə gətirib çıxardı. Siyasi-ictimai həyatın özündəki mürəkkəblik, Dağlıq Qarabağda erməni separatçıları və Ermənistanla çoxillik müharibə, həmçinin, Azərbaycan ərazisinin özündə geosiyasi marağı olan ölkələrin dəstəklədiyi ayrı-ayrı qrupların rəyasət və hakimiyyət uğrunda daxili mübarizəsi, bununla bağlı iqtisadi, sosial, ideoloji təxribatlar və onların nəticələri xalqın tarixində və taleyində əks olundu.

Bir sözlə, Azərbaycanda bir-birini əvəz etmiş hər üç respublikanın üçünün də canlı təcrübəsi belə bir tarixi, məntiqi qanunauyğunluğu bir daha sübut etdi ki, bütün itkilər, torpaq və yaddaş, elm və mədəniyyət, demokratiya və güzəran itkiləri də, hamısı, dövlətçilikdə itkilərdən başlayır. Qədim Manna, Atropaten və Atabəy-

lər, yaxın Cümhuriyyət və sovetdən sonrakı respublika dövlətləri də əvvəl dövlətçilik, yalnız sonra ərazi itkilərinə məruz qallmışlar.

Millət üçün dövlətdən və milli dövlətçilik şüurundan qiymətli heç nə yoxdur. Cəmiyyət miqyasında sabit, qlobal ictimai əxlaq, təfəkkür və ideologiya yalnız onda sabitləşir və etibarlı olur ki, o, milli-mənəvi dəyərlərə güvənir. Yerüstü sərvətə (mənəvi dəyərlərə!) güvənməyəndə isə hətta yeraltı sərvətlər istiqlala yox, istiqlalla da alverə, ehtikarlıq vasitəsinə çevrilir. Bunsuz həm suverenliyin, həm də torpağın ərazisi, həm coğrafi, həm də milli-mənəvi məkan öz bütövlüyünü (bu bütövlüyün sabitliyini!) hər dəfə yenidən itirir.

Yeni yüz ilin və yeni min ilin astanasında Azərbaycanda qlobal miqyasda sabitlik və əmin-amanlıq üçün xalqın müdriklik göstərib vaxtında seçdiyi prezidentin - Heydər Əlirza oğlu Əliyev adlı tarixi şəxsiyyətin müstəsna milli xidməti bu həqiqətlərin işığında, məhz belə fundamental kontekstdə xüsusilə qabarıq görünür.

Əlbəttə, doxsanıncı illərdən əvvəllər də, ikinci respublika dövründə də Heydər Əliyev o zamankı İttifaq miqyasında tanınmış rəhbər və ictimai xadim idi: Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini idi. Lakin həmin möhtəşəm, miqyaslı on ili yox, böhranlı, ağır və çətin, lokal son beş ili bir rəhbər kimi H.Əliyev öz tərcümeyi-halının və öndərlik fəaliyyətinin zirvə məqamı hesab edir. Tbilisidə, öz tərcümeyi-hal dostu və yaxın həmkarı, Gürcüstan prezidenti E.A Şevardnadzenin 70 illiyinə həsr olunan təntənəli yığıncaqda yubilyarın şərəfinə söylədiyi təbrik nitqində o, özü bunu açıq-aşkar etiraf edir: «Eduard Şevardnadzenin tərcümeyi-halının ən mühüm

hissəsi, mən bunu özümə də aid edirəm, ona görə belə deyirəm, Eduard Şevardnadzenin həyat və fəaliyyətinin ən parlaq hissəsi, ən mühüm hissəsi Gürcüstanın son dərəcə çətin şəraitində öz xalqını bu şəraitdən çıxarmağı öz üzərinə götürdüyü dövrdür».

Öz səmimi və hərarətli nitqində H.Ə.Əliyev nə üçün məhz son illəri E.A.Şevardnadzenin çox miqyaslı bir zaman və məkan kəsiyində keçən böyük tərcümeyi-halının zirvə qatı hesab etməsinin səbəbini də açır və bu açımı da bütün pafosu, həm hərfi, həm də mahiyyəti ilə birlikdə H.Əliyevin şəxsi bioqrafiyasına aid edib, eynilə təkrar etmək olar:

«Mən hesab edirəm ki, Gürcüstana qayıtdıqdan sonra Eduard Şevardnadzenin etdikləri, Gürcüstanı bu ağır vəziyyətdən çıxarmağı öz üzərinə götürməsi əsl qəhrəmanlıqdır. O, burada hərc-mərclik vəziyyəti və vətəndaş müharibəsi vəziyyəti yaratmış qüvvələrin hamısını zərərsizləşdirmək və Gürcüstanı və gürcü xalqını bu ağır şəraitdən tədricən çıxarmaq üçün öz xalqının milli qəhrəmanı kimi döyüşə girdi, mübarizəyə başladı...»

Məhz «milli qəhrəman» işi və mübarizəsi nəticə etibarı ilə milli dövlətin (və dövlətçiliyin!) mənəvi-əxlaqi baxımdan təminatı, ideya qarantı rolunu oynamaq üçün lazım olur. Neçə yüz il, neçə min il tarixi olan ən qədim ölkələrdə sabitliyin əsas səbəbi elə o olub ki, burada milli-mənəvi dəyərlər həmişə dövlətin və dövlət də öz növbəsində milli-mənəvi dəyərlərin keşiyində ayıq-sayıq dayanıb. Mentalitet tərbiyəsinə, milli «mən» yaddaşına və şüuruna biganə qalmamaq cəmiyyətdə əbədi, sabit müstəqilliyin, suverenliyin taleyinə və gələcəyinə də biganə qalmamağın şərti və zəmini olub...

Məhz mentalitet tərbiyəsinə, sənətə, elmə hamilik - bütün tarixi mərhələlərdə Heydər Əliyevin dövlətçilik

fəaliyyətinin prioritet istiqamətidir və nəzəri şəkildə də onun dünyagörüşündə öz bitkin və konseptual ifadəsini tapır: dövlət təfəkkürü məhz milli şüurun, humanitar təfəkkürün davamı və zirvəsi kimi qüvvətlidir, elmin və sənətin məbədi eyni vaxtda həm də dövlət məbədi olmalı və Azərbaycanın ümummilli maraqlarına cavab verməlidir!. Dövlət koalisiyalı və müxalifətli ola bilər, dövlətçilik şüuru və dünyagörüşü isə – heç vaxt! Cari iqtisadiyyat da, siyasi ideologiya da iflasa uğraya bilər, milli yaddaş və şüur isə heç vaxt! Çünki yalnız yaddaş və şüur sklerozu artıq hər şeyin və həmişəlik sonu demək olardı.

Odur ki, tarix boyu həmişə dövlət və elm (sənət, poeziya...) həmin şüurun və yaddaşın keşiyində qoşa dayanıb. Hər yerdə ali elm və sənət qurumlarını ən ali dövlət ərləri, ümummilli öndərlər hamiliyə götürüb. Məhəmməd Əmin Rəsulzadə yalnız elm və mədəniyyət səviyyəsinə yüksələn siyasəti siyasi həqiqi-milli və həqiqi-dövlətçi təfəkkürün ifadəsi hesab edib. Mustafa Kamal Atatürkə qədər hələ heç kəs milli tarixdə və taledə tutduğu yerə, çəkiyə görə sənət-elm-dövlət nisbətinə bu qədər aydın mövqe təsnifi, missiya, rol bölgüsü və modeli təqdim etməyib: «Dövlətin təməli - kültürdür». Dövlətçilikdə «kültür və dil» konsepsiyası bu tamlıqda və bütövlükdə öz ifadəsini bizim zəmanədə Heydər Əliyevin əməlində və işində tapır.

Müasir Azərbaycanda müstəqilliyin də, sabit dövlətçiliyin də, kültürdə suverenliyin də təməl məqamı bu konsepsiyadır.

Əlbəttə, «osmanlı», «iranlı», yaxud hun, oğuz, qıpçaq, cığatay, səlcuq, qızılbaş adı ilə az qala Asiyanı, Qərbi, Afrikanı içinə alan miqyaslı, möhtəşəm etnik imperiyalar Şərqin və türkün tarixində çox olub. Lakin

əsasında axıra qədər dərk olunmuş müstəqil milli mentalitet və milli dövlətçilik təlimi dayanan, məhz xalis milli dövlət, milli təsisat və «mən» kimi Azərbaycan dünyada və tarixdə heç zaman indiki qədər etiraf və təsdiq olunmamışdır. Əsası və əməli təməli əsrin əvvəllində - 1918-20-ci illərin Azərbaycan Xalq Cümhuriyyətinin nümunəsində qoyulan böyük «azərbaycançılıq» ideyası öz tarixi, qanunauyğun varisini üçüncü respublikanın - çağdaş, suveren, demokratik Azərbaycanın və onun ümummilli öndərinin timsalında tapmışdır. Həm mədəniyyət, həm də dövlət öndərləri şansımız, uğurumuz olan dövlət - mədəniyyət birliyini, bu vəhdəti bəs gələcəkdə, bəs yeni yüz ildə və yeni erada nə qədər etibarlı şəkildə qoruyub-saxlaya biləcəklər? - istiqlalın da, sabitliyin də əbədiliyinin, dönməzliyinin təminatı, qarantiyası bundan sonra da, gələcəkdə də məhz bu məqama sədaqətlə şərtlənəcəkdir. Bu həqiqətin əyani, predmetli ifadəsi və təsdiqi Azərbaycanda istiqlal ideyalarının təşəkkülü və bu ideyaların həyata keçdiyi dövlətçilik təsisatlarının bir əsrlik yolu barədə bu kitabda öz əksini tapmış faktlar, sənədlər və qanunauyğunluqlardır...

1998, 2008

CÜMHURİYYƏTƏ QƏDƏRKİ ƏDƏBİYYATDA MİLLİ İNTİBAH VƏ İSTİQLAL İDEYALARI

Azərbaycanda klassik bədii düşüncənin tarixini həm də milli istiqlal düşüncəsinin, xalqın və onun tarixi taleyinin əks olunduğu bədii tarix hesab etmək olar. Ayrı heç yerdə bu tale bu tamlıqda və bütövlükdə əks olunmur. Milli tale üçün fərdi cavabdehliyin, bədii-fəlsəfi məsuliyyətin kamilliyi ilə ümumiyyətlə sənətin ideya vüsəti, xəlqilik və vətəndaşlıq yetkinliyi şərtlənmiş olur. «Böyük ədəbiyyat» həmişə və hər yerdə böyük tarixi məqamda - insanın və xalqın taleyi vahid bir problem kimi dərk ediləndə və irəli sürüləndə yaranır.

Bu tarixi və estetik qanunauyğunluq Azərbaycan xalqının bədii təfəkküründə milli inkişaf məntiqi ilə də təsdiq edilir. Bizim klassik şeirin, dramaturgiyanın, nəsrin, ədəbi-nəzəri fikrin məzmununda məhz azad İnsana, xalqa məhəbbətdən və onun tarixi taleyində ən yaxından iştirak etmək ehtirasından yüksək heç nə yoxdur. Milli bədii düşüncə dünyanı da, tarixi və tanrını da, hər şeydən əvvəl, bu konkret məqsəd və amal mövqeyindən dərkə can atır, o, mifdən və folklordan, «Xəmsə»dəki sadə adamlardan və «Dədə Qorqud»dan, Nizaminin «insan cəmiyyətindəki», M.F.Axundzadənin «Təmsilat»ındakı, H.Cavidin və C.Cabbarlının dramaturgiyasındakı «xalq» anlayışına qədər zəngin bir inkişaf yolu keçir. Xüsusən, realist milli nəsrin və dramaturgiyanın hər mərhələsində istiqlal və onun taleyi problemi, qəhrəmanların taleyində xalqın keçdiyi və hələ keçəcəyi yolu izləmək axtarışları get-gedə büllurlaşan və qanunauyğun şəkildə dərinləşən bu istiqamətdə davam etmişdir. Cəmiyyəti irəli aparan, onun mənəvi-ideoloji imkanlarını hərəkətə gətirən bədii fikir xalqın, demək olar ki, bütün zümrələrinin nümayəndələrini müsbət qəhrəman kimi sınamışdır. Xalqın özünü milli

mövcudluğun əsas rəhni, milli istiqlalın amili kimi dərk etməsi bu ədəbiyyatın ən böyük məfkurə - ideya uğuru olmuşdur.

Milli və beynəlmiləl bədii örnək rolunu Azərbaycan ədəbiyyatı bütünlükdə türklük və islam miqyasında da oynayır. Yaxın Şərq məcrasında bədii-fəlsəfi inkişaf dövriyyəsindən Avropa obyektinə keçid də o dövrün Asiya və İslam-Şərq məkanında əvvəlcə Azərbaycanda başlayır. Bütövlükdə, İslam Şərqi ilə ən yeni Qərb mədəniyyəti arasında beynəlmiləl ədəbi körpü rolu bir qədər sonra yenə Azərbaycanın taleyinə qismət olur, «inteqrasiya» deyilən proseslərdə avanqard rolunu Azərbaycan, həmçinin, sovet yetmiş ilində davam etdirir.

Ümumiyyətlə, Azərbaycanda hər iki proses - həm milli ideyanın (istiqlal şüurunun), yeni tipli realist milli ədəbiyyatın yaranması, həm də qədim ənənələrə malik Azərbaycan xalqının özünün bir millət kimi tarixi təşəkkülünün başa çatması eyni vaxta təsadüf edir. Digər iki tarixi - ədəbi proses də sinxron surətdə baş verir: bədii təfəkkürün həm yeni milli çeşidinin bərqərar olması, həm də o vaxta qədərki hakim, ənənəvi bədii sistemdən, bu sistemin regional çərçivəsindən kənara çıxması yanaşı davam edir. Daha çox milliləşən, məxsusiləşən və elə ona görə də daha çox «azərbaycanlaşan» Azərbaycan ədəbiyyatı həm də əvvəlki miqyasda və vüsətdə «ümumşərq ədəbiyyatı» olaraq qalır.

Məhz milli-bədii mentalitet, təkrarsız milli-realist ədəbiyyat kimi M.F.Axundzadə mərhələsində özünü, «mən»ini hərtərəfli dərk etdikdən və kamala yetdikdən sonra, təzə əsrdə ədəbi tərəqqi yenidən türk, islam, şərq məcrasında təkrarsız, fərdi, özəl hərəkətin miqyaslı magistralına çıxır.

Beləliklə, islama qədərki, islamla başlayan və Avropa ilə bağlı olan üç ədəbi dövrdən sonra bu dövrlərin hamısını özündə birləşdirən sintez dövrü - 20-ci yüzillik

gəlir və bu əsrin özünün üç daxili tarixi mərhələsi formalaşır - 1905-20-ci illər, 1920-1990-cı illərin sovet epoxası, 1990-cı ildən başlayan müstəqil milli-ədəbi inkişaf mərhələsi.

Beləliklə, Azərbaycanda milli ideya, milli ədəbi-bədii təraqqi tarixində kontekstlər M.F.Axundzadədən sonra belə radikal şəkildə bir də «Molla Nəsrəddin» məktəbinin, «Füyuzat» ədəbi cərəyanının (yeni Azərbaycanın romantizminin) bədii-fəlsəfi bünövrəsinin qoyulduğu dövrdə (20-ci əsr) dəyişir.

Ümumiyyətlə, Azərbaycanda müasir mənada milli mənlik şüurunun oyanması işində mətbuat böyük rol oynayır, o dövrlərin mətbuatını təmsil edənlərin əksəriyyəti (H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Nərimanov, C.Məmmədquluzadə, M.Hadi, H.Cavid, M.Ə.Sabir, A.Şaiq, Hacı Zeynalabdin Tağıyev, Əlimərdanbəy Topçubaşov, Ü.Hacıbəyli, Mehdi bəy Hacınski, M.Ə.Rəsulzadə və b.) yenicə yaranan millilik şüurunun intişarı ilə hər gün, hər saat məşğul olmuşlar. Bu cəhətdən «Həyat» qəzetinin və «Füyuzat» dərgisinin indiyəcən etiraf olunmamış xüsusi rolunu ayrıca qeyd etmək lazımdır. Məhz «Həyat» qəzetinin nəşri ilə (iyun 1905, – noyabr 1906) milli özünüdərk təlimi artıq ciddi elmi-konseptual şəkil almış olur, «Azərbaycan» sözünə milli anlayış kimi ilk tərif bu qəzetin səhifələrində verilir və Azərbaycanı məhz milli bir ideya, məfkurə səviyyəsində xalqa və dünyaya dərk etdirmək milli məqsəd və vətəndaşlıq vəzifəsi kimi bədii ədəbiyyatımızda da irəli sürülür.

Ədəbiyyatda istiqlal məfkurəsi 1905 və 1917-ci illərin ilk inqilabı və Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü ərəfəsində daha da güclənir. Hətta üç rəngli bayraq da cəmiyyətdən, dövlətdən əvvəl poeziyanın simasında dalğalanmağa başlayır və milli ədəbiyyatda ilk poetik «Azərbaycannamə» elə bu vaxt yaranır.

Bədii amilin ideoloji fikrə, ictimai təraqqinin tarixinə ən güclü təsiri fenomeni baş verir və demək olar ki, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ziyalılığın təmsilçisi olan bir qurum kimi formalaşır. Onun rəhbərləri hamısı ali təhsilli, yüksək ixtisaslı elm, ədəbiyyat, mədəniyyət xadimləri, ziyalılar idilər və bir qismi bilavasitə bədii yaradıcılıqla da məşğul olurdu.

Bəziləri bir neçə dil bilirdi və Avropada, Şərqdə bir neçə universitet qurtarmışdı. Təsadüfi deyil ki, «Azərbaycan» düşüncəsi öz mənəvi-fəlsəfi miqyasını, əhatə hüdudlarının da çərçivəsini bu dövrdə artıq coğrafi yox... tarixi (!) məkanda dəyişir: vəhdətə və bütövlüyə qitələrlə qitələr arasında yox, daha çox epoxalarla epoxalar, köklərlə zirvələr, mənşə ilə, əcdadla, etnosla müasir dövr arasında nail olmağa çalışır. Yenidən (bu dəfə artıq yeni məzmunda və səviyyədə), daha çox Şərqlə, türklük və İslam dünyası ilə bağlılıqda özünü tanımaq, ifadə və təsdiq etmək yolu ilə gedir.

Xatırlatdığımız dörd ədəbi-tarixi mərhələdən birincisinin ən böyük siması, şübhəsiz, M.F.Axundzadədir.

M.F.Axundzadənin bədii və fəlsəfi əsərlərinin qəhrəmanları hələ də, indi də özündə tükənməz milli ideya gücünü, milli şüur enerjisini qoruyub saxlayır.

«Kəmalüddövlə məktubları»nda milli ədəbi-bədii fikrin bundan sonra xüsusilə sabitləşən və güclənən bir xüsusiyyəti də öz əksini tapır: ziyalının, yazıçı qələminin sosial-ictimai təraqqi tarixində, dövlətçilik düşüncəsində *ən yaxından iştirakı ənənəsi!*

«Təmsilat» və «Kəmalüddövlə...» ilə başlayan, öz növbəti böyük zirvəsinə C.Məmmədquluzadə və M.Ə.Sabirin yaradıcılığında çatan və indi də davam edən modern realist bədii inkişafın beşiyi başında, şübhəsiz, yenə də M.F.Axundzadə durur.

Azərbaycan xalqının milli «mən»lik və istiqlal şüurunun tarixində Mirzə Fətəli Axundzadə ayrıca bir

mərhələni təşkil edir. Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının, ümumiyyətlə, mənəvi mədəniyyətimizin bütün sahələrində «yeni dövrün» banisi olan Axundzadənin zəngin və çoxcəhətli yaradıcılığı lokal milli çərçivələri aşıb keçir, türk, islam xalqları miqyasında ümumşərq və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb edir.

XIX əsrin ortalarından başlayaraq Azərbaycanda milli ədəbi fikrin irəliyə doğru hərəkətini tam bir ideologiya, məfkurə sistemi, ideya-fəlsəfi cərəyan səviyyəsində məhz Axundzadənin adı ilə bağlı yeni bir təlim - Maarifçilik şərtləndirir. Azərbaycan maarifçiliyinin ideya məzmunu, metodları və təşəkkül tarixi belə bir tipoloji qanunauyğunluğu bir daha doğruldur ki, ümumiyyətlə maarifçilik həmişə və hər yerdə Milli intibahın, qövmi özünüdərkin, istisnasız bütün sahələrdə və çağdaş mənada etnik mentalitetin və realist milli ədəbiyyatın ən qəti təşəkkülü dövrünün ideoloji hadisəsi kimi yaranır, bütünlüklə xalqın tarixi, taleyi ilə bağlı məsələlər qaldırır və onları xalq, millət miqyasında da həll edir. Milli «mən» və milli ictimai şüur - maarifçiliklə milli spesifika ən çox bu iki vurğuda qərarlaşır və bariz görünə bilir. Millilik burada nəinki milli xarakterin, həm də formanın, üslubun və poetikanın məzmununda özünü göstərir. Yüksək dərəcədə milli və yüksək dərəcədə realist sənətə ədəbiyyat eyni vaxtda çevrilir.

Bütün Yaxın və Orta Şərqdə kütləvi bir hərəkat kimi maarifçiliyin nəinki ilk bədii və estetik sənədləri, həm də ideoloji əsasları M.F.Axundzadənin fəlsəfi irsi, altı komediyası və bir povestidir. Axundzadənin maarifçiliyinin ümumbəşəri və ümumşərq əhəmiyyəti yalnız onunla şərtlənmir ki, o, məhz klassik maarifçiliyin Vətəni ilə (Volter, Monteskye ənənələri ilə) səsləşir, həm də onunla şərtlənir ki, o özü Şərq üçün klassik

nümunələr (Şərq modelləri) verir. Maarifçiliyin Avropa təcrübəsindən, xüsusən, onun ən radikal-inqilabi cəhətlərindən faydalanan Şərq xalqları məhz yeni ictimai mühitin (milli azadlıq uğrunda mübarizələrin) həmin hərəkat qarşısında irəli sürdüyü yeni tarixi vəzifələrə cavab verməklə onu daha da zəngin-ləşdirirlər.

Azərbaycan maarifçiliyi A.Bakıxanovun simasında maarifçi mütləqiyyət ideyası ilə meydana atılır və çox az bir müddət ərzində xalq üsyanı yolu ilə respublikaçı dövlət quruluşunu qəbul və elan edən Axundzadə inqilabiliyinə və demokratizminə qədər tarixi inkişaf yolunu keçirir.

Azərbaycan maarifçiliyində də elmi, maarifi yaymaq, şəxsiyyət azadlığının təbliği, mövhumat, despotizmə qarşı mübarizə məsələləri qabarıq şəkildə özünü göstərir. Azərbaycan maarifçiləri də belə ümid edirdilər ki, maddi həyat tərzinin yaxşılaşmasının əsas vasitəsi xalq kütlələrinin elmə, maarifə yiyələnməsidir. Elm, maariflə silahlanma yolu ilə ictimai bəlalardan, o cümlədən mədəni gerilikdən xilas olmaq olar. Əgər dövlət başçıları müdrik maarifpərvər adamlar olsalar, insan zəkası hər şeydə meyar olsa, ümumi rifaha qovuşmaq olar.

Ümumiyyətlə, Avropada, Rusiyada, Şərqdə və eləcə də Azərbaycanda maarifçilik geniş xalq kütlələrində milli-inqilabi və etnik passionarlıq enerjisini hərəkətə gətirmək, ağla əsaslanan ideal cəmiyyət yaratmaq məqsədini güdürdü. İstər M.F.Axundzadə, istərsə də onun maarifçilik və realizm ənənələrini davam etdirənlər - H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyov, Z.Marağalı, Ə.Talıbov, F.Köçərli, İ.Musabəyov, S.M.Qənizadə, R.Əfəndiyev, erkən Cabbarlı... məktəbin, mətbuatın, elmin və maarifin, kənd təsərrüfatının, sənaye və ticarətin müasir mədəni əsaslarda yenidən təşkilini və inkişafını xalqın ictimai və inqilabi tərəqqisinin əsas şərti və zəmini hesab edirdilər.

XVIII əsrin sonlarından meydana çıxaraq, XX əsrin əvvəllərində öz tarixi-ədəbi missiyasını başa çatdıran bu hərəkat Azərbaycanda əsr yarıma qədər böyük bir dövrlə üç tarixi inkişaf mərhələsindən keçir. Erkən milli maarifçilik (XIX əsrin ilk yarısı) orta əsrlərdən yeni dövrə keçidi hazırlayır. Özünün ilk klassik kamala çatma dövründə (1850-60-cı illər) o, feodalizmə erkən burjuaziyanın, ən geniş zəhmətkeş və demokratik təbəqələrin etirazı kimi fəal inqilabi, realist, materialist və ateist məzmun daşıyır. Öz inqilabi ruhu ilə XVIII əsrdən (islahatçı Volter, Monteskye maarifçiliyindən), dotələb ateizmi ilə isə XIX əsrin əvvəlinin Avropa maarifçiliyindən fərqlənir. Əsas hərəkətverici inqilabi qüvvə, əxlaqi və ideoloji təsir hədəfi kimi zəhmətkeş, sadə xalq adamını seçməsi ilə artıq onların hər ikisindən ayrılıb rus inqilabi maarifçiliyi ilə (Radişşev və Çernışevski) birləşir.

Tarixi inkişafının üçüncü mərhələsində (1900-1920) Azərbaycan maarifçiliyi həm maarifçi realizm, həm də maarifçi romantizm şəklində (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq...) qeyri-ənənəvi tipologiya kəsb edir, inqilabi hərəkatın, sosial demokratiyanın fəal təsiri şəraitində inkişaf edir və ən mütərəqqi qanadının simasında həm feodalizmin qalıqlarına, həm də burjuaziyanın qeyri-demokratik yeniliklərinə ictimai etirazı əks etdirən təlim kimi yeni xüsusiyyətlər kəsb edir.

Milli ədəbiyyatın taleyinə və tarixinə təsir baxımından məhz belə bir maarifçi kimi XIX əsrdə Axundzadənin gördüyü işin hüdudlarını XII əsrdə Nizami, XVI əsrdə Füzuli dühasının miqyasları ilə müqayisə etmək olar. Lakin tarixi inkişafın yeni mərhələsinə uyğun olaraq Axundzadə doğma ədəbiyyatın qarşısında duran vəzifələrə böyük bəşəri vüsətlə yanaşı, daha fərdi və milli bir konkretlik də gətirir. M.F.Axundzadədən bir

qədər əvvəl Avropanın başqa bir qütbündə yaşayan digər böyük maarifçi, mütəfəkkir və sənətkar - Fridrix Şiller tarixi bir intizar və narahatlıqla yazmışdı: «Əgər milli teatra qədər yaşasaydıq, onda biz millət olardıq», Axundzadə, sözün məhz müasir, professional mənasında milli teatra qədər yaşayır, milli teatrı və milləti yaradan sənətkarlar sırasına daxil olur!..

XIX əsrin ortalarında Azərbaycanda hələ inkişaf etmiş milli mətbuat yox idi - Axundzadə öz dövrünün «Molla Nəsrəddin»i, «Kəmalüddövlə məktubları» olur. Sonralar Zərdabi və Mirzə Cəlil məhz bu məktublardan doğulur, məhz «Əkinçi» və «Poçt qutusu» bu məktubları evbəev, mənzilbəmənzil «müsəlman qardaşlara» - novruzəlilərə çatdırır.

XIX əsrin müstəmləkə Azərbaycanında hələ sosial ədaləti və milli mənafeyi təmsil edən ayrıca ictimai təşkilat, ziyalı, fəhlə, kəndli cəmiyyəti də yox idi - Axundzadə dövrünün «demokrat firqəsi» və «Hümmət» təşkilatı da Axundzadə özü, onun epistolyar və fəlsəfi irsi olur. Sonralar M.Ə.Rəsulzadə və N.Nərimanov məhz bu irsdən doğulur.

Axundzadənin əsərlərini yaxından tanıdığı və adını ehtiramla çəkdiyi Lomonosov haqqında Puşkin demişdir: «Lomonosov böyük adam olub. Birinci universiteti o yaradıb. Daha doğrusu, o, özü bizim birinci universitetimiz olub». Axundzadə isə o dövrün nəinki universiteti, həm də teatrı və akademiyası, milli ensiklopediyası, ədəbiyyat və fəlsəfə institutu olub. Sonralar bizim materialist elmi, fəlsəfi, estetik fikir, hamısı «Təmsilat»dan və «Kəmalüddövlə»dən doğulur.

Milli dilə, ümumxalq ədəbi dilinin formalaşmasına xidmətdə də Nəsimidən və Xətayidən, Füzulidən və Vaqifdən sonra ən böyük işi Axundzadə görür. Nəinki radikal-inqilabi və azadxah-demokratik ideyaları, hətta «inqilab», «parlaman» sözlərinin özünü də bizim ədəbi fikrə Axundzadə gətirir.

Mirzə Fətəli Azərbaycanda ədəbi-bədii fikrə ardıcıl realist istiqamət verir və bu istiqamət müasir mənəvi mədəniyyətimizin də bütün sahələrdə bilavasitə zəmini, ən yaxın ideya-bədii başlanğıcı olaraq qalır.

Bu, elə bir dövr idi ki, «həyatın bir tərəfi sökülür, dağılır, o biri tərəfi başqa, tam başqa və yeni bir biçimdə tikilirdi. Burada Mirzə Fətəli bir mühəndis kimi bu sökülən və tikilən binanın başı yanında durrmuş, amansız qələmi ilə bura sökülməlidir, bura isə belə tikilməlidir deyir» (C.Cabbarlı). Bu sözlərdə son iki əsrin milli ədəbi prosesində əksini tapan «Axundzadə işinin» məzmunu və qiyməti dəqiq ifadə edilib.

Təkcə vətəninin yox, Axundzadənin özünün taleyi və tərcümeyi-halı da təzadlı və paradokslu məqamlarla aşılanmışdır: bir tərəfdən, adi «praporşik» və polkovnik rütbələri arasında keçilən ömür yolu, digər tərəfdən isə sıravi ruhanilik arzusundan doğma xalq qarşısında və bütünlüklə Şərq miqyasında daşıdığı mənəvi məsuliyyətin, fərdi cavabdehliyin tarixi dərki yolu - hər ikisi, onun həyat və ömür yolunun iki qütbü, iki sahili kimi eyni vaxtda, paralel yaşanmışdır; yaxud, imperiya polkovnikinin epoletləri və çar məmurunun mundiri altında daşınan məğrur bir vicdan, ləkəsiz Prometey ürəyi - bu özü tragik təzad deyilmi? Son günə qədər çar dəftərxanasının divarları daxilində və bu sözün hərfi mənasında çar senzurasının gözü qarşısında, qulağı dibində keçən həyat... və dövrün sosial-mənəvi vicdanını, üsyan və inqilab fırtınasını öz düşüncə və ehtiraslarında əks etdirən məğrur və narahat ruh!.. Axı, M.F.Axundzadə yalnız Zaqafqaziya və Dağıstan üzrə yox, bütün Yaxın və Orta Şərq miqyasında çar siyasətinin hazırlandığı və həyata keçirildiyi Qafqaz canişinliyinin lap göbəyində idi. Xarici dövlətlərlə, Şeyx Şamillə və üsyançı dağlılarla yazışmalar, müxtəlif xahişlər, arayışlar,

müqavilələr, bir sözlə, departamentə daxil olan hər şey onun əlindən gəlib keçirdi və dövrün mütərəqqi görüşləri səviyyəsində duran bir ziyalı kimi onun daxili narahatlıq və düşüncələr aləminə daxil olurdu. Avropada başlayan inqilabların əks-səsası da, Zaqafqaziyada boğdurulan uğursuz üsyan və qiyamlar üçün ürək ağrısı və iztirablar da, dekabristlər, petraşevskiçilər və rus xalqçılarının əməli və taleyi barədə düşüncələr də, amansız generalların - Sisianov, Yermolov, Paskeviç və Vorontsovun cəza ekspedisiyaları, Asiyada da, Avropada da milli-ictimai azadlıq hərəkatının hər hansı təzahürünə qarşı çevrilən qəzəbi - bütün bunlar hamısı onun həyatına və mənəvi fəaliyyətinə təsirsiz qalmır, ondakı daxili oyanmanı, şüur intibahını yaxınlaşdırır. Mübarizəyə səsləmək və qəflətdən oyatmaq! – Çaadayevin, Gertsenin, Oqaryovun çağırışları gənc Fətəlinin qulağında artıq tarixi labüdlüyü - despotizmin süqutunun başladığını xəbər verən zəng cingiltiləri kimi bir daha heç zaman susmur. Şərqin, Avropanın və Rusiyanın ən qabaqcıl məslək adamları ilə ideya-mənəvi ünsiyyətin təsiri ilə Fətəlidə daxili özünüdərk aktı və milli-ictimai şüur intibahı getdikcə daha da qüvvətlənir. Belə bir tarixi həqiqətə o, artıq dərindən inanır ki, rus çarının öhdəsindən fransız və ingilis yox, alman kayzeri, fars padşahı, türk sultanı yox, Rusiyanın özü gələcəkdir, alçaldılan və təhqir olunan bütün Rusiya xalqlarının özü gələcəkdir.

Axundzadənin timsalı bir daha təsdiq edir ki, istedad nə qədər böyük olursa, sənətkar taleyində xalqın taleyi bir o qədər bütöv əks olunur. Şahın və çarın iradəsi ilə Araz keçilməz sərhədə çevriləndə onun 16 yaşı vardı. Araz uşaqlığın da dünyasını iki sahilə bölür: ata bir, ana digər sahildə qalır. Sonralar o, ilk gənclik xatirələrinin də hər parçasını bir sahildən yığır: Təbrizdən və Tiflisdən, Gəncədən və Qaradağdan...

Vətənin yox, ömrün iki sahili arasında daha bir sərhəd: Gəncədə o, Mirzə Şəfi ilə rastlaşır, Mirzə Şəfi keçilməz bir Araz kimi Fətəlinin gələcəyi ilə keçmiş arasında durur. Bu, milli ədəbiyyata elə bir xidmət idi ki, onu artıq heç kəs, hətta F.Bodenştedt də Vazehin əlindən ala bilməzdi! O, gələcək Səbuhiyə kalliqrafiya və həqiqət elmini öyrədən ilk müəllim olur.

Daha sonra Fətəlini əlində «Şərq poeması» Puşkinin poeziya nəhrinə qovuşan başqa bir sahildə görürük. 25 yaşlı gənc Səbuhi 23 yaşlı Lermontovla birlikdə şairin ölümünə ittiham himnini oxuyur. Poema yalnız müsibətnamə, yalnız böyük şairə məhəbbət andı deyildi, həm də tragik sənətkar taleyini könüllü qəbula mənəvi hazırlığın poetik etirafı idi. Və çox simvolik idi ki, Axundzadənin sənət və mübarizə yolu, yazıçı tərcümeyi-halı milli fədakarlığa könüllü hazırlıq etirafı ilə başlayırdı.

Milli və sosial istiqlal ideyasını, aşkar antimüstəmləkə və antifeodal ruhunu Axundzadənin həm fəlsəfi, həm də bədii əsərləri eyni bir qüvvətlə ifadə edir. Molla Səlman, Hacı Zaman, Hacı Kərim, Molla İbrahim Xəlil, dərviş Məstəli şah, Hatəmxan ağa, Xan, Vəzir, Şah Abbas, Sərdar Zaman - bunlar hamısı köhnə mühitin imzaları, möhrü və titullarıdır. Və hamısı da artıq yeni bir yol ayrıcına çatan tarixin məhv olan, keçmişə çevrilən sahilində dayanmışdır. Həm «Təmsilat»ın, həm də «Kəmalüddövlə məktubları»nın vahid pafosu ilə ifadə olunan eyni bir ittihamın hədəfləridirlər.

Bütün «Təmsilat»da hələ qadın da milli-mədəni və sosial-tarixi inkişafda tragik mərhələdən əvvəlki dövrün nümayəndəsidir, qadınlarla bağlı sevgi süjetində hələ heç bir sosial çıxılmazlıq; ədalət və hüquq problemi, faciə toxumu yoxdur. Sona, Səkinə, Şölə xanım, Şərəfnisə - hələ tale və varlıq barədə «inkisari-xəyalə» uğramır, onların öz həyat və taleyi ayrılıqda müstəqil mövzu

və mətləbdir, sosial mühiti, cəmiyyəti, ictimai gerçəkliyi ittiham və ifşa etməyin vasitəsi deyildir.

Ümumiyyətlə, hər cür bədbinlik, xalqın milli tarixinə və gələcəyinə inam baxımından qanadsızlıq və perspektivsizlik Axundzadə dünyabaxışına və estetikasına yaddır: naturalist süjeti, qeyri-nikbin milli finalı «Təmsilat» rədd edir. Onları dramdan qovmağı, o, hətta başqalarına, Mirzə ağaya da tövsiyə edir. Səciyyəvidir ki, süjetdə zahirən nəfs, hakimiyyət ehtirası, tamah və mənafe instinkti əsas yer tutur, amma konflikti həll edən - insanın ictimai, mənəvi, milli, şəxsi səadətə haqqı və hüququ barədə məlum maarifçi ideyadır. Burada hətta «tale» rolunda da Ağıl çıxış edir. Lənkəran xanını dənizdə qəza yox, maarifçi əxlaqın iradəsi və hökmü batırır. Və şübhəsiz, Parisi də əcinnələr, dərviş cadusu, Məstəli şahın bədduası yox, inqilabi maarifçiliyin qərarı və əqidəsi «dağıdır». Yaxud, Yusif Sərracı da ulduzların göydəki düzümü və sahmanı yox, «qəzvinlilər»in yerdəki fitnəsi və fəsadı (nadanlığı) məhv edir. Nəinki fələk və dövran, tale və gərdun insanı idarə etmirlər, əksinə, hətta qəzanı, göyləri və «kəvakib»i burada insanlar «aldadırlar». «Hər kəsin» öz əməli öz iczinə bais olur», özünün ağlı özünə iksir rolunu oynayır.

Milli ideallı maarifçi Axundzadə sənətdə həm milli-realist bədii formanın, həm də məzmununun əsas şərti və zəmini hesab edirdi. «Xalq idealı» xüsusən «Aldanmış kəvakib»də Mirzə Fətəlinin əsas qayəsinə çevrilir və o, əslində «aldanmış ulduzların» yox, aldanmış xalqın faciəsini qələmə alır. Ulduzların fəlakət və bəla gətirən yaxınlaşmasından tacü-təxti qorumaq üçün şah sarayının «əhli-mərifətləri», öz adətlərinə rəğmən, hətta göylərə və ulduzlara da badalaq gəlmək və xəlvətə salıb əsl, həqiqi şahın əvəzinə günahsız, «saxta şahı» onlara sırımaq istəyirlər. Və elə zənn edirlər ki, xalqa, öz-

özlərinə və bir-birlərinə kələk gəldikləri kimi ulduzları da hiylə və fitnə toruna sala biliblər. Qafillər, idraksızlar, qanadsız, kor yapalaqlar ulduzlara gülürlər. Əslində isə, onlar əlbəttə ki, ulduzları yox, özlərini aldadırlar. Çünki ulduzların müdrikliyi onlara tamam yad və yabançıdır. Elə buna görə də Axundzadənin də, onun ideal islahatçı qəhrəmanı Yusif Sərracın da işıqlı, ulduzlu müdrikliyi onlara bu qədər əcayib görünür. Axundzadəyə və Sərraca əcaib görünən fikir isə odur ki, doğrudanmı insanlara bəlanı ulduzlar gətirə bilər və doğrudanmı kimə-kimə, hətta onlara - ulduzlara da «kəf» gəlmək olar?!

«İdeal şah» mövzusu altmışıncı illərdə Axundzadə üçün ötülmüş mərhələ idi. Onu artıq «yaxşı şah» yox, «yaxşı xalq» mətləbi narahat edirdi, elə xalq ki, hər cəhətdən əlbir-dilbir olsun və «zalımın («pis şahın» - Y.Q.) atasına od vursun!» Çünki ədib belə əqidəyə qəlbən inanmışdı ki, əgər xalq oyanmasa, yaxşı şahla da «bu dünya başqa cür dəyişiklik tapmaz». Bütün «Kəmalüddövlə məktubları» ilə Axundzadə «yaxşı xalq» mətləbləri ilə məşğuldur. «Aldanmış kəvakib»də də əsas məsələ şahla yox, xalqla bağlıdır. Qafqazda, Dağıstanda və Rusiyada xalq üsyanlarının aləmi bürüdüyü bir vaxtda «yaxşı şah» ideyasını ədibin sosial azadlıq axtarışlarının zirvəsi hesab etmək nə gerçəkliyin, nə də povestin ifadə etdiyi tarixi və bidii həqiqətlərlə üst-üstə düşməzdi. Povestin sonunda yenidən «hər şey qərari-səbiq üzrə surət tapır» və Yusifin də səltənəti aliliyin əbədiyyətinə qarışan qeyri-adi bir anın ömrü kimi keçici və ötəri olur. Çünki o, hələ «bəsirət və kamal kəsb etməmiş» bir mühitdə islahatlar aparır. «İdeal maarifçi şahın» faciəsinin mahiyyətinin də əsasnda elə bu ideya durur: ideal şah ideyası süjetdə artıq həyata keçmiş, lakin əqlin hakimiyyətini həyata keçirmək üsulu kimi özünü doğrultmamışdır. «Kəvakib» - nasir Mirzə Fətəlinin şah əsəridir. Məsələ heç də onun «ilk nəsr əsəri yaradıb-yaratmamasında» deyil. Əgər Axundzadəyə qədərki dövrdə «Şikayətnamə», «Kitabi-Əsgəriyyə», «Rəşid bəy və Səadət xanım» kimi əsərlər indikindən qat-qat artıq olsaydı belə, yenə də məhz Axundzadə nəsrdə milli bədii intibahın. «yeni nəsrin banisi» kimi qiymətləndirilərdi. Çünki onların heç biri ədəbiyyatı orta əsrlərin sərhədindən kənara çıxaran nümunələr deyildir. Məhz Axundzadənin dramı və şeiri kimi, nəsri də ilk dəfə idi ki, tamamilə yeni tipli realist bədii dəyər və estetik keyfiyyət ifadə edirdi: orta əsrlərin və romantik estetikanın yox, maarifçiliyin və realist estetikanın məcrasında formalaşırdı.

«Aldanmış kəvakib», hər şeydən əvvəl, ondakı tarixiliyin məzmunu ilə bütün əvvəlki tarixi mövzulu bədii əsərlərdən fərqlənir. Axundzadə də, Nizami də İran tarixi ilə bağlı mənbədən süjet götürmüşlər. Lakin Bəhram Gur (Xosrov, İskəndər...) Nizamiyə, Şah Abbas isə Axundzadəyə tamam başqa-başqa məqsədlər üçün lazım olmuşdur. Ədəbiyyat, tarix, mif və utopiya arasında əlaqələr də bu iki nümunədə tamamilə müxtəlifdir.

Bəhram da, İskəndər də Nizami üçün hələ yalnız şəxsiyyətdir, fərddir, «hakim və şah obrazı»dır, Şah Abbas isə Axundzadə üçün Şərq despotizminin emblemi, hətta müqləqiyyətin də, tiranın da milli-etnik simvolu, obrazıdır. Birincidə «yaxşı» və «pis» şah, ikincidə «yaxşı» və «pis» cəmiyyət, ictimai quruluş qarşı-qarşıya qoyulur.

Nizamidə sosial tərəqqi ideyası fərd daxilində abstrakt mənəvi təkamülün mərhələləri, «Aldanmış kəvakib»də isə konkret sosial vəziyyətlərin bir-birini əvəz etməsi şəklində reallaşır. Birinci halda mühiti (filosoflar əhatəsi, «bərabər adamların» cəmiyyəti, Nüşabə ilə görüş səhnəsi), İskəndərə hikmət, müdriklik, ədalət dərsi verir, onu müdrikləşdirir və qəbul edir. İkinci

halda iki şah, iki sosial vəziyyət bir-biri ilə və mühitlə üz-üzə qoyulur; antitiranı «kor» kütlə qəbul və həzm edə bilmir, rədd və məhv etməyə isə hazırdır. Tarixilik də elə tiranla mühit arasında münasibətlərin bu yeni məzmunundadır. Burada təkcə utopiya yox, həm də utopiyaya kinayə var, mifə lətifə (anekdot) münasibəti, tarixi mənbəyə (İskəndər bəy Münşiyə və onun vulqar mədhiyyənaməsinə – «Dünyanı süsləndirən Şah Abbas tarixi»nə) parodiya var. Əlbəttə, despotun taleyini ulduzun mövqeyindən asılı edən süjet və bunu xəbər verən astronom obrazının həm Şərqdə, həm də Qərbdə bədii və folklor mənbələri də var. Lakin Axundzadənin həmin mənbələrə münasibəti də konkret maddi-tarixi çalar, aşkar maarifçi «kolorit» kəsb edir, hər şeydən əvvəl isə fərq, bu məlum bədii üsula, «estetik qəlibə» müraciət edərkən Axundzadənin güddüyü məqsəddədir.

Qəşəng yalan, ölü ideologiya, vulqar təzkirə, amorf məntiq, saxta mədhiyyə – Axundzadə bu azardan da süni qafiyə, səfeh məcaz və çeynənmiş rədif kimi birdəfəlik xilas olmaq istəyirdi. Komediyaları və «Aldanmış kəvakib» kimi, Axundzadənin «Kəmalüddövlə məktubları» da məhz bu məqsədə xidmət edir.

Epik-təsvir, nəql ünsürü, fabulada statiklik və açıq, birbaşa monoloq üsulu povestin poetikasını klassik maarifçi realizmin nəsrinə yaxınlaşdırır. Rezonerlik ünsürü povestin qəhrəmanını da maarifçi qəhrəman kimi şərtləndirir. Bu qəhrəman Axundzadənin maarifçi, ziyalı, azadxah obrazlar silsiləsində Hacı Nuru ilə başlayır, Yusif Sərracla yüksək zirvəyə ucalır. Axundzadədən sonrakı realist ədəbiyyatımızın ziyalı qəhrəmanları öz başlanğıcını Hacı Nuru ilə bərabər bir də Yusif Sərracdan və Kəmalüddövlədən («Kəmalüddövlə məktubları») alır. Böyük mütəfəkkir «Təmsilat»da ifadə və təbliğ etdiyi maarifçi ideyaları son iki əsərində davam və inkişaf etdirir. Axundzadədə milli ideya öz

ideya-məfkurə zirvələrinə bu əsərlərlə yüksəlir. Hər yerdə olduğu kimi, Azərbaycanda da milli maarifçi-realist və publisist nəsr Maarifçilik hərəkatının inkişafında xüsusilə böyük rol oynayır. Maarifçiliyin növbəti – ikinci tarixi mərhələsinə məxsus bir sıra yeni tendensiyalar öz başlanğıcını məhz bu iki əsərdən alır.

«Aldanmış kəvakib» - əslində aldanmış Sərracın hekayəsidir. Tragik süjet və maarifçi mətləb əsas qəhrəmanla bağlı mövqedə meydana çıxır. Məzmun, struktur, model və estetik funksiya xüsusiyyətləri baxımından Yusif Sərrac da Raxmetov («Nə etməli», Çernışevski) tipli surətlər silsiləsinə daxildir. «O zaman İranda, qaranlıq və pozuq mühitdə Yusif Sərraclar yetişə bilməzdi... O, Mirzənin idealizə etdiyi bir tipdir. Daha doğrusu, Mirzənin özüdür» (A.Şaiq).

Aşkar maarifçi-rasionalist xətt, həmçinin, süjetin bütün gedişini idarə edən bədii məntiqi şərtləndirir.

«Kimyagər»dəki «nuxulular» kimi «Kəvakib»dəki «saraylılar» da, «toplu», kütləvi obğrazlardır. Onların da hamısını eybəcərləşdirən maarif işığından və vətəndaşlıq şüurundan məhrum olmalarıdır. Hacı Nurunun iksiri «nuxululara», Yusif Sərracın iksiri isə «saraylılara» təsirsiz qalır. Hər iki əsərin əsasında müştərək ideya və analoji süjet durur. «Nuxululları» «saraylılar» əvəz etdiyi kimi, kimyagəri də münəccimbaşı əvəz edir. Lakin «Aldanmış kəvakib»də bədii ideya daha böyük ictimai vüsət alır: birincidə hadisə bir kəndin «sütunları» məclisində, ikincidə bütövlükdə dövləti «idarə edən» ağaların, dini və dünyəvi mütləqiyyətin «sütunları» cəmiyyətində davam edir.

Məhz bu mənada Mirzə Fətəlinin ilk və son əsəri onun bir-birinə ən çox «qohum» olan əsərləridir. Əsas mənfi qəhrəmanların «qohumluğunu» onun digər əsərlərində də izləmək olar: Nuxa «cəmaəti», Qəzvinin ali saray cəmiyyəti, Lənkəranın «ürəfası» və Təbrizin

«məhkəmə-hüquq» aləmi – hamısı cəhalət sərhədləri daxilindədir. Lakin bu sərhəddi pozmağa, görünməyən büllur çərçivədən, şəffaf divarlı zindandan kənara addımlamağa can atanlar əmələ gəlmişlər və onların işıqlı sabahına nikbin inam bu əsərlərin hamısına aid müştərək cəhətdir.

Bədii forma, xarakterlərin şərhi və səciyyələnməsi tərzi baxımından da hər iki əsərdə sənətkarlıq «qohumluğu» vardır: birincidə xoşbəxtlik iksirindən eyni dərəcədə uzaq olan və əslində iksiri yox, bir insan kimi öz «mən»lərini itirdikləri üçün yalançı kimyagərin «iksir» sınağında bütün daxili həqiqətləri (boşluqları) meydana çıxan «nuxululer»a şair Hacı Nuru klassik səciyyənamələr verir; ikincidə isə «kəvakib qorxusu» qarşısında hər kəsin öz müdrikliyini sınaması (meydana çıxarması) üçün yaranan təbii, psixoloji süjetin fonunda «saraylılar» özləri-özlərini xarakterizə edir.

Cahil saray əhlinə elə gəlir ki, hətta ulduzların da ayrı işi-peşəsi yoxdur, şahın həyatının qəsdinə durmaqdan başqa! Halbuki Yusif Sərrac onun taxtına da, həyatına da hər halda ulduzlardan daha real qorxu deməkdir. Buna baxmayaraq, vəzirlər hakimiyyəti ulduzlardan qorumaq üçün Sərraca verirlər. Beləliklə, ulduzları aldatdıqlarını güman edirlər. Və ulduzlara gülənlərə gülən Axundzadənin təsvirində işığa və ucalığa onların – həşəratın gülməsi ikiqat ikrah doğurur. Lakin həşərat bir şeyə doğrudan da nail olur: göylərin kəvakibini aldatmasa da, torpağın nurlu və işıqlı ulduzunu – Sərracı məhv edir və elə bilir ki, o, göylərin bəlasına məruz qaldı.

Bu mənada süjet kəvakibin yox, povestdəki həqiqi işıqlı ulduzun – Sərracın doğrudan da aldanması süjeti idi. Lakin aldanmış kəvakib, aldanmış Sərrac və aldanmış «xalq» süjetində ən tragik obraz heç də Sərrac deyil: öz işığını tanımayan, ona kor qalan avam kütlədir. Məhz buna görə də nə Mərrixin (Marsın) Əqrəb bürcünə yaxınlaşması, nə də Sərracın və «avam camaatın» bir-birinə yaxınlaşması şahın vücuduna sədəmə gətirə bilmir. «Bəsirət və elm hasil etməmiş» bir cəmiyyətdə nadanlar qəsd edib Yusif Sərracı taxtdan kənar edirlər. Fərdi maarifçi islahat tövrü ictimai islahat üsulu kimi özünü doğrultmur.

Beləliklə, Axundzadə povestin yalnız janrını ədəbi müasirliklə bağlamır, milli ideyanı, «xalqın taleyi» problemini də dünyanın müasir ictimai taleyi və tarixi problemləri ilə bağlayır. Povestin ideya novatorluğu ən çox bu nöqtədə idi.

Əsərin məhz belə bir vətəndaşlıq məzmunu, effektli bədii təsir gücü Azərbaycanda bədii düşüncənin, xüsusən azadlıq məfkurəsinin bütün gələcək taleyinə çox qüvvətli təsir göstərdi. «Amma peşiman olmuşam, kaş gəlməyəydim, kaş bu vilayətin əhlini ki, mənim ilə həmməzhəbdirlər, görməyəydim və onların əhvalatından xəbərdar olmuyaydım. Ciyərim kabab oldu» - bu sözləri «Aldanmış kəvakib» müəllifinin digər qəhrəmanı olan Kəmalüddövlə hələ ötən əsrin ortalarında deyir: «Gözümü açıb bu dünyanı qaranlıq görmüşəm» - bu sözlər isə Cəlil Məmmədquluzadənin qələminə məxsusdur. Tam bir əsr Azərbaycan nəsri bu iki hökmün iki sahilinin arası ilə hərəkət edib. Milli intibah və istiqlal üçün bədii-fəlsəfi iztirabın möhtəşəm mayası və şiddəti milli klassik bədii nəsrə məhz Mirzə Fətəlinin müqəddəs vəsiyyəti və ənənəsi kimi irs qalmışdır.

«Aldanmış kəvakib» povestində bədii şəkildə qaldırılan sosial problemlər daha ətraflı şərhini və konkret elmi-fəlsəfi təhlilini dramaturqun nəzəri-tənqidi və publisist əsərlərində tapır. Onlardan ən mühümü «Kəmalüddövlə məktubları»dır. O, hər cür dini, ruhani təsirdən azad bir elmi və materialist metodoloji əsasda, mövcud risalə və cəridə doqmalarına yad ruhda və

dildə, Şərq fəlsəfi fikri üçün qeyri-ənənəvi forma və üslubda yazılmış əsərdir. Feodalizmin və orta əsrin sxolast və normativ ideoloji təsisatlarına qarşı, hər şeydən əvvəl, öz realist janrı və üslubunun metodoloji novatorluğu ilə çevrilmişdir. Daha doğrusu, M.F.Axundzadə bu əsərlə milliyyətçi publisistikada sərbəst, buxovsuz elmi-fəlsəfi düşüncənin tərzində çağdaş üslubun əsasını qoymuşdur. İctimai tərəqqi, demokratik quruluş, milli bərabərlik və milli-mənəvi azadlıq, dini-idealist dünyagörüşünün tənqidi və materialist təfəkkürün təsdiq və təbliği... «Məktublar»ın müxtəsər problematikası belədir. Müəllif Şərqin siyasi, iqtisadi vıə dövlət geriliyinin ictimai və mənəvi-əxlaqi səbəblərini sübutlu-dəlilli bir şəkildə aşkara çıxarmaq yolu ilə hər bir şərqlini oyadıb düşündürmək vəzifəsini qarşıya qoyur.

Əsərin bütün ruhunu, fəlsəfi məğzini – xalq (kəndli!) inqilabı yolu ilə mövcud ictimai quruluşu kökündən dəyişmək ideyasını onun yeni, novator janr, poetika xüsusiyyətləri də qabarıq ifadə edir. «Kəmalüddövlə məktubları»nın janr müəyyənliyini aydınlaşdırmaq axtarışlarında onu «fəlsəfi traktat», «satirik pamflet» elan edənlər olmuşdur. Onu bədiilikdən ayırıb, tamam elmi-fəlsəfi janra yaxınlaşdırmaq və bu cür təhlil etmək ənənəsi daha geniş yayılmışdır. Onunla ən çox filosoflar məşğul olmuşlar. Lakin bu və ya digər mübahisələrə baxmayaraq, «Kəmalüddövlə məktubları»nın hələ mətbuat şəkli almamış mətbuat janrı – satirik pamflet olması şübhə doğurmamışdır.

Şübhəsiz, bu janrı bədiilikdən çox elmiliklə publisistikliyin vəhdəti xarakterizə edir. Bu əsərin bədii metodundan, bir sistem kimi, yaradıcılıq üslubu kimi realizmindən danışmaq mümkün deyildir. Lakin «Məktublar»ı bədiilik aləmindən, ədibin realizm estetikasından tam ayırmaq da onun həqiqi qiymətini axıra qədər üzə çıxarmaq məqsədinə kömək etmir.

Burada mövzu – xalis ictimai-siyasi, hadisə və obrazlar konkret ünvanlı, tendensiya – konseptual, açıq və publisist, təhlil üsulu-misallar və nümunələr gətirmək yolu ilə faktlar və sənədlər üzərində mühakimələr, düşüncələrdir. Lakin onların konkret icrası, publisist realizəsi prosesində bir yazıçı kimi Axundzadə sənətkarlığının, xüsusən satirasının bütün əsas əlamətləri meydana çıxır və iştirak edir.

Kütləviliyə və inandırıcılığa, ideya-siyasi kəskinliyə, təsir və nüfuz dərinliyinə o, məhz bədii arsenalın köməyi ilə nail olur. Satirik şərh və ezop üsulu, bədii kəskinləşdirmə və ümumiləşdirmə sənətkarlığı, tarixə müraciət və ekskurslar, ehkamların faktlarla yoxlanması, müqayisəli və tipoloji analogiyalar, Şərq və Qərb paralelləri və bütün bunların dramatik antiqütblər, antiteza və təzadlar şəklində ritmik təkrarı bütünlüklə kompozisiyanın struktur əlaməti səviyyəsində ümumiləşir. Müəllifin filosof, polemist və publisist sənətkarlığına dəlalət edir.

Povestdə elmi-fəlsəfi və dini-ruhani arqumentlər bədii strukturda da, formaca da təkbətək, üzbəüz mübahisə, dialoq modeli kəsb edərək baş-başa gəlir ki, nəticədə bunlardan ikincisinin mənasızlığı, əcaibliyi və cəfəngliyi eyni zamanda həm elmi, həm də satirik-publisist məntiqin köməyi ilə axıra qədər meydana çıxarıla bilir.

Qarşılıqlı təzad, qütb, dialoq modelini, biz yalnız povestin ümumi ruhunda, ayrı-ayrı bədii-publisist üsul və vasitələrdə yox, həm də onun tam halda quruluşunda, kompozisiyanın «Məktublar» sxemində görürük. Şübhəsiz, hər iki şahzadənin dili ilə danışan müəllif özüdür. Məhz dialoq və polemika formasının intensiv təsir effektindən maarifçi ideyaların təbliği xeyrinə istifadə etmək üçün müəllif öz «mən»ini ikiyə bölüb üzləşdirir. Və eyni zamanda da tam halda onlardan heç birinə çevrilmir. (Bu, artıq özü bədii forma deyilmi?) Bu formanın bədiiliyi və şərtiliyi əlamətlərindən biri də

odur ki, həqiqi dialoq, əsl antiteza burada Kəmalüddövlə ilə Cəlalüddövlə arasında deyildir: bütünlükdə Axundzadə ilə Şərqin real bugünü, yaxın keçmişi və sxolast orta əsrləri arasındadır! Şərq və dünya kontekstində düşünən ziyalı ilə xalis ortodoks islam müdərrisləri arasında, ümumiyyətlə, onların fəlsəfi, tarixi, dini-mənəvi missiyası arasındadır.

O da maraqlıdır ki, Şərqə iki nöqteyi-nəzər burada Şərqə iki müxtəlif mənəvi mədəniyyət aləminin (Avropanın və Şərqin) nümayəndəsinin gözü ilə salınmır. O, Şərqi Avropanın yox, (özündən əvvəlki və sonrakı bir sıra maarifçilər kimi) iki şərqlinin öz müşahidələri, məntiq və mühakimələri ilə tənqid edir. Çünki öz «Şərq idealını» Axundzadə Şərqdən kənarda axtarmır. Maarifçi və maarifsiz despotizmi, şərqli və qərbli despotlar təsnifini «Kəmalüddövlə» maarifçiliyi qəti rədd edir. Ümumiyyətlə, «Məktublar»da müsbət avropalı obrazı, demək olar ki, yoxdur. Mənfiyə gəldikdə isə Cəlalüddövlənin aşağıdakı sözləri ilə müəllif Avropaya tənqidi münasibətini aşkar bildirir: «Məgər sivilizasiyon tapan ingilis və qəvani tapan ingilis Hindustan əhli ilə despotdan yaxşı müamilə eləyir? Onlara nisbətən min mərtəbə genə despota rəhmət». Avropalaşmaq şəklində mənəviləşmək ideyası Axundzadə maarifçiliyini bu dövrdə tam xarakterizə etmir.

Cəlalüddövlənin cavab məktubu da bədii-publisist və aşkar şərti-satirik səciyyə daşıyır: guya opponentə cavab verir və Şərqin (İranın) əski qaydalarını müdafiə edir. Əslində isə mühakimələrinin gülünclüyü və əsassızlığı ilə onları təsdiqləyir və bir az da dərinləşdirir; qədim İran, Hind ayinlərinin, həmçinin, xristianlığın üzərində ibrətli müşahidələrini onlara əlavə edir və əslində dinlərin tənqidini bir qədər də tamamlamış olur. Cəlalüddövlənin cavab monoloqu, həmçinin, onun öz xarakterini, əxlaq və düşüncəsinin özünəməxsusluğunu

yaxşı açır və buradakı qənaətlər yalnız elmi və tarixi yox, həm də fərdi, psixoloji həqiqətlər kimi təsir bağışlaya bilir. «Aldanmış kəvakib»dəki effektli bədii təsir silahını – obrazlı müqayisə, epitet və özünüifşanı, ironik sual və satirik sarkazmı burada da hiss etmək çətin deyildir. Cəlalüddövlə Şah Abbasın saray «əhli-məclisi»ndəki o «əhli-ariflərdən» biri kimi danışır: «Özgələri ölənləri təzədən dirilən (və göyə uçan) etiqad edirlər. Aya, biz bir dirini ölmüyən və qaib olan etiqad etsək, göy kişnəyib, yerə zəlzələ edəcək?»

Cəlalüddövlə «Məktublar»ın əsas ideyası ilə möhkəm bağlı surətdir: axı hadisələr onun vətənində cərəyan edir. (Maraqlıdır ki, sonrakı «səyahətnamələrdə» məhz Cəlalüddövlə əsas qəhrəmana çevrilir və özü öz vətəninə səyahətə çıxır). Bu məktublar da yalnız Cəlalüddövləyə yox, hər bir oxucuya (İranlıya, şərqliyə) yazılmış məktublardır. Kəmalüddövlə daha çox Axundzadə özüdürsə, Cəlalüddövlə həm də oxucunun timsalı və surətidir. Əslində, obyektiv olaraq elə o da Kəmalüddövlə ilə eyni işi görür: onun cavab gətirdiyi dəlillərdən «mövcud halında» «din yaxşı şeydir» yox, «heç yəhudi dini də bir şey deyil» nəticəsi çıxır. Eyni sözləri «Şahnamə»də söylənən beytlərə onun verdiyi təfsir haqqında da demək olar: Cəlalüddövlə Firdovsinin «iç üzünü» açmaqla, əslində onun daxili böyüklüyünü, mənəvi hünər və cəsarətini üzə çıxarmış olur. Buradakı inkar da məhz «bədii inkardır», tənqid edə-edə təsdiqləmək üsuludur.

Yalnız əsər ətrafında mübahisə doğurmaq niyyəti ilə yox, həm də təbiiliyə və bədii reallığa nail olmaq üçün müəllif nəinki Cəlalüddövləni, hətta əsas müsbət qəhrəman Kəmalüddövləni özünəməxsus ziddiyyətləri, məhdudluq və səhvləri ilə birlikdə vermişdir.

Bütün utopik iqtisadi, sosial və hüquqi mədəniyyət proqramı ilə birlikdə Kəmalüddövlə özü də xalis realist

bir surətdir. Onda ənənəvi bir oyaq və ayıq Şərq düşüncəsi və müdrikliyi var. Həm də Avropa təfəkkürlü və məlumatlı bir ziyalıdır. Onun bütünlükdə Şərqin vaxtı keçmiş mənəvi təsisatlarına qarşı çevrilmiş radikal görüşləri təkcə yerli «tipik şəraitlə» yox, həm də rus və Avropa mühitinə, klassik Şərq mədəniyyət və elminə tanışlığı ilə şərtlənmişdir və buna görə də qeyri-təbii səslənmir.

İdrak və varlıq, bilik, ağıl və xürafat, həqiqət və iksir, o dünya və bu dünya, əbədiyyət və nisbilik, Zaman, Cahan, cəmiyyət, ədalət, istiqlal, azadlıq və hüquq, ölüm və həyat – əslində Kəmalüddövləni də bu Hamlet sualları və problemləri düşündürür. Böyük məzhəkənəvis faciə və dram əsəri yazmamış, lakin tragik və fəlsəfi qəhrəmanı bədii publisistikada – «Məktublar»da yaratmışdır.

Bu əbədi, mücərrəd əxlaq və ədalət həqiqətləri haqqında Kəmalüddövlə Faust kimi kabinetdə – təklikdə düşünmür, Hamlet kimi sarayda, daxili düşüncələrin səssizliyində tənha qalmır. Yox, o, Odissey kimi səyahətə çıxır. Səyyah Kəmalüddövlə Təbrizin «içi» və çölü ilə, gizli və açıq guşələri, hücrələri, hamamları, meyxanələri ilə hərəkət edir və öz səfərini İranın yaxın və uzaq keçmişinə, tarixinə aparan yollarda başa çatdırır. Onun narahat, ehtiraslı daxili aləmi, ədalət və həqiqət təşnəliyi, mübarizə, ifşa, üsyan stixiyası da yollarda rast gəldiyi konkret adamlar, hadisələr və həqiqətlərə münasibətində, onlarla açıq polemika və dialoqda meydana çıxır.

Povestin zahiri sxemindəki dialoq modelini bu yollarda Kəmalüddövlə ilə ona qarşı çevrilən hər hansı əks qütb, əks tərəf və cinah arasında görürük. Kəmalüddövlə bütün bu qütblərə qarşı vahid ideya cinahı, fəlsəfi «tərəfi-müqabil» təşkil edə bilir.

Xarakter, məntiq və ağıl nümayiş etdirməsi üçün dramatik meydanı qəhrəmana məhz polemika – dialoq

təmin edir. Adi tarixi məlumat və bioqrafik epizod da bu zaman əks ideya mövqeyinə doğru əqli-məntiqi zərbənin dəqiq hədəfi səviyyəsində kəskinləşir. Tənqid olunan xürafat bu kəskinliyi məqamında, ən çılpaq, ifrat məntiqi təzahür kəskinliyi ilə görünə bilər. Yalnız belə bir ifşadan – mülahizənin idealist, sxolast, doqmatik qoyuluşunun metodoloji mahiyyətinə enəndən, onu bütün cəfəngliyi, mənasızlığı və eybəcərliyi ilə göstərəndən sonra o, rəqibindən əl çəkir. Həm də bu ifşa konkret dəlillər, detallar, təfərrüatlar, bədii lövhələr, misallar, süjetlər və sənədlərlə icra olunur. Bütünlüklə «Məktublar» - faktların təfsiri səciyyəsi daşımır, bəlkə faktlarla söylənən monoloqlar təsiri bağışlayır.

Özü də bütün bu hallarda dramatizm və təzad formadan çox mahiyyətdədir: polemika, dialoq müəllifə hər yerdə və hər şeydən əvvəl zidd fikirlərin toqquşması, gərgin həddə qalxması və həlli forması kimi lazım olur.

Nəhayət, polemik təzadlar qəhrəmanın maraq və biliyinin əhatə və vüsətində də vardır: fransız fəlsəfəsi və ərəb mənbələri, Əla-Zikri-Hissəlam və Volter, Şərq orta əsrləri və Avropa yeni dövrü – Kəmalüddövlədə birləşən və yekparələşən vahidin zidd qütbləri bunlardır.

Eyni zamanda polemik forma «Məktublar»ın dilinə canlı danışıq, şifahi nitq, tribuna vurğusu və ədası aşılayır, onun kütləvilik və təsir gücünü artırır. Təsadüfi deyil ki, M.F.Axundzadə hətta məqalələrini də bəzən dialoq formasında yazır və bunu başqalarına da məsləhət görür.

Azadlıq stixiyasına, milli «mən» şüuruna qarşı çevrilmiş mövhumatın və sxolastikanın əməli, təsirli ifşası üçün Kəmalüddövlə bir qayda olaraq əvvəlcə sxolastik məntiqin özündən çıxış edir. Qədim, mistik risalələrdən ayrı-ayrı epizodlara verilən şərhlər, Kəmalüddövlənin təfsirləri realist parodiyalar təsiri bağışlayır. Lakin «Mirzə Fətəli-Füzuli» münasibətlərində təsbitini tapan

ədəbi-tarixi paradoks «Mirzə Fətəli-din» antitezasında öz təkrarını və tipologiyasını tapır.

Kəmalüddövlənin (M.F.Axundzadənin) ümumiyyətlə bütün dinlərə verdiyi qiymətdə ifrat məqamlara, məhdud-birtərəfli maarifçi-passajlara tarixi yanaşmalı, ona XVIII-XIX əsrlərin yaxın və orta Şərqinin siyasi-iqtisadi vəziyyəti, ictimai quruluş və dövlət geriliyi, Avropa və dünya imperializm sistemindən asılılığı, hər cür tərəqqi və yeniliyə, elmi-texniki müasirliyə qarşı səddə çevrilmiş mövhumatın və xürafatın kontekstində nəzər salmaq lazımdır. Nəzərə almaq lazımdır ki, obyektiv tarixi şəkildə meydana çıxan və bir şüur forması kimi mövcud olan hər hansı dinin Şərq və bəşər miqyasında tarixi roluna, bu rolun mahiyyətinə və müxtəlif mərhələlərinə elmi qiymət vermək maarifçi M.F.Axundzadənin qarşısında dayanan ideoloji-publisist vəzifələrin sırasına daxil olmamışdır. «Məktublar» bu və ya digər ictimai (dini) şüur formasının maarifçilik cəbhəsindən elmi təhlili yox, xürafatla maarifçilik məfkurəsi arasında yeni dövrdəki (məhz XIX əsrdəki!) üzbəüz, təkbətək ideya mübarizəsinin kəskinliyi ilə qüvvətli görünmüşdür. Müəllifin ən böyük məqsədi – məhz elmin, maarifin, mənəvi tərəqqinin qüvvətlənməsi yolunda ciddi maneə saydığı sxolastika və doqmatizmin, ehkamçılıq və fanatizmin, mövhumat və xürafatın nüfuzunu qırmaq olmuşdur.

Elmlə xürafat arasındakı bu mübarizədə M.F.Axundzadə də böyük avropalı maarifçi sənətkarların inqilabi ifratlarına güzəştə getmişdir. Və sonralar bu taktiki əyilərə, fəlsəfi günahlara da məhz Axundzadənin öz varisləri təshih vermişlər.

Azərbaycanda bədii tərəqqinin Axundzadə mərhələsində kəsb etdiyi yeni keyfiyyət milliliklə və onun geniş mənasında istiqlal ideyası ilə yanaşı, bir də həqiqi demokratizm idi. Mənəvi və «mali», milli və ictimai bərabərlik tələblərini Axundzadə dialektik vəhdətdə və

qarşılıqlı əlaqədə alır, azadlıq və hüquq, hakimiyyət və maarif problemini həm fərd, şəxsiyyət, həm də cəmiyyət və xalq miqyasında irəli sürürdü. Filosof kimi də, yazıçı kimi də Axundzadənin bütün bədii və fikri islahatları cəmiyyətin ictimai tərkibini vəhdətdə əhatə edirdi: «Elm və maarif bütün xalq arasında, aşağıdan tutmuş yuxarıya qədər, istisnasız olaraq hamının arasında yayılmalıdır: çoban da, əkinçi də, tacir də, əttar da nazirlərin əlində olan iqtidara malik olmalıdır». Yaxud: «Teatr padşahdan tutmuş ən aşağı təbəqələrə qədər hamının üzünə açıq olduğu üçün «o, drama üstünlük verirdi. Xüsusi qeyd edirdi ki, gərək elə yazasan ki, «xas və avamın xoşuna gəlsin».

İstisnasız olaraq həm bədii, həm də fəlsəfi əsərlərində qaldırdığı bütün problemləri Axundzadə milli istiqlal və intibah mövqeyindən, demokratik təbəqələrin sosial-milli mənafeyi baxımından həll edirdi. Böyük maarifçi Axundzadə feodal şüuruna və əxlaqına, demokratik hüquq və bərabərlik ideallarına münasibətdə həmişə millətçi və inqilabçı idi: «Sən ədəddə və itaətdə despotdan bəmələratib artıqsan. Sənə ancaq yekcəhətlik və yekdillik lazımdır ki, revolyusiya edib üsuliyyətdən nicat tapasan». Bütün milli və ictimai bəlaların kökünü də Axundzadə məhz xalqın əql və maarif işığına olan böyük ehtiyacında görürdü: «Millət nə üçün o qədər aciz olur ki, hər yerdən baş qavzayan it-qurd onun üstündə ağalıq eləsin?»

Xalqın milli tarixi və sosial taleyi probleminə Axundzadə fəlsəfi baxımdan, vüsətli, qlobal miqyasda nəzər salır, onu düşünülmüş, hərtərəfli, doktrinal bir fikir və fəaliyyət proqramı şəklində, özü də cəmiyyət, ölkə çərçivəsində irəli sürürdü.

Məhz bu böyük məqsədlər yolunda o, öz əməli islahatlarına mane olan hər şeyi görünməmiş cəsarətlə, ifrat inqilabi bir maksimalizmlə rədd edir: xürafatı,

mövhumatı kökündən silmək üçün, hətta, «Külli-ədyanı puç» elan edir. Füzulinin bir neçə əsrlik «tilsimi» və nüfuzu əleyhinə çıxır və yeni şeirin, dramın və nəsrin əsasını qoyur. Öz bədii və fəlsəfi düşüncələrində nəinki Azərbaycanı, bütünlükdə məhkum və məzlum Şərqi vəhdətdə götürür. Yalnız din yox, sxolastik dil, üslub ənənəsinə qarşı çıxır. Dante və Puşkin işini təkrar edərək, yeni dövrün ümummilli ədəbi dilini yaradır; nəhayət, yenə də ilk dəfə olaraq, əski ərəb əlifbası ənənəsinə qarşı çıxır və «Şərqdə inqilab» olan əlifba hərəkatının başında durur. Komediiyalarında hər bir problemi Azərbaycanın bir şəhərində həll edir: Təbrizdə və Şəkidə, Lənkəranda və Qarabağda. Fransa inqilabı haqqında xəbəri səhnədən öz xalqına nə qədər böyük təbiilik və ustalıqla çatdırır.

Getdikcə güclənən ənənəvi antiehkamçı ruh Mirzə Fətəlinin həm bədii, həm də fəlsəfi yaradıcılığının istisnasız, bütün mərhələlərini səciyyələndirir və onun yetmişinci illər publisistikasında aşkar inqilabi motivlər səviyyəsinə qalxır. Onun heç bir əsərini «mürəkkəblə inqilab» (F.Şiller) ehtiraslarından, arxaika və xürafat əleyhinə ən qəti, radikal, antiehkamçı mübarizənin kontekstindən kənarda təsəvvürə gətirmək olmaz.

Epoxanı dərk etmək, xalqa, millətə azadxah söz demək, dövrə mənəvi, əxlaqi və fəlsəfi dəyər kimi qiymət vermək – ədibin təkcə publisistikasının yox, ədəbi tənqidinin də əsas ideya-bədii meyarı və məqsədi budur. Klassik rus estetik fikrini məhz Rusiyanın taleyinə münasibətdə Tolstoyun ziddiyyətləri, Dostoyevskinin ideya böhranı, Qoqolun səhvləri narahat edib. Onun öz səhvi, öz ziddiyyəti də məhz bu böyük düşüncələrin özü ilə gətirdiyi narahatlıqdan yaranan səhvlər və ziddiyyətlər olub. Axundzadə estetikasının nailiyyətləri və ziddiyyətləri də, onun Füzuliyə, Sədiyə, Şah Abbasa, dünyəvi və dini-ruhani övliyalara münasibətindəki ayrı-

ayrı məqamlar da məhz belə səciyyə daşıyır, maarifçiliyin və inqilabi yenilikçiliyin öz axtarışları və öz məntiqi ilə şərtlənir.

Mirzə Fətəli Axundzadənin Şərqdə İntibah parıltıları və Avropa İntibahı haqqında fikirləri də onun dinə münasibətdə öhdəyə götürdüyü tarixi vəzifənin, milli missiyanın mahiyyətini (onun ifratlarını yox) axıra qədər anlaya bilməyə kömək göstərir. Ədib altıncı əsrin[1] görkəmli din islahatçısı Həsən ibn-Məhəmməd Büzürgü xatırlayaraq yazır: «Afərin sənə ey Əla-Zikri-Hissəlam ki, tarixi-hicrinin müddətində bir sənin kimi əqəl və həkim və zifəzl və sahibi-himmət, sahibi-əzm padşah milləti-islam arasında peyda olmadı ki, bu millətin sivilizasyonuna bais olaydı və bu milləti həmaqətdən, cəhalətdən və bədbəxtlikdən azad edəydi.

Əgər millət sənin mətalibini anlasaydı, indi təvaifi-ingilis və Yengi Dünya sənə xuşəqin hesab olurdular. Zira ki, sən elə bir əsrdə protestantizmi icad etdin ki, onlar hələ inkvizisyon divanlarının atəşgahlarında yandırılırdılar. Yəni onlar müddəti mədid səndən sonra sən icad edən protestantizmi anlayıb revolyusiya etdilər və protestantizm ixtiyar elədilər».

Beləliklə, Axundzadənin dinin inkarçısı yox, islahatçısı (!) rolunda rəhbər tutduğu qayə bu mövqedə ən ali məqamı, dominantı ifadə edən qayə və məqsəddir.

Axundzadənin Kəmalüddövləsi bu məqsədlə yalnız islamın yox, panteizmin də fəlsəfə və dünyagörüşü əsaslarına toxunur, maarifçi-materialist bir mövqedən onun təhlilini verir.

Axundzadənin işləyib-hazırladığı maarifçi-milli ideyanın tarixi rolunun regional hüdudlarından danışarkən maraqlı bir xüsusiyyət də diqqəti cəlb edir. Milli ideoloqun, dramaturq və mütəfəkkir Axundzadənin ən yaxın həmməslək müasirləri arasında da (Mirzə Ağa),

[1] Hicri

görkəmli xələf və davamçıları arasında da (Əbdürrəhim Talıbov, Zeynalabdin Marağayi, Şeyx Məhəmməd Xiyabani) Yaxın Şərqin – İran Azərbaycanının sənət və fikir xadimləri xüsusi yer tutur. «Əlifba islahatı» ideyasının da, «Təmsilat»ın da (Mirzə Ağanın pyesləri), «Kəmalüddövlə məktubları»nın da («Səyahətnameyi İbrahim bəy», «Səyahətnamə») təsirilə ilk ictimai və ədəbi fəaliyyət orada başlayıb. Maraqlıdır ki, Şimali Azərbaycanda özündən sonrakı yeni dövrə də Axundzadə ən çox özünün cənublu davamçılarının vasitəsilə təsir edib. Məlumdur ki, «Kəmalüddövlə məktubları» ilə C.Məmmədquluzadə tanış olmayıb. Bilavasitə «Kəmalüddövlə məktubları»nın ənənələri məcrasında yazılmış «Səyahətnameyi-İbrahimbəy»lə isə «Molla Nəsrəddin» jurnalının publisistikası arasında ideya-forma əlaqəsi heç bir şübhə doğurmur.[1] Çünki hələ M.F.Axundzadənin öz dövründə «Kəmalüddövlə...» Şərqdə, xüsusən, İranda çox yayılmışdı: «Tehranın arif adamları içərisində «Kəmalüddövlə» təsvirəgəlməz bir həyəcan yaratmışdır. Tehran ariflərinin hamısı onun surətini görmüşlər» (Axundov M.F. Əsərləri. III c., B.1955, s.191-192).

«Kəmalüddövlə» ilə ondan sonrakı «İran səyahətnamələri» arasında bədii forma-üslub bağlılığı da vardır. Əslində Kəmalüddövləyə cavab yalnız Cəlalüddövlənin məktubu deyil, bəlkə bütün sonrakı səyahətnamələrdir.

M.F.Axundzadənin iranlı varisləri «Kəmalüddövlə məktubları»nı yalnız ideyaca yox, sənətkarlıqca, hətta zaman və məkanca da davam etdirirlər. Kəmalüddövlə öz məktublarının üçünü də Təbrizdən Misirə – Cəlalüddövləyə yazmışdı. İndi isə Cəlalüddövlə özü İbrahim bəyin simasında («Səyahətnameyi- İbrahim bəy») Misirdən İrana, İsfahana, Rəştə, Təbrizə gəlir və hind şahzadəsinin yazdıqlarına vətənində şəxsən şahid olur. Məlikül-Mütəkəlliminin «İran səyyahının bir hindli ilə müsahibəsi»ndə is artıq hindli İrana yox, aranlı (İran şahzadəsi) Hindistana yola düşür və demək olar ki, Hind şahzadəsinin İranda gördükləri eyni şeyləri o da orada görür. Yaxud, Mirzə Əbdürrəhim Talıbovun «Məsalikul-Məhsin»ində iranlı Möhsün səyahəti artıq kənardan Tehrana doğru yox, lap mərkəzdən Tehrandan Daməvəndə doğru davam etdirir. Nəhayət, səfərin məkanca təkrarını, fəqət zamanca davamını, irəli aparılmasını Mirzəağaxan Kirmaninin «Se məktub» və «Səd xitabə»sində görürük.

Hamısı birlikdə bütün bu səfər yolları məhz Mirzə Fətəlinin, məhz maarifçi intibah ehtiraslarının hərəkət etdiyi ədəbi marşruta çevrilirlər.

Maraqlıdır ki, ədibin maarifçi ictimai idealı – Konstitusiyalı monarxiya quruluşu da ilk dəfə İranda həyata keçmiş, 1905-1911-ci illərin İran məşrutə inqilabı Konstitusiyalı şahlıq üsuli-idarəsinin təsisi ilə başa çatdırılmışdır.

M.F.Axundzadənin Şərqdəki sələfləri, müasirləri və xələfləri ilə əlaqələri haqqında xüsusi tədqiqatın müəllifinə görə «...Axundzadə yaradıcılığının təsiri yalnız İranla, həm də onun üç görkəmli siması ilə (Mirzə Məlküm xan, Mirzə Əbdürrəhim Talıbov, Zeynalabdin Marağayi – Y.Q.) məhdudlaşıb qalmamışdır. Türkiyə, ərəb ölkələri, Hindistan, Əfqanıstan və s.-də biz bu gözəl və müsbət ideyaların təsiri, davamı və inkişafının şahidi oluruq». Müəllif məhz bu baxımdan böyük maarifçinin Mirzə Yusif xan Müsəşarüddövlə, Cəlaləddin Mirzə, Mirzağa Təbrizi, Məhəmmədcəfər Qaracadağı, Manikçi Mimçi, Münif Əfəndi, Əliqulu Mirzə Etizaüssəltənə,

[1] Felyetonlarından bir neçəsində (məsələn, «Səyahət») C.Məmmədquluzadə «Səyahətnameyi-İbrahimbəy»dən geniş istifadə edir. «Həmşəri» felyetonunda isə («Molla Nəsrəddin», 19 yanvar, 1907, №3) o, oxucuları Mirzə Məlkum xanı oxumağa çağırır.)

Mirzəxan Kirmani, M.N.Məlikül-Mütəkəllimin ilə varisirs münasibətlərini konkret faktlar və sənədlər əsasında nəzərdən keçirir. Məhz bu faktlar və sənədlər bizi dərindən inandırır ki, «M.F.Axundzadə XIX əsrin ikinci yarısında İran maarifçilərinin məfkurəvi atası olmuş, onlarla birlikdə mütləqiyyət və cəhalət əleyhinə mübarizə etmiş, konstitusiyalı monarxiya ilə nəticələnən 1905-1911-ci illər İran məşrutə inqilabının ideoloji zəminini hazırlayanlardan olmuşdur» (H.Məmmədzadə. Mirzə Fətəli Axundov və Şərq. B., 1971, s.341).

Sonrakı dövrlərdə də Axundzadə Yaxın Şərqdə ən çox yayılmış milliyyətçi, çağdaş dünya, Avropa mənasında insan və insan hüququ dəyərləri ilə ən çox bağlı maarifçi, ədəbi xadim idi. Çünki Şərq (İran) Axundzadənin özünə təsir edən Avropa amillərindən nisbətən kənarda idi və onlar üçün Axundzadə Avropa təsir amillərini də ifa və icra edən mənbə idi. Digər tərəfdən, Axundzadədən sonrakı Şimali Azərbaycan daha sürətlə dəyişmiş, «Əkinçi»dən «Molla Nəsrəddin»ə yol həm də rus və Avropa inqilabi mətbuatının təsirindən keçib gəlmişdi.

Ömrünün son illərində M.F.Axundzadə milli və sosial ədalət ideyası uğrunda maarifçi mübarizənin yeni üsullarını və formalarını axtarır.

O, «Kəmalüddövlə»yə bağladığı ümidləri indi də Əlifbaya bağlayır və öz əlifba idealına «Kəmalüddövlə» səviyyəsində əhəmiyyət verirdi. Bədii yaradıcılıqdan «Kəmalüddövlə»yə və «Kəmalüddövlə»dən əlifba uğrunda mübarizəyə! – mədəni intibah uğrunda fərdi-maarifçi mübarizənin formalarını, onun Axundzadəyə məxsus sxemini belə ifadə etmək olar...

M.F.Axundzadənin «Kəmalüddövlə məktubları»na inamı və ümidi xüsusilə qüvvətli idi. Məhz poeziya, dram və nəsr sahəsində müəyyən hazırlıqdan sonra ömrünün son beş ilini ədib bədii publisistikaya həsr etmişdi. O, «Kəmalüddövlə məktubları»nı özü fars və rus dilinə çevirir. Onun əlyazma nüsxələrini bütün böyük islam paytaxtlarına, Asiya və Avropa şəhərlərinə yayır. Peterburq, Paris, London, Tehran, Təbriz, Bombey, İstanbul, Brüssel... - hələ çap olunmamış «Kəmalüddövlə məktubları»nın nüsxələrinin yayıldığı şəhərlərin tam olmayan siyahısı belədir. Bu məktublar «Şərqin oyanması» dövründən hələ çox-çox əvvəl Şərqin oyanması haqqında qeyri-adi dərəcədə çılğın bir ideya, ehtiraslı arzu və təşəbbüs idi, özündə hələ də hər bir şərqlini oyadan, həyəcana gətirən tükənməz bir mənəvi enerji qüvvəsini qoruyub saxlamışdır. Əsər o vaxta qədərki fəlsəfi-elmi nailiyyətləri özündə əks etdirir, realist və maarifçi fikrin Şərqdə çox böyük və təkrarsız bir nümunəsi kimi tarixi əhəmiyyət daşıyır. Kəmalüddövlə ilə bağlı böyük arzularını və onun ideya qiymətini hamıdan əvvəl və hamıdan yaxşı M.F.Axundzadənin özü vermişdir: «...Elə bir böyük siyasi və ya dini məsələ yoxdur ki, Kəmalüddövlə öz əsərində ona toxunmamış olsun... Mən sizi inandırıram ki, hal-hazırda, yəni fikirlərdə siyasi coşğunluq əmələ gəldiyi bir zamanda Türkiyədə, Hindistanda və Asiyanın hər yerində bu əsər... fanatizmi məhv etmək işində yüz min nəfərlik bir ordudan daha çox iş görə bilər».

Özü də «Kəmalüddövlə məktubları» yalnız dörd məktubdan ibarət deyil: Axundzadənin bütün publisistikası, bütün məktubları (faktlarla və sənədlərlə söylənən bu ehtiraslı monoloqlar) hər bir vətəndaşa, ziyalıya, şərqliyə, sonrakı nəslə yazılan narahatlıq məktublarıdır.

«Kəmalüddövlə məktubları» İranda, Türkiyədə, Əfqanıstanda, Ərəb ölkələrində mütərəqqi-siyasi fikirdə böyük əks-səda oyadır. Həmçinin, onun ədəbi-tənqidi əsərləri Azərbaycanda, Yaxın İslam Şərqində müasir tipli professional ədəbi tənqidin əsasını qoyur.

«Təmsilat»ın ən böyük əks-sədası isə Yaxın Şərqdə M.F.Axundzadənin dramn ənənəsinin yayılması olur. Yetmişinci illərin əvvəlindən başlayaraq İranda Mirzə ağa Təbrizinin bilavasitə «Təmsilat» təsirilə yazdığı dörd məzhəkəsi meydana çıxır: «Əşrəf xanın sərgüzəşti», «Zaman xanın Burucürdə hakimiyyəti», «Şahqulu Mirzənin Girmanşahda sərgüzəşti» və «Ağa Haşım Xalxalinin eşqbazlığı» (farsca).

Əsrin sonunda Cənubi Azərbaycanda yeni tipli (milliyyətçi və demokratik ruhlu) nəsr də Axundzadə ənənələri zəminində vüsət tapır (Əbdürrəhim Talıbov, «Kitab yüklü eşşək», 1888; «Səfineyi-Talibi, ya Kitabi-Əhməd», I-II cildlər, 1894-1895, III cild – «Məsail-ünhəyat», 1906; Zeynalabdin Marağayi, «İbrahim bəyin səyahətnaməsi», I cild, 1892, II-III cildlər, 1906-1909; «Xeyirxahların yolu», 1905-1906). Bu irimiqyaslı maarifçi romanlarda tərbiyəvi-pedaqoji (Ə.Talıbov) və səyahət formasında (Z.Marağayi) publisist-siyasi roman ənənəsi davam etdirilir. Əbdürrəhim Talıbov «Kitab yüklü eşşək» və «Talibinin gəmisi», Zeynalabdin Marağayi isə «İbrahim bəyin səyahətnaməsi» romanı ilə əsrin sonunda Cənubda nəsr prosesinə yekun vururlar.

«Talibinin gəmisi» romanı nəsrimizdə ilk maarifçi-pedaqoji roman janrında və kiçik yaşlı Əhmədlə onun atası arasındakı müsahibə şəklində qələmə alınmışdır, çağdaş əxlaqı və dünyagörüşünü dini-mistik sxolastikadan elmi-mədəni təkamül yoluna çıxarmaq ideyasını ifadə və təbliğ edir, məhz bu üsulda təhsil almış Əhmədin həmin istiqamətdə vətəndaşlıq və vətənpərvərlik fəaliyyətindən bəhs açır.

«İbrahimbəyin səyahətnaməsi» (Qahirə, 1897) romanı isə klassik maarifçi nəsrin fəlsəfi-publisist səyahətnamə janrında (Ş.Monteskye, A.Radişşev, M.F.Axundzadə üslubunda) qələmə alınmışdır, İran xalqlarını dini-feodal geriliyin məngənəsindən çıxmağa qoymayan siyasi, sosial, mədəni səbəblərin şərhinə və milli-sosial

intibaha gətirib çıxara biləcək islahatların təhlilinə həsr olunmuşdur. Hər üç romanda müştərək maarifçi ideal – tədris sisteminin, idarəçilik və dövlət quruluşunun, maarifçilik və vətəndaşlıq hüquqlarının o zamankı Avropa (İngiltərə!) nümunəsi idi. Şübhəsiz, hər üç romanın bütünlüklə realist İran nəsrinin tarixinə də dəxli var (romanlar fars dilində və o vaxtkı İran gerçəkliyinin materialında yazılmışdır). Ona görə də milli-ədəbi məkanda M.F.Axundzadə ənənəsinin davamı və inkişafı kimi meydana çıxan bu romanları həm də, haqlı olaraq, yeni İran (fars) ədəbiyyatının əvvəli, bünövrə daşları hesab edənlər haqlıdırlar.

«Kəmalüddövlə məktubları»nda ifadəsini tapmış istiqlalçı və milliyyətçi şüurun Şimalda (Quzeydə) Axundzadəyə ən yaxın ilk böyük davamçısı XIX yüz ildə Şimali Azərbaycanda poeziya sahəsində milli-maarifçi və satirik-realist istiqamətin ən böyük nümayəndəsi, şübhəsiz, Seyid Əzim Şirvanidir.

Əsrin sonlarında Axundzadə işini tədrisdə və mətbuatda, satirada və publisistikada, xüsusən maarifçi poeziyada davam etdirən ilk universal sima, hərtərəfli maarifçi şəxsiyyət kimi Seyid Əzimin istiqlal və intibah şüuru tarixində oynadığı ictimai-tarixi rolun məzmununda, həmçinin, şairin şəxsi tərcümeyi-halında Axundzadə ilə bilavasitə səsləşən, yeni məna kəsb edən konkret məqamlar da vardır.

Belə ki, hələ əsrin əvvəlində Mirzə Şəfi Vazeh xalqa bəlkə də ən böyük tarixi-ədəbi xidmətlərindən birini göstərir: ruhaniliyə hazırlaşan Axundzadəyə filosofluğun və vətəndaşlığın ünvanını nişan verir! Eyni xidməti əsrin sonunda Sabirə münasibətdə Seyid Əzim təkrar edir: ehkam və həqiqət, etiqad və elm qütblərini onun dəqiq, səhvsiz ayıra bilməsinə bir ustad və müəllim kimi vaxtında nail olur.

S.Əzimin Sabirin taleyindəki bu rolu onun bütünlükdə XIX əsr poeziyasındakı xidmətinin məzmunu üçün də çox simvolikdir. Bu poeziyanın tarixinə o, Füzulinin davamı, Sabirin əvvəli olan bir şair kimi daxil olur. Daha doğrusu, o, iki yol ayrıcında dayanır və məhz tarixi keçiddə dayananların fikir və mənəviyyatını şeirə gətirir. Bu elə bir mənəviyyat idi ki, həm həyatda, həm də sənətdə, həm milli-mədəni, həm də sosial-iqtisadi tərəqqidə yeni keyfiyyətə əsaslı keçidin təbii etdiyi bir məzmunda şərtlənmişdi. Şirvani bunu dövrünün və ayrılıqda şəxsi fəaliyyətinin əsas məzmunu kimi belə elan edir:

Özgə növ ilə dövr edir aləm.

Yaxud:

Gətirmək tazə üsluba gərəkdir köhnə dünyanı.
Gərək tazə üsul ilə açılsın bütün məktəblər!

Bütünlükdə Şirvani şeiri, Şirvani taleyi və tərcümeyi-halı məhz bu ehtiraslarla aşılanan vətəndaşlıq və sənətkarlıq amalının ifadəsidir.

Şirvaninin müasirləri və sələfləri ilə ünsiyyətini ifadə edən bir detalı da xatırlamaq yerinə düşərdi. Məlumdur ki, o, Şərqin bütün dini mərkəzlərini gəzir – Bağdaddan İsfahana və Qahirəyə qədər. Lakin ən müqəddəs ziyarət üçün türbə axtararkən doğma Gəncəni, Nizami məqbərəsini seçir. Nizamini o, bir də sevimli şagirdi Sabir ilk uğurlu şeirini oxuyanda xatırlayır və bu münasibətlə balaca Sabirə – şeirin sabahına ən mənalı töhfə axtararkən, yenə də baba və əcdad Nizamini – «Xəmsə»ni seçir.

Maraqlıdır ki, süst, ləng texniki tərəqqi mövzusunun özü Şirvani şeiri üçün səciyyəvi bir motivdir. Milli, dünyəvi, dini mövhumatdan, «köhnə»dən sürətlə təmizlənmək, yeniliyə qətiyyətlə, sıçrayışla yiyələnmək ideyası, texniki inkişaf və ona laqeydlik problemi onun xüsusən məktəb və maarif şeirlərində çox güclüdür.

Ümumiyyətlə, elmdə, təhsildə sxolastika və ətalət əleyhinə xalis maarifçi və demokratik etiraz, yeniliyə hər şeydən əvvəl təhsilin istiqamətində və tərzində, üslubunda nail olmaq axtarışları bir şair və müəllim kimi onun fəaliyyətinin əsas məzmununu təşkil edir.

Bir şair, pedaqoq və mütəfəkkir kimi Seyid Əzimin poeziyasında humanizm və beynəlmiləlçilik idealları daha müasir, yeni və miqyaslı məzmun alır:

Demə bu kafir, ol müsəlmandır,
Hər kimin elmi var, o, insandır...

Seyid Əzim Şirvani yaradıcılıqda da, əməli fəaliyyətdə də Rusiya ilə birləşdirmədən sonra doğulan və yetişən ilk milli ziyalı nəslin nümayəndəsidir və təzəcə formalaşan maarifçiliyin beşiyi başında duranlardandır. Böyük Avropa mədəniyyətinə, rus dilinə, Qərb poeziyasına bədii əsərləri Axundzadədən sonra Şirvani həsr etmişdir. Ədəbi təzkirə və tarixlər yaratmaq təşəbbüslərində də biz onu Avropaya böyük marağın beşiyi başında duranların cərgəsində görürük. O, klassik Şərq dahiləri ilə yanaşı, Puşkinə şeir və tədqiqatlar həsr edir, ibtidai məktəblər üçün məxsusi bir rus dili proqramı hazırlayır. Maraqlıdır ki, bir sıra tədqiqatçılar onu xalis «milli şair» adlandırmış və məhz bu baxımdan Puşkinlə müqayisə etmişlər.

Şirvanini milli tarixlə, milli mənşə və mühitlə bağlayan tellər xüsusilə güclü və zəngindir. Poeziyamızda çox şeylər Şirvani ilə başlayır və Şirvani ilə qurtarır. Doğrudur, bir sənətkar və ideoloq kimi Seyid Əzim mənəvi estafeti birbaşa Axundzadədən almamışdır. O, «Kəmalüddövlə»ni yox, ehkam və şəriət kitablarını oxuyaraq mənəvi həyata qədəm basmışdır. Lakin Seyid Əzim dövründə maarifçiliyin yalnız itirdiyi yox, qazandığı məqamlar da olmuşdur.

Bu, tarixi bir qanunauyğunluqdur ki, Axundzadə komediyalarında milli maarifçiliyin nikbin təsdiqi və işıqlı tərənnümü əsas yer tutur. Dramatik və tragik çalar kəsb edən milli asılılıq, kölәlik və nadanlığın bilavasitə sosial bəla kimi bədii fikrin daha əsas diqqət hədəfinə çevrilməsi isə Seyid Əzimin yaşayıb-yaratdığı dövrdən başlayır.

Nadanlar və nadanlıq anlayışı ilk dəfə məhz Şirvani satirasının aynasında durulur, məhz tragik tale və ictimai-sosial hadisə, proses kimi öz əlamətləri ilə görünməyə başlayır. Yalnız bundan, belə bir hazırlıqdan sonra Mirzə Cəlil nadanlığı «mənəvi ölülük» səviyyəsində ümumiləşdirir, bu sözü hətta öz məzhəkələrindən birinin sərlövhəsinə çıxarır.

Yaxud «Molla Nəsrəddin»in ilk nömrəsi C.Məmmədquluzadənin bu sözləri ilə başlayırdı: «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım». Xalqa müraciətlə deyilən bu böyük xitabın da ilk əlamətlərinə (əlbəttə, başqa çalarda və avazda) «Molla Nəsrəddin»dən əvvəl «Əkinçi»də, Mirzə Cəlildən əvvəl Seyid Əzimdə rast gəlirik: «Qafqaz əhlinə xitab», «Qafqaz müsəlmanlarına xitab». Əlbəttə, zahidə, arifə, zalimə, məzluma, ümumiyyətlə, fərdə xitab həmişə olub. Amma millətə xitab bu səviyyədə və şəkildə, bədii janr kimi bu dövrdə formalaşır.

Bir maraqlı cəhət də diqqəti cəlb edir: Seyid Əzimin satirasında hakim və avam, müctəhid və kütlə, ağa və rəiyyət çox vaxt bir yerdədir, sinfi yox, milli çərçivə daxilindədir və hər ikisi də müəyyən tənqidi münasibət hədəfidir. Bu ənənə də sonra daha geniş yayılır. Məhz «Xan və dehqan» şeiri ilə yaranmış bir zəmindən sonra, əlbəttə, yeni bir mərhələdə və yeni keyfiyyətdə «Xan və Novruzəli», «Bəy və əkinçi», «Sahibkar və fəhlə» silsiləsi poeziyada, nəsrdə, dramaturgiyada geniş vüsət tapır.

Əsrin sonlarına doğru Axundzadənin milli şüur və milliyyətçilik ənənələrində, maarifçiliyin bütünlüklə metodoloji mövqeyində dəyişikliklər baş verir.

Əsrin ortalarında milli-realist dramaturgiyanın və milli marifçi-fəlsəfi-estetik fikrin tarixində, ümumiyyətlə, Azərbaycanın ədəbi-mədəni həyatında üç mühüm hadisə baş verir: 1873-cü ilin martında H.Zərdabi və N.Vəzirovun rəhbərlik etdiyi ilk teatr truppasının ifasında göstərilən «Sərgüzəşti vəziri-xani Lənkəran» tamaşası ilə birinci dəfə olaraq realist milli-professional teatrın pərdəsi qaldırılır, 1875-ci ilin iyulunda H.Zərdabinin redaktorluğu ilə nəşr olunmuş «Əkinçi» (1875-1877) qəzetinin ilk nömrəsi ilə Azərbaycanda dövri demokratik mətbuatın ilk səhifəsi açılır, 1877-ci ildə yeni tipli ilk rus-müsəlman məktəbi (S.M.Qənizadə və M.Mahmudbəyov) yaranır. Realist ədəbiyyatın inkişafında yeni istiqamətlər və meyllər, janrlar və formalar özünü göstərməyə başlayır.

M.F.Axundzadənin komediyada və publisistikada ilk dəfə qaldırdığı eyni milli problemlərə maarifçi ədəbiyyat son dəfə Nəriman Nərimanovun dramaturgiyasında və nəsrində qayıdır. Lakin bu iki mərhələ arasındakı tarixi məsafə də (60-90-cı illərdə formalaşan ədəbiyyat da) bütövlükdə özündən əvvəlki dövrün davamıdır: əsası M.F.Axundzadə tərəfindən qoyulan marifçi təlimin və maarifçi janrların – dramın, povestin, həmçinin, digər satirik və didaktik şeir şəkillərinin kütləviləşməsi, sözün həqiqi mənasında təmayül, istiqamət, cərəyan vüsəti alması dövrüdür. Məhz bu zaman maarifçi realizm bir nəfərin («bir gülün!») yox, hamının, yazıçı kütlənin metodu olur. Dövrünün ədəbi üfüqlərində öz böyük, universal, fəqət tənha əzəməti ilə parlayan M.F.Axundzadənin zəngin ənənələri zəminində indi artıq hazırlıqlı, mütəşəkkil ədəbiyyat kadrları, ədəbi mühitlər, bədii cəhətlər və estetik sistemlər müəy-

yənləşməyə başlayır. İctimai-ədəbi fəaliyyətin müxtəlif sahələrində – dramaturgiya, nəsr, fəlsəfə, tənqid, publisistika, mühərrirlik və s. – M.F.Axundzadə işinin peşəkar davamçıları yetişir. Bütünlüklə mütərəqqi milli mətbuat və teatr, məktəb və pedaqoji fikir, tərcümə, tənqid və estetika ədəbi dirçəlişin – maarifçi-ideoloji və ideya-təşkilati işin fəal cəbbəxanasına çevrilir. H.Zərdabinin, S.Ə.Şirvaninin, N.Vəzirovun, Ə.Haqverdiyevin, C.Məmmədquluzadənin, N.Nərimanovun, S.S.Axundovun, R.Əfəndiyevin, H.Vəzirovun, F.Köçərlinin, S.M.Qənizadənin, M.T.Sidqinin, E.Sultanovun, Ə.Goraninin, S.Vəlibəyovun ədəbi, publisist, yaxud pedaqoji fəaliyyətinin müəyyən dövrü məhz bu illərə təsadüf edir.

Ədəbi hərəkata və bədii inkişafa məxsus təzadlı, dialektik mürəkkəbliyin tipoloji spektrini və onun yeni qütblərinin artıq yalnız yeni tipli maarifçi-realist təmayüllə hələ əsrin əvvəllərində də qəzəl, qəsidə, növhə, mərsiyə, sinəzən yazanların (Şəmsi, Ruhi, Raci, Qüdsi, Çakər..) dəyişməyən ənənəvi ədəbiyyatı arasında yox, həm də və daha artıq maarifçi-demokratik ədəbiyyatın öz daxili qolları və istiqamətləri arasında rəqabət təşkil edir. Yuxarıda adlarını sadaladığımız realist klassiklərlə yanaşı, Səid Ünsizadə, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev kimi təzə keyfiyyətli maarifçi-romantik mühərrir və publisistlərinin ilkin fəaliyyəti də məhz bu dövrə təsadüf edir.

Azərbaycanda milliyyətçi-maarifçi ədəbi hərəkatın bu ikinci dövrü öz kütləviliyi və ideya, janr, forma polifonizmi ilə yanaşı, üçüncü bir xüsusiyyəti ilə də əvvəlki mərhələdən fərqlənir: Axundzadə dövrünün milli maarifçiliyi daha çox nəzəri səciyyə daşıyırdısa, səksən-doxsanmcı illər maarifçiliyin canlı, əməli və intensiv təşkilati fəaliyyət dövrü idi. Köhnə həyat, məişət tərzi, fəlsəfə, əxlaq və mənəviyyatın nəzəri tənqidi, ideoloji dəfi sahəsində M.F.Axundzadənin

böyük ədəbi, fəlsəfi və publisist fəaliyyətindən sonra əsl, əməli bir mətbuat, məktəb və teatr hərəkatının da yetişməsi üçün obyektiv-tarixi şərait artıq gəlib çatır. İslahatçı ideoloqun və yazıçının ideyaları və nəzəri vəsiyyətləri indi bir-bir həyata keçməyə başlayır. Bunlardan ən böyüyü xalqı maarifləndirmək, «bəsirət sahibi etmək» ideyası idi: «Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır». Axundzadənin ardıcılları onu da doğru və vaxtında dərk edirlər ki, islahata lap başdan – patriarxal məişət əxlaqının, dini sxolastikanın yayıldığı və xalqı yoluxdurduğu əsas mərkəzdən – köhnə, orta əsr tipli mədrəsə-mollaxanadan başlamaq lazımdır. Mədrəsə və məktəbi – bu ən kütləvi mənəvi-əxlaqi tərbiyə, ideoloji təsir silahını ortodoks, mühafizəkar ruhaniliyin əlindən tamamilə almadan, onu geriliyin və mühafizəkarlığın əsas təşkilati orqanından dünyvi elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmədən istiqlalçı və maarifçi məqsədlərə nail olmaq qeyri-mümkün idi. Digər tərəfdən, «dünyəvi məktəb» problemi maarifçiliyin «avropalaşmaq» ideyası ilə də bilavasitə bağlı idi: köhnə mədrəsə yenə də üzünü yalnız bir qütbə, bir cinaha tutub fəaliyyət göstərirdi. Orientasiyanı məktəbdə də bütövləşdirmək və yeniləşdirmək lazım idi.

Əlbəttə, Şərq mədrəsə ənənəsi vaxtilə öz böyük tarixi rolunu oynamışdı. Qədim və orta əsrlərdə Şərqdə əl Fərabi, əl Biruni, ibn Sina, ibn Rüşt, Ə.Qəzali, Firdovsi, Nizami, Xəyyam, Sədi, Rumi, Nəvai, Füzuli kimi dahilər də məhz mədrəsələrin hücrələrindən elmin böyük dünyasına addımlaya bilmişdilər (xalis Şərq təhsili Axundzadənin özünün də sivilizasiyanı dərindən öyrənməsinə, dünyanı bütövlüklə qavramasına çox kömək etmişdi). Lakin məsələ onda idi ki, yeni dövrdə də qədim mədrəsə dəyişməz və sabit durur, XIX əsrdə də məktəb

orta əsrlərin «orqanı» olaraq qalırdı. Yad dildə ilahiyyat və şəriət dərsləri, tədrisdə və metodikada orta əsr qaydaları, fənlərin təlimində sxolastika və ibtidailik dözülməz bir arxaizm kimi getdikcə daha aydın dərk edilirdi. Aşkar idi ki, köhnə mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi – hərəkət və fəaliyyət orqanı ola bilməz. Odur ki, «Üsuli-cədid» hərəkatının qarşısında onu dəyişmək, yeni dövr məktəbinə çevirmək vəzifəsi dururdu. Həm tədrisin, həm də tərkibin demokratikləşməsini (məktəbin bütövlükdə millətin balalarının üzünə açılmasını), dünyəvi elmlərin, anadilli örnəklərin proqrama daxil edilməsini nəzərdə tutan məktəb islahatı uğrunda mübarizə çarizmin və yerli ruhani irticanın qatı müqaviməti şəraitində davam edir.

Xalqın tarixinə və mədəniyyətinə, onun istiqlal şüurunun taleyinə artan maraqla məktəb hərəkatının bağlılığı bir də onda idi ki, bu məktəblərdə milli dil, onun tarixi, qrammatikası və abidələri öyrnilməyə başlayır. Anadilli dərslik üçün bədii ədəbiyyata ehtiyac maarifçi uşaq nəsrinin, şeirinin və dramaturgiyasının sürətli yüksəlişinə stimul olur. Bu cari ehtiyaca mümkün qədər tez cavab vermək axtarışları isə maarifçi məktəb və mətbuat xadimlərinin diqqətini şifahi xalq ədəbiyyatına, həmçinin, maarifçi dünya (Avropa və rus) ədəbiyyatından təbdil və tərcümə işinə cəlb edir. Məhz bu dövrdə Azərbaycanda yeni tipli realist uşaq ədəbiyyatının əsası qoyulur (Ə.Gorani, R.Əfəndiyev), müasir pedaqoji prinsiplər əsasında ana dilli ilk dərslik yaradılır (A.Çernyayevski, A.Şaiq, daha sonralar S.M.Qənizadə, N.Nərimanov, C.Məmmədquluzadə), rus dilindən ən səciyyəvi bədii dərslik nümunələri (şeir və hekayələr) tərcümə olunur. Səhnə, mətbuat, dərslik – milli ədəbi şüuru inkişaf etdirən ən təsirli stimullar bunlar olur və maarifçi şair və nasirlərin yeni müəllim-yazıçı-mühərrir tipi xüsusilə geniş yayılır. Həmçinin,

milli folklora maraq güclənir, xalq ədəbiyyatı nümunələrinin kütləvi və nizamlı bir şəkildə toplanması işi də bu zamandan başlanır. Məhz maarifçilik təlimi ilə və maarifçi fəaliyyət üsulları ilə o illər ədəbiyyata qədəm basanların hamısı – N.Vəzirov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, N.Nərimanov... səhnə işi ilə mətbuatçılığı, müəllimliklə yazıçılığı, folklorçuluqla mütərcimliyi öz simasında birləşdirir.

Bu dövrün ədəbi prosesi üçün ən səciyyəvi, spesifik cəhət elə odur ki, məktəb və ədəbiyyat, pedaqoji və bədii fikir hələ heç zaman olmadığı qədər sıx, üzvi bir rabitədə, qarşılıqlı təsir və əlaqə prosesində inkişaf edir. «Avropasayağı məktəbi saxlamaq üçün Avropa ruhlu ədəbiyyat yaratmaq» («Kafkaz» qəzeti, 1882, №48) çağırışı bu dövrün ədəbi hərəkatı ilə maarif və məktəb arasındakı münasibətlərin məzmununu çox yaxşı ifadə edir. Teatrdan və mətbuatdan sonra indi də məktəb Maarifçiliyin üçüncü əsas ideya-əməli iş silahına çevrilir və milli tədris hərəkatı milli ədəbi və sosial inkişafa güclü təsir göstərməyə başlayır.

Əsrin sonu Azərbaycanda uşaq ədəbiyyatının yarandığı və sürətlə inkişaf etdiyi, bədii tərcümə işinin professionallıq və mütəşəkkillik baxımından kamala çatdığı illər olur (F.Köçərlinin, S.M.Qənizadənin, A.Şaiqin və başqalarının Krılovdan, Puşkindən, Lermontovdan, Tolstoydan tərcümələrini misal göstərmək olar). Beləliklə, Axundzadənin maarifçi intibah ideyaları maarif və məktəb hərəkatına ilham verdiyi kimi, sonradan bu hərəkat da öz növbəsində maarifçi milli şüurun inkişafı üçün yeni təkan olur.

Təbiidir ki, intibah dövrü mətbuatı da bu ümumi hərəkatdan kənarda qalmır. «Əkinçi» ilə onu əvəz etmiş «Ziya» («Ziyayi-Qafqaziyyə»), «Kəşkül» qəzetlərinin hətta adları arasındakı fərq də təsadüfi deyildi və onların məişətə və maarifə marağının nisbətini bu və

ya digər dərəcədə fərqləndirirdi. Belə ki, bilavasitə milli dil, mənşə, məişət, maarif və məktəb problemləri və müzakirələri (Bax: «Kəşkül», 1890, №115 və 118; «Kaspi», 1891, №93; «Kavkaz», 1892, №148; «Baku», 1902, №10 və s.) son iki qəzetin ideya-mövzu mündəricatı üçün xüsusilə səciyyəvi idi.

Yalnız məktəb və maarifin istiqaməti problemi yox, ümumiyyətlə, formalaşmaqda olan milli-ictimai şüurun mürəkkəb, ziddiyyətli qayğı və yol axtarışları, «milli intibah» düşüncələri publisist mətbuatda daha qabarıq ifadəsini tapırdı. Milli və dini mənsubiyyətin fərqi kimi çox mühüm ideoloji, mənəvi və əxlaqi amil maarifçi fikri xüsusilə ciddi düşündürür. «Zaqafqaziya müsəlmanları»mn adı, tarixi və milli taleyi barədə «Kəşkül»də, «Kaspi», «Kavkaz», «Baku» qəzetlərində aktual publisist çıxışlar bunun ifadəsi idi. 1876-cı ilə aid məqalələrinin birində «Əkinçi» yazırdı: «Bizim xalqın işlərinə baxanda bir əməli kamil görmək olmur ki, millət təəssübünü çəkən qardaşlar onunla fəxr etsin. Libasdan tutmuş bəzi yeməli şeylərəcən xarici dövlətdən gətirdirik. Pəs heç olar ki, bu yoxsulluğumuzdan danışanda onun səbəbi elmsiz qalmağımız olduğunu bəyan etməyək?» (14 aprel, 1976, №7, s.1).

M.F.Axundzadə, S.Ə.Şirvani, N.Vəzirov, Əhsənül-Qəvaid, Ə.Gorani, Ə.Heydəri, M.T.Əlizadə kimi dövrün ən qabaqcıl ictimai-ədəbi qüvvələrini başına toplayan «Əkinçi» öz səhifələrində qədim islam və Şərq dəyərlərini inadla dəstəkləməklə yanaşı, mədəniyyət və ədəbiyyatın, elmin, kənd təsərrüfatının, sənaye və texnikanın bütün sahələrində islahat ideyasını, müasir, modern bir dünyagörüşünü təbliğ edir və bunu bir proqram kimi də irəli sürürdü: «Bizim zəmanə dəyişilməyi tələb edir. O kəslər ki, həmişə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişilməyinə görə kökündən tərəqqi edib, irəli gedirlər» («Əkinçi», 22 iyul, 1875, №1).

Çağdaş sosial şüur, xəlqi dil, irsilik problemi, milli-demokratik dəyər və ənənələrə sadiqlik – «Əkinçi»nin sənət sahəsində proqramı isə belə idi. Dövrün məşhur «elmi-əbdan» (dünya, təbiət elmləri), yoxsa «elmi-ədyan» (sxolastik-dini elmlər) mübahisəsində, o, birmənalı və qəti olaraq «elmi əbdan»ı seçmişdi.

Düz üç il «Əkinçi»nin hər nömrəsini Zərdabi, demək olar ki, tək (mürəttibsiz, naşirsiz və korrektorsuz) çıxardı: «Ey bizə diqqət edənlər, bu qəzetin kəsrini görənlə gülməyin, gülmək yeri deyil. Siz ağlayın ki, bizim müsəlmanların bircə qəzeti də basdırmağa adamı yoxdur» («Əkinçi», 21 avqust, №3, 1875). Şərqdə ilk modern müsəlman qəzetinin, ilk türk milli mətbuatının əsası belə qoyuldu. Və erməni senzorunun donosuna uymuş rus qubernatorunun fitvası ilə son nömrəsi müsadirə olunan qəzetin fəaliyyəti dayandırıldı, redaktoru isə Bakıdan uzaqlaşdırıldı...

«Əkinçi»nin ideyaları öz davamını və inkişafını «Ziya» (1880-ci ilin dekabrından «Ziyayi-Qafqaziyyə», 1879-1884, redaktoru Səid Əfəndi Ünsizadə) və «Kəşkül» (redaktoru – Cəlal Ünsizadə, 1883-1891) kimi növbəti novator mətbuat orqanlarında tapır. Adların ifadə etdiyi simvolik çalar fərqi (məntiqi vurğunun əkindən və əkinçidən ziyaya və ziyalıya keçməsi) həmin qəzetlərin mövzu-ideya istiqamətində də özünü göstərirdi.

«Ziya» - bədii formada və məzmunda, əsasən «üsuli-cədid» yolunu müdafiə edir, həm S.Ə.Şirvani, S.Vəlibəyov, A.O.Çernyayevskinin müasir maarifçi görüşlər yayan ədəbi-publisist yazılarına, həm də «dini-islamın», «Qurani-Kərim»in müqəddəs ideyalarına, Bixud, Qumri, Fazil Dərbəndi kimi şeirdə «ata-baba yolunu» davam etdirən mərsiyə şairlərinə geniş yer ayırırdı. «Kəşkül» isə Avropa rus ədəbi ənənəsinə, milli-bədii müəyyənliyə, maarifçi-realist özəlliyə meylinin açıq-aşkar üstünlüyü ilə seçilirdi.

N.Vəzirov, S.Ə.Şirvani, F.Köçərli, S.M.Qənizadə, R.Əfəndiyev, K.Kəngərli kimi ziyalıların «Kəşkül»ə yaxından köməyinin nəticəsidir ki, İslam dini, ana dili və milli «mən» anlayışları ilə bağlı ilk izahat səciyyəli elmi yazılar o dövrdə ən çox bu qəzetin səhifələrində işıq üzü görmüş, bir istilah kimi «Ana dili», «Azərbaycan milləti» sözləri də ilk dəfə «Kəşkül»də elmi mətnə və başlığa çıxarılmışdı: «...öz millətini əbədi saxlamaq istəyənlər öz ana dillərini saxlamağa çalışmalıdırlar» və kim «öz ana dilindən başqa neçə dil bilmiş olursa, o qədər də qədrini artırar», lal yarımadam olduğu kimi, çox dil bilən də çox adam sayılmalıdır» (Bir şəxs. «Ana dilimiz». «Kəşkül», 1887, №51). Qəzetin 1890-cı il, yüz on beş nömrəli sayında «Azərbaycanlı» imzası ilə dərc olunan və «milli mnsubiyyət» anlayışını oxucuya başa salan məqaləsi də bu baxımdan xüsusilə səciyyəvi idi.

«Kəşkül»ün bağlanmasından ta «Şərqi-Rus»un (1903-1905) açılmasına qədərki on ildən artıq bir müddətdə milli ziyalıların əksəriyyəti qeyri-ana dilli (rus, tatar, fars, osmanlı türkcəsi) mətbuat orqanlarında çıxış etməyə məcbur oldular. M.Şahtaxtlı, Ə.Cavanşir, F.Köçərli, E.Sultanov, T.Bayraməlibəyov, S.Mehmandarov, N.Nərimanov, S.Ağamalıoğlu və Ə.Ağayevin «Kavkaz», «Новое обозрение» (Tiflis), «Kaspi» (Bakı), «Həblül-mətin» (Kəlküttə, «Əxtər» (İstanbul), «Ədəb», «Nasiri», «Sürəyya» (Təbriz, Tehran), xüsusən «Tərcüman» (Bağçasaray, türkcə və rusca) qəzetlərində çıxışlarını ayrıca qeyd etmək olar. Mərkəzi rus mətbuatında da («Современник», «Россия», «Отечественные записки», «Санкт-Петербургские ведомости»...) M.C.Topçubaşov, Mirzə Kazımbəy imzalarına tez-tez rast gəlmək olardı.

Dövrünün hərtərəfli hazırlığa malik, universal bilikli qabaqcıl ziyalısı olan, Tiflisdə, Leypsiqdə, Parisdə və

Peterburqda təhsil alan Məhəmmədağa Şahtaxtlının (1846-1931) Tiflisdə çıxardığı «Şərqi-Rus» «mollanəsrəddinçi»lərin (C.Məmmədquluzadə, Ömər Faiq, M.Ə.Sabir, R.Əfəndiyev, H.Zərdabi, A.Tofiq...) də «Molla Nəsrəddin»ə qədərki xitabət kürsüsü oldu. Dərginin əlifba, dil, mədəniyyət sahəsində milli intibah konsepsiyası hələ bu qəzetin səhifələrində yetişməyə başlamışdı. A.Səhhət («Ey könül»), M.Ə.Sabirin («Şükr lillah...»), hətta C.Məmmədquluzadənin özünün («Poçt qutusu», «Kişmiş oyunu») ilk mətbu əsərləri «Şərqi-Rus»da işıq üzü görmüşdü. Əgər gələcəkdə bütün tənqidi-realist nəsr «Poçt qutusu»ndan çıxdısa («Biz hamımız «Poçt qutusu»ndan çıxmışıq» - Mir Cəlal), «Poçt qutusu» da «Şərqi-Rus»dan çıxdı. Lakin bu son mətbuat orqanları da uzun müddət yaşaya bilmir. «Ziyayi-Qafqaziyyə»nin (1891), «Kəşkül»ün (1894) nəşrinin dayandırılmasından sonra əsrin 90-cı illərində qabaqcıl fikirli Azərbaycan ziyalılarından bir çoxu (C.Ünsizadə, Ə.Ağayev, K.Unsizadə, M.Şahtaxtlı, N.Nərimanov, S.Qənizadə, M.Mahmudbəyov) ayrı-ayrı vaxtlarda dövlət idarələrinə, senzura komitəsinə və başqa inzibati yerlərə rəsmi müraciət edib ana dilində qəzet, yaxud jurnal çıxarmağa icazə istəyirlərsə də, nail ola bilmirlər.

Beləliklə, mətbuat da bu dövrdə milli ideala xidmət istiqamətində məhz maarifçi məktəbin işini və rolunu müdafiə və davam etdirir.

Nəhayət, bu dövrdə mətbuatla yanaşı, teatrın da milli şüur təhsilində «məktəb rolu» və əhəmiyyəti ön plana keçir və maarifçilər məhz bu mövqedən çıxış edərək uğurlu teatr tamaşasını «məktəblərdə oxunan dərslərdən ziyadə və mütəəssir» (S. M. Qənizadə) hesab edirlər. Əsl teatr da «müalicəxanadır». Ona görə də «necə ki, uşaqlar məktəbdə gözəl şeylər əxz edirlər, elə də bizlər teatrdan gözəl sifətlər əxz edirik» (N. Nərimanov).

Məhz maarifçi Axundzadənin əsas janrı ilə - dramla sənətə qədəm basanların hamısı - N.Vəzirov, C.Məmmədquluzadə, S.M.Qənizadə, R.Əfəndiyev, N.Nərimanov, Ə. Haqverdiyev və b. Azərbaycanın bütün əsas şəhərlərini əhatə edən teatr hərəkatında dramaturq, rejissor, aktyor kimi hərtərəfli fəaliyyət göstərir, milli aktrisanın olmadığı bir şəraitdə, hətta qadın rollarında belə çıxış etməkdən çəkinmirlər.

Səksən-doxsanıncı illərin maarifçi ədəbiyyat və teatr xadimləri yalnız əvvəlki mərhələnin komediya ənənəsini davam etdirməklə kifayətlənmirlər. M.F.Axundzadənin səpdiyi digər nəzəri toxumlar» da göyərir: XIX əsrin sonu, XX əsrin əvvəllərivdə artıq ilk faciə (N.Vəzirov. «Müsibəti-Fəxrəddin» və Ə.Haqverdiyev «Dağılan tifaq»), ilk milli roman (N.Nərimanov. «Bahadır və Sona»), ilk realist povest (C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları»), publisist bədii nəsr nümunəsi (S.M.Qənizadə. «Məktubati -Şeyda bəy Şirvani»), tarixi roman (Ə.Gorani. «Qara il») meydana çıxır.

Beləliklə, bir «baniyi-kar» kimi M.F.Axundzadənin maarifçilik hərəkatı qarşısında irəli sürdüyü bütün perspektiv vəzifələr proqramı – «Gülüstan» və «Ziynətül-məcalis» janrlarının dram və romanla, köhnə sxolastik məktəbin «üsuli cədidlə», meydan və şəbeh teatrının professional səhnə ilə, mətbuat ideyasının real milli mətbuatla əvəz edilməsi, hamısı bu ikinci tarixi inkişaf mərhələsində həyata keçir. Bu fəaliyyət sahələrinin, istisnasız olaraq, hər birinin qiyməti və ləyaqəti isə onun xalq üçün, vətən üçün məktəb rolu və əhəmiyyəti ilə ölçülməyə başlayır.

Səksən-doxsanıncı illər əməli işdə, təcrübədə sübut edir ki, milli şüur və ictimai-mədəni fikir tariximizdə «Axundzadə möcüzəsi»nin bütün əlamətləri – formalaşmış professional teatr olmadan dramaturgiya, mətbuat

olmadan mətbuat nəzəriyyəsi, qərarlaşmış milli burjuaziya olmadan milli inqilab, intibah və demokratiya ideyaları bütün bunlar heç bir həyati əsası və real perspektivi olmayan qəribə paradokslar deyilmiş, ən yaxın tarixi gələcəyin bünövrəsini, təməl daşlarını vaxtında qoymaq nümunəsi demək imiş...

Maarifçiliyin «Gülüstan» və «Zinətül-məcalis» dövrü keçib» ideyası öz davamını nə əsl ədəbiyyatla, nə də əsl ruhani sivilizasiya ilə heç bir əlaqəsi olmayan vulqar, cahil epiqonçuluq, ifrat sxolastika, qafiyəli karikatura səviyyəsinə enən «gül-bülbül», «eşqbazlıq», «həçvguluq», «mədhiyyəguluq» əleyhinə nəzəri fikirdə başlanan fəal ideya mübarizəsinin (H. Zərdabi, F.Köçərli, R. Əfəndiyev, M. Şahtaxtlı, E. Sultanov) timsalında da tapmış olur. Həmçinin, yuxarıdakı tezisin ikinci hissəsi - «indi zamana müğayir və millət üçün gərəkli olan - roman və dramdır» hökmü də öz əməli icrasını tapır: bu illər Azərbaycan ədəbiyyatında ilk dram, faciə, roman, povest nümunələri də yarandı və əsrin sonuna doğru xüsusilə inkişaf etdi. Mətbuat, səyahətnamə, memuar, belletristika geniş yayıldı.

Ümumiyyətlə, yeni şüurla bağlı yeni məktəb, yeni teatr, yeni mətbuat uğrunda mübarizə bütünlükdə bədii fikrin - ədəbiyyatın özünün predmet və istiqamətini yeniləşdirmək məqsədi ilə bilavasitə bağlı idi və ona xidmət edirdi. Ona görə də yeni mərhələnin maarifçiləri bilavasitə ədəbi mübarizələrə ən vacib vəzifənin həlli ilə - milli simasız, nihilist epiqonçuluq əleyhinə hüçumla başladılar. Bu strateji mübarizənin hələ «Əkinçi» səhifələrindən başlayaraq (bax: «Əkinçi», N 7, aprel, 1876; N 24, 22 dekabr 1876; N 10, 12 may 1877; N 5, 15 mart 1878 və s.) ta Sabirin məşhur satirik şerinə və C. Məmmədquluzadənin «Şeir bülbülləri» hekayəsinə qədər davam etdiyini görürük:

Deyin ol şairə çox da çürütmə Qeysü, Fərhadı,
Onlar səhranişin olmuşdular eyni səfahətdən...

Min ildir eylədüz məxluqi ləğviyyat ilə məşğul,
Necə bu milləti-biçarə çıxsın ziri-töhmətdən?..

(M.S.Ordubadi)

Beləliklə, haqqında danışdığımız dövrü milli-ədəbi şüurda və nəzəri-fəlsəfi fikirdə universal Axundzadə fəaliyyətinin hərtərəfli davamı, həyata tətbiqi, kütləviləşməsi və cərəyanlaşması, bütünlükdə magistral ədəbi inkişafın əməldə, işdə «axundzadələşməsi» dövrü kimi xarakterizə etmək olar.

Bu dövrdə «Axundzadə işini» artıq ayrılıqda bu və ya digər tək adam yox, hamı cəm halda, bütün «kollektiv» bir yerdə görür.

Əlli-altmış və səksən-doxsanıncı illərin realist maarifçi ədəbiyyatının milli-sosial şüuru yalnız mərhələ yox, tip xüsusiyyətləri ilə də bir-birindən fərqlənir. Onları, hər şeydən əvvəl, klassik ənənəyə bağlılığın, həmçinin yeni tipli milliliyin və demokratizmin müxtəlif səviyyələri, milli nihilizmə, ədəbi mühafizəkarlığa və dini xürafata müxalifətin müxtəlif dərəcələri ayırır. Belə ki, «əməli hərəkat» dövrü yeni, konkret-əməli qayğılar da irəli sürür. «Yolumuz hayanadır?», «Nicat nədədir?» - sualına cəmiyyətin hər təbəqəsi bir cür cavab verir və «qanadlara ayrılma», ictimai-siyasi təsnif ideologiyadan əvvəl müxtəlif təbəqələrin (birinci növbədə mülkədarlığın) özüvdə əmələ gəlir: Nəcəf bəy, Rüstəm bəy, Hacı Səməd ağa və Fəxrəddin, Fərhad («Dağılan tifaq», «Müsibəti Fəxrəddin» əsərləri).

Maarifçiliyin birtərəfli, vahid və qəti «avropalaşmaq» çağırışı (bir qədər sonra o, artıq «türkləşmək, islamlaşmaq, avropalaşmaq» şəkli - tamlıq, bütövlük kəsb edəçək) da indi artıq sual-dilemma şəklini alır:

kimə hansı daha xeyirlidir - avropalaşmaq, yoxsa həyatda da, məişətdə də Şərq və orta əsr ənənələrini modernizə etmək? - «Bu dünya dəyişiklik tutmasa, bərabərlik olmaz», «...Olmaz ki, dünyada həmişə bir qayda ilə rəftar olsun. Bizim zəmanə dəyişilməyi tələb edir» - M.F.Axundzadənin və H.Zərdabinin «Əkinçi»dəki bu qənaətlərindən sonra indi «Ziya» qəzeti ehtiyaç hiss edir ki, yenidən «keçən günləri» - Şərq və islam orta əsrlərini yada salsın və açıq-aşkar yazır ki, «Bir belə qiyasdan ötrü mənim fikrim budur ki, öz millətimizin tarixinə, yəni, keçən günlərə qayıdaq» («Ziya» qəzeti, N 7, 1879).

Dinə münasibət də bu mərhələdə mürəkkəbləşir. M.F.Axundzadənin maarifçiliyi yalnız Ağlı tanıyırdı, onun mövqeyini və rolunu heç kimlə və heç nə ilə bölüşdürmürdü. Onun qəhrəmanlarından heç biri səhnədə dinə və Allaha müraciət etmir. Onda müsbət bəy, mülkədar, ziyalı, nökər surəti var, lakin ruhani surəti yoxdur. XIX yüzilin son rübünün maarifçiləri isə Ağılla yanaşı, həm də etiqadı qəbul edir, köməyə çağırır, dini fanatizmə qarşı mübarizədə əsl, həqiqi dinin özünün ən müqəddəs silahı – «Quran»la da silahlanırlar. Fəxrəddin, Fərhad və Bahadır kimi ən səciyyəvi, realist maarifçi qəhrəmanlar belə, kəlmə başı xudaya, islama müraciət edirlər. Həmçinin, daha sonrakı dövrün - XX yüzilin maarifçi ədəbi fikri də dini tərbiyəni ümumiyyətlə tərbiyənin tərkib hissəsi kimi etiraf və qəbul edir.

Azərbaycan maarifçiliyinin «dindarlaşması» da onun tarixində ruhani-əxlaqi intibah və konkret əməli hərəkat dövrünün əlamətlərindən biri idi. Əvvələn, bu, xürafatdan azad olan ali ilahi təlim idi, ikinci tərəfdən, mövcud şəraitdə avamlığın kütləvi şəkildə yayıldığı cəmiyyətə xalis maarifçi mətləblərin nəticəli, səmərəli təsiri üçün «dinlə tərbiyə» zəruri maarifçilik üsullarından biri idi. Məlumdur ki, Lessinq, Höte, hətta Russo, Volter (həmçinin, Radişşev) maarifçilikdə dini təlimə geniş yer vermişlər.

Dinlə silahlanmaq, xüsusən, orta əsrlərdə ortodoks dini ideologiyaya, mövhumata və xürafata qarşı çıxa bilməyin də optimal forması idi. Azərbaycanda XIX-XX yüzillərin şəraitində də belə formaya ehtiyac ona görə qalırdı ki, məişətdə və mənəvi həyatın ayrı-ayrı sahələrində «orta əsrlər» özü hələ qalırdı. Məhz bu baxımdan, dini «müasirləşdirmək», dində islahat ideyası və buna müəyyən hazırlığın məqsədyönlülüyü Axundzadədə də var: «Bir də müəllif istəmir ki, xalq ateist olsun, dinsiz və imansız olsun. Bəlkə müəllifin məqsədi islam dininin əsr və zəmanəyə müvafiq olaraq protestantizmə möhtaç olduğunu göstərməkdir» (M.F.Axundov. Əsərləri, II ç., Bakı, 1961, s. 151).

Cəlalüddövlə ilə xalis elmi-nəzəri mübahisəsində M.F.Axundzadənin Kəmalüddövləsi öz mütləq maarifçi mövqeyini mücərrəd fəlsəfi mühakimə və mübahisələr səpgisində ifadə və elan edirdi. Həyatın, gerçəkliyin özündə, «Əkinçi» qəzetində ruhani «opponentlərlə» üzbəüz, açıq mübahisə şəraitində isə M.F.Axundzadə (eləcə də həmin qəzetin «elmi əbdan», yoxsa, «elmi ədyan» mübahisəsinin digər iştirakçıları - S.Ə.Şirvani, N.Vəzirov, Ə.Gorani, Heydəri qarşıya konkret-təcrübi, empirik məqsədlər qoyur, bilavasitə avamlığa, məsçid və minbər xürafatı əleyhinə çıxış edirdilər.

Əsrin əvvəllərində «Bizə hansı elmlər lazımdır?»[1] mövzusunda analoji mübahisə də (ruhani Əbuturab Axundoğlunun məqaləsi və Ə.Hüseynzadə, Ö.F.Nemanzadə, C.Məmmədquluzadənin ona cavabları) elmin dinlə əlaqələrinə metodoloji münasibətdə maarifçi-deist baxışların səciyyəsini əks etdirirdi. Xürafatı və mövhumatı həqiqi dindən fərqləndirmək və birincilərə qarşı ikinciyə əsaslanmaq maarifçi hərəkatda (onun liberal və mühafizəkar qollarında) bu dövrdə hələ fəal

[1] Bax: «Həyat» qəzeti, 1906, N 106 və «Bizə hansı elmlər lazımdır?» kitabçası, Tiflis, 1907.

şəkildə davam edir. Ortodoks dindarlığı və orta əsrlərin arxaik təriqətləri əleyhinə mübarizədə islama əsaslanan maarifçiliklə ifrat inqilabi maarifçiliyi birləşdirən ümumi nöqtələr də var idi. Onlar Ağlı dinin əsaslarına qarşı yox, onun doqmatik və sxolastik təfsirlərinə, zahiri, süni formal şəriətə qarşı qoyurdular, axundların, mollaların «korladığı» islama qarşı çıxırdılar. «Zaqafqaziya müsəlmanlarının» həqiqi dindən və dünyadan nə qədər geri qaldığını bununla əsaslandırmaq və buradan da çıxış yolu kimi elmi dinlə «birləşdirmək» istəyirdilər. Bundan məqsəd yalnız dinin özünü «müasirləşdirmək» deyildi, bəlkə, cəmiyyəti müasirləşdirmək üçün «Quran»ın cəmiyyətdəki böyük təsir gücündən istifadə etmək idi. Orta əsrlər teologiyasına qarşı ümumi mübarizədə bunun obyektiv mütərəqqi əhəmiyyəti var idi və bütünlükdə islamçı maarifçilik də yaxınlaşan inqilabi hərəkatın müxtəlif hüdud və səviyyələrdə cəmiyyətdə oyatdığı, hazırladığı antimistik və antiehkamçı müxalifətin təzahür müxtəlifliklərindən biri idi.

Şübhəsiz, müəyyən istihalə, islahat və yeniləşmə bilavasitə bədii təcrübənin, o çümlədən, «Təmsilat»la əsası qoyulan klassik dram ənənəsinin özündə də baş verir.

Axundzadənin ən yaxın mənəvi varisi - Nəcəfbəy Vəzirov (1854-1926) artıq onun həm milli maarifçilik proqramına, həm də realist dram poetikasına yeni bədii notlar və sosial-fəlsəfi çalar gətirir. Milli məişət və səciyyə anlayışının təkcə əhatə hüdudlarını yox, həm də fəlsəfi idrak çərçivəsini genişləndirir, səhnədə ictimai geriliyin tənqidini və realist-maarifçi didaktikanın hüdudlarını böyüdür. Bunlardan birincisinə o, mülkədarağa, ikincisinə ziyalı-bəy surətlərinin nümunəsində nail olur: rədd olunan vərdiş, psixologiya və adətlərdə köhnəlik inkar edilir, müsbət-rezonar surətlərin səhnədə birbaşa bəyan etdiyi şikayət-lənətlərdə və monoloq-nəsihətlərdə təbliğ olunan yeniliyin məzmunu izah olu-

nur. «Daldan atılan daş topuğa dəyər» (1890), «Sonrakı peşmançılıq fayda verməz» (1890), «Adı var, özü yox» (1891), «Yağışdan çıxdıq, yağmura düşdük» (1895) - hamısı həyat və məişətin ən müxtəlif sahələrində özünü göstərən «müsəlman avamlığının» milli şüur rakursundan təhlilinə həsr edilmişdir.

N.Vəzirov milli şüurda, adət və münasibətlərdə, əxlaq və məişətdə orta əsrlərin qalığı olan avamlığın qənimi idi. O, bu nadanlığın məzhəkələrini, dramlarını yaratmışdı, onun ilk faciəsi «Müsibəti-Fəxrəddin» isə bu ictimai dərdin, şərin və bəlanın müsibəti idi. Müsibətlə yaxılaraq, xar və zəlil olan şər əsərdə milli faciə kimi, şüur köləliyi kimi ittiham və təhlil olunmuşdur. Müəllif nadanlığın dəhşətlərini ona görə təsvir etmişdir ki, məhz öz milli-maarifçi, öz əxlaqi qayəsinin üstünlüyünü sübut etsin. Bu əxlaqi qayənin daha qabarıq təsdiqi üçün müəllif bütöv cəmiyyətin, ümumi əxlaqi böhranın fonunda milli ziyalının - Fəxrəddinin və onun arzularının faciəsini vermişdir. Əsərdə Fəxrəddinin həlakı cəmiyyətdə hökm sürən köhnəlmiş əxlaq və rəftar normalarına ən böyük qurban kimi mənalanır. Dramaturq bütün milli qeyrətpərvərlik və insanpərvərlik duyğuları ilə həyəcana gəlmiş, bu nəcib qəhrəmanın vəhşicəsinə öldürülməsi faktı ilə haray çəkərək fəryad etmişdir.

Doğrudur ki, «Müsibəti-Fəxrəddin»də kəskin daxili ziddiyyətlərlə çapalayan, hamletvari tərəddüdlər, böhranlar və fırtınalar keçirən ayrıca bir surət, obraz və xarakter yoxdur, burada Hamlet – cəmiyyət özüdür! Müsibətlə məhv olan və iztirabla, yenidən doğulan bu cəmiyyət tragik bir surət, Hamlet tipli bir surət misalındadır. «Elmdə, sənətdə geri qalan millət!» – baş verən bütün faciələrin böyük mənbəyi və həqiqi məzmunu budur və maarifçi şüur da məhz intibah, maarif əsrində geridə qalmış bir cəmiyyətin, millətin faciəsini təsvir edir.

«Müsibəti-Fəxrəddin» hələ xalis bir maarifçi dünyagorüşü idi. Burada Rüstəm bəyi də, Fəxrəddini də məhv edən bir böyük bəla görürük: nadanlıq! Millilik savadının yoxluğu! Elmsizlik və maarifsizlik! Kimdir müqəssir? - Məhz milli «mən» kimi özünü, bütövlüyünü dərk etməyən «müsəlman qardaşın vəhşi nadanlığı» - tragediya hər sözü ilə və bütövlükdə öz pafosu ilə bu hökmü təsdiq edir.

O dövrki ictimai-bədii fikrimizdə belə bir əsər, milli şüursuzluq səviyyəsində konkretləşən nadanlığa qarşı bu qədər qüvvətli bir səs təsadüfi idimi? Qətiyyən yox! Milli intibaha təşnəlik və həsrətlə aşılanan tüğyanlı, ehtiraslı fikir, etiraz öz ifadəsini fəlsəfi traktatlarda tapmışdı, komediyalarda, nəsrdə və poeziyada səslənmişdi. O, öz yeni, daha qüvvətli əksini bir də dramaturgiyamızdakı ilk faciədə tapırdısa, məgər bu təbii, hətta qanunauyğun deyildimi? Bütün XIX-XX əsr ziyalılarımızın fəaliyyət və yaradıcılığında, bütün Seyid Əzim, Zərdabi və Sabirdə olduğu kimi, «Müsibəti-Fəxrəddin»də də «Kəmalüddövlə»dən «bir duz» vardır. «Müsibəti-Fəxrəddin» - məişətdə, şüurda nadanlığa qarşı, bütün başqa silahlardan sonra bədii fikrin ağır topları ilə atılan atəş idi. Sonralar dramaturgiyamızda bu ənənə hələ çox ömür sürmüşdü. Məgər «Şamdan bəy» və «Nadanlıq» (N.Nərimanov), «Dəli yığıncağı» və «Ölülər» (C.Məmmədquluzadə) eyni mövzuda və təxminən eyni epoxada yazılmamışdımı? Məhz milli «mən»ini, özünü dərk baxımından «avamlar», «dəlilər» və «ölülər» mövzusu lap Cavidə və Cabbarlıya qədər davam etmişdi. Bu mövzu çox qabarıq və çox parlaq əksini «Müsibəti-Fəxrəddin» əsərində də tapmışdır.

Əxlaq və ailə-məişət məsələləri, ənənəvi milli şüur kasıblığı və ona qarşı mübarizə mövzusu, Şərqdə və Rusiyada milli-ictimai hərəkat, beynəlmiləllik və xalqlar dostluğu ideyası, qadın azadlığı məsələsi Nəcəf

bəyin o dövrdə yazdığı məqalələrin də əsas predmetini təşkil edirdi. Həssas humanist sənətkar öz böyük müasirləri – N.Nərimanov, C.Məmmədquluzadə, Sabir, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, F.Köçərli ilə birlikdə Qafqazda qardaş qırğını əleyhinə öz hərarətli səsini ucaldır, Arazın o tayında da ictimai və milli-mənəvi zülmə qarşı ayağa qalxmış Təbriz inqilabçılarına öz vətəndaş və sənətkar xeyir-duasını publisist qələmlə, mətbuatdan elan edirdi.

Dövrün millətçilik şüurunda, maarifçi publisistikasında bu sonuncu motivi ayırıb xüsusi qeyd etmək istərdik: Arazın o tayı ilə, Cənubla həmrəylik və həmdərdlik motivini! Cənub dərdindən danışanda maarifçilərin qələmi elə bil xüsusi kəsər və sirayət gücü kəsb edirdi. Ümumiyyətlə, o illərin bütünlükdə siyasi publisistikasında iki ən narahat, seysmik mərkəzdən biri – Cənub və Araz mövzusu idi. Başını götürüb Arazı keçən, bir parça çörək üçün Bakı mədənlərinə pənah gətirən o taylı qardaşlarına öz ürək yanğısını ədib hərarətlə etiraf edirdi: «...halınız yadıma düşəndə ciyərim odlanır... Xaraba qalsın İran, necə ki, qalıbdır. Vəzirləriniz əlimə düşsəydilər, sizləri qətrəbəqətrə düzərdim, qardaşlarım, ərz edərdim cənaba: buyuruz tamaşa ediz bu hala, bu ruzigara! Biçarə, sərgərdan, köməksiz qardaşlar! Vətənimizdə insaf, vicdan, rəhm, mürüvvət..., yox, millət tar-mar olub, vilayətiniz viran...» Xüsusən İranı viran, milləti zar qoyan ruhani hakimlərə Nəcəf bəyin yağdırdığı lənət bu tay üçün də ibrətli və müasir səslənir: «Tiryakınıza lənət, əfsun gəzdirən dərvişlərinizə lənət, yalançı seyidlərinizə, sığəxanlarınıza lənət...»

Vəzirovun əli silahlı cənublu sərbazları nəzərdə tutaraq söylədiyi sətirlər isə artıq şikayət və fəryad yox, çağırış və səfərbərlik nidası ilə qüvvətli səslənir: «...Fəramuş etməyin, qardaşlarım, Vətən yolunda ölməkdən gözəl ölüm yoxdur... Səhraları qan ilə sirab edin ki, sünbüllər uzun bitsin!»

Yüz ilin sonunda milli bədii şüurda maarifçiliyin növbəti mərhələsini N.Vəzirov və Ə.Haqverdiyev başa çatdırır. Məhz bu mənada «Müsibəti-Fəxrəddin»i tamamlayan və davam etdirən ikinci maarifçi faciə Əbdürrəhimbəy Haqverdiyevin «Dağılan tifaq» əsəridir. Mülkədar dudmanlarının dağılması bu əsərdə də sosial və əxlaqi faciə kimi, məhz maarifçi ideallara xəyanətin təbii, zəruri cavabı və cəzası kimi təsvir və təhlil olunur. Nadanlıq - bu əsərdə də qaçılmaz bəla, həm Nəcəf bəyin, həm də Süleyman bəyin milli, şəxsi və sosial faciəsinin səbəbi və motividir. Hər iki əsər milli maarifçi faciənin iki böyük zirvə məqamını təşkil edir. Dramaturgiyamızın sonrakı inkişafında əsasında maarifçi məfkurə dayanan belə möhtəşəm sosial faciələrə daha rast gəlmirik.

Həm tərcümeyi-halının, məişətinin, həm də yaradıcılığının bütün təfərrüatı ilə ilkin Haqverdiyev də, Nəriman Nərimanov da, Üzeyir Hacıbəyov da N.Vəzirov kimi, milli yazıçının və ictimai xadimin xalis maarifçi tipini ifadə edirlər. Hər üçü seminariya qurtarmış, Peterburqda təhsil almış, ədəbi, elmi, pedaqoji, publisist fəaliyyətlə ardıcıl, fasiləsiz məşqul olmuşlar. Hər üçünün dramaturgiyası milli maarifçi məfkurənin və realist bədii-estetik modelin klassik ifadəsidir. Lakin onların yaradıcılığı (xüsusən, 1905-1907-ci illərdəkindən sonrakı dövr) milli şüurun inkişafında tənqidi-realist mərhələyə (və maarifçilikdən inqilabi demokratizmə!) keçidin məzmunundan danışmağa xüsusilə bol və münbit material da verir. Şübhəsiz, bu əlamətlər hələ bir təlim, konsepsiya səviyyəsində yeni bədii-estetik sistemə radikal dönüşün, keçidin əlamətləri deyil, hələ maarifçilik şüurunun hüdudları daxilində irəliyə hərəkətin əlamətləridir.

N.Nərimanov, Ü.Hacıbəyov, S.S.Axundov, R.Əfəndiyev XIX əsrin sonu, XX əsrin ilk illərində xüsusən

realist dramaturgiyamızın materialında milli-inqilabi şüurun sərhədlərini zənginləşdirirlər. Bu əsərlər içərisində «Nadir şah» (1898), «O olmasın, bu olsun» (1916), «Arşın mal alan» (1918), «Laçın yuvası» (1922) kimi sənət inciləri vardır.

Nəhayət, iki əsrin keçidində milli maarifçi şüur hərəkatı dördüncü, sonuncu qabarıq təzahürünü uşaq mətbuatının - «Dəbistan» (1906-1907), «Rəhbər» (1906), «Məktəb» (1911-1912; 1918) dərgilərinin, uşaqlar üçün dərsliklərin (F.Köçərli, S.Hüseyn, M.Mahmudbəyov, Y.V.Çəmənzəminli, R.Əfəndiyev...), ayrıca uşaq ədəbiyyatının (M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, S.S.Axundov, S.M.Qənizadə...) yaranmasında tapır...

Beləliklə, XIX-XX yüzillərin keçidi millilik və istiqlal şüurunun inkişafı baxımından da bütünlükdə ədəbi keçmişin yeni dövrlə şərtlənən inkişafının qanuni davamı idi. Məhz bu dövrdə Azərbaycanda milliyyətçi maarifçi ədəbi hərəkat həm kadr tərkibi, həm də məzmununun əhatə və miqyası baxımından yeni hüdudlar kəsb edir. Avropada və Rusiyada, həmçinin Qafqazın Qori, Tiflis, İrəvan şəhərlərində ali təhsil alıb Azərbaycana qayıtmış gənc ziyalı nəsil H.Zərdabi və N.Vəzirov kimi ağsaqqallarla çiyin-çiyinə ədəbiyyat, tədris, teatr və mətbuat cəbhəsində qızğın fəaliyyət göstərməyə başlayır.

Ə.Hüseynzadə (1864-1940), Ə.Ağaoğlu (1869-1939), F.Köçərli (1863-1920), E.Sultanov (1863-1935), Ə.Haqverdiyev (1870-1933), N.Nərimanov (1870-1925), S.M.Qənizadə (1866-1937), M.Şahtaxtlı (1863-1920), H.Mahmudbəyov (1864-1928), R.Əfəvdiyev (1863-1942), T.Bayraməlibəyov (1862-1937) dövrün artıq nisbətən kütləviləşən milli şüur, milli maarif intibahında (onun çeşidli ideya təmayüllərində) ən yaxından iştirak edirlər.

XX əsrin əvvəllərinin də həm realist, həm də romantik maarifçi ədəbiyyatında milliyyətçi təmayüllər öz əsasını bu örnəklərdən götürür.

Bütün dövrlərdə mənəvi mədəniyyətin tarixi missiyası bir də milli-maarifçilik olub. Bəşəriyyəti tərəqqiyə və humanitar inqilablara həmişə maarifçilər hazırlayıb. İstiqlal və suverenlik idealı həmişə əvvəlcə ədəbi-nəzəri fikirdə formalaşıb, yalnız sonra dövlət təfəkkürü, sosial-inzibati qurum və siyasi rejim gerçəkliyi kəsb edib. İndiki suveren Azərbaycanın da mənəvi memarları Axundzadələr və Zərdabilər, Əlibəylər və Ağaoğlular, Sabirlər və Cavidlər, Nərimanovlar və Üzeyirbəylər, Cabbarlılar və Vurğunlar olmuşlar. XX yüzilliyin ən böyük şüarını da hələ əsrin əvvəlində hamıdan əvvəl onlar - böyük azəri-türk maarifçiləri elan ediblər: «Vətən, vətən, vətən! Millət, millət, millət! Dil, dil, dil!». Hələ əsrin əvvəlindən başlayaraq, hətta «kiçik adamları» və «artıq adamları», «ölüləri» və «dəliləri», «saqqallı uşaqları» millətə çevirən, xalqa öz «mən»ini genetik yox, milli səviyyədə dərk etdirən ibrətli əsərləri son yüz ildə hamıdan çox və hamıdan kəskin maarifçilər yazıb: «Bir millət gərək bir kitaba, bir amala tapınsın», bir «atanın kitabına» («Kitabi-Dədə Qorqud»a, Füzuli «Divanı»na), bir «Anamın kitabı»na (ana dilli və ana südlü ədəbiyyata, Sabirə, Şəhriyara...) tapınsın – əsrin əvvəlinin bu milli təlimi əsrin sonunun da aktual fəlsəfi-elmi təlimi, maarifçilik ideologiyası olaraq qalır...

Milli müstəqillik şüuruna Azərbaycan bədii düşüncəsini maarifçi ideya və fəlsəfə gətirib çıxarır. Lakin Azərbaycan maarifçiliyi əsr yarımlıq bir müddətdə düzxətli bir orbitdə hərəkət etmir. İctimai-fəlsəfi və bədii fikrimizin qət etdiyi yollarda cızılan ən paradokslu əyri, ziddiyyətli və enişli-yoxuşlu xətt bəlkə də maarifçiliyinkidir. Çünki o, eyni zamanda iki əks qütbün - «həm

orta əsrlərin», həm də burjua «yeni dövrü»nün təsiri altında inkişaf etməkdə davam edir və bunlardan birincisindən ikincisinə tarixi keçidi həyata keçirir.

XIX əsrin ortalarında Rusiyada burjua ziddiyyətləri hələ açıqlanmamışdı və çılpaq şəkildə deyildi. İnqilabi-demokratik istiqamət və tənqidi realist şüur isə bu ziddiyyətlərin açıqlanması funksiyasını tarixi bir missiya kimi bilavasitə öz üzərinə götürür.

İkinci tərəfdən, kapitalizmin ziddiyyətləri kimi, müstəmləkəçiliyin dəhşətləri də Axundzadə dövründə hələ tam çılpaq vəziyyət almamışdı. XX əsrin əvvəlində bu baxımdan da vəziyyət dəyişir. Mirzə Cəlil və Sabir dövrünün real ictimai gerçəkliyi artıq açıq-aşkar bir «ikiqat zülm gerçəkliyinin» tipik şəraiti idi. Əsrin əvvəllərində milli-inqilabi şüurun xüsusilə sürətlə yüksəlməsi məhz bunun dərkinin nəticəsi idi.

Milli «mən» şüuru, hər şeydən əvvəl, «özünü dərk» şəklində (kök, mənşə, əcdad probleminə maraq şəklində) özünü göstərməyə başlayır.

Əslində milli və dini mənsubiyyət problemini də ilk dəfə hələ M.F.Axundzadə qaldırmışdı. «Kəşkül»də daha da konkretləşdirilən bu problem «Kaspi», «Şərqi-Rus», «Həyat» kimi müxtəlif ideya istiqamətli qəzetlərdə müxtəlif mövqelərdən və daha geniş səpkidə davam etdirilir.

Bu hərəkat da iki cəbhəyə qarşı mübarizə və müqavimət şəraitində aparılırdı; həm çarizmin ideologiya və mədəniyyət sahəsində köləlik siyasətini, həm də dini-mühafizəkar cəbhənin xalqı vaxtı çoxdan keçmiş xürafatın təsiri dairəsində saxlamaq siyasətini eyni niyyət birləşdirirdi: xalqda məxsusi bir Azərbaycan, vətən və millət hissini öldürmək, çağdaş bir vətəndaşlıq və milli qürur duyğusunu məhv etmək! Rusiyada əhalinin beşdə üçünün, daha dəqiqi - 57 faizinin milli zülmə məruz qaldığı bir sosial-siyasi şərait, əlbəttə, belə bir mübarizəni çətinləşdirirdi, amma milli-ictimai azadlıq şüurunun oyanmasına güclü təsiri baxımından bütün Rusiyada azadlıq hərəkatının milli uçqarlarda müsbət rolu da tarixi əhəmiyyət kəsb edirdi.

Azərbaycan dilinin şeir və nəsr, ədəbiyyat və elm dili kimi imkanlarını işdə və əməldə, özü də daha geniş və kütləvi hüdudlarda təsdiq edənlər də maarifçilər oldular.

Bütün bunlara yeni maarifçiliyi obyektiv olaraq ədəbi həyatda demokratik imkanların da artması gətirib çıxarmışdı. Məlumdur ki, M.F.Axundzadə naşir A.A.İsakova məktubunda «Kəmalüddövlə məktubları»nın müəllifi kimi onun adının gizli saxlanmasını inadla xahiş edirdi. Həmçinin, belə bir qeyd-şərti mütləq nəzərə çarpdırmağa M.F.Axundzadəyə mənzum məktubunda Qasım bəy Zakir də ehtiyac hiss etmişdi:

Gərçi vilayətdə çox idi əhval
Müyəssər olmadı şərh edəm əlhal.
Bir parasın yazdım, eylədim irsal
Bu şərt ilə nə dil bilsin, nə dodaq...

Üstəlik, Qasım bəy Zakir nəinki ehtiyatlı tərpənirdi, onu açıq-aşkar obyektiv ictimai satiraya sövq edənlərdən hətta şikayətlənirdi:

Budu xahişləri kim baxmayıb ağı bozuna
Eyləyim həcv tamam bəyi-gədavü xani...

Bütün bu «ehtiyat tədbirlərindən» nisbətən azad Sabir isə artıq ona «gözünü bərəldən»ə heç məhəl də qoymur, həm oxucuya, həm də özünə böyük bir inam və əminliklə etiraf və elan edirdi ki:

Şairəm çünki vəzifəm budur əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar yazım,

Pisi pis, əyrini-əyri, düzü həmvar yazım,
Niyə bəs böylə bərəldirsən, a qare gözünü?
Yoxsa bu ayinədə əyri görürsən özünü?..

Göründüyü kimi, Zakirin həyatın, zamanın bir sifarişi kimi duyduğu, lakin əməl və icra etməyə çəkindiyi tələbə cavab verməyi bir şair və vətəndaş kimi Sabir öz qanuni borcu sayırdı.

Maarifçilik ideologiyasının və maarifçi estetik təlimin ənənələri Axundzadədən sonrakı nəsrdə, şeirdə, dramaturgiyada, onların süjet, üslub, bədii qəhrəman strukturunda və sistemində hələ uzun müddət yaşayırdı. Hətta konfliktin dramatik həlli üsulunun (bədii finalların) tipologiyası da, əsasən, dəyişməyən estetik açarda və ideya-əxlaqi məxrəcdə qalırdı.

Əgər Fərhadı istisna etsək, demək olar ki, C.Məmmədquluzadəyə qədərki bütün dramaturgiyada kənardan, qeyri-milli (qeyri-müsəlman!) mənbədən gələn qəsd, yaxud, daxili, şəxsi (!) intihar aktı yoxdur: hamını milli şüurun qənimi, daxili düşməni - nadanlıq güllələyir. Özü də düşmənin yox, atanın və qardaşın, yoldaşın və dostun öz əli ilə güllələyir. Bu baxımdan «Nadanlıq» məzhəkəsinin adı kimi, onun tragik qəhrəmanının son sözləri də simvolikdir: «Məni nadanlıq güllələdi»; «Təqsir Ömərdə deyil, təqsir heç kəsdə deyil. Avam və nadan, mömin və itaətkar müsəlman qardaşdadır». Mirzə Cəlildən sonra isə maarifçi qəhrəmanların «Axundzadə qalereyası» artıq yalnız sosial təbəqə, peşə-əhatə dairəsi etibarilə dəyişmir. Dəyişmə həm də milli maraq, sosial düşüncə, ideya konflikti, süjet və kompozisiya sahəsində özünü göstərir. Onun ilk əlamətləri özünü hələ Mirzə Fətəlidən sonrakı ilk nəslin yaratdığı müsbət qəhrəmanların nümunəsində büruzə verməyə başlayır.

Avropa Axundzadə dövründə hələ bir ideal olaraq qalırdı.

Şübhəsiz, Müsye Jordanın monarxist sözlərinə dramaturqun münasibətində hiss olunan rişxəndli tendensiya var, eləcə də Hatəmxan ağanın Paris məişətinə verdiyi qiymətlər də hələ «kapitalizmin tənqidi» demək deyildi. Burada hələ qərarlaşmamış milli burjuanın sosial və iqtisadi əsaslarına işarəni axtarmaq çox tezdir. Söhbət Avropa məişəti ilə ənənəvi Şərq əxlaqı arasında bəzi təzadlardan gedir. Daha çox xalis milli-əxlaqi səciyyə daşıyan bu təzadlar burjua dövründən əvvəl də var idi, hətta müəyyən dərəcədə (milli fərq səviyyəsində) indi də qalır.

M.F.Axundzadənin Avropaya can atan Şahbaz bəyi hələ «Qamışlıq»dan çıxa bilmir. Avropada təhsil görüb qayıdan gənclərin narahat və axtaran qəlbi isə N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov kimi maarifçi müəlliflərin diqqət və təhlil hədəfinə çevrilir. Öz maarifçilik səylərində və axtarışlarında bu qəhrəmanlar bir qədər də irəli gedirlər. Belə ki, Axundzadənin qəhrəmanı hələ geniş ictimai-etik və milli vəzifələr qarşıya qoymur, dərin ictimai ədalət axtarışları, Fəxrəddin, Fərhad idealı Şahbaz bəyi hələ yormur. Şərəfnisə ilə, Hatəmxan ağa ilə, Şəhrəbanu xanımla o, hələ bir təhər dil tapmalı olur. Avropa təhsilli Fərhad və Fəxrəddin isə artıq başqa mühitin yetirdiyi, tərbiyə etdiyi Rüstəm bəy, Məleykə xanım, hətta Şahmar bəy kimi düşünə, yaşaya və hərəkət edə bilmir. Yeni situasiya ilə köhnə düşüncə arasında ziddiyyət əvvəlcə ailə ixtilafı - «atalar-oğullar» konflikti şəklində yaranır. Özü də «Müsibəti-Fəxrəddin»də, «Bəxtsiz cavan»da artıq ailə əxlaqına, dini təlimə, qəbilə-tayfa dövründən gələn hər hansı adətə və məişət ənənəsinə sözsüz, müti tabeliyə yox, ağlın təsdiq etdiyi bir istiqamətdə şəxsi etiraza, fərdi müqavimətə rast gəlirik.

Lakin maarifçi ziyalı qəhrəmanın ideya-məfkurə məzmununda və bədii-estetik simasında baş verən belə bir dəyişikliyin ifadəsinə sadə xalq nümayəndələrinin

surəti timsalında rast gələ bilmirik. M.F.Axundzadənin ən yaxın maarifçi xələfləri öz ilk yaradıcılıqları dövründə «qamışlıq» sakininin təsvirini dərininə doğru davam etdirə və irəli apara bilmirlər. Hətta N.Vəzirovda kəndli bəzən hələ sadiq nökər, lakey məzmununda verilir. Kəndlinin milli şüuru, maariflənməsi qayğısı ilə onun əvəzinə Fəxrəddin bəy məşğul olur. Ümumiyyətlə, N.Vəzirovda, Ə.Haqverdiyevdə, R.Əfəndiyevdə, N.Nərimanovun ilk yaradıcılıq dövründə ayılan xalq obrazını görmürük. Əvəzində, bütünlükdə taleyi çıxılmaz faciə şəklində təsvir olunan vahid bir «milləti» görürük. Onların əsas qəhrəmanları zadəgan və mülkədarlığın - «ölən sinfin» (!) nümayəndələridir. Onların çoxu elə səhnədə də ölür.

Maarifçi ədəbiyyatda sinfi təbəqələr, sosial qatlar yox, «yaxşı» və «pis» bəylər üz-üzə gəlir.

Gerçəkliyin sosial məzmununa verilən maarifçi və maarifsiz bəy təsnifi və tipologiyası nəinki Zakirdə və Axundzadədə, həmçinin S.Ə.Şirvanidə, N.Vəzirovda, Ə.Haqverdiyevdə və N.Nərimanovda da vardır. S.Ə.Şirvaninin «Şah və dehqan» şeiri maarifçi konfliktin sosial mahiyyətini ifadə etmək baxımından çox səciyyəvidir. «Şah və dehqan» - görünə bilər ki, belə bir şeir bilavasitə bəy-kəndli münasibətlərinin sosial-sinfi təhlilinə həsr olunmuşdur. Lakin belə deyil. Burada bəyin, yoxsa dehqanın daha kəskin tənqid edildiyini müəyyənləşdirmək çətindir. Lakin bir şey şübhəsizdir: onlar hər ikisi eyni maarifçi məqsəd və niyyət mövqeyindən tənqid olunur: bəydəki qabalığın da, kəndlidəki nadanlığın da səbəbi eynidir, eyni bəladır: maarifsizlik! Sinfi-sosial səbəb də etik-əxlaqi problemin kölgəsi arxasındadır. M.F.Axundzadənin kəndlisi, S.Ə.Şirvaninin dehqanı, M.Ə.Sabirin əkinçisi, bunlar hamısı hər hansı ictimai təbəqənin nümayəndəsi kimi hərtərəfli sosial yox, əxlaqi şərhini tapır.

İlkin maarifçi dramaturgiyadan fərqli olaraq, indi ictimai zümrələrin nümayəndələri daha böyük tip və çeşid əlvanlığı ilə səhnə əsərlərinə daxil olur. Namünasib nikah, pis ailə tərbiyəsi, əski məktəb mövzusu, məmur, cadugər, tacir, baqqal, molla surətləri komediyada geniş yayılır. Ə.Haqverdiyevdə və N.Vəzirovda Nəcəf bəydən («Dağılan tifaq») Cənnətəliyə qədər («Yağışdan çıxdıq, yağmura düşdük») müxtəlif mülkədarların bütöv bir silsiləsi ilə tanış oluruq. «Nadanlıq», «Pəhləvanani-zəmanə», «Dilin bəlası» isə artıq mülkədar və burjua əlaqələrinin vəhdətdə tənqididir.

Doğrudur, feodalizm qalıqlarının ifşasından burjua ziddiyətlərinin tənqidinə keçid hələ «Pəhləvanani-zəmanə» pyesində baş verir. Lakin bu da daha çox predmet-mövzu dairəsində keçid idi, köhnə poetika daxilində yeni problematikaya keçid idi. Üslub, struktur, tip keçidi isə tənqidi realizmə keçid şəklində baş verir.

«Dağılan tifaq» və «Bəxtsiz cavan» müəllifi də N.Vəzirov kimi öz ifşasını «cəmiyyətin milli sütunları əleyhinə» yönəltmirdi. Elə buna görə də maarifçi realistlərin «xalqı tərbiyə etmək» proqramı və üsulu tənqidi realistlərinkindən fərqlənirdi: ikincilər bilavasitə «aşağı»ların, xalq təbəqələrinin daxili imkan və qüvvələrinə əsaslanırdılar.

M.F.Axundzadə və onun xələfləri öz mənfi qəhrəmanını mövcud cəmiyyətin, bütünlükdə xalqın, millətin, əfkar-ümumiyyənin mənafeyi baxımından lənətləyir və sözün həqiqi mənasında ictimai ittiham məhkəməsinə çəkir. Təsadüfi deyil ki, ədibin bir sıra görkəmli tədqiqatçıları (A.Şaiq, C.Cabbarlı, Ə.Sultanlı) onu «mühəndis», «müstəntiq», «məhkəmə rəisi», «münəqqid», «cəmiyyətçi», «yol göstərən», «qafiləsalar» və «rəhbər» kimi epitetlərlə xarakterizə etmişlər. Lakin dünyaya car çək-

diyi Zəka və Əxlaq monoloqu ilə belə bir ittiham kürsüsü arxasında durarkən də böyük maarifçi ideoloqun əlində tutduğu kompasın əqrəbi həmişə eyni ünvanı və qütbü göstərir; xətanın və günahın daha çox Şərq, müsəlman cinahını nişan verirdi...

Nəinki fəlsəfi-elmi, hətta bədii əsərlərində də M.F.Axundzadənin rəsmi çar hakimiyyətinin nümayəndəsinə münasibəti onun bütövlükdə Avropaya və Rusiyaya maarifçi münasibətinin ümumi kontekstindən ayrıca hədəf kimi ayrılmırdı, «Təmsilat»ın səhifələrinə Qərbdən və Şərqdən gəlib-çıxan emissarlar burada vahid bir kontekstin yox... konfliktin qütbləri kimi yanyana dururdular.

Yeni dövrdə milli şüurda «İki Rusiya» və «İki Avropa» təliminin Rusiyaya və Avropaya münasibətdə bir-birindən fərqini əyaniləşdirmək üçün Mirzə Fətəlinin və Mirzə Cəlilin dram irsindən iki nümunəni müqayisə etmək maraqlıdır. Heç olmasa milli bədii düşüncənin bu iki mərhələsinin iki güzgüsündə iki müxtəlif şəkildə görünən əcnəbi surətlərini bir-biri ilə müqayisə edək. Bütün tənqidi eyham və işarələri ilə birlikdə M.F.Axundzadənin Müsyö Jordana münasibəti müsbət, rəğbətli bir münasibətdir: o, müəllifin Şahbaz bəyi («Müsyö Jordan») səslədiyi, xeyir-dua verib nümunə göstərdiyi bir mühitin nümayəndəsidir. Hətta Şərəfnisə xanım deyir ki, «Mən özümü öldürrəm, qoymaram Müsyö Jordanın boynu vurulsun!» Hər halda dramaturqun ona tənqidi münasibətində yalnız yumor var. Xaricdən gəlmiş doktor Lalbyuz isə («Dəli yığınçağı») xalis karikatur və satirik bir surətdir. Mirzə Cəlil onu «dəlilər» aristokratiyasının bütün «sütunları» ilə bir cərgədə qamçılayır. (Adı da satirikdir və simvolikdir: - Lalbyuz! Bu lal və buz təbiətli adam heç bir isti və işıq şüası gətirə bilməz).

Odur ki, Müsyö Jordan surətini mahiyyət və funksiyaca az qala Məstəli şahla eyniləşdirmək, birini dinlə, digərini isə «elmlə ehtikarlıq» edən bir adam kimi qiymətləndirmək ədalətsizlik olardı. Nəinki əsərin ideya məzmununda, süjetin strukturunda və konfliktində, hətta sərlövhədə də bu iki ad yanyana yox, qarşı-qarşıya qoyulur: Müsyö Jordan - həkimi-nəbatat və dərviş Məsqəli şah - caduküni-məşhur! Parisdən gələn Müsyö ilə İrandan gələn dərviş Qarabağdakı «qamışlıq»da görüşür (qiyabi! Əsərdə onlar bilavasitə rastlaşmır) və bu iki yad təsirin tuş gəlməsindən, Russonun təbiət idilliyasına bənzəyən «qamışlıq»da poetik sükut pozulur: Hatəmxan ağa «qamışlığında» bir külək əsimi başlayır. Əlbəttə, bu külək əsimi hələ «Parijin yıxılmağının zərbindən» yaranan inqilabi zəlzələdən «bərbad olmağın» yeli, küləyi deyil. Lakin hər halda o, məhz «Parij zəlzələsi»nin baş verə bildiyi bir mühitdən və gerçəklikdən gələn adamın şüurlarda oyatdığı intibahla bilavasitə bağlıdır. Maarifçi Axundzadəni «hansı sinifdən gələn» yox, hansı milli mühitdən, «hansı dünyadan gələn» adam problemi maraqlandırır və o, dünyanın «bu tayına» və «o tayına» hələ siniflər bölgüsünə əsasən təsnifat vermir. Müsyö Jordanı Qərbin, Məstəli şahı isə Şərqin «rəmzi» kimi ümumiləşdirənlər də, Müsyö Jordanı fransız monarxiyasının rəmzinə çevirənlər də təxminən eyni xarakterli səhvə yol verirlər. «Mütləqiyyət tərəfdarı», «siyasi mühafizəkar» olan Müsyöyə dramaturqun münasibətindəki eyhamlı və tənqidi məqamları mütləqləşdirmək düz olmaz. Axundzadənin Müsyöyə münasibəti onun Məstəli şaha münasibətini xarakterizə edən müstəqim birxətlilikdən qat-qat mürəkkəbdir, çoxcəhətlidir və Axundzadənin ümumiyyətlə Avropaya münasibətindəki mürəkkəbliyin özünün ifadəsidir. Alim, özü də botanik-alim, bütünlükdə maarifçiliyin publisistikasında, nəs-

rində və dramaturgiyasında ən rəğbətli surətlərdən biridir (təsadüfi deyil ki, komediyada Karl Linney, Jozef Litton de Turnefor, Djon Bertran kimi təbiətşünasların da adlarına rast gəlirik). Etiraf edək ki, dramaturqu bizim milli ədəbiyyatımızda bu ilk Müsyönün - Qərbi Avropa xalqlarının bu ilk nümayəndəsinin peşə mənsubiyyəti, milli mənsubiyyəti, onun sinfi mənsubiyyətindən daha artıq maraqlandırmışdır (axı bütün komediya boyu o, monarxizmin (!) təbliği ilə yox, Qarabağın nadir dağ çiçəklərinə və ətirli şəfa bitkilərinə öz heyranlığını ifadə etməklə məşğuldur!...)

Nəinki «iki Rusiya» və «iki Avropa»nın, hətta «iki Şərqin», «iki Azərbaycanın» özü də Azərbaycanda milli şüurun iki mərhələsinin və iki səviyyəsinin güzgüsündə iki müxtəlif şəkildə görünürdü.

Azərbaycan mühitinin modelində çar və imperiya Rusiyasını Mirzə Fətəli də göstərir, Mirzə Cəlil də. Çar məmuru ilə yerli əhalinin qarşılaşdığı səhnələr «Xırs quldurbasan»da da var, «Danabaş kəndinin məktəbi»ndə də. Hər iki müəllif xalqı - məhək daşı kimi verir: hər kəs bu daşa - xalqa dəyib, öz həqiqi qiyməti ilə görünə bilir. Və hər iki əsərdə «millət ataları» öz «çinovnik ağaları» ilə birlikdə görünür: yerli hakimlər və çinovnik ağalar kabinetdə, stol dalında yox, açıq meydanda - kəndin ortasında camaatla birbaşa, üzbəüz qarşılaşdırılırlar. Məhz bu «üzbəüzdə» onların xalqdan nə qədər uzaq olduğu daha aydın hiss olunur.

Lakin bu oxşar səhnələrin məzmununda prinsipial ictimai məna fərqləri də vardır. Həm kəndliliyin, həm də bəyliyin və ziyalılığın M.F.Axundzadədən sonrakı bir neçə on ildə keçdiyi tarixi yolun «bəhrələri» Danabaş kəndindən verilən məişət səhnələrində öz ifadəsini tapır. M.F.Axundzadənin igid, dağ qartallarına bənzəyən məğrur və «ekzotik» kəndliləri «Danabaş kəndinin məktəbi»ndəki «ölülər» kəndinin

sakinləri şəklinə düşürlər. Hacı Nuru gəlib maraqlı bir intelligent tipi - müəllim Həsənov olur. Həmçinin, bəylik bir zadəganlıq təbəqəsi kimi öz qəti mənəvi, əxlaqi və sinfi müflisliyini Mirzə Cəlilin əsərlərində keçirir və Heydər bəy gəlib olur Pirverdi bəy – naçalnikin sağ əli. Ovda Heydər bəy hələ sözdə deyirdi ki, naçalnikə «çanla-başla qulluq eləməyə» hazırdır, indi isə Pirverdi bəy əməldə, işdə çar rejiminə «canla-başla» qulluq etməkdədir. Hakim milli «bəylik» onda «qaçaq mal» («firəng çiti») alış-verişi edirdi, indi «millət» alış-verişi! Onda Hacı Qara bəyə dəllalıq edirdi, indi bəy naçalnikə! Bəylik xasiyyətcə də başqalaşmış, lovğalıq və kübarlığı məmur canfəşanlığına, çərkəz papağı isə mundir şapkasına dəyişmişdir.

Qafqazın artıq «tam siyasi və iqtisadi fəthi» ictimai-tarixi proses kimi Mirzə Cəlilin təmsil etdiyi milli şüurda öz əksini belə bir detalda da tapır: millətə doğmalıq baxımından «milli ağalar»da çar çinovniklərindən heç nə ilə seçilmirlər: pristav, yüzbaşı, inspektor, qazı, molla («yad»dillilər!) bir-birinin «dilini bilir», amma eyni bir millətin ziyalısı, «ağa»sı və kəndlisi bir-birlərinin «dilini» başa düşmürlər! Ədib də bu əçnəbi və milli «dilbilməzləri» «Danabaş»da ona görə toplayır ki, əsl, həqiqi «danabaşları» bizə naturada göstərə bilsin.

Milli dilə və millətə münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsərdə bu kəskinliklə irəli sürülməmişdi. Burada artıq əsas problem maarifçilik problemi deyildi. Tənqidin əsas hədəfi - məktəbdən qorxanlar yox, kəndə «məktəb» gətirib gələnlər özləri idi...

İki sənətkar və iki üslub arasında bu dərəcədə «məzmun və forma yeniliyi» milli bədii şüurun tarixinə münasibətdə məhz etap və tip səviyyəsində bir yenilik idi! Bu illər bədii fikrin hər tərəfə - həm yüksəyə (yeni romantizm), həm də dərinə və mahiyyətə (tənqidi

realizm) doğru qət etdiyi sürətli inkişaf və hərəkət illəridir. Tənqidi realizm və romantizm bu zaman məhz 1905-1907-ci illər inqilabının dalğalarında təməl tapan yeni ictimai, mənəvi epoxanın iki müxtəlif ədəbi qütbləri kimi yüksəlir və dövrün mürəkkəblik və təzadlarını vəhdətdə ifadə edir. YENİ inqilabi ideologiyanın təsiri ilə maarifçi realizmin məhdudluqlarını dəf etmək axtarışlarında ədəbi proses həm tənqidi realizmin, həm də yeni romantizmin bədii təcrübəsi ilə rastlaşır. Mirzə Cəlil və onun təmsil etdiyi ədəbi məktəb bir də bu yeni romantizmin sənət nəzəriyyələri, ideya və əxlaq təlimləri ilə sənət yarışında bərkiyib kamala çatır və tənqidi realizm məhz iyirminci əsr romantizminin «müasiri» olan bir realizm kimi formalaşır.

Bu zaman artıq maarifçiliyin xəyal və illüziyaları 1905-1907-ci illər inqilabının sərt həqiqətlərinə dəyib parçalanmışdı. M.F.Axundzadənin komedayalarında maarifçilik hələ təzə tülu edən işıqlı bir məfkurə, nikbin bir çağırış və proqramdır. N.Vəzirov və Ə.Haqverdiyev bu idealın artıq tragizmini təsvir edirlər (Fəxrəddin və Fərhad surətləri). Maarifçilik illüziyalarının bir komediya kimi dərki isə milli bədii şüurda yeni mərhələnin - Mirzə Cəlil satirasının mövzusuna çevrilir. «Mənəvi ölülük» problemi məhz tənqidi realizmin problemi kimi meydana çıxır. Axundzadədə maarifçi ağlın və şüurun intibahı, Vəzirovda və Haqverdiyevdə faciəsi, Mirzə Cəlildə və Sabirdə komediya kimi dərki əsas yer tutur.

Məktəb maarifçiliyin milli şüur təliminin hər yerdə və həmişə müqəddəs idealı olub. «Danabaş kəndinin məktəbi» isə artıq məktəb idealının taxtdan salınması deməkdir. Ziyalı - ideal maarifçi qəhrəman tipidir. Mirzə Cəlilin intelligent Rüstəm bəyi, yaxud sxolast Hüseyn Şahidi və Səməd Vahidi isə belə ziyalı «idealının» taxtdan salınması demək idi. Axundzadə böyük ümid və inamla Şahbaz bəyi Avropaya oxumağa, təhsil almaqa dəvət edir. Mirzə Cəlil isə artıq oxuyub gəlmiş İskəndəri və onun «ölülər» mühitində gücsüzlüyünü təsvir edir. Maraqlıdır, İskəndərə qədərki ziyalı surətlərinin, demək olar ki, hamısı müsbətdir, İskəndərdən sonra isə (Rüstəm bəy, Aslan bəy, intelligent Həsən) hamısı mənfi. «Romantik məktəb» müstəmləkəçi üsul-idarə və mütləqiyyətçi quruluş üçün çinovnik yetişdirən müəssisə kimi dərk olunanda komik «uşkola» çevrilir. «Firəng dili» problemi ana dili problemi ilə əvəz olunur və milli ziyalının Şahbaz bəy tipini artıq «Anamın kitabı» qəbul etmir. «Nadanlığın bəlası» mövzusunun yerini indi «ziyalılığm bəlası», «obrazovannılığın» və «intelligentliyin bəlası», satirikləşən bir «uşkol» və «uçtel» bəlası tutur. «Məscid» dərdini «kafe-şantan» dərdi, «zahid» dərdini «obrazovannı» dərdi üstələyir. Xalq - «intelligent» konflikti ziyalı və avam kütlə arasındakı keçmiş konfliktdən prinsipial şəkildə fərqlənir. Axundzadənin «ruhani» və «cismani» azadlıq ideallarını indi milli bərabərlik, mənəvi-milli birlik və ittifaq üçün məsuliyyət problemi şəklində görürük. Xalqdan uzaqlaşmaq, milli «mən» sizlik, simasızlıq bəlası maarifçiliyin «avropalaşmaq» çağırışlarına qarşı əks mətləblər kimi irəli sürülür.

«Təmsilat»da saf, büllur və xalis gülüş rəngləri, şən yumor boyaları var. Bu gülüş göz yaşı ilə islanıb ləkələkə olmamış, ona hələ qüssə və faciə xalı düşməmişdir. Bu gülüş hələ öz faciəsini dərk etməmiş maarifçiliyin gülüşü və nikbinliyidir, onun «qayğısızlıqı» və fərəhi, ilk gənclik çağlarıdır. Tələşlı bir qayğıkeşlik, narahatlıq dövrünü Haqverdiyevdə və Vəzirovda keçirən realist bir bədii-estetik təfəkkür tərzi Mirzə Cəlildə müdriklik və ağsaqqallıq dövrünü yaşayır (Mirzə Cəlil realizmindəki bədii tragizmi Mirzə Fətəlinin nəsrindəki və fəlsəfi əsərlərindəki tragizmlə müqayisə etmək olar).

Saf, müstəqim və nikbin Axundzadə realizmindən sonra Mirzə Cəlilin üslubca sərt, qeyri-müstəqim, ironiyalı, eyhamlı və təzadlı, tendensiyaca gizli, dərin, «daxili» mənalı, «mürəkkəb» realizmi gəlir. Bu, ədəbiyyatın estetik inkişaf qanunauyğunluqlarından biridir. Rus realizmi də Puşkindən sonra «çox şey kəsb etməklə bərabər, Puşkinə məxsus harmonik bir aydınlıqdan uzaqlaşır» (A. P. Çudakov).

Axundzadədə bədii təhlil, təsdiq və tənqid üsulu birbaşa, büllur və pozitivdir: daxili təzad, gizli tendensiya, dialektik mürəkkəblik hələ burada yoxdur. O, hələ ağlı «dəlilik»də, mənəvi bir oyaqlığı «sərxoşluq»da, fəryadı və göz yaşını gülüşdə, qəhqəhədə təsvir etmir. Onda ictimai simvolika bədii sistem səviyyəsi almır. Mirzə Cəlilin tənqidi realizm metodunu isə məhz estetik inkarla ifadə olunan dolayı bir bədii təsdiq üsulu şərtləndirir.

Müəllif «mən»i ilə bədii surətin «mən»i, obyektiv gerçəkliklə gerçəkliyə müəllif münasibəti burada nəinki ayrılır, fərqləndirilir, bəzən tam bir ziddiyyət təşkil edir. Onun tendensiyası dediklərində yox, demədiklərində, deməyib saxladığı mətnaltı mənada ifadə edilir. Bu realizm maarifçilik ideallarının sarsıldığı, illüziyaların həqiqətlərlə əvəz oluvduğu bir dövrü və prosesi əks etdirir.

M.F.Axundzadə maarifçi milli düşüncənin tipik bədii ifadə vasitəsi olan ənənəvi səfər qeydlərinə - səyahətnaməyə müraciət edir və iki şahzadənin (!) «odisseyasını» yaradır. Sonrakı dövrlərdə biz daha şahzadələrin söylədiyi ittihamnamələrə rast gəlmirik: Ə.Haqverdiyev artıq «xortdanın səyahətindən» bəhs açır; Sabir Hophopun, Mirzə Cəlil isə Məhəmmədhəsən əminin «odisseyasını» yaradırlar!...

M.F.Axundzadədə, N.Vəzirovda Sona ilə Heydər bəyin, Fəxrəddinlə Səadət xanımın poetik, şairanə sevgisi, Mirzə Cəlildə isə məzlum, müsəlman qadının

könüllü olaraq, «cənnət nəfi üçün» şeyxə «siğə olunması», doqquz yaşlı Nazlının heyvərə Mir Bağır ağaya nişanlanması kimi bilavasitə ictimai ifşa və ittiham məzmunlu, satirik «sevgi» süjetləri... Maarifçi poeziyada hələ ənənəvi «məşuqə», Sabirdə «fatma-tükəzbanlar», «anyalar və sonyalar» mövzusu! Mirzə Cəlildə şərin təntənə etdiyi uğursuz, perspektivsiz sonluq, tipik novella finalları (Novruzəlinin həbsi, Zeynəbin faciəsi, İskəndərin mənəvi müsibəti, Məhəmmədhəsən əminin ziyarət həsrəti) və Mirzə Fətəlidə xeyrin həmişə qalib gəldiyi tipik finallar (Səkinənin, Heydər bəyin, Teymur ağanın yalnız maarifçi poetikanın bəraət verdiyi «xilaskar təsadüflə» təmin olunan uğurlu, nikbin taleləri).

Mirzə Cəlilə qədər bütün «dağılan tifaqlar» feodal tifaqlarıdır. «Danabaş» isə artıq Novruzəlinin, Məhəmmədhəsən əminin «dağılmış tifaqı»nın təsvir edildiyi aləmdir. Bu aləmin təsvirində heç bir sərgüzəşt və əyləncə süjeti, təsadüfi final, eşq intriqası yoxdur.

Elə bütün bunlara görədir ki, Axundzadədə Şahbaz bəyin doğulduğu «Qamışlıq» və Mirzə Cəlilin «Danabaş kəndi» çoğrafi cəhətdən yaxın olsa da, estetik cəhətdən tamamilə başqa-başqa «ərazilər» kimi meydana çıxır. Hətta simvolik «Danabaş» obrazı özü realist milli ədəbi şüurda tamamilə təzə bir obraz kimi doğulur. O, milli nəsrə özünün bütün əhalisi ilə birlikdə gəlir və «Qamışlıq»dan fərqi də birinci növbədə məhz buradakı kəndli obrazlarının təsvirində özünü göstərir. Bu vaxta qədər hamıda, hətta Haqverdiyevdə də («Bəxtsiz cavan») kəndli məsələsi ziyalı-mülkədar maarifçiliyinin islahatları ilə əlaqələndirilir və «kəndli də adamdır» prinsipi hüdudlarında həll edilirdi. Kəndli mənafeyi problemi bədii şüurda müstəqil milli və ictimai problem kimi ilk dəfə tənqidi realizmdə irəli sürülür. Bu zaman, ədəbiyyatın hər şeydən əvvəl, qəhrəmanı dəyişir. Adi, sadə, zəhmətkeş xalq adamı olur və Mirzə Cəlil müasir-

liyin ədəbiyyat «Kəbəsinə» Azərbaycan kəndlisinin «çarıqları ilə girir» (Əli Nazim). Bu da təsadüfi deyil: tənqidi realizmi böyük ədəbiyyata həmişə, hər yerdə, adətən, bu «balaca adam» gətirir. Sənətin zirvəsinə, ərşinə və fövqünə yüksəlmək üçün həyatın dibinə, çamırma, çökəyinə enməyin yolu ilə gedən bu realizm öz mənasında sadəlik və böyüklük, ucalıq və dərinlik keyfiyyətlərini birləşdirir.

Doğrudur, bədii şüurun tarixini səhifələsək, balaca adamın da ilk sələfini hələ M.F.Axundzadədə tapmaq olar. Lakin adi adam indi tənqidi, realist milli şüurun vəzifələri və proqramı baxımından təhlil edilir və bədii düşüncənin ən əsas predmetinə çevrilir. Elə bil Mirzə Cəlil realizmin işığını Heydər bəyin, Hacı Qaranın üzündən çevirib Zalxanın, Bayramın üzünə salır.

Nəhayət, qadın surətləri milli bədii düşüncənin bu mərhələsində ən müasir mənada milli və ictimai hüquq bərabərliyi mövqeyindən təhlil və təsvir olunur. M.F.Axundzadədə sevgi süjetində hələ heç bir səhv və faciə ünsürü yoxdur: Sona, Səkinə, Şölə xanım, Şərəfnisə - heç biri səhv etmir, «inkisari xəyalə» uğramır və onların sevgi taleyi ictimai ittiham və ifşa vasitəsinə çevrilmir. Burada hələ məhəbbət cəmiyyətə təhlil verməyin üsulu deyil: Bəhramın pula uyub, Saranı atması kimi, Mariya Andreyevnanın Çatskini gözləməməsi və ağlı şöhrətə dəyişməsi kimi, Lizanın Karenini Protasova dəyişməsi kimi və s. Qadın - cəmiyyətə qiymət və təhlil verməyin simvoluna Mirzə Cəlildə, Sabirdə, daha sonra Cabbarlıda çevrilir. Avamlıq, din və cəhalət bu realizmin də xammalı və materialıdır. Lakin burada din də artıq qeyd etdiyimiz kimi, daha müasir ictimai bəlaların kökü, zəmini olması mənasında günün aktual və ümummilli problemləri və fəal inqilabi demokratiya mövqeyindən tənqid olunur. Milli realist ədəbi-bədii fikirdə mülkədara, bəyə, ağaya, çinovnikə gülmək, komediya, həcv həsr

etmək qədim ənənə idi. Ancaq xalqın öz mənafeyi cəbhəsindən xalqın özünə gülmək, kəndlini, fəhləni çox ciddi tənqidi münasibətin predmeti etmək, xalqın öz ətalətinə, sadəlövhlüyünə, mütilik və avamlığına, mövhumat və fanatizminə gülmək - məhz sənətdə vətəndaşlıq və müasirliyin daha fəal bir demokratizmi, nə zaman nəyə gülmək lazım olduğunu duymaq həssaslığı demək idi. Cəmiyyətin əsas sükançısını kimdə körmək məsələsi yalnız «kimi tərənnüm etməyi» yox, «kimi tənqid etmək», inkar etmək, yaxud milləti necə tərbiyələndirmək prinsipini də müəyyən etmiş olur. Nadanlığın ziyalıda, mülkədarda yox, kəndlidə təzahürünə fəal marağın səbəbi bu idi.

Milli ədəbi şüurun M.F.Axundzadə dövrünün bədii güzgüsündə iri planda görünən - hakim ictimai təbəqələrin özüdür: «Saraylıların», «nuxulların» ictimai tərkibinə baxmaq kifayətdir. Axundzadə, əsasən, nadan, yekəbaş «yuxarıları» tənqid edir. Mirzə Cəlildə isə «ictimai yuxarılara və aşağılara» ayrılan diqqətin nisbəti dəyişir. Məhz «aşağıların» həyat tərzini tənqid etmək yolu ilə «yuxarıların» tarixi taleyinə də hökm oxumaq! - bu, millətin tarixinə və taleyinə münasibətdə müasir milli marağın, mənafeyin böyük tələbi və realist, novator bir həqiqəti idi. Azərbaycanda realist-milli ədəbi fikrin iki böyük tarixi mərhələsi arasındakı ictimai-estetik fərq bir də elə bu iki gülüşün məzmunu və hədəfi arasındakı fərqdə idi! Onun elmi-nəzəri müşahidəsi və qiyməti ədəbiyyatşünaslıqda artıq öz ifadəsini tapmışdır. Poeziya tariximizdə çılpaq, empirik faktları yox, qanunauyqunluqları, prosesləri mütaliə edə bilmək keyfiyyətinin yaxşı nümunəsi olan aşağıdakı hökm buna misaldır: «Öz böyük sələflərindən fərqli olaraq, Sabir düşmənə yox, dosta gülür, zalimə yox, məzluma müraciət edir» (M. Cəfər). Bu doğru müşahidəni bütünlükdə tənqidi bədii şüur və ədəbi metod miqyasında ümumiləşdirmək olar.

Cəmiyyəti hərəkətə gətirə biləcək qüvvələrin sorağında realist milli düşüncə cəmiyyətin bütün zümrələrini ələk-vələk edir, millətin ziyalısı yatıbsa, onu söyür, avamı, kəndlisi, fəhləsi yatıbsa, danlayır, ayılmağa çağırır.

Lakin onun milli intibaha çağırışlarının mərkəzində yenə də hamıdan çox avam kəndlinin - Novruzəlinin surəti dayanmışdır. Ədib Novruzəliyə milli şüur tələtümü və hərəkəti dövründə mənəvi durğunluğun və iflicin səbəbini, sirrini axtararkən rast gəldiyi bir obraz kimi müraciət edir, Novruzəli - milli nəsrdə sadə, «kiçik» qəhrəmanın modeli, etalonu səviyyəsində bir surətə çevrilir və tənqidi realist tipli milli şüurun proqram qəhrəmanı olur.

Tarixin, ictimai inkişafın hərəkət orbitindən kənarda qalan Novruzəli ədəbi-estetik fikrin, tənqidi milli şüurun ən əsas düşüncə orbitinə daxil edilir...

«Zəmanənin qəhrəmanı» kimi seçilən Novruzəlidə məhz milli «mən» və şüur baxımından zamanın intellektual və ictimai həyatından bir iz, əsər-əlamət belə yoxdur. Məhz əsrlə Novruzəli arasında əlaqə və təzad baxımından Mirzə Cəlil Novruzəliyə daxili bir nəzər salır, bir həməsr, həmvətəndaş kimi onun malik olduğu mənəvi çəkiyə, ictimai vəznə qiymət verir və məlum olur ki, mövcud ictimai münasibətlər şəraitində Novruzəli çoxdan «çəkisizlik şəraitində» yaşayır.

Ədib bu qəhrəmanın varlığında sağlam, normal milli və fəlsəfi-siyasi mənada «şəxsiyyət» axtarır və tapmadığı bu keyfiyyətin olmadığı bir boşluğu təhlil edir.

Novruzəli ümumiyyətlə müsbət insani keyfiyyətlərdən məhrum deyil: ictimai-siyasi, hüquqi keyfiyyətlərdən məhrumdur. Hətta onun bilavasitə iqtisadi kasıblığı da (zəruri olan hər şeyi var, gətirdiyi paydan, sovqatdan da görünür) ədibi az narahat edir, ictimai-siyasi, hüquqi cəhətdən kasıblığı isə hekayədə hərtərəfli bədii təhlilin predmeti kimi seçilir.

Bu dövrdə Azərbaycanda «xalqçılıq» hətta ictimai-fəlsəfi fikirdə də ayrıca təmayül şəklində olmasa da, ayrı-ayrı təzahürlər səviyyəsində özünü göstərir. Bu meyl rus xalqçılığından fərqlənirdi və onun mahiyyətində təhkimçiliyə qarşı yox (Azərbaycanda təhkimçilik yox idi) milli asılılığa qarşı etiraz və xalqı gerilikdən xilas etmək ideyası dururdu ki, bu da onu istiqlal və cümhuriyyət ideyasına yaxınlaşdırırdı.

* * *

XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiyanı bürüyən azadlıq hərəkatının qüvvətli əks-sədası Azərbaycandan eşidilir. Artıq əsrin sonunda meydana çıxan bir sıra əsərlər, xüsusən C. Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» povesti milli düşüncədə yeni bədii mərhələdən - yeni tipli realist ədəbiyyatın yaranmasından danışmağa əsas verir. Səksən-*doxsanınçı illər* - iki əsrin keçidi olan bu dövr Azərbaycanda milli-estetik fikrin və bədii təfəkkürün iki böyük tarixi mərhələsi arasındakı keçidi də tarixən hazırlayır. Məhz həmin illərdə XX yüzilin inqilabi-demokratik bədii hərəkatı, klassik tənqidi realizmi və yeni romantizmi üçün zəmini artıq görürük.

Realist milli şüur və milli ədəbi ənənə qarşısında duran şərtlərə bir vəhdət və sistem halında biz Balzak və Tolstoy, Mopassan və Dikkens, Qoqol və Ostrovski, Dostoyevski və Çexov, Mirzə Cəlil və Sabir kimi klassiklərin yaradıcılığında rast gəlirik. Oxşar, uyğun və ya identik cizgiləri həmin klassikləri yetirən tarixi-ictimai epoxaların özünün tipologiyasında da izləmək olar: Avropada klassik realist ənənə (Balzak, Stendal, Mopassan) - Fransa inqilabları və kommuna dövrünə, Rusiyada belə ənənənin ilkin təşəkkülü - dekabristlər hərəkatı və inqilabi demokratiyanın yüksəlişi illərinə

təsadüf edirsə, Azərbaycanda yeni dövrdə realist milli düşüncənin taleyi 1905-1907-ci illər inqilabı, Səttarxan və Xiyabani hərəkatları ilə müəyyən olunur.

Ən böyük inqilabi fəallıq və narahatlığın bu tarixi ərəfəsi ilə irəli sürülən estetik vəzifələrə cavab verməyə Azərbaycanda milli bədii fikir artıq hazır idi. İki inqilab ərəfəsinə o, boş və yalın əllə gəlməmişdi: gətirdiyi milli intibah şüuru, sənət və məfkurə nailiyyətləri idi. Beləliklə, yeni əsrin əvvəllərində həm ictimai, obyektiv-tarixi inkişafın, həm də ədəbi prosesin özündə daxili-estetik inkişafın ümumi səviyyəsi ilə tənqidi realizmin qəti qələbəsi üçün labüd, zəruri zəmin və şərait hazırlanmış olur: «Avropa kultu» taxtdan düşür; ictimai böhranı Avropa və Rusiyanın öz yerli, milli ziyalı və mütəfəkkirləri də get-gedə daha dərindən dərk etməyə başlayırlar.

Digər tərəfdən, keçmiş Rusiya Şərqinə mütərəqqi «Rusiya təsiri» ictimai-fəlsəfi və tarixi baxımdan indi daha aydın dərk edilir, milli istiqlalçı şüurun nəzərində «iki müxtəlif Rusiyanın» iki müxtəlif təsiri kimi fərqləndirilirdi. Bu təsirdə Puşkin və Belinski Rusiyasına məxsus obyektiv tarixi-mədəni rolun məzmunu ilə yanaşı, Nikolay və Lyaxov Rusiyasının fəaliyyətindəki milli-müstəmləkəçilik məzmunu da real tarixi fakt kimi oyanan, tərəqqi edən ictimai-bədii fikri düşündürürdü. Daha doğrusu, bu iki böyuk təsir amillərindən də elə birincisi ikincisini də şərtləndirirdi: rus inqilabi demokratiyasının yerlərdə tapdığı əks-səda ictimai, sinfi, həm də milli əsarətə müxalifət hissini gücləndirir, mənəvi-məfkurəvi mübarizəyə ideya-nəzəri müsəlləhlik gətirirdi. Avropaya hər hansı «aludəlik» təzahürləri əvəzinə indi ayıq və oyaq tənqidi münasibətə tarixi ehtiyac əmələ gəlir. Obyektiv ictimai amillərlə şərtlənən və həm də məhz maarifçi fikrin ideoloji nailiyyəyətlərilə hazırlanan bu böyük tarixi ehtiyaca tənqidi realizm cavab verir. Bütün xalqlarda tənqidi realizmin mahiyyətini ifadə edən estetik kriteriya və prinsiplərlə ən böyük tipoloji uyğunluq Azərbaycanda XX əsrin ədəbi hadisələrilə müqayisədə özünü göstərir. Yeni dövrdə Azərbaycanda realist ədəbi üslubun ümumxalq və ümummilli bir düşüncə səviyyəsində ən müasir dünya estetik prosesində iştirakı məhz bu hadisələrlə təmin olunur. Məhz «Usta Zeynal»ın, «Poçt ququsu»nun timsalında bədii yaradıçılığın Şərq qanunauyğunluqları vahid dünya estetik prosesi ilə ən yüksək səviyyədə qaynayıb-qarışır. Azərbaycan ədəbiyyatında milli realizmin müəssisi böyük M.F.Axundzadə sosial-mənəvi gerçəklikdə feodal əlaqələrinin hələ çox qüvvətli olduğu ictimai-tarixi bir dövrün böyük maarifçi realisti olursa, Mirzə Cəlil və M.Ə.Sabir üslubu iki inqilab ərəfəsi olan yeni tarixi dövrün klassik tənqidi realizmi kimi formalaşır.

Hər iki klassikin aşağıdakı sözləri onların yaşayıb-yaratdıqları epoxanı, iki müxtəlif siyasi və mənəvi-əxlaqi mühiti də fərqləndirmək baxımından mənalıdır: «...Mənim xalqım hələ fikir azadlığını başa düşmür» - o vaxt bu sözləri M.F.Axundzadə şəxsi məktubda yazır və imzasını gizli saxlamağı naşirdən inadla xahiş edirdi. «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!» - Mirzə Cəlil isə bu sözlərlə eyni mətləbi konkret ünvana, özü də açıq imza, birbaşa xitabla çatdırır və «o kəsləri ki,» deyərək, «fikir azadlığı»ndan məhrumları bütün peşə, şüur və məşqələ qəribəlikləri ilə bir-bir sadalayırdı.

Ədəbi-estetik polifonizmi, həmçinin, movzu, motiv, təsvir vasitələri sahəsində də görürük. XX əsrin maarifçi təhlil meyarı feodalizmlə yanaşı, həm də burjua əxlaq tərzinin təzadlarına qarşı çevrildiyi kimi, tənqidi realizm də onların hər ikisini öz ifşa pafosunun ümumi hədəfi kimi birləşdirmişdi. Əgər «Pəhləvanani zəmanə» (N.Vəzirov), «Cəhalət fədailəri», «Neft və milyonlar səltənəti» (İ.Musabəyov), «Studentlər» (Y.V.Çəmənzə-

minli), «Gəlinlər həmayili» (S.M.Qənizadə), «Əhmədin qeyrəti» (A.Səhhət), «Məktub yetişmədi» (A.Şaiq) movzuca burjua-ictimai gerçəkliyinin təsviri, metodca maarifçi realizm (yaxud, romantizm) idisə, tutaq ki, «Ölülər», əksinə, mövzuca feodal-patriarxal məişətin təsviri, fəqət metodca tənqidi realizm idi. Metodların bütün tipləri və silahları ilə ümumi bəlalara atəş açılırdı. Belə bir şəraitdə təbiidir ki, şəhər həyatı və fəhlə surəti maarifçi realizmin güzgüsündə görünür, feodalizm və mövhumat isə tənqidi realist düşüncənin də satira qamçısına hədəf ola bilirdi.

Burada başqa bir qanunauyğunluq da özünü göstərir: Danabaş kəndi, yaxud İtqapanlı artıq feodalizm dovrünün feodal-patriarxal kəndi deyildi, imperializm və inqilabi mübarizələr dövrünün (ümumrusiya və dünya miqyasında) feodal-patriarxal kəndi idi. Odur ki, o, bu yeni, müasir dövrün realizm tipinin - tənqidi realizmin hədəfinə çevrilirdi. Eynilə maarifçi realist üslub da yeni gerçəkliyin - burjua-kapitalist gerçəkliyinin tənqidinə daha çox diqqət ayırmalı olurdu.

Belə bir sosial polifonizm ictimai gerçəkliyin özündəki mürəkkəbliklə (həm «orta əsrlərin», həm də burjua yeni dövrünün eyni vaxtda, bir yerdə olması faktı ilə) şərtlənirdi. Belə ki, artıq doxsanıncı illərdən Azərbaycanda kapitalizmin sürətlə inkişaf etməsi və milli burjuaziyanın formalaşması Bakını dünya əmtəə tədavülü dövriyyəsinə daxil edir. Milli burjuaziya, hər yerdə olduqu kimi, burada da, öz tarixi missiyasını yerinə yetirir: milli «mən» şüurunun və milli mədəniyyətin, onların hər ikisinin birlikdə nəticəsi olan milli hərəkatların epoxasını başlayır. İlk milli mətbu orqan - «Şərqi-Rus» (M.Şahtaxtinski, 1903-1905) bu zaman yaranır, «Molla Nəsrəddin» və «Füyuzat»la yüksək səviyyəyə çatır, son dərəcə zəngin, mürəkkəb, təzadlı yol keçir və yekununu Müsavat mətbuatının («Açıq söz», «İstiqlal», «Azərbaycan»...) meydana çıxması faktında tapır.

Bakıda başlanan milli hərəkat ümumazərbaycan miqyası alır və öz əks-sədasını İran məşrutə hərəkatında tapır. Tehranda məşrutə elan olunur, məclis açılır və «Qanuni-əsasi» qəbul edilir (1906). Məşrutə hərəkatına və yüksələn İran inqilabına «sərdari-milli» - Səttarxan başçılıq edir.

M.Ə.Rəsulzadə Təbrizdə və Tehranda onunla görüşür, burada firqə yaradır və qəzet buraxır. Bütünlükdə İranda Məşrutənin bərqərar olmayacağı təqdirdə Azərbaycanın müstəqilliyi ideyası irəli sürülür. Şahlıq istibdadı (Məhəmmədəli şah) irtica ilə cavab verir və Rusiyadan dəvət olunan Lyaxov Tehranda Məclisi topa tutur (1908).

İkinci məclis Səttarxanı Tehrana danışıqlara dəvət edir (1909). Burada xəstəxanada onu zəhərləyib öldürürlər.

Beləliklə, Azərbaycanda ədəbi hərəkatın, yeni milli ədəbi şüurun istiqamətini şərtləndirən geniş ictimai fon, obyektiv-tarixi «kontekst» rolunu Rusiya mühiti ilə yanaşı, həm də bütünlükdə Yaxın Şərq oynamağa başlayır. Əsrin əvvəllərində məhz ümumşərq miqyasında inqilabi təsir amilləri xeyli güclənir. Cənubi Azərbaycanda milli azadlıq hərəkatı (1906-1911) daha böyük vüsət alır. Türkiyədə isə «Gənc türklər» hərəkatı (1908-1909) baş qaldırır. Cəmiyyətdə, sosial təraqqidə inkişaf inqilabi səciyyə almağa başlayır. Bu inqilabi ruh müxtəlif çeşiddə (saxta və həqiqi, süni və təbii) mahiyyəti ilə seçilir, daha çox publisist və bədii-estetik formalarda özünü göstərir.

Məhz bu dövrdə Azərbaycanda inqilabi demokratiya ideyaları təşəkkül tapmağa başlayır. Şübhəsiz, Azərbaycanda belə bir «inqilabi demokratiya» təlim kimi, milli ənənənin təbii, qanunauyğun inkişafında mərhələ kimi onun qeyri-milli, rus modelində bu milli ənənənin özündən doğulmur: qədim və orta əsrlərə xas klassik ideya-fəlsəfi ənənənin maarifçi və inqilabi-

demokratik əqidəyə, buradan da marksizmin təsiri ilə bolşevizmə keçməsi barədə mövcud «konsepsiya» heç bir tənqidə dözmür. Marksizm qneseoloji mənbə kimi yox, kənar, yad ideoloji təsirin milli-ədəbi-tarixi prosesdə əlaməti, təzahürü kimi götürüləndə, yalnız bu zaman Azərbaycanda estetikada və bədii fikirdə «proletar» və «bolşevik» ideologiyaya meylin təşəkkülü problemi öz elmi izahını tapa bilir. Klassik irfani gələnəyin və təsəvvüfün mütərəqqi tendensiyalarının, milli maarifçiliyin, Axundzadə başlanğıcının mənbə və mənşə rolu, etnik yaddaşın, gen və qan kodunun, irsiliyin qanunauyğunluğu bu prosesdə iştirak etmir.

Sosialist realizmi fenomeni və «proletar ədəbiyyatı», RAPP, Az.APP, LEF-çilik, konstruktivizm və vulqar sosiologizm həm estetik, həm də ideoloji bir hadisə kimi Azərbaycanda yalnız kənardan, qeyri-milli zəmindən (Rusiyadan!) mexaniki idxal şəklində baş verə və mövcud ola bilmişdir.

Necə ki, Azərbaycanda heç ümumiyyətlə, sözün klassik mənasında «proletar hərəkatı» və «sosialist inqilabı» da olmamışdır. XI Ordunun özü ilə Rusiyadan gətirdiyi Aprel çevrilişi və suveren milli Respublikaya qarşı kənardan dövlət «qəsdi» olmuşdur. Azərbaycanda sinfi yox, milli, məhdud «bolşevik» yox, miqyaslı ümumxalq hərəkatı və düşüncəsi – «azərbaycançılıq» (!) ideologiyası olmuşdur və o, öz təzahür və yekununu «Müsavat» (1911-1920) firqəsinin proqramında, həyati, əməli gerçəkliyini isə ilk Azərbaycan Cümhuriyyətinin yaranması aktında tapmışdır. Dünya ədəbiyyat tarixləri həm də siyasi-inqilabi fikrin şüurları inqilaba hazırlamasından bəhs edir, yalnız inqilabi hərəkatla hazırlanan yox, həm də inqalabi hərəkatı hazırlayan (!) əsərlərdən və simalardan da bəhs edirlər (şüurları yaxınlaşan inqilaba hazırlayan böyük Avropa maarifçilərinə verilən klassik qiymətləri xatırlatmaq kifayətdir).

Azərbaycanda da XX yüzilin əvvəlinin milli-ədəbi intibahı obyektiv olaraq, həm də Yaxın Şərq və Rusiya miqyasında istiqlal hərəkatı ilə hazırlanmış, ümummilli şüur AXC istiqlalı ilə nəticələnən milli hərəkatı hazırlamışdır. Üstəlik o özü İran, Türkiyə inqilablarının tülusunda iştirak etmişdir.

Yeni yüzilin üzü sabaha, tərəqqiyə səmtlənmiş milli düşüncəsinin vahid nəzəri-estetik fikrini və ədəbi tənqidini də hər iki ədəbi təmayül (realist və romantik) vəhdətdə ifadə edirdi. Əlibəy Hüseynzadə, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu, Seyid Hüseyn (Kazımoğlu), Abdulla Sur, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Hacı İbrahim Qasımov, Eynəli bəy Sultanov, Hüseyn Minasazov... hamısı eyni bir böyük, müqəddəs, milli, beynəlmiləl ədəbiyyatın ideya şərəfi və bədii-estetik ləyaqəti keşiyində dayanmışdı, onda milli-bəşəri dəyərlərin, islama və türklüyə güvənən ideya sərvətinin qarantı rolunda çıxış edirdilər. Ədəbi tənqidin birmənalı, sabit ideya pafosu əsasən iki hədəfə, iki sxolastikaya qarşı çevrilmişdi: orta əsrlərin artıq çoxdan özünü tükətmiş, epiqon, patriarxal mistikasına, məzhəb fanatizminə qarşı və... hələ təzəcə başlayan əsrin ən yeni, novator, modern sinif, diktatura, firqə («bolşevizm!») fanatizminə qarşı. Aşkar zahiri fərqləri ilə bərabər, onların hər ikisini eyni bir vulqar əyri, əyinti birləşdirirdi: ümumbəşəri bədii fəlsəfə bunlarda məzhəb, yaxud sinfi mənafeyi çərçivəsində çılpaq ideologiya, siyasət səviyyəsinə endirilirdi.

Belə bir ədəbi «bolşevizm» bədii ənənəyə nə qədər yol alsa və milli mühitə süni yolla kənardan gətirilsə də, artıq formalaşırdı (S. Ağamalı oğlu, A. B. Yusifzadə, T.Şahbazi və s.).

Azərbaycanda bolşevik səpkili yerli mətbuatın nümunəsi olan «Hümmət»lə (1904) yanaşı, əsrin əvvəllərində Bakıda çıxan «Dəvət-Qoç» (1906), «Prizıv»,

«Bakinski raboçi», «Təkamül» (1906), «Yoldaş», «Ryadavoy», «Qudok» kimi bilavasitə bolşevik qəzetləri də yayılır, sol radikal ideya təbliğatının təsiri və rolu artırdı. Bu vaxta qədərki Azərbyacan ədəbiyyatşünaslığında tam yeni tipli «proletar ədəbiyyatı»nın ilk qabarıq nümunələri hesab edilən «Tazə həyatın tüluunda», «Çak-çuk» hekayələri və «Mis mədəni» pyesi (Seyid Musəvi) əsərlərinin məhz bolşevik mətbuatında - «Dəvət-Qoç» və «Təkamül» qəzetlərində meydana çıxması təsadüfi deyildi.

Lakin bu ifratlara tam zidd qütb təşkil edən ikinçi əks çağırışlara və hadisələrə də bu dövrdə rast gəlirik. Qumri, Dəxil, Dilsuz kimi şairlər öz nəğmələrini artıq oxuyub qurtarsalar da, onların yeni davamçılarının səsi eşidilməyə başlamışdı. Bunlar müasirliyin təsirindən tamam kənarda, ekoloji konservasiyada qalan «orta əsr sədaları» idilər. Həmçinin, «Bahar», «Şəqayiq», «Nilufər», «Məzlumnamə», «Gülzari-bahar», «Nələr lazım», «Bir yetimin naləsi», «Cənnətül-guşa» tipli yeni «ədəbiyyat axını»mın ədəbi aləmə yol tapa bilməsi də xarakterik idi.

Bədii şüurun ictimai həyatı idrak və inikas fəallığı yalnız tənqidi realist üslubda xüsusi vüsət alır. Cəmiyyətin hərtərəfli sosioloji xəritəsi bədii-psixoloji təhlilin bilavasitə predmeti olur. Həyati faktların bir-biri ilə əlaqədə, bağlılıqda, vəhdətdə ifadə etdiyi ümumi tendensiyanı, konkret tarixi və ictimai mahiyyəti «mütaliə» etməyin yeni estetik prinsipləri müəyyənləşir. «Molla Nəsrəddin» ədəbi məktəbinin yeni tipli realizmi təkcə milli bədii şüurda yox, həm də bütünlükdə milli-ictimai şüurda böyük intibah aktı kimi doğulur.

Tənqidi realizmin məfkurə əsasını artıq burjua epoxasının yaratdığı demokratik ideologiyanın və kamala çatan millətçi məfkurənin nailiyyətləri təşkil etməyə başlayır. Fərdi ünvanları yox, müflis bir ictimai həyat

və quruluş tərzinə etiraz və üsyanı bütöv bədii bir proqram kimi məhz bədii şüurun bu yeni mərhələsi elan edir. Tarixi epoxanın, ictimai gerçəkliyin özü tənqidi realist ədəbi fikrin klassik təşəkkülü ərəfəsi, tədqiq və təhlil, inkar və üsyan hədəfi kimi «formalaşır».

Bütün bunları nəzərə almadan milli bədii fikirdə həyatın realist təsvirinə doğru hərəkətin məntiqi qanunauyğunluğunu və özünəməxsusluğunu başa düşmək və izah etmək qeyri-mümkündür. Belə ki, böyük Fransa inqilabından sonrakı realizm prosesləri 1905-ci il inqilabından əvvəlki Azərbaycan mühitində ola bilməzdi. Nəinki 1905-ci ildən sonrakı Sabirlə həmin inqilabdan əvvəlki Axundzadə arasında, hətta 1905-ci ildən əvvəlki və sonrakı Sabirlər arasında da ciddi metod, dünyagörüşü və obrazlı təfəkkür fərqi vardır: qəzəlxanla, mərsiyə yazanla inqilab nəğməkarı arasında dönüşün «müəllifi» məhz birinci rus inqilabı dövrünün istiqlal hərəkatı idi!.. XX əsrin bütünlükdə demokratik ədəbi fikrini artıq ümumiyyətlə maarifçilik yox, onun ictimai-milli qeyrətlə və inqilabi vətəndaşlıq idealları ilə bağlı motivləri cəlb edirdi.

«Maarif bizə nə üçün lazımdır?» - sualına Üzeyir Hacıbəyovun cavabı XX əsrin demokratik nailiyyətləri şəraitində maarifçilik tendensiyalarının rolu və mövqeyi məsələsini başa düşməkdə bizə açar verir. Böyük bəstəkar, publisist və dramaturq belə qərara gəlirdi ki, burjua-demokratik inqilablarında iştirak edə bilmək üçün əvvəlcə milli-daxili hazırlıq, «öz içimizdə xüsusi bir inqilab» lazımdır: «Biz bunu anlamaq istəməyirik ki, bu saat sairlərdən ötrü bir ümumi inqilab yetişdiyi vaxt, bizim camaat üçün iki inqilab vaxtı yetişibdir ki, onlardan biri haman ümumi Rusiya inqilabıdır və digəri isə öz xüsusi inqilabımız olmalıdır; yəni: indiki zaman o zamandır ki, bizim camaat ümumrusiya inqilabında iştirak etməyə məcburdur, lakin bu Rusiya

inqilabında iştirak edə bilmək üçün öz içimizdə bir xüsusi inqilab törətməyə məcburuq, çünki əsarəti hürriyyət bilə-bilə, zülməti nuri-maarif bilə-bilə, maziyə ricəti tərəqqi bilə-bilə -Rusiya hərəkəti-azadi cuyanəsində iştirak etmək mümkün deyildir» (Üzeyir Hacıbəyov, Əsərləri, III c., s. 135). Həmçinin, «N. Nərimanov Azərbaycan xalqanın mədəni geriliyini nəzərə alaraq, həmişə inqilabi və mədəni-maarif işlərinin əlaqəli aparılmasına böyük əhəmiyyət verir, maarifçiliyi xalqı inqilabi hərəkata hazırlamağın mühüm vasitəsi hesab edirdi» (F. Köçərli. Nəriman Nərimanov, B., 1965, s. 75). Bu cəhət tənqidi realistlər (Mirzə Cəlil) üçün daha səciyyəvidir: «Həzərat, bizə nə məktəb, nə elm lazımdır... Elm artdıqca zabastovka da olar və sair fəsadlar da olar. Hərgah o əmələlər heyvanlıqlarında baqi qalsaydılar, belə şeylər olmazdı və şəhərimiz səlamət qalardı».

Azərbaycanda maarifçi milli şüurun yeni mərhələsinin və demokratizmin yüksəlişinin eyni vaxta düşməsi öz nəticəsini yalnız bunlardan birincisinin artıq «ictimai fikrin həlledici amili olmaqdan» qalmasında və arxa plana keçməsində tapmır. Daha əhəmiyyətli və tipoloji baxımdan daha orijinal nəticə o olur ki, milli maarifçilikdə ən mütərəqqi tendensiyaların intensiv bir inqilabiləşməsi prosesi başlayır və inqalabi-demokratik fikir ideoloji mübarizədə inqilabi maarifçiliyin ədəbi-publisist arsenalı ilə də silahlanır.

Metodların sürətli təşəkkülü, möhkəmlənməsi və bir-biri ilə qarşılıqlı əlaqəsi istiqamətində intensiv hərəkətlər Azərbaycanda ən çox məhz XX əsrin ədəbiyyatında baş verir. Lakin bu hərəkətlərin istiqamətində, vahid gedişi prosesində və qanunauyğunluğunda oxunan, ifadə olunan məntiq onları bir-birindən asanlıqla fərqləndirməyə, qiymət və termin dəqiqliyinə nail olmağa kömək edir.

Artıq qeyd etdiyimiz kimi, 1905-1917-ci illərin tarixi ərəfəsində burjua münasibətlərinin inkişaf mərhələləri Azərbaycanda öz normal, klassik formalarını yaşaya bilmir. Lakin bu əlaqələrin və əyrilərin rədd olunmalı olan bədii-siyasi, fəlsəfi və estetik baxımdan dərki, belə tarixi mənəvi proses üçün obyektiv zəmin məhz bu illərin mənzərəsində artıq müşahidə edilir.

Azərbaycanda da böyük realizm - bütünlükdə xalq və onun taleyi bədii düşüncənin əsas hədəfi kimi seçiləndə yaranır. Puşkinin dediyi kimi, *«XALQIN TALEYİ - İNSANIN TALEYİ»* vahid problem kimi dərk ediləndə və irəli sürüləndə yaranır.

Məişət həqiqətəbənzərliyi, gerçəkliyin zahiri təfərrüatı ilə empirik oxşarlığın dərəcəsi yox, xalqın tarixi taleyi üçün məsuliyyət duyğusunun dərki və bədii-fəlsəfi yetkinliyi bu realizmi və onun xəlqilik keyfiyyətini müəyyən edir. Bədii şüurun yetkinliyi isə xalqın özündə, onun çeşidli təbəqələrində milli şüur və mentalitet problemini qaldırmağı ədəbiyyatın vəzifəsinə çevirir: «Bizim xalq kütlələrinin bədbəxtliyinin əsas və ümdə səbəbi bizcə ondan ibarətdir ki, onda bu bədbəxtliyi dərk etmək şüuru hələ zəifdir» (Saltıkov-Şedrin).

Milli «şüur yoxsulluğu» problemi XX əsrin əvvəllərində Azərbaycan ziyalılarını da ən dərindən düşündürən ictimai mətləblərdən biri idi. Yalnız realist bədii fikrin yox, ümumiyyətlə ictimai-fəlsəfi düşüncənin əsas narahatlıq hədəfi idi: «Rusiyada heç bir millət yoxdur ki, biz müsəlman kimi xar və zəlil olmuş ola və həmçinin, heç bir sinif yoxdur ki, bizim kəndçi sinfimiz kimi, hüquqi-mülkiyyə o yanda dursun, hüquqi-insaniyyətdən məhrum olub, həqiqi məzlum adını gəzdirməyə layiq olmuş ola!.. Bizim kənd əhalimiz öylə bir hala qalıbdır ki, hər bir tərəfdən nərəva münasibətlər, zalimanə rəftar və hərəkətə səbr və təhəmmül etməyə məcburdur... Bizim bədbəxt kəndçilərimiz isə

heç bir şeydən xəbərdar deyildirlər. Onlardan ötrü hamı sahibi-ixtiyardır və bu sahibi-ixtiyarların ixtiyarının həddi və hesabı yoxdur» (Ü.Hacıbəyov) - budur Novruzəlinin və Məhəmmədhəsən əminin həyat və məişət tərzinin konkret - sənədli ifadəsi!

«Zülmə və sitəmə, bir qisim ədalətsizliyə bizim kimi səbredici, tabgətirici, qəzasına razıolucu başqa bir tayfa tapılmaz... Bədəsturi-sud məhkəmələrin səhnində, silistçilərin qapısında, pristavların həyətində müsəlmanlar qoyun sürüsü kimi döşəniblər... Birinin cürəti yoxdur ki, divan əmələsindən öz təqsirini xəbər alsın, nə işin xatirəsi üçün dəvət olunmasını bilsin. Hamı üstündə ağalıq edir, hamıdan qorxub ehtiyat eləyir... Dəmir yollarda dəxi yazıq müsəlmanların başına konduktorlar gətirdiyi bəlanı Allah heç kəsin başına gətirməsin» (F. Köçərli). Yaxud «...bütün kəndin ağası ya yüzbaşıdır və ya bir nəfər yasavul! Bütün kənddə bunların hökmü çaridir, bir nəfərin bunlara etiraz etməyə və ya əmrlərinə qulaq asmamağa haqları yoxdur. Hər kəndlinin bəxti və taleyi bu məmurların kefinə bağlıdır. Bunlar istəsələr kəndlini «xoşbəxt» edərlər, istəsələr «bədbəxt» edə bilərlər» (Ü. Hacıbəyov) - budur Xudayar bəy haqqında söylənən bədii həqiqətin sənədli-publisist müşahidə və faktlarla təsdiqi! Eyni kənd haqqanda müşahidənin iki müxtəlif janrla ifadəsi!..

Aşağıdakı sözləri isə konkret, real həyati faktların yaratdığı fərdi vətəndaşlıq əhval-ruhiyyəsi yox, «Eşşəyin itməkliyi» povestinin bədii-ideya pafosunun N. Nərimanova xas publisist təfsiri hesab etmək olar: «...işdən belə görünür ki, davasız vətən yüz illərlə bəslədiyi məqsədinə çatmayacaqdır... Yüz illərlə can çəkişib axırda yenə də ixtiyarsız qul olmaqdansa, məhv və nabud olmaq, can verib getmək, lakin hürriyyət və müsavat kimi şanlı, müqəddəs bir yolda ölmək, şəhid olmaq, əlbəttə, daha məsləhətdir! Yoxsa bu yaşayış

deyildir». «Məhəmmədhəsən əmi dərdi», «Novruzəli problemi» milli nəsrin məhz demokratizmini, bu iki komponent arasındakı birliyin zəifliyini yox, gücünü ifadə edən problem idi. Şübhəsiz, öz mahiyyəti ilə, məqsədi və forması ilə Mirzə Cəlil və Sabir təlimi də «avamı sevmək» (M.Cəfər) demokratizmi idi, amma daha «avama mədhiyyə» demokratizmi deyildi, onu yalandan idealizə etmək, «müqəddəsləşdirmək» sünüliyindən azad idi. Novruzəlini Akaki Akakiyeviçlə də (bu rus «xırda adamı» ilə də) eyniləşdirmək olmaz; o, tamamilə itmiş, məhkum, məhv olmuş, artıq adam deyil, Nekrasovun və Şedrinin «təhkimli kəndlisi» də deyil, Dostoyevskinin «zavallı adamlar»ından biri də deyil.

«Ziyalı», «artıq adam» və onun faciəsi!» - XX əsrin Azərbaycan gerçəkliyində həqiqi milli bədii ədəbiyyat bu sxemlə yarana bilməzdi. Konkret ictimai şəraitin diqqə etdiyi «tipik adam» - «xırda adam» idi.

«Yatan xalq» və «oyanan ziyalı» problemi ziyalı ilə xalq arasındakı münasibətləri hələ yalnız bir cəhətdən xarakterizə edir. Tənqidi realist milli şüurda ziyalı - xalq münasibətlərinin digər bir tipi də vardır. «Mədəniyyətin» eybəcər etdiyi, artığa, lazımsıza, hətta zərərliyə çevirdiyi Rüstəm bəy, Hüseyn Şahid, Səməd Vahid və... hələ «mənəvi uşaqlığın mərhələsindən çıxmamış» xalq nümayəndəsi - çoban!... Bədii ədəbiyyatda milli özünüdərk prosesinin iki xəttini, iki istiqamətini bu zidd qəhrəmanların inkişafı timsalında da izləmək olar. Lakin bu «artıqlar» da «artıq adam»ın klassik realist tipindən fərqlənir: onlar öz «artıqlığını» dərk edən və bunun faciəsini yaşayan «avara» intellektuallardan deyillər. Onların həm zahiri, həm də daxili «fəaliyyətsizliyi», boşluğu, puçluğu arasında tam bir harmoniya vardır. Odur ki, bunlar «*ƏZABKEŞ DAHİLƏR*»dən deyil, adi, sıravi komik və *SATİRİK TİPLƏRDƏNDİR; İNTELLEKTUALLAR* yox, «*İNTELLİGENTLƏRDİR*». Eyni

bir zamanda həm yerli feodal-müsəlman, həm də «imperator hökuməti məmuruna çevrilən» simasız ziyalılardır. Məhz bu cəhət onların bədii taleyini «*ZİYALI FACİƏSİ*»ndən fərqli bir «*ZİYALI KOMEDİYASI*» kimi müəyyənləşdirir və həmin qəhrəmanları Onegin, Peçorin qəbiləsindən olan adamlar hesab etməyə bizə haqq vermir. Sabir demişkən:

Bu inteligetlərin sözün gətirmə heç aralığa,
Onları görmək istəsən şərabı gör, qumarı gör.

Şübhəsiz, «artıq adam» (Peçorin) öz real intellektual imkanları ilə «xırda»dan (Novruzəlidən) qat-qat üstündür; lakin o, tükənmiş, bitmiş, iflicliyə məhkum «bir heç», ümidsiz, sabahsız, gələcəksiz bir «dünən»dir. (Məğlub olmuş dekabrizm əhvali-ruhiyyəsindən yaranmış bədbinlik!) Ondan nə isə ummaq çətindir; gizli, daxili, ehtiyatda saxlanan bir «dirilmə» və «oyanma» perspektivi, inqilabi enerji və imkanlar onda yoxdur. Novruzəlidən isə Mirzə Cəlil hələlik «yatmış fil» kimi bəhs edir: oyansa, hərəkətə gəlsə, çiynində torpağı, dünyanı tərpədər. «Xırdalar»ın «artıqlar»dan üstünlüyü bundadır!..

Odur ki, Novruzəli mövzusunun materialında «artıq adam» problemi dəyişib «artıq şərait» problemi şəklində özünü göstərir: Novruzəli yox, şərait təqsirkardır və «artıq»dır! Şəraitlə mübarizə «artıq adam»ın heç ağlına da gəlmirdi, Novruzəli problematikasının isə əsas, «mətnaltı» mahiyyətini Mirzə Cəlil realizminə məxsus tendensiyanın məzmunu təşkil edirdi. Şəraitlə şəxsiyyət arasında əlaqələrin dəyişən məğzi də öz ifadəsini elə bunda tapırdı...

Xalqın nümayəndəsinə və ziyalıya tənqidi realistin marağı bunlardan birincisinə marağın tam üstünlüyü ilə tamamlanır: xalqın milli-tarixi taleyində iştirakı və rolu

baxımından *ƏNƏNƏVİ ZİYALININ* (Fərhadın, Fəxrəddinin) gücsüzlüyü dərk edildikdən sonra bədii fikrin diqqət hədəfinə «*XIRDA ADAM*» özü - çoban, əkinçi, fəhlə, dəllək, arabaçı... çevrilir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda tənqidi realist ədəbiyyatın qəhrəman konsepsiyasının əsasında dayanan ən səciyyəvi surət kimi məhz «*XIRDA ADAM*»ın surətini görürük. Məhz həmin surətin şərhi milli realist düşüncənin özünəməxsusluğunu açmağa ən çox kömək edir.

«Ağadan mujikə» (L.Tolstoy), «İnqilabçı kəndlidən inqilabçı fəhləyə (Q.V.Plexanov) sxemi Azərbaycanda tənqidi realist ədəbiyyatın təcrübəsində «avam kəndlidən və fəhlədən fəal vətəndaşa» şəklini alır. XX əsrin əvvəllərindən başlayan ilk iki on il müddətində poeziyada, nəsrdə, dramaturgiyada ideya-məfkurə hərəkəti, bədii fikrin intibahı və inqilabiləşməsi istiqamətində canlanma məhz bu istiqamətdə davam edir. Milli və ictimai şüura mənəvi təsirin ən fəal mənbəyi, estetik və ideoloji amil kimi tənqidi realizmin icra etdiyi ən böyük vətəndaşlıq və sənətkarlıq işi məhz bu vəzifənin həlli olur. Xalq nəhrini hərəkətə gətirmək, ictimai və milli müstəqillik uğrunda azadlıq mübarizələrinə cəlb etmək! Həm də yeni realizm bu problemi həyat, dirilik və mövcud ola bilməyin əsas şərti kimi irəli sürmüşdür. «Olummu, ya ölümmü? - bu böyük intibah sualı milli realizmin bayrağında bu şəkildə yazılmışdır: «Ya gərək bu dəhrdə Molla Nəsrəddin qalsın, ya Molla Xəsrəddin!»

Paradoksaldır ki, ümumiyyətlə sonralar da, daha yeni mərhələdə də bədii fikrin oyanışı, dirilik və intibah dövrü «*KİÇİKLƏR*», «*NOVRUZƏLİLƏR*», «*ÖLÜLƏR*» tematikası ilə əlamətdar oldu. «*ÖLÜLƏR*» mövzusu *DİRİLMƏ* və *DİRİLƏR* dövrünün özü ilə gətirdiyi ən səciyyəvi bir mövzu oldu. «*MƏNƏVİ ÖLÜLÜK*» - tənqidi realizmin, Mirzə Cəlil realizminin əsas mübtədasına çevrildi.

«Ölülər» sözünə biz Mirzə Cəlildən əvvəlki əsərlərdə də rast gəlirik. Lakin «ölülər» sözü onlardan heç birində çağırış, xitab və ittiham şəklində deyildir. Bizim ictimai və ədəbi fikirdə bu vaxta qədər hələ heç kəs millətə və xalqa söylənən «*ÖLÜLƏR*» xitabı ilə sənət səhnəsinə gəlməmişdi. Həm də bu xitab təsadüfi bir epizod, ötəri bir hayqırtı deyildi: bütünlükdə bu satira, bu nəsr məhz millətin diriliyi naminə millətə söylənən «*ÖLÜLƏR*» xitabının davamı idi!... Və millət ilk dəfə idi ki, ona «ölülər» xitabı ilə kürsüyə qalxan qəribə, «əcaib» natiqə qulaq kəsilirdi.

Məhz millətin naminə millətə söylənən «*ÖLÜLƏR*» xitabı əslində ona dəhşətli bir «*ELANİ-EŞQ*» idi! Hələ böyük bir nitqin, monoloqun əvvəli idi: «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! - bu xitabda gülən və həm də güldüyünə güvənən bir estetik münasibətin mürəkkəbliyini hiss etməmək qeyri-mümkündür. Lakin bu mürəkkəblik həm də «ziddiyyət» əlaməti deyildir: bu yalnız «gülə-gülə ağlamaq» yox, həm də «gülə-gülə sevmək» üsulu idi!...

«*ÖLÜLƏR*»! - şübhəsiz, burada şişirtmə də var, lakin bu - «eybəcərliyi daha da eybəcər göstərmək» prinsipi deyildir. Eybəcərliyin doğurduğu kədəri, ürək yanğısını, narahat mənəvi, əxlaqi reaksiyanı daha fəryadlı ifadə etməyin prinsipidir.

«*YAZIQ BİR MİLLƏT, KÖLƏLƏR MİLLƏTİ, BAŞDAN-AYAFA HAMI KÖLƏDİR*» - bu sözləri keçmiş Rusiya haqqında hələ Çernışevski («Proloq») elan etmişdi. «Soyuq meyitlər», «*UŞAQ KÜTLƏ*», «*QOYUN SÜRÜSÜ*» ifadələrinə artıq Puşkində də («Yevgeni Onegin») rast gəlirik. «*QULLAR VƏ AFALAR ÖLKƏSİ*!» - bu isə bürokrat-polis idarəsinə gənc Lermontovun xitabı («Şairin ölümünə») idi.

Qoqol yaradıcılıqında «mənəvi ölülük» motivi daha ardıcıl şəkildə, klassik bir realizm problemi səviyyəsində «Ölü canlar»ın ideya-məzmununda əks olunur. V.Q.Belinskiyə və A.İ.Gertsenə görə «Ölü canlar»ın milli-tarixi mənası və əhəmiyyəti onda idi ki, o, bütün cəmiyyət üçün «*ÖZÜNÜ İDRAK AKTI*» kimi səslənə bilmişdi: «Müasir Rusiyaya belə bir ittiham irəli sürmək zəruri idi», elə bir ədəbiyyat zəruri idi ki, «o, yalnız sadə adamın yaşadığı şəraitlə bizi tanış etməsin, həm də bu sadə adamın bu şəraitə necə dözdüyü ilə, həmin şəraitin bu şəraitdə yaşayan adamın əxlaqi aləminə necə təsir göstədiyi ilə bizi tanış etsin» (Saltıkov-Şedrin).

«Qullar və ağalar ölkəsi» haqqında deyilən bütün bu sözləri «qullar və ağalar ölkəsinin» müstəmləkəsi haqqında deməyə daha çox ictimai, tarixi və ədəbi əsas var idi. Çünki kütlənin vətəndaşlıq passivliyi ilə yazıçının, şairin vətəndaşlıq fəallığı və narahatlığı arasında dəhşətli uçurum burada daha kəskin şəkildə özünü büruzə verirdi və daha fəryadlı mənəvi yanğının, daxili-əxlaqi etirazın ifadəsi kimi səslənə bilirdi.

N.Q.Çernışevskinin məşhur «yazıq bir millət, kölələr milləti, başdan-ayağa hamı kölədir» - sözləri ilə böyük Azərbaycan maarifçisi və demokratı Həsən bəy Zərdabinin aşağıdakı sözlərinə nə qədər də səsləşir: «Biz öz xahişimiz ilə bir-birimizə qul olmuşuq. Rəiyyət padşaha, övrət kişiyə, uşaq ataya, nökər ağaya, şagird ustaya və qeyri məgər qul deyil?... Bəli, biz hamımız quluq...»

Maraqlıdır, ədəbi və ictimai-əxlaqi bir problem kimi «mənəvi ölülük» mövzusu motiv və ənənələr şəklində realist ədəbiyyatda hələ uzun müddət davam etdikdən sonra tənqidi realist düşüncənin bilavasitə təsiri kimi XX yüzildə Azərbaycanda romantik milli şüurun aynasında da özünü göstərir:

Diridirlər əgərçi surətdə,
Ölüdürlər vəli həqiqətdə.
(Abbas Səhhət, «Ölu şəhər»)

Dərdə bax, niyyətə bax, millətə bax,
Ölülərdən ölülər feyz alacaq!
(Huseyn Çavid, «İblis!)

Sözün canilə dirilsin həyati ölmüşlər,
Diri-diri gəziyorkən məzarə dönmüşlər.
(Məhəmməd Hadi, «Duşüncələr»)

Ümumiyyətlə, «*ÖLÜLƏR*» mövzusu o zaman bütövlükdə milli şüuru, millət miqyasında fanatizmə qarşı mübarizənin zərurətini daha qabarıq təsəvvür edə bilən qələm sahiblərini düşündürürdü. Keçən əsrin axırlarında «Səyahətnameyi-İbrahim bəy» əsərini yazan Marağalı Zeynalabdin də bu mövzudan bəhs etmişdir. Ədibin qəhrəmanı feodal İranını gəzərək gördüyü adamları, münasibətləri qələmə alır və dəhşətli mənzərələri təsvir edərək yazırdı:

Mürdə ənd vəli zində,
Zində ənd vəli mürdə!

M.Ə.Sabirin satiralarında, M.S.Ordubadinin «Qəflət» adlı şeirlər məcmuəsində, N. Nərimanovun «Nadanlıq» dramında, A.Səhhətin «Ölü şəhər» və bir çox başqa əsərlərdə «ölülər aləmindən» səhnələr vardır. Bu ayrı-ayrı səhnələrdən bütöv bir ictimai lövhə-mənzərə yaradan və... tariximizdə görülməmiş bir cəsarətlə dəhşətli «ölülər» sözünü söyləyən» (M.Cəfər) isə Cəlil Məmmədquluzadə olur...

XX əsr gerçəkliyində poeziyada milli şüurun, istiqlal düşüncəsinin ən böyük aktı və hadisəsi isə, şübhəsiz, Sabir idi.

Cəlil Məmmədquluzadə hələ o «müsəlman qardaşı», «mömin bəndəni» təsvir edirdi ki, zülm lap evinin içində, məişətdə, ailədə ərşə dayananda da «yarəb, məni Xudayar bəydən qoru!» – demirdi, «barı, pərvərdigara, sən məni şeytandan saxla» – deyirdi və qarşıya qoyduğu məqsəd də hələ yalnız ondan ibarət idi ki, «Molla Nəsrəddin»in borcu keçəl qardaşları xəbərdar eləməkdir ki, düşmənlərini tanısınlar».

Mirzə Ələkbər Sabirin əsas qəhrəmanları isə artıq düşmənini tanıyan və ayılmaqda olan «keçəl qardaşlar» – Vətən övladları idi.

Prinsipial yeniliyi biz yalnız «Usta Zeynal» və «A başı bəlalı fələ», «Poçt qutusu» ilə «Adə, əkinçi» arasında görmürük. Sabirin müsbət qəhrəman konsepsiyasının məzmununda, həmçinin, milli ziyalı surətinin də tənqidi realizmdə keçdiyi inkişafın yeni mərhələsi ilə rastlaşırıq: «Hophopnamə»dəki «*URUS BAŞDILAR*» artıq satirik və karikatur «*İNTELİGENTLƏR*»in ənənəvi surətləri deyil, gələcək millətçi-demokrat və azadxah, inqilabçı ziyalıların ilk sələflərididirlər.

Sabirə qədərki ədəbiyyatda «Sabir qəhrəmanı» adlanmağa haqqı olan surətləri heç mənfi qəhrəmanların arasında da tapmaq mümkün deyil. Hətta ruhaniliyin də Sabirə qədərki tipi Azərbaycan ruhanisinin Sabirdəki tipindən əsaslı şəkildə fərqlənir: Sabirdə o, dünyanın dəyişdiyini görür, haray salır, mərəkə qoparır və keçmiş dövrlərin ruhanisinin «əyyamına» həsəd aparır ki, «*AX! NECƏ KEF ÇƏKMƏLİ ƏYYAM İDİ, ONDA Kİ, ÖVLADİ-VƏTƏN XAM İDİ!*»

Sabirin «nücəbası» bəlkə də məhz «Novruzəli əyyamının» həsrətini çəkir və «*AY KEÇƏN ƏYYAM, OLASAN İNDİLƏR*», – deyərkən Novruzəlinin Vəli xana, Məmmədhəsən əminin Xudayar bəyə, Kərbəlayi Qasımın Qurbanəli bəyə münasibətlərini nəzərdə tuturdu. Hər halda, həm «nücəbanın», həm də kəndli surəti-

nin iki tipi arasında açıq-aşkar bir fərq – «1905-1907-ci illər» adlı ara dövrü, keçid mərhələsi durur...

Sabirlə yaranan yeni mənfi qəhrəman – müsbətin də funksiyasını öz bədii məzmunu, «ikinci planı», «mətnaltı» mənası ilə ifadə və icra edən ifşaçı surət, ifşa edilənlə edənin vəhdəti, özü də bilmədən öz mənəvi müflisliyini, tarixi aqibətini aləmə car çəkən qəribə personaj! Əslində yeniliyin qüvvətli atributu kimi meydana çıxan komik köhnəliyin təzahürü! Sabirin ən səciyyəvi qəhrəman tiplərindən olan bu surət – orijinal milli satira tipidir, xalis milli bədii təfəkkür məhsuludur və onun bu dərəcədə canlı tipoloji variantları da Sabirdən əvvəlki ədəbiyyatda yoxdur.

Lakin məsələ sözü gedən məziyyət və ünsürlərin kəmiyyət göstəricisində də deyil: daha əsas və prinsipial cəhət odur ki, istiqlal ideyasının öz daxilində yeni keyfiyyətli mərhələyə keçid epoxasının ən səciyyəvi əlamətləri Sabir poeziyasında özünü *BİR YERDƏ, VƏHDƏTDƏ* nümayiş etdirir: həm ən yüksək ictimai inkar, həm bilavasitə əməli mübarizəyə çağırış; həm də təsdiqediçi ehtiras və pafos – hamısı Sabirdə sintez təşkil edir...

Lakin böyük poeziya novatoru və poetika islahatçısı rolunda Ələkbər Sabirin milli-ədəbi-tarixi xidmətini yalnız *şeirin* hüdudları daxilində lokal bədii-inqilabi yeniliklərdən ibarət hesab etmək də doğru olmazdı. Bu islahat qlobal miqyasda, bütövlükdə milli oyanışın, mənəvi intibahın vahid bədii məkanında baş verən hadisə idi.

Milli-poetik şüurda Füzulinin böyüklüyünə qayıtmaq dövrü Sabirlə gerçəkləşir. Tamamilə yeni tərkibdə, yeni nisbətdə və keyfiyyətdə Füzuli ilə qaynayıb-qarışmaq və sintez baş verir.

Realist estetikanın romantik Füzuliyə münasibətdə yol verdiyi tarixi səhvə də Sabir «təshih» verir: o, bəlkə

də ilk dəfə olaraq poeziyada Füzuli orbitini və Füzuli peyklərinin orbitini bir-birindən ən qəti şəkildə fərqləndirir. Sabir – təqlidçi şeirin qəhrəmanına, mövzu və motivlərinə nəinki bütün yaradıçılığı ilə gülür, ona ayrıca parodiya da həsr edir («Ey alnın ay, üzün günəş, ey qaşların kaman!»), saf, xalis Füzuli sənətinin ideya-forma sərvətindən isə bəhrələnir. Klassik lirik və romantik şeirin sınaqdan çıxan bədii nüfuz və enerji ehtiyatını da bilavasitə çağdaş milli tərəqqinin xidmətinə Sabir səfərbər edir.

Nəhayət, Sabir fenomeni beynəlmiləl miqyasda, bütünlükdə Asiya və Şərq kontekstində baş verən hadisə oldu. «Asiyanın oyanması» və Şərqdə sosial inqilablar dövrünün böyük tribunu olan Sabir planetar miqyasda azadlıq və istiqlal şairidir, hətta o dərəcədə ki, Qafqazda və bəlkə də bütün Yaxın və Orta Asiyada ilk «Beynəlmiləl»in, ilk Şərq internasionalının müəllifi odur. Maraqlı və simvolik faktdır: Avropada Fransa inqilabı dövrünün böyük «Beynəlmiləl»ini Ejen Potye, Şərqdə üç inqilab (türk, İran və rus inqilabları) dövrünün böyük «Beynəlmiləl»ini isə Sabir yaradır! Yalnız əsl milli şairlər həqiqi «Beynəlmiləl»lər yarda bilərlər. Sabir məhz belə bir «Beynəlmiləl» şairi idi!

***

Azərbaycanda milli şüurda yeni yüzilin əvvəlinin ən böyük hadisəsi iki böyük mətbuat orqanının – «*MOLLA NƏSRƏDDİN*» (1906, aprel) və «*FÜYUZAT*» (1906, noyabr) dərgilərinin fəaliyyətə başlaması olur. Ədəbi hərəkatın aparıcı istiqamətləri – tənqidi realist və inqilabi-romantik üslublar hər ikisi məhz bu dərgilərin ətrafında, onların ictimai-ədəbi məktəbləri kimi formalaşır. Tamamilə təbiidir ki, həm ideya-məfkurə proqramı, həm də bədii-estetik sistem

baxımından tənqidi realizm cərəyanı ilə «Molla Nəsrəddin» ədəbi məktəbi (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, M.Ə.Möcüz, M.S.Ordubadi, Ə.Nəzmi...) və romantizm cərəyanı ilə «Füyuzat» ədəbi məktəbi (Ə.Hüseynzadə, Ə.Ağayev, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu, S.Səlmasi...) tamamilə üst-üstə düşür.

Yeni əsrdə Azərbaycanda inqilabi milli şüur artıq həm *MAARİFÇİ REALİST*, həm də *MAARİFÇİ ROMANTİK* düşüncə şəklində özünü göstərir. Əksər Avropa ölkələrindən fərqli olaraq, maarifçilik ideologiyası Azərbaycanda (o cümlədən də Türkiyədə və bir sıra digər Şərq ölkələrində) romantik-estetik konsepsiya ilə uyuşa bilir və adətən (maarifçi «Faust»la romantik «Manfred» arasındakı münasibətlərin klassik nümunəsini yada salaq) olduğu kimi, «*MAARİFÇİLİYƏ QARŞI*» yox, «*MAARİFÇİLİK ZƏMİNİNDƏ*» yaranan romantizm tipini əmələ gətirir (yəqin ki, həm maarifpərvərlik və rasionalizm notlarının, həm də romantik ənənənin klassik milli ədəbiyyatda əvvəllər də bir yerdə «yaşaması» və son dərəcə davamlı, sürəkli olması nəticəsində).

Beləliklə, ümumilik odur ki, yeni dövrdə milli romantizm cərəyanı Azərbaycan məkanında da maarifçilikdən sonra yaranır; fərdilik isə odur ki, klassik romantizmin bir sıra milli Avropa tiplərindən fərqli olaraq, Azərbaycan romantizmi ilk mərhələdə hələ maarifçiliyin idealları zəminində formalaşa bilir. Bu vəziyyət bəzi Avropa xalqlarının ədəbi təcrübəsində də özünü göstərir və «*GECİKMİŞ MAARİFÇİLİK*»lə «*GEÇİKMİŞ ROMANTİZM*» arasındakı əlaqələrə məxsus tipoloji qanunauyğunluqlardan birini ifadə edir.

Əgər tənqidi realist bədii düşüncənin əldə etdiyi yeni nailiyyətlər AXC dövrü ədəbiyyatının meydana çıxmasını tarixən hazırlayan və mümkün edən birinci

ədəbi və fəlsəfi-estetik amil olursa, bu amillərdən ikincisi XX yüzil Azərbaycan romantizminin axtarışları ilə hazırlanır (Azərbaycanda müstəmləkə asılılıqı əleyhinə qüvvvətli etiraz, milli və ictimai azadlıq hərəkatının küclənməsi 1905-1907-ci illər inqilabı ərəfəsində bu maarifçiliyin öz tarixi nikbinliyini Azərbaycan romantizminin timsalında bir daha yenidən yaşamasına səbəb olur). Zamanı dərk və inikas etdirmək axtarışlarında ədəbi proses həyatı romantikcəsinə əks etdirmək metodu ilə də qarşılaşır. Şübhəsiz, nəzərə almaq lazımdır ki, 1905-1907-ci illərin Azərbaycan romantizmi orta əsrlərin romantik poeziyası, onun eyni demək deyildi: o, yeni dövr (XIX əsr) romantizminin Şərq cizgiləri ilə də zənginləşən, «şərqləşən» milli təzahür formalarından biri idi, daha doğrusu, dünya romantizminin hərəkət və inkişafında müəyyən milli mərhələ idi.

Lakin XVIII-XIX yüzillərin Avropa romantizminin klassik tarixi vəzifələri ilə Azərbaycan romantizminin konkret milli-ədəbi funksiyası da bir-birinə müvafiq gəlmir. Azadlıq hərəkatı və milli-demokratik idealların təntənəsi dövrünün romantik hərəkatı artıq həm burjua, həm də cəmiyyətin qeyri-burjua təbəqələrinin ümidlərini və əhvali-ruhiyyəsini ifadə edir.

XX yüzilin Azərbaycan romantizmi həm də feodal əlaqələrinin və kolonial asılılığın hələ davam etdiyi və bir də elə məhz buna görə milli burjuaziyanın (öz obyektiv-tarixi missiyasının ziddinə olaraq) nisbətən zəif və ehtiyatlı ictimai mövqe seçdiyi bir mühitin məhsuludur. Belə bir vəziyyət konkret Azərbaycan şəraitində romantizmin qarşıya qoyduğu və həll etməli olduğu vəzifələrin proqramını təyin etdi və hətta müəyyən dövrdə bədii fikirdə intibah və maarifçilik motivlərinin birləşməsinə gətirib çıxara bildi. Antifeodal, antikolonial və antiklerikal əhvali-ruhiyyənin ayrı-ayrı antiburjua motivlər ilə birləşə bildiyi yeni dövrdə ümummilli demokratik ideal-

lar Azərbaycan gerçəkliyinin bizim romantiklər qarşısında irəli sürdüyü milli ədəbi vəzifələrin sırasına daha miqyaslı şəkildə daxil oldu.

Tarixi-xronoloji müxtəliflik, yeni estetik və fəlsəfi cərəyanların təsiri ona səbəb oldu ki, maarifçi realistdən fərqli olaraq, romantik mürəkkəb və bəzən hətta təzadlı dünyagörüşü ilə silahlandı. Bu romantizmdə bütöv bir sistem və təlim səviyyəsində «saf» maarifçilikdən yox, vahid romantik metod daxilində maarifçi təmayül, tendensiya və motivlərdən danışmaq daha doğru olar. Bu milli romantizm, məhz tənqidi realist və inqilabi demokratik hərəkatın «müasiri» olan romantizm kimi xalis maarifçi təbiətli bir romantizm ola bilməzdi. Burada tənqid edilən qafilliyin və avamlığın məzmunu dəyişirdi: o, ictimai avamlıq, vətəndaşlıq qafilliyi, bilavasitə milli-inqilabi şüur nadanlığı şəklində irəli sürülürdü. Maarifçilik məqsədləri burada da izlənilirdi, lakin yeni, daha müasir obyektiv-tarixi vəzifələrə uyğunlaşdırılmış bir şəkildə və tənqidi realistlərin, Sabirin dediyi mənada: «haqqı xalqa bildirib, dəfi-zəlalət etməli!» Maarifləvdirmək – yəni xalqı silahlandırmaq: ictimai mübarizə idealları ilə! Milli qeyrət, beynəlmiləlçilik, mübarizlik və həmrəylik «SAVADI» ilə! İnsanı «işıqla savadlandıran» Prometey kimi! Sabirin fərdi ictimai namus, heysiyyət və mərdlik savadı ilə! Mirzə Cəlilin dirilik, fəallıq və ayıqlıq savadı ilə! Üzeyir Hacıbəyovun və Nəriman Nərimanovun həmrəylik, beynəlmiləllik, hüquq və əxlaq savadı ilə! Savadlanmaq! – lakin əlifba öyrənmək mənasında yox, milli xilas və qurtuluş elmini, ictimai azadlıq və mübarizə fənnini öyrənmək mənasında!.. Bunlar hamısı geniş mənada istiqlal şüuru demək deyildimi?!

XX əsr Azərbaycan romantizminin təbiətini bütünlükdə və ən dərindən xarakterizə edən xalq, millət miqyasında kütlələrin azadlıq hərəkatı ilə bağlılıq və

milli-mənəvi müstəqillik uğrunda mübarizə pafosu idi. Yeni romantizmin istiqlal məfkurəsi də, ondakı intibah ünsurlərinin əhəmiyyəti də onların məhz bu vahid məqsədə nə dərəcədə xidmət edə bilmələri ilə ölçülürdü. Dövrün özünün bir sıra obyektiv nəzəri tədqiqlərində bu romantizm xalqın bədii fikir tarixi ilə ifadə olunan vətəndaşlıq tarixinin parlaq səhifələrindən biri kimi xarakterizə olunur.

Öz ictimai təbiəti etibarı ilə qeyri-sabit, dinamik bir xarakter daşıyan Azərbaycan romantizmi, tarixi şəraitə uyğun olaraq qısa, lakin gur və dinamik inkişaf dövru keçirir. Maarifçiliyin «ağıl» kultu bir müddət hələ romantiklərin də şübhələrində sınaq və məhək dövrü keçməli olur. Lakin «ruhun» və «ağlın» da «pul» kisəsindən «asılılığı» dərk olunanda bu dövr bitir. Romantiklər görürlər ki, ağlın və əxlaqın tənzim etməli olduğu bir çox şeyləri indi pul və qızıl tənzim edir. Tale qədər, qəza qədər indi bank və seyf, qəbz və çek təsir göstərir. *MƏCNUNLA BANKİR* arasında tam bir ictimai və mənəvi-əxlaqi epoxa, mərhələ fərqinin bədii-fəlsəfi ifadəsi yeni dövrün romantizmini orta əsrlərin romantik poeziyasından ayırır. Romantizm hətta öz nisbi «maarifçiliyində» də axıra qədər sabit və ardıcıl ola bilmir. Xüsusilə inqilabi epoxanı əvəz etmiş irtica illərində və dünya müharibəsi dövründə onun maarif və ağıl ideallarına inamı sarsılır. «Hər şeyə qadir» ağlı «İblis»də (H. Cavid) artıq «hər şeyə qadir» şər – İblis əvəz edir. Müasir tərbiyə almış Avropa təhsilli, ziyalı burjua gəncliyinin faciəsi mövzusu romantik nəsrdə geniş yayılır. Bayron kədəri, tragik bəşəri bədbinlik daha da qüvvətlənərək maarifçiliyin sarsılmaz tarixi nikbinliyini əvəz etmiş olur.

Ziddiyyətli, mürəkkəb, nahamvar inkişaf çətinliklərinə baxmayaraq, bütünlükdə Azərbaycanda romantik fəlsəfi düşüncə fəal vətəndaşlıq səciyyəsini qoruyub

saxlayır; həyatda vaxtı çoxdan ötmüş feodal orta əsrlərinin qalıqlarına, müstəmləkəçi çarizmə və burjua əxlaqının təzadlarına qarşı ideya-bədii mübarizədə, ictimai gerçəkliyə etiraz, üsyan ruhunda ən mütərəqqi romantiklərin də dilindən realistlərlə bir sırada «oyanan Şərqin» səsi eşidilir.

Romantizmin də azadlığa can atan müsbət qəhrəman və şəxsiyyət problemini həll edə bilməməsi, lakin onu daha kəskin şəkildə irəli sürərək, bu problemin həlli zərurətini sürətləndirməsi yeni yaradıcılıq axtarışlarının meydana çıxması üçün obyektiv ehtiyacı və şəraiti daha bir baxımdan da tamamlamış olur. İki burjua inqilabının ərəfəsi olan gərgin ictimai bir şəraitdə və bu zəngin milli ənənələrin zəminində yeni tipli pomantik ənənə artıq ədəbi prosesin öz daxili qanunauyğunluğu və tarixi təcrübəsi kimi – «milli tendensiya» kimi doğula bilir.

İSTİQLAL DÜŞÜNCƏSİ XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ: ƏDƏBİYYAT, DİL, MƏDƏNİYYƏT QURUCULUĞU

«CÜMHURİYYƏT DÖVRÜ» (1918-1920) – XX əsrin əvvəlinin iki inqilab (1905-1907-ci və 1917-ci illərin rus inqilabları) dövrü ilə sonrakı yetmiş il arasında ara mərhələni təşkil edir.

Hələ islama qədər neçə yüzil tarixi olan, islamla özünü yenidən dərk edən və XIX əsrin Qərb-Şərq məcrasında təzə mərhələyə yüksələn Azərbaycan ədəbiyyatında üç əvvəlki ədəbi dövrdən sonra onların hər üçünü özündə cəmləyən yekun dövrü (XX yüzil) gəlir və özünün zirvə məqamına müstəqil Azərbaycan dövləti illərində çatır – 1918-20-ci illərdə. Məhz bu dəfə «Molla Nəsrəddin» və «Füyuzat» ədəbi məktəbinin, tənqidi realizmin və iyirminci əsr romantizminin bədii-fəlsəfi bünövrəsi zəminində ədəbiyyat öz mənəvi-fəlsəfi miqyasını, əhatə hüdudlarını və çərçivəsini artıq coğrafi yox... tarixi(!) məkanda dəyişir: vəhdətə və bütövlüyə qitələrlə qitələr arasında yox, daha çox epoxalarla epoxalar, köklərlə zirvələr, mənşə ilə, əcdadla, etnosla müasir nəsil arasında nail olmağa çalışır. Yenidən (bu dəfə artıq yeni məzmunda və səviyyədə) daha çox Şərqlə, türklük və islam dünyası ilə bağlılıqda özünü tanımaq, ifadə və təsdiq etmək yolu ilə gedir.

AXC-nin süqutundan sonrakı dövr, XX əsrin son üç rübü; milli ədəbi təraqqi üçün yenidən empirik, qapalı bir məcrada məhdud hərəkət çərçivəsinə düşmək qorxusu yaradır. Daha doğrusu, min illik qlobal, ümumbəşəri bədii təraqqinin tarixində yeni epoxa – sosialist realizmi və onun dəyərləri daxilində lokal hərəkət mərhələsi başlayır.

1920-ci ilin bolşevik çevrilişi, onun elmi-ədəbi düşüncədə, ideologiyada ifadəsi olan vulqar sosiologizm milli intibahın özündən əvvəlki son iki ilinin nəinki irsinin, hətta özünün bir tarix kimi üstündən qara xətt çəkmişdi. Belə ki, bizim bu vaxta qədərki elm və tədris təçrübəmizdə bir mərhələ kimi onuncu illər 1918-ci ilin 28 Mayında tamamlanmış, iyirminci illər isə 1920-ci ilin 28 aprelindən başlamışdır. Ortadakı iyirmi üç ay iki tarixi dövrü birləşdirən yox, ayıran çərək kimi, az qala boşluq kimi bir kənara atılmışdı. Azərbaycanda ən yeni, son, müasir ədəbi intibahın tarixini çar rejiminin, monarxiyanın və imperiyanın deyil... ilk müstəqil, suveren milli respublikanın süqut etdiyi(!) vaxtdan hesablamağa başlamışlar. Bu artıq vulqar-siyasi sosiologiyanın, ritorika-ehkam, qrafoman-robot fanatizminin, «proletar-kütlə-sinif» mövhumatının yalnız ideyada, yalnız təlimdə yox, həm də xronologiyada, təsnifdə, rəqəmdə ifadəsi və əlaməti idi.

Halbuki Azərbaycan Xalq Cümhuriyyəti, bütün islam aləmində yeni tipli ilk sosial-inzibati qurum kimi, ümumşərq və ümumtürk əhəmiyyəti kəsb etmişdi, hətta sovet federasiyası daxilində də Azərbaycanın nəzəri istiqlalı, ərazi bütövlüyü və respublika statusu üçün tarixi əsası, təşkilat modelini Azərbaycan Cümhuriyyəti verib. Total rejimin imperiya qəlibləri ilə, vulqar sinfilik və diktatura sxolastikası ilə təftiş olunanda yox, hüquqi dövlət, ümumbəşəri dəyərlər, real, suveren demokratiya meyarları ilə sınananda onun həm tarixi mahiyyəti, həm də bugünkü, müasir Azərbaycan üçün mənəvi dəyər və mədəni-əxlaqi sərvət rolu bütün əyaniliyi ilə aşkar görünür.

«Ən yeni dövr» ilə bağlı hələlik son milli-tarixi və ədəbi-mədəni intibahın aylarının və illərinin hesabını AXC ilə başlamaq soyumuza, adımıza, özümüzə doğru yolda ən dəqiq start mövqeyinə çıxa bilmək üçün

lazımdır. Milli təfəkkürün, tarixi özünüdərkin tamlığına, aydınlığına, bütövlüyünə nail olmaq üçün lazımdır. Başqa sözlə, bu milli ədəbiyyatı və onun tarixini mənəvi-mədəni bir vəhdət və bütövlük halında, bütün (yaxın və uzaq!) tarixi nəsillərin, çoğrafi qütblərin, iki Azərbaycanın və dünyadakı bugün azərbayçanlıların mənəviyyat və düşüncəsinin tərcümanı kimi, Asiyanı və Avropanı, Şərqi və Qərbi, İranı və Turanı birləşdirən bütün ərazilərdəki soydaşlarımızın müştərək irsi kimi öyrənmək üçün (özü də ideoloji yasaqlarsız, coğrafi çəpərlərsiz, ehkamçı qəliblərsiz öyrənmək üçün!) bir təcrübə, örnək, məktəb, ənənə kimi lazımdır.

Suverenlik dövründə, azad Xalq Cümhuriyyətində müstəqillik – şüurda, ideologiyada müstəqillikdən başladı. Müstəqillik ideyası elan olunmuşdu, mənəvi-ideoloji təsisatlar fəaliyyət göstərirdi, dövlət qurumunun məhz milli müstəqillik baxımından inzibati-ərazi statusunun gerçəkləşməsi, sosial-siyasi və iqtisadi, hərbi və diplomatik təminatı isə bir vəzifə kimi hələ qarşıda dururdu.

Ən böyük uğur məhz ərazi bütövlüyü və onun toxunulmazlıqı ilə bağlı siyasi-diplomatik münasibətlər sahəsində əldə edildi. «*MÜSTƏQİL AZƏRBAYCAN*» statusu, türk etnik gerçəkliyi həm Bakıda, həm də Qafqazda qorunub-saxlana bildi. Gürcüstanla (Borçalı probleminin mövcudluğuna baxmayaraq), Araz Türk Respublikası və Cənub-Qərbi Qafqaz Respublikası, Qaraqalpaq Cümhuriyyəti ilə əlaqələr xüsusilə səmərəli istiqamətdə inkişaf etməyə başladı. Həmişə olduqu kimi, bu gərgin tarixi məqamda da ən ciddi hərbi-diplomatik dramatizm («fasiləli müharibə şəraiti») Qarabağda, Azərbaycan-Ermənistan münasibətləri sahəsində baş verdi.

Maraqlıdır ki, türk (*AZƏRBAYCANLI!*) Qacar sülaləsinin hələ hakimiyyətdə olduğu o zamankı şahlıq İranı ilə konfederasiya təklifi rədd olundu. Sultan Türkiyəsi ilə də ilhaq, birləşmə ideyası baş tutmadı,

müstəqil dövlətçilik hüququ zəminində hərbi-siyasi ittifaq isə real-əməli nəticələrini verdi: Nuru paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun köməyilə Bakıda və ətraf obalarda ermənilərin başladığı genosidin qarşısı alındı. Beləliklə də, islam və türk xalqları tarixində yeni çeşidli ilk demokratik dövlət qurumunun yaranmasında həlledici rolu dini-etnik yox, sosial-humanitar amil oynadı. Türkiyə də, İran da sonra həmin yolu təqib etdi.

İqtidarın sabitliyi istiqamətində ən böyük iş – Cümhuriyyət hakimiyyətinin *«MİLLİ İSTİQLAL ŞÜURU»* baxımından təminatı sahəsində görüldü: «Rusiya idarəsindəki müsəlmanlara «türk» dedirtmək artıq qazanılmış davadır. Yalnız «türk» kəlməsi deyil, «Azərbaycan» adı da qazanılmışdır» (M.Ə.Rəsulzadə. İstiqlal məfkurəsi və gənclik. B., 1991, s. 65). «Misli Avropada tətbiq olunmayan həqiqi bir xalq cümhuriyyəti quruluşuna» (M.Ə.Rəsulzadə) milli ədəbi-mədəni ənənə və mentalitet artıq hazır idi. Təsadüfi deyil ki, məşhur *«İSTİQLAL BƏYANNAMƏ»SİNDƏ* (28 May, 1918) bunun əksini iddia edən bəyanata M.Ə.Rəsulzadə hələ o zaman öz qəti təkzibini bildirmişdi: «Bu bəyannamədən aşkar görünür ki, Azərbaycan istiqlalı təəssüflə» «ona tərk olunan və anarşiyə qərq olan» milləti həlak olmaq təhlükəsindən qurtarmaq üçün əl atılmış bir növ çarədir. Dövlət parçalanmış, kədərli bir vəziyyət hasil olmuş... biz də istər-istəməz özümüzü idarəyə başlamışız, nə edək, müstəqil olmuşuz» («İstiqlal məfkurəsi və gənclik», s. 6).

Demokratik cümhuriyyət – Azərbaycanda humanitar milli ənənənin, ədəbi, hüquqi, fəlsəfi fikrin, milli *«MƏN»* və milli dövlət şüurunun, bütovlükdə xalqın azadlıq hərəkatının tarixən qanunauyğun və məntiqi yekunu kimi təşəkkül tapmışdı. «Azərbaycan xalqının öz ruhundan doğan bir ümummilli hərəkat, hadisə idi» (M.Ə.Rəsulzadə).

Demokratik cümhuriyyətin təşəkkülünün tarixi qanunauyğunluğunu şərtləndirən amillərdən ən mühümü də elə onun məhz milli-tarixi ənənənin yekunu və nəticəsi kimi meydana çıxması faktıdır. Demokratik respublika ona görə az müddətdə çox iş görə bildi ki, fəaliyyət göstərdiyi 23 ayı nə ondan əvvəlki 23 ildən, nə də sonrakı 70 ildən ayırmaq mümkün deyildir.

Cümhuriyyət ideyası, ümumiyyətlə, Azərbaycanda müasir mənada milli mənlik şüurunun oyanması, xüsusən keçən əsrin sonlarından vüsət alır. Düzdür, Azərbaycanda müstəqil dovlət ənənələrinin, *«AZƏRBAYCAN»* sözünün tarixi çox qədim əsrlərə kedib çıxır (IX əsrə, Xətib Təbriziyə qədər). Lakin çar istilası ilə yenidən bu sözün həyatdan və xəritədən silinməsi prosesi başlayır və Gəncə dönüb «Yelizavetpol» olanda «Azərbaycan» sözü də «tatar» sözü ilə əvəz olunur. Şübhəsiz, əvvəllər də azərbayçanlılara onların əslini – türk mənşəyini anlatmaq cəhdləri olmuşdur («Əkinçi», «Ziya», «Kəşkül» və b.). Lakin Azərbaycanı məhz milli bir anlayış səviyyəsində xalqa və dünyaya dərk etdirmək hələ milli məqsəd və vətəndaşlıq vəzifəsi kimi qalmaqda davam edirdi. Çünki hələ də daxildə və xariçdə əfkari-ümumiyyə «Azərbaycan – deyə bir mövcudiyyət tanımırdı» (M.Ə.Rəsulzadə) və iş o yerə çatmışdı ki, *«KƏŞKÜL»*dən otuz il sonra indi də *«MOLLA NƏSRƏDDİN»* millətin adı, dili, ərazisi barədə məlumatı bədii publisistikada, hekayə və felyetonlarda xalqa çatdırmağa (C.Məmmədquluzadə. *«AZƏRBAYCAN»* məqaləsi) ehtiyac hiss etmişdi. Yuxarıda adları çəkilən mətbuat orqanlarının və onların mühərrirlərinin ictimai fəaliyyət meydanına atılması ilə bu məsələ xüsusilə güclənmişdir. Milli ənənələrə qayıdışın ifadəsi Əli bəy Hüseynzadənin «Həyat» qəzetində hissə-hissə dərc olunmuş məşhur *«TÜRKLƏR KİMDİR VƏ KİMLƏRDƏN İBARƏTDİR»* adlı əsə-

rində qabarıq şəkildə əks olunur. Qəzetin ümumi istiqaməti məlum *TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, MÜASİRLƏŞMƏK (AVROPALAŞMAQ)*!» şüarında ifadə olunurdu. Lakin «islamlaşmaq» deyəndə, söhbət əsla ortodoks dini doktrinanın dirçəldilməsindən getmirdi, bütöv bir həyat tərzi olan islama məxsus ümumbəşəri mənəvi-əxlaqi dəyərlərin intişarından gedirdi. «*HƏYAT*», «*FÜYUZAT*» mühərrirləri milli təkamüldə mənəvi-etik sistem kimi, əxlaqi-vicdani dəyər və sərvət kimi islamın rolunu qəbul və təsdiq edirdilər. Onlar «*MƏHKUM SİNİF*» və «*MƏHKUM MİLLƏT*» ifadələrini həmişə yanaşı işlədir, onun məhz əzilən siniflərlə kölə millətlərin mənafeyini özündə birləşdirməsində çağdaş demokratik inqilabın Avropa inqalablarından əsas fərqini görürdülər. Belə bir tarixi qənaət o dövrün milli ziyalılarının ictimai-siyasi düşüncə səviyyəsinin yüksəkliyini göstərən mühüm bir nailiyyət idi və öz reallığını, həyatilik gücünün təsdiqini Azərbaycan Xalq Cümhuriyyətinin yaranması faktında tapdı.

Ümumiyyətlə, əsrin əvvəllərində «*AZƏRBAYCANDA MİLLİ HƏRƏKAT*», «*MİLLYYƏT VƏ HÜRRİYYƏT*», «*MƏŞRUTİYYƏT VƏ MÜSAVAT*» ideyaları geniş vüsət alır. Artıq «xalqın düşüncəsində Azərbaycan məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm edir» və millət, qəti inanır ki, daha bundan belə «*İSTİQLAL XARİCİNDƏ ONUN ÜÇÜN BİR AZƏRBAYCAN YOXDUR*» (M.Ə.Rəsulzadə).

Azərbaycan Xalq Cümhuriyyətinin «*HƏYAT*» - *FÜYUZAT*» istiqamətli mətbuatla varis-irs əlaqəsi özünü bir də onda göstərdi ki, «HƏYATCILAR və «*FÜYUZATÇILAR*» (M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Mehdi bəy Hacınski, Ə.Ağaoğlu, Əli bəy Hüseynzadə və b.) sonralar həmin respublikanın hökumətinə daxil oldular, yaxud, onun fəaliyyətində yaxından iştirak etdilər.

Əgər əsrin əvvəllərində milli istiqlaliyyət hərəkatının birinci (mənəvi-ideoloji hazırlıq) mərhələsində istiqlal idealının əsas daşıyıcılarından biri «*MOLLA NƏSRƏDDİN*» ədəbi məktəbi oldusa, digəri milli mətbuatın «*HƏYAT*» -»*FÜYUZAT*» istiqaməti ilə təmsil edildi.

Azərbaycanda Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və teatrı olmuşdur. Dövrün mətbuatı mədəniyyətin və elmin bütün sahələrində başlanan sosial-mənəvi intibahın pafosu ilə aşılanmışdır. Tədqiqat göstərir ki, hətta ay da, ulduz da rəmz və obraz kimi rəsmiləşən milli simvolikaya - üçrəngli bayrağa və gerbə poeziyadan, romantik nəsrdən və inqilabi publisistikadan keçərək gəlmişdir. Lakin uzunmüddətli ehkam və yasaq illərində mətbuatın və ziyalıların bu dövr fəaliyyətinin üstündən qara xətt çəkilmiş, hətta Hadinin, Üzeyir bəyin, Cabbarlının istisnasız, bütün nəşrlərində onların bədii irsi natamam, zədəli halda əhatə olunmuşdur. Özü də o nümunələr və mətnlər ixtisar olunmuşdur ki, bu gün müstəqillik dövründə xalqa xüsusilə lazımdır.

Ümumiyyətlə, Azərbaycanda milli müstəqilliyəqədərki son yetmiş il demokratik respublikanın təşəkkül və süqutunu şərtləndirən səbəblər silsiləsini, Cümhuriyyət barədə həqiqəti qəsdən, şüurlu olaraq yalanlı və təhrifli şəkildə izah edib. Yaxın milli tariximizin tədqiqində subyektiv, konyuktur, əyintili mülahizələrin sayı bəlkə də başqa heç bir sahədə buradakı olduğu qədər «zəngin» olmayıb.

Bütünlükdə Azərbaycan tarixinin son iki əsrini marksist elm bu vaxta qədər çar imperiyası daxilində bir regionun tarixi kimi öyrənib, müstəqil milli tale və tarix baxımından yox.

Azərbaycanın mənəvi mədəniyyətinin nəinki milli təkrarsızlığı, hətta Şərqin, Asiyanın bir parçası olduğu

da çox vaxt yaddan çıxıb. Avropaya Pyotrun açdığı pəncərəni də Stalin bağladıqdan sonra isə rəsmi sovet humanitar fikri vahid, qapalı, lokal kontekstdə hərəkət etməyə başladı. Ayrı-ayrı regionlarda bu hal xüsusilə ifrat və vulqar miqyaslar aldı.

Hətta Azərbaycanda müstəqillik dövrünün ərəfəsində meydana çıxan bir sıra yazılar da[1] demokratik respublikaya münasibətdə məhz elmi əxlaq və mənəvi vicdan təravəti ilə müasir görünə bilmədi.

Elə günahlar var ki, onlara bəlkə də 1937-də bəraət vermək olardı, amma 1980-də, 1990-da bu mümkün deyil. Müqəddəs yaddaşa, doğma anaya, ana Azərbaycana silah və əl qaldırmaq günah sayılır, yaddaşa «qələm qaldırmağı» da anaya silah və əl qaldırmaq kimi ağır xətaların sırasına daxil etmək olar.

Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin tədqiqində bu vaxta qədərki əyintilərə cavab kimi əks ifrata – belliklə, kütləvi eyforiyaya yol vermək də yenə birtərəflilik demək olardı. Söhbət hər cür (istər mənfi, istər müsbət işarəli) stereotipə yol verməyin qeyri-elmiliyindən gedir. Cümhuriyyətin iki ildən də az sürməsini şərtləndirən xarici (beynəlmiləl) obyektiv səbəblərlə yanaşı, daxili-subyektiv məqamları da açıq təhlilə cəlb etmədən problemin elmi tarixini və qiymətini vermək mümkün deyil.

Azərbaycan tarixinin Cümhuriyyət dövrünün tədqiqində total inkardan başqa daha iki meyl özünü göstərir. Bir sıra hallarda demokratik respublikanın yalnız monarxiya ilə, çar rejimi ilə müqayisədə üstünlüyündən bəhs olunur. Digər hallarda isə o, özündən sonrakı Azərbaycan Sovet Respublikası ilə müqayisədə tənqidi

[1] Bax: 1990-cı ilin 23-24 mayında Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin keçirdiyi elmi sessiyanın materialları ("Kommunist" qəz. 28 may. 1990).

mülahizələrin hədəfi edilir. Hər ikisi həqiqətdən eyni dərəcədə uzaq qənaətlərə gətirib çıxarır. Demokratik respublikanın yalnız bayrağı və gerbi yox, suverenlik və istiqlal təcrübəsi də Azərbaycan xalqının milli-mənəvi sərvətidir. Ağılı və enerjini bu sərvətə qarşı çevirməkdənsə, istiqlal və suverenliyin əbədiliyi uğrunda müasir mübarizədə də ona güvənmək, ondan daha çox faydalanmaq yolu bu Cümhuriyyətin milli-tarixi dərslərinə yeganə doğru ziyalılıq və vətəndaşlıq münasibətinin ifadəsi demək olardı.

Cümhuriyyətə münasibətdə total inkar mövqeyi əvvəllər kifayət qədər olmuşdur. Bu, bəlkə də, onda vacib idi: istibdada (Bağırov rejiminə!) «istiqlal» deyə bilmək üçün, əvvəlcə İntibaha (Cümhuriyyətə!) «irtica» demək lazım idi. Lakin hələ altmışıncı illərdən (xüsusən, «aşkarlıq» deyilən dövrdən) başlayaraq Azərbaycanda elmi-ədəbi fikir Stalin və Bağırov rejimini, bütünlükdə «leninsayağı sosializm» dovrünü artıq təxəllüsü ilə yox, öz adı ilə təhlilə cəlb eləmişdir.

Əgər tipoloji qarşılaşdırmalar («demokratik» və «sosialist» respublikalar arasında müqayisələr) mütləq lazımdırsa, onda demək gərəkdir ki, hər halda, Azərbaycan Cümhuriyyəti sosialist partiya və dövlət quruculuğu sahəsində tarixi təcrübənin zəif və məhdud cəhətlərindən, ölkədə ifrat unitar və total rejimin məlum modelinə və qəliblərinə gətirib çıxara bilən hüquqi və təşkilati əyintilərdən çox uzaq olmuşdur. Yaxın keçmişin, sovet dovrünün vulqar sinifilik və diktatura sxolastikası ilə təftiş olunanda yox, hüquqi dövlət, sosial plüralizm (çoxpartiyalılıq!), ümumbəşəri dəyərlər və real, suveren demokratiya meyarları ilə «sınananda» onun mahiyyəti və üstünlükləri bütün zənginliyi və əyaniliyilə, aşkar görünür. Halbuki, çox uzun bir müddət milli elmi fikir Azərbaycanda «demokratik respublika» ilə «sosialist respublikasının»

timsalında iki müxtəlif qurumu – klassik Avropa ənənələri səviyyəsində ən müasir milli-hüquqi dövlətlə avtoritar quruluşu, «kult və kazarma rejimini», «orta əsrlər və feodal sosializmini» bir-biri ilə müqayisə etmiş və ...üstünlüyü qeydsiz-şərtsiz onlardan ikincisinə vermişdir. Nəticədə bir elm kimi tarixçiliyin o zamankı paradokslarından biri əmələ gəlmişdir.

Axı, son bir əsrdə millətin nəsibi olan ilk milli dövlət – «Azərbaycan Cümhuriyyəti o zaman bütün Şərqdə (və Avropada) ən demokratik parlaman modelinə malik idi və sağlam bir milliyyət fikri və türklük şüuru üzərində qurulmuşdu... Eyni zamanda, Azərbaycan çağdaş bir cəmiyyət qurmağa, Avropa zehniyyəti ilə çalışmağa əzm etmişdir. Bayrağının üç rəngi (mavi, qırmızı, yaşıl) bu ümdənin timsalıdır» (Üzeyir Hacıbəyli).

Milli birlik və istiqlal hakimiyyəti «Xalq respublikası» və sosial-demokratiya istiqamətində ümumbəşəri tərəqqinin həm Qərb, həm də Rusiya və Şərq meyllərini öz məzmununda birləşdirirdi. Milli dövlət qurumunu filial, struktura obyekti, avtonomiya səviyyəsində yox, tam müstəqil, klassik respublika səviyyəsində dirçəltmək cəhdinə Şərqdə real, konkret-tarixi timsal və nümunə idi.

Bir cəhət də çox mənalı və ibrətlidir: Azərbaycanda Cümhuriyyətin tülusu da, qürubu da cəbrsiz və zorsuz, qansız və qadasız baş verib. Onun mənəvi və hüquqi təsisində təməl daşı – hücum və ordu, silah və sürgün yox... milli dövlət təfəkkürü, zəka və müdriklik olub. Beynəlmiləlçi parlamanı, hüquqi dövlət təsisatı və əxlaq kodeksi onun bütün sonrakı qısa, çətin, lakin tarixi fəaliyyətinin mahiyyətini də aşılayıb: «Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşların bərabər bir hüquqda yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ qorunurdu,

erkək-qadın, müsəlman-xristian, türk-turk olmayan, cins və milliyyət fərqi gözləmədən, zəngin-fəqir, müdir-işçi, torpaq sahibi – günəmuzdçu, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkət idarəsində iştirak edir, qanun yapan quruluşlara girmək haqqına dəxi sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünmürdü. Bunun kimi ona nə yoxsulluğu üçün sayğı edilir, nə zənginliyi üçün aşağılanırdı... Burada misli Avropada tətbiq olunmayan həqiqi bir xalq Cümhuriyyəti qurulmuşdu» (M.Ə.Rəsulzadə. «Əsrimizin Səyavuşu», Ankara, 1989, səh. 44-45).

İlk Azərbaycan milli məclisinin başçısı, Müsavat (bərabərlik!) firqəsinin lideri iyirminci illərdən çox-çox irəliyə, qabağa baxır, sinif və diktatura rejiminin, xüsusi mülkiyyətin zorakı şəkildə ləğv olunmasının sonradan hansı nəticələrə gətirib çıxara biləcəyi barədə bu gün özünü tamamilə doğrultmuş müdrik qənaətlər söyləyir: «Azərbaycanlılar düşünürdülər ki, mülkiyyəti tamamilə ortadan qaldırmaq, indiki vəziyyətdə insanlarda şəxsi təşəbbüs qüvvətini (!-Y.Q.) zorakı olaraq ortadan qaldırır. Bu qüvvət olmadıqça dünya nə düzələr, nə də gözəlləşər. Sosial həyat irəliləmədən düşər, insanlar bəsit bir ibtidailiyə doğru dönərlər, dünyanın nizamı pozular» (yenə orada, səh. 46).

Elə bütün bunlara görə də Azərbaycanda Sovet yetmiş ilinin hakim ideoloji ehkamı AXC ilə bağlı sosial dəyərləri kilidli qapı arxasında saxlamışdır. Əvəzində total yasaqdan irəli gələn boşluğu ədəbi-tarixi təhriflər, vulqar sosioloji sxolastika, «*PANTÜRKİST*» və «*PANİSLAMİST*» kimi vulqar terminologiya və frazeoloji ibarələr doldurmuşdur (onların nə qədər əsassız olduğunu təsəvvür etmək üçün Cümhuriyyətin təkcə bir sənədini – dinin siyasətə qarışması barədə qətnaməni

xatırlatmaq kifayətdir. O da çox ibrətli və mənalı faktdır ki, o dövrdə dini və qövmi təəssüblə bağlı ən müxtəlif «ilhaq variantları» «İranla konfederasiya», Türkiyə ilə ilhaq» təklifləri) hamısı rədd olunmuş, məhz qeydsiz-şərtsiz suveren dövlət vahidi (*MİLLİ RESPUBLİKA*) səviyyəsində Azərbaycanın istiqlalı qorunub -saxlanmışdır. Bu – taleyin özünün Azərbaycanın onun gələcəyinə bəxş etdiyi müstəsna tarixi şans idi.

Müstəqil Azərbaycan bu tarixi şansı əvvəllər də, özünün bütün yaxın və uzaq keçmişi boyu həmişə çeşidli etnik və geosiyasi hücum və təzyiqlərdən qorumalı olmuşdu. Yenə də belə oldu. Ölkədə beynəlmiləl səviyyədə və mahiyyətdə milli quruculuq işləri genişləndikcə ortaq bolşevik-daşnak qəsdinin dairəsi də daraldı. Azərbaycan Cümhuriyyəti özünün müstəqilliyi əleyhinə çevrilmiş bu qəsdlərdən birincisinin qarşısını aldı – Qarabağa (Şuşa, Xankəndi, Əskəran, Dilican, Zəngəzur) soxulan (18 mart, 1920) erməni ordusunu darmadağın edə bildi. Lakin daha qlobal və birbaşa qəsdin altmış minlik hərbi zərbə qüvvəsinə – bolşevik Rusiyasından hücuma keçən (16 aprel, 1920) XI Ordunun təzyiqinə qarşı dura bilmədi. Dövrün ən böyük tarixi paradoksu da elə o oldu ki, Azərbaycanın milli suverenliyinə və dövlətcilik istiqlalına qarşı siyasi-hərbi müxalifətdə Azərbaycan və Türkiyə «bolşevikləri» rus XI Ordusu ilə eyni cəbhədə birləşdilər: türk kommunistləri Xəlil paşa, Rüfət bəy, Yaqub bəy, d-r Fuad Sabit «Mustafa Kamala köməyə tələsən» rusları Azərbaycana buraxmayan Cümhuriyyət hökumətini devirməyə çağırdılar.

Hələ bu da az imiş ki, Bakı neft mədənlərində çalışan butün iranlılar (Azərbaycanın Cənub yarısının nümayəndələri və onların «Ədalət» adlanan «kommunist təşkilatı» da dövlət çevrilişi təşkil etmək və müstəqil Azərbaycan Cümhuriyyətini devirmək üçün

Şimali Azərbaycanın bolşevik «Hümmət»i ilə və Rusiya Kommunist (bolşevik) Partiyasının Bakı Komitəsi ilə vahid bir cəbhədə birləşdi! «Ədalət», «Hümmət» və bolşevik «Bakı Komitəsi» Bakıda keçirilən (11 fevral, 1920) müştərək Qurultayda təşkilatca da rəsmən birləşdilər və vahid qərar qəbul etdilər: «Azərbaycanın fəhlə-kəndli kütlələri tanınmanın (söhbət Cümhuriyyətin bir dövlət kimi Rusiya tərəfindən tanınmasından gedir –Y.Q.) əleyhinədirlər». Beləliklə, həm «*ÖZ*»lərinin, həm də «*ÖZGƏ*»lərin bu vahid, «beynəlmiləl» (rus, Anadolu türkü, İran azərisi...) cəbhəsinə qarşı Azərbaycan Parlamanı duruş gətirə bilmədi. Azərbaycanın milli istiqlalının qorunub-saxlanması, rus ordusunun Bakıya girmədən keçib Atatürk hərəkatına (Anadoluya) yardıma getməsi və qan tökülməməsi şərti ilə AXC-nin rəhbərliyi hakimiyyəti Azərbaycan bolşeviklərinə təslim etməyə məcbur oldu.

Təsadüfi deyil ki, təxminən eyni vaxtda Cənubi Azərbaycanda da milli istiqlala qarşı qəsd baş verdi: Səttar xandan, Bağır xandan sonra Şeyx Məhəmməd Xiyabaninin Demokratik hökuməti məhv edildi.

Azərbaycan Cümhuriyyəti – şübhəsiz, 1917-1920-ci illərdə Avropa, Rusiya və Qafqaz miqyasında özünü göstərən geosiyasi maraqların obyektiv olaraq şərtləndirdiyi tarixi hadisə idi. Lakin o, daha əvvəl Azərbaycanda yaxın iki əsrin və xüsusən AXC-yə qədərki son üç on ilin sosial-ictimai və ədəbi-mədəni hərəkatı ilə hazırlanmış milli-məfkurəvi, mənəvi-ideoloji bir fenomen idi. Odur ki, ondan sonrakı çağdaş və gələcək tarix yalnız onunla bütövləşən məcrada, kontekstdə incələnə bilərdi: «Çaqdaş Azərbaycan tarixi ancaq bu boyük hadisənin işığı altında həqiqətən tədqiq edilə bilər. Çünki bu tarix çağdaş tariximizin keçmişini və gələcəyini müşahidəyə yarayan yüksək bir baxış nöqtəsidir» (M.Ə.Rəsulzadə. «Əsrimizin Səyavuşu»,

B., 1991, s. 89). Bu sözlər AXC-nin birinci növbədə ədəbiyyatına, onun keçmişinə və gələcəyinə aid idi.

Demək olar ki, AXC-nin rəhbərləri hamısı həm də AXC ədəbiyyatını və mədəniyyətini yaradanların özləri idilər: M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ü.Hacıbəyli, N.Yusifbəyli, C.Hacıbəyli... Azərbaycanda XX əsrdə milli vicdanı, mənəviyyatı ifadə edən adlar və imzalar hamısı, həm də bu Cümhuriyyəti ürəkdən dəstəkləyən və alqışlayanlar idi: M.Hadi, A.Şaiq, F.Köçərli, Ə.Haqverdiyev, H.Cavid, H.K.Sanılı, S.S.Axundov, R.Əfəndizadə, M.T.Sidqi, S. M.Qənizadə, A.Divanbəyoğlu, Ö.Faiq, S.Mümtaz, E.Sultan, H. Minasazov, N. Vəzirov, Y. Vəzir, gənc Cabbarlı...

«*DİNDƏ, ƏQİDƏDƏ BİRLİK*» (C.Əfqani), «*DİLDƏ, FİKİRDƏ, İŞDƏ BİRLİK*» (İ.Qaspıralı), «*TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, MÜASİRLƏŞMƏK*» (Ə. Hüseynzadə) –AXC-nin bütünlükdə türk dünyası, mənəvi Turan miqyasında qəbul etdiyi və rəhbər tutduğu bu mənəvi meyarlar, islam və türklük dəyərləri ilk dəfə idi ki, rəsmi-ideoloji doktrina, dövlət siyasəti səviyyəsində əməl, iş proqramı kimi elan olunurdu.

Şübhəsiz, AXC bütövlükdə obyektiv-mədəni tərəqqinin gedişi ilə hazırlanan və yekunu kimi doğulan, o cümlədən bədii ədəbiyyatın «əsəri» olan və bir inzibati qurum, dövlətçilik sistemi kimi də onun liderləri tərəfindən gerçəkləşdirilən hadisə olub. Bəs əvəzində AXC dövründə bədii ədəbiyyatın, milli-mənəvi mədəniyyətin məxsusi tarixi yüksəlişindən, 1918-1920-ci illərdə milli düşüncə və sənətdə ayrıca bir «*CÜMHURİYYƏT İNTİBAHINDAN*» danışmağa əsas varmı? Şübhəsiz, var,

Bu intibahın, bu Cümhuriyyətin salnaməsini sovet yetmiş ilinin tarix dərsliklərindən yox, o dövrün özünün poeziya kitablarından tərtib etmək olar: «*CAN, CAN*

AZƏRBAYCAN», «*AZƏRBAYCAN ORDUSUNA*», (Ə.Cavad), «*AZƏRBAYCAN BAYRAĞINA*», «*SEVİMLİ ÖLKƏM*», «*AL BAYRAQ*» (C.Cabbarlı), «*AH, VƏTƏN*» (A.Şaiq), «*AZƏRBAYCAN*» (Ə.Müznib), «*AZƏRBAYCANLIYA*» (Əli Yusif), «*VƏTƏNİM*» (Əli Şövqi), «*VƏTƏN QAYĞISI*» (Ə.Dai) –bunlar intəhasız axından, sonsuza qarışan bütövdən hələ yalnız fraqmentlər idi.

Əgər H.K.Sanılı belə fraqmentlərdən birində («Azərbaycan») vətənin hüsnünə mahnı qoşurdusa («Dağlarının başı qarlı, sinəsi yaşıl ormanlı, Dərələrin şirin narlı, Azərbaycan, Azərbaycan»), C.Cabbarlının şeiri («Al bayraq») üçrəngli (*GÖY YARPAQLAR, AL ÇİÇƏKLƏR, YAŞIL OTLAR*) bayrağın şərlə bədii açımı idi: GÖY altında «bir türk oğlu olmalı», *YAŞILLA* «ürəklərə dolmalı», AL ilə «mədəniyyət bulmalı».

Əsarətin gecəsindən fürsət bulmuş quş kimi
səhərlərə uçmuşdur,
Şu hilalda türk bilgisi, duzgün sevgi nişanı
yurdumuzu qucmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanda Cümhuriyyətdən əvvəlki yetmiş illik (1850-1918) milli-mənəvi inkişafın əsəri və övladı olub. Eyni miqyasda və siqlətdə digər əsərdən – Cümhuriyyətin öz əsəri və övladı olan milli İntibahdan isə geniş mənada Cümhuriyyətdən sonrakı yetmiş ilin (1920-1990) sənət və mədəniyyətinin timsalında danışmaq olar. Sovet federasiyası daxilində də Azərbaycanın milli istiqlalı, ərazi bütövlüyü və respublika statusu üçün potensial tarixi əsası və inzibati modeli Azərbaycan Cümhuriyyəti verdiyi kimi, eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunması, təzahürü və yüksəlişi üçün fəlsəfi-estetik təməli, nəzəri əsası da elə həmin AXC-nin milli tərəqqi təlimi və kon-

sepsiyası verdi. Azərbaycanda sovet dövründə də istisnasız olaraq bütün bədii formalarda – poeziyada, rəssamlıqda, musiqidə, teatrda... ən böyük uğura çevrilən şedevrlər məhz bu yaddaş kodundan çıxan, onunla təzad təşkil etməyən əsərlər oldular.

Azərbaycanın ən yaxşı alimləri, elm və bilik adamları sonralar həm millətin, həm də onun ədəbiyyatının tarixini bu yüksək nöqtədə duraraq yaratdılar (şübhəsiz, bu sözlər həmin yetmiş ildəki rəsmi-direktiv tarixçiliyə, boz yekrəng, «elmi»-»bədii» axma, qrafoman-doqmat məhsuluna, konyuktur makulaturaya aid deyil). Azərbaycanda son 150 ildə ədəbi nəsil və bədii ənənə arasında milli əlaqə, varislik estafeti xəlvətdə, alt qatda heç vaxt qırılmamış, daxildəki ana damarda, arteriyada dövriyyə fasiləsiz davam etmişdir. Və bunun da tamamilə məntiqi nəticəsi olaraq suverenlikdən sonrakı dövr – 1990-2000-ci illərin ədəbi prosesi də həmin dövriyyəyə əvvəlki təbiilik və qanunauyğunluqla qoşula bilmişdir (dəyişən siyasi ukladlarla birlikdə hər dəfə sənətə və sənətkara da münasibəti dəyişən, mədəniyyətin mərhələlərini qarşı-qarşıya qoyan vulqar-sinfi konyukturanın, siyasi təsnifatın bu qanunauyğunluqla heç bir əlaqəsi yoxdur).

Lakin bütün bunlarla birlikdə o da həqiqətdir ki, AXC dövrü ilə bağlı ədəbi irs, şübhəsiz, yalnız AXC-dən sonrakı ədəbiyyatın böyük nümunələri deyil. Həmin ədəbiyyatı ilk dəfə araşdıranlar və dəyərləndirənlər də elə Cümhuriyyəti və onun mədəniyyətini yaradanların özləridir.

Məlumdur ki, M.Ə.Rəsulzadə Cümhuriyyət dövrünü nəzərdə tutaraq yazmışdır: «Yeni dövrə keçid – ədəbiyyatın durduğu bir dövrdür». Mirzəbala Məhəmmədzadə də eyni müşahidəyə şərik olaraq həmin natamam iki ilin ədəbiyyatında «quruluşla bağlı dəyərli əsərlərin» olmadığını etiraf etmişdir. Şübhəsiz, hər iki

müəllif bu sözləri deyərkən, bilavasitə Cümhuriyyətin obrazını, özü də bütün möhtəşəmliyi və əzəməti ilə əks etdirən klassik sənət şedevrlərinin o zaman hələ yaranmadığını nəzərdə tutur.

Elə bir böyük şedevr ayrılıqda yaranmasa da, Cümhuriyyəti yaradan və Cümhuriyyətin ideallarını həmin dövrdə də incələyib tərənnüm edən zəngin bir poeziya, nəsr, dramaturgiya və tənqid məhsulu, fəal ədəbi və sosial-mədəni hərəkat AXC illərində mövcud olmuşdur.

Azərbaycan ərazisi bərpa olunmuş, müsəlləh milli ordu yaradılmış, Azərbaycan dili dövlət dili elan edilmiş və belə etibarlı zəmində hökumətin iyirmi üç ayda mümkün olan ən böyük tədbirləri də demokratiya, elm və milli mədəniyyət sahəsində olmuşdur: *BAKI DÖVLƏT UNİVERSİTETİ* (1919), *AZƏRBAYCAN DÖVLƏT TEATRI* (1919), «*TEATR XADİMLƏRİ CƏMİYYƏTİ*», «*MÜSƏLMAN MÜHƏRRİR VƏ ƏDİBLƏR CƏMİYYƏTİ*», «*YAŞIL QƏLƏM*» ədəbi birliyi açılmış, milli simvolika – gerb, bayraq, himn müəyyən edilmişdir. M.Ə.Rəsulzadə özü şəxsən yeni açılmış Bakı Dövlət Universitetində «Osmanlı ədəbiyyatı tarixi»ndən mühazirələr oxumuşdur. Rəsmi statistikaya görə, Azərbaycanda hələ 1919-cu ildə artıq 700 məktəb açılmış və bu məktəblərdə 48780 şagird təhsil almışdır.

Dövlət teatrı İ.Aşurbəylinin Azərbaycan istiqlalı mövzusunda yazdığı «*AZƏR-BAYCAN*» dramı ilə açılmış, A.M.Şərifzadə, C.Zeynalov, H.Ərəblinski, H.Sarabski, S.Ruhulla, M.Əliyev, M.Kazımovski kimi şöhrətli aktyorların ifasında, həmçinin «*HACI QARA*», «*ÖLÜLƏR*», «*BƏXTSİZ CAVAN*», «*ARŞIN MAL ALAN*», «*ƏDİRNƏ FƏTHİ*» tamaşaları səhnəyə qoyulmuşdur. Bədii repertuar, eyni zamanda «Zorən Təbib» (Molyer), «Qaçaqlar» (Şiller), «Əlmənsur» (Heyne),

«Müfəttiş» (Qoqol), həmçinin «Ənuşirəvani-adil» (Xalid ibn-Valid), «*SƏD İBN VƏQQAS*», «*YEZİD İBN MÜAVİYƏ*», «*TÜRKİYƏ OĞULLARI*», «*KÖHNƏ TÜRKİYƏ*», «*ƏBÜL-ÜLA*» pyeslərini əhatə edirdi.

Suveren düşüncə intibahı bədii təfəkkürdə xüsusilə qabarıq idi.

M.Ə.Rəsulzadə özü, həmçinin, S.Hüseyn, H.İ.Qasımov, C.Hacıbəyli, Əli Paşa Hüseynzadə... yenicə yaranmış müstəqil birliyin idarə heyətinin üzvləri seçilmişdilər. Simvolikdir ki, «*ƏDƏB YURDU*», «*ƏDƏBİ GECƏ*», «*MÜSƏLMAN ƏDİBLƏRİ DƏRNƏYİ*», «*NİCAT CƏMİYYƏTİ*» və «*TÜRK OCAĞI*» kimi çeşidli qrupları da öz içinə alan və «*YAŞIL QƏLƏM*» adlanmağa başlayan ədəbi cəmiyyətin məxsusi iclası Parlamanın binasında keçirilmişdi. Parlamanın rəhbəri şəxsən burada iştirak və çıxış eləmişdi.

Ədəbiyyat tarixi, folklor topluları yaradılması, ədəbi prosesin təşkili, milli tarixə və ənənəyə dair müntəzəm, çeşidli nəşrlərin cari və perspektiv planlarının icrasını müəyyənləşdirmək bu cəmiyyət qarşısında duran vəzifələr proqramı kimi müəyyən edilmişdi.

Bədii prosesi tənzim edənlər və yaradanlar – başda M.Ə.Rəsulzadə, ideoloq Mirzəbala, parlamentin sədr müavini H.Ağayev, parlamentin sədri Ə.M.Topçubaşov, S.Məmmədzadə, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, habelə C.Məmmədquluzadə, M.Hadi, H.Cavid, A.Şaiq, Ə.Müznib, S.Mümtaz və b. idi. Xüsusən «*CÜMHURİYYƏT ŞAİRİ*» Ə.Cavad, Əliyusif Rai, Umugülsüm xanım (M.Ə.Rəsulzadənin əmisi qızı, S.Hüseynin həyat yoldaşı), Əmin Abid (Gültəkin), C.Cabbarlı, Davud, Əli Şövqi kimi gənclərin onlarla ehtiraslı şeiri elliklə yayılır və oxunur, marşa, himnə, nəğməyə çevrilirdilər.

Nəzirə, qəzəl, qəsidə, mərsiyə, mədhiyyə ənənəsini isə daha çox Ə.Cənnəti, İ.Tahir, A.Müniri kimi yaşlı şairlər davam etdirirdilər.

Ümumiyyətlə, Məhəmməd Hadi və Hüseyn Cavid, Hacı Kərim Sanılı və Əhməd Cavad, Abdulla Şaiq və Əmin Abid, Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəyli, Seyid Hüseyn və Cəfər Cabbarlı, Abdulla Sur və Tağı Şahbazi Simurğ, Yusif Vəzir Çəmənzəminli və Firidun bəy Köçərli, Umugülsüm və İ.Aşurbəyli bilavasitə Azərbaycan istiqlalına, milli dövlətə, bayrağa və gerbə, türklük idealına və ümumbəşəri islami dəyərlərə həsr etdikləri ən yaxşı ədəbi-bədii, elmi-publisist, fəlsəfi-tarixi əsərləri bu illərdə yazmışlar. Onlarla ithaflar, himnlər və marşlar «*AZƏRBAYCAN*» və «*GÖY GÖL*» «*ŞÜHƏDAYİ-VƏTƏN*», «*MƏFKUREYİ-ALİYƏMİZ*» və «*ŞÜHƏDAYİ-HÜRRİYYƏTİMİZİN KİTABI*» və «*KAMANÇA*», «*HÜRRİYYƏT GÜNƏŞİ*» və «*AZƏRBAYCAN*», «*TRABLİS MÜHARİBƏSİ*» və «*AZƏRBAYCAN BAYRAĞI*», «*ŞEYDA*» və «*AYDIN*», «*NADİR ŞAH*» və «*BAKI UĞRUNDA MÜHARİBƏ*», «*SINIQ QANADLAR*» və «*HƏZİN BİR XATİRƏ. İSMAİLİYYƏ*», «*XEYİR-DUA*» və «*BİNƏSİBLƏR*», «*KONSULUN ARVADI*» və «*ZIRRAMA*», «*AZƏRBAYCAN ƏDƏBİYYATINA BİR NƏZƏR*» və «*AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ OÇERKLƏRİ*», «*ƏDƏBİYYAT DƏRSLƏRİ*», «*TÜRK ÇƏLƏNGİ*», «*MİLLİ QİRAƏT*», «*AZƏRBAYCAN TÜRKLƏRİNİN ƏDƏBİYYAT TARİXİ*» – hamısı bu dövrün barı-bəhrəsidir.

Bədii məhsul məzmunca bir neçə əsas, aparıcı sosial mövzü ətrafında mərkəzləşirdi; bayraqdakı rənglərin – türklük, islam və müasirlik idealının mədhi, türk və islam tarixinin tərənnümü, çağdaş modeldə ilk müstəqil, suveren milli dövlətin dəstəklənməsi, onun yaranması salnaməsinin, milli dövlətçilik ideologiyasının ifadəsi,

təsbiti, ordunun hərbi uğurlarının bədii təminatı; ermənilərin Qarabağ üsyanı, Azərbaycanda dinc əhalinin vəhşicəsinə qətli və ərazilərin talan olunması, daşnakların Bakıda tarixi abidələri, elm və mədəniyyət ocaqlarını yandırması, 28-31 mart hadisələri, millətin türk keçmişinin və islam tarixində şəhidlik və qəhrəmanlıq səhifələrinin mədhi və yada salınması; şimaldan yaxınlaşan qara dumandan və vətənin başı üstünü almaqda olan təhlükədən doğan həyəcan və təşvişin ifadəsi.

Ədəbi-bədii və mənəvi səsləşməni bu illər ən çox inqilabi romantik türk və azəri poeziyaları arasında görürük. Əbdülhəq Hamid, Namiq Kamal, Tofiq Fikrət, Məhəmməd Əmin Yurdaqul... milli azəri şairi qədər yaxından tanınır, oxunur və sevilirdi:

Qan qardaşı, can qardaşı, şan qardaşıyız biz

(Tofiq Fikrət)

Altı da bir, üstü də birdir yerin
Cəbhədə yarə şənidir əsgərin

(Namiq Kamal)

yaxud:

Öylə bir əzm ilə çıxdım ki, yola,
Qarşıma çıxsa, məzarım, dönməm –

(Əbdülhəq Hamid)

yaxud:

Haydı, oğlum, haydı, get,
Ya qazi ol, ya şəhid –

(M.Ə.Yurdaqul)

Bu beytləri Azərbaycanın Cümhuriyyət romantizminin poeziyada leytmotivi, epiqrafı olan misralar hesab etmək olar.

Onun ən yaxşı davamı və cavabı M.Hadinin şeir rübabından eşidilirdi:

Çıxsın dilərsə qarşımıza həp məzarımız
Dönməz məzaridən bu dili-əzmkarımız...
Vicdani-millətə yazılıbdır bu ayəmiz,
Ən şanlı, ən şərəfli həyat iştə qayəmiz.

(«Məfkureyi-aliyəmiz»)

Milli intibah, hüriyyət düşüncəsi və istiqlal ovqatı Hadinin bu vaxta qədər yasaqda qalan cümhuriyyət dövrü digər iki şeirində – «*ZƏFƏRİ-NAHİYƏYYƏ DOĞRU*» və «*ƏSGƏRLƏRİMİZƏ, KÖNÜLLÜLƏRİMİZƏ*» mənzumələrində, həmçinin «*AYDINLIQ BİR GECƏDƏ TƏFƏKKÜR DƏQİQƏLƏRİ*», «*KOR SOQQUR*», «*BAHARIN İLHAMLARI VƏ İCTİMAİ RƏMZLƏR*», «*HƏRARƏTLİ ŞEİR VƏ YAXUD QIZDIRMALI HALIMDA SAÇMALARIM*» şeirlərində davam eləyir. Müsavat və istiqbal tərənəsi, həmçinin, A.Şaiqin yasaqdan çıxan «*İNTİZAR QARŞISINDA*», «*ARAZ*»DAN «*TURAN*»A», «*YENİ AY DOĞARKƏN*», «*VƏTƏNİN YANIQ SƏSİ*», «*TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT FİRQƏSİ*» («Müsavata ithaf», marş) şeirlərində davam edir:

İldırımlar gurlasın,
Bulutlarım hazırlansın tüfana!
Dağım, daşım boyansın həp al qana,
Şimşəklərim parlasın...
«Ölüm!» deyə, «Vətən» deyə qoşarız.
Bu torpaqlar qanımızla boyansa,
Nəfəsimiz qalınça öc alarız.

Türklük-qardaşlıq mövzusu Şaiqin də, Hadinin də şeirində xüsusilə güclüdür.

Eyni motiv, həmçinin, o dövrdə nəşr olunmuş «Milli şərqilər» adlı seçmə şeirlər toplusunda əsas mövzunu və mündəricəni, vahid ideya-bədii pafosu təşkil edir:

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üçrəngli əksini Quzğun dənizdən
Ərməğan yolla sən, yara bayrağım!

(Ə.Cavad. «Azərbaycan bayrağına»)

Gənc Cəfər Cabbarlının istiqlal mövzulu dörd tribun şeiri uzun müddət idi ki, zorən unutdurulmuşdu. Halbuki onlar 1918-1920-ci illərin inqilabi və romantik ədasını xüsusilə qabarıq ifadə edən fəlsəfi-simvolik nümunələrdir: - «*SEVDİYİM*», «*AZƏRBAYCAN BAYRAĞINA*», «SEVİMLİ ÖLKƏM», «*SALAM*» şeirləri. Romantik aşiq «*YAŞIL DONLU, AL YANAQLI, MAVİ GÖZLÜ SEVDİYİM*» dediyi məşuqəyə eşq elan edir və onun tarixi simvolikasını belə açırdı:

Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,
bir türk oğlu olmalı.
Yaşıl boya islamlığın sarsılmayan inamı,
ürəklərə dolmalı.
Al boya da azadlığın, təcəddüdün gümanı,
mədəniyyət bulmalı.
Səkkiz hərfli bu ulduz da səkkiz hərfli
*Od yurdu**,
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi
səhərlərə uçmuşdur.

* «Od yurdu» sözü ərəb əlifbası ilə yazılanda səkkiz hərfdən ibarətdir. – A.B.

Cümhuriyyətin sabaha uçuş və döyüş cəngisini, fəth olunan səma və şimşək şərqisi kimi səslənən ən kövrək bədii notları yenicə açılan poeziya səhərinin ilk qadın şairəsi *UMUGÜLSÜMÜN* fərdi şeir ədası ifadə edir. Onun «*ƏSGƏR ANASINA*», «*ÇƏKİL, DƏF OL*», «*BİR MAYİS GÜNÜNDƏ*» – kimi şerləri üzərində ən zərif nisgildən, ürkək təşvişdən büruntü və tül, xüsusən «*ŞİMALDAN GƏLƏN DUMANDAN*» bir çiskin var:

Annəciyim, mənim bu yaşıl dağlar,
Mənsiz nəşə bulmaz çiçəkli bağlar,
Yurduma buraxmam alçaq düşməni...
Ey buzlu şimaldan qopan ruzigar,
Toxunma qəlbimə, atəşi parlar.

(«Çəkil, dəf ol»).

İstiqlal mövzusu, onun uğur və çətinlikləri, xilaskar türk mehmetciyinin (əsgərinin) obrazı, xüsusən, dövrün mənəviyyat, məişət və əxlaqla bağlı problemləri bu illərin nəsrində daha geniş yer tutur: «*HÜRRİYYƏT GÜNƏŞİ*» (Simurğ), «*MƏDƏN SAHİBİNİN FƏRASƏTİ*» (B.Talıblı) «*SINIQ QANADLAR*» (A.Yusifzadə), «*HAMAMÇI*», «*DİLƏNÇİ*», «*ÜÇ QARDAŞ*» (İ.Qəmbəroğlu), «*SƏRSƏM KİŞİ*» (Ə. Fəhmi) və s.

Nəsrdə Cümhuriyyət ədəbiyyatının ikinci ən mühüm mövzusundan –Azərbaycanda erməni genosidi və zorakı, qanlı daşnak irticası barədə əsərlərdən ayrıca danışmaq lazımdır. «*MÜCADİLEYİ-HƏYAT*» (M.Rəfizadə), «*İXTİYAR*» (İ.Oruczadə), «*VARMI BİR QURTARACAQ?*» – (Cəlil) əsərləri, «*AZƏRBAYCAN*», «*İSTİQLAL*», «*BƏSİRƏT*», «*ÖVRAQİ NƏFİSƏ*», «*ƏFKARİ-MÜTƏLLİMİN*», «*QURTULUŞ*» kimi çeşidli qəzetlərin səhifələrində çoxlu publisist məqalələr bu mətləbə həsr edilmişdir. Onların hamı-

sının cəmindən yaranan vahid mənzərə, ümumi tragik qənaət bu idi ki, «Qanlı Nikolayların» dövründə görünməyən zülmlər bizə bu gün, mart ayının 28-31 günləri arasında rəva görüldü... On minlərlə müsəlman qanı axıdılmışdı... Hər kəs... «bala vay» deyirdi. Elə evlər var idi ki, bir nəfər insan orada yox idi. Həpsi erməni soldatların felinə uyan demokrat ünsürlərin əmri ilə öldürülmüşdülər» («Bəsirət», 1 aprel, 1919).

Öldürülənlər, məhv olanlar millətin təkcə oğul və qızları deyildi. Daha planlı və məqsədli şəkildə xalqın mədəniyyət abidələri məhv edilirdi. Erməni daşnaklarının Bakıdakı «mədəniyyət genosidi» mətbuatda ayrıca mövzuya çevrilmişdi. M.Ə.Rəsulzadə, Üzeyir Hacıbəyli, Mirzəbala Məhəmmədzadə, Seyid Hüseyn ehtiraslı və ağrılı bədii-publisist yazılarla çıxış etmişdilər.

Şəhər memarlığına ən böyük qəsdin ünvanı kimi «*İSMAİLİYYƏ*»-nin (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin) binası seçilmişdi. «*İSMAİLİYYƏ YANĞINI*» bədii-ictimai fikirdə də bir yanğına çevrildi. Hətta «*YAŞIL QƏLƏM*» ədəbi birliyi həmin mövzuda ən yaxşı bədii əsər üçün müsabiqə elan etdi.

Barbarliq, adamyeyənlik (vandalizm!), mədəniyyəti və memarlığı dağıtmaq müsabiqəsində birinci yeri «İslamiliyyə»-ni yandıran erməni daşnakları tutmuşdu. Humanizm və insanlıq əleyhinə, bəşər mədəniyyəti əleyhinə bu qəsdə qarşı vicdani-əxlaqi və mənəvi-humanitar fikrin ağrısı, üsyanı, harayı müsabiqəsində isə qələbə çələnginin «Həzin bir xatirə. İsmailiyyə» hekayəsi ilə «Yaşıl Qələm»in rəhbəri Seyid Hüseyn qazandı. Əslində bu mənsur lirikadır, «İsmailiyyə»yə mədhiyyədir. Ədib vüqarımız və izzəti-nəfsimiz olan, xalqın arzudan və əməldən tikdiyi milli *AZADLIQ VƏ İSTİQLAL MƏBƏDGAHI* olan «milli əməllərimizin doğulduğu yer» kimi, «Azərbaycan hürriyyəti və istiqlaliyyəti, məfkurəsini bətnində bəsləyən və ərsəyə

yetirən «sevimli bina» və «ana» kimi tərənnüm edir və istiqlalın buradakı sütunlara, daşlara həkk olan, yaddaş olan tarixində, mənəvi tərcümeyi-halında bütün müqəddəs səhifələr bir-bir bizim xatirəmizdə canlanır: sorağı Azərbaycana və bütün dünyaya buradan yayılan ilk milli məclis, ilk istiqlal bəyannaməsi, ilk bayraq və gerb, ilk himn, «*NİCAT*» və «*SƏFA*» maarif cəmiyyətləri, «*SƏADƏT*» ruhani cəmiyyəti, «*QARDAŞLIQ KÖMƏYİ*» idarəsi, «*QAFQAZ MÜSƏLMANLARININ BİRİNCİ QURULTAYI*», «*MUXTARİYYƏT*» manifesti, Azərbaycanın tarixə və dünyaya səs salan ilk müstəqillik və azadlıq bəyannaməsi...

Daşnak vandalı hədəfi düz seçmiş və bir atəşlə bir tarixi oda və güdaza vermək istəmişdi.

Lakin hekayə nikbin və lirik rəmzi bir ovqatla tamamlanır, müəllif bu məbədgahın həqiqətən yanması xəbərinə «*YALANDIR, İNANMA!*» - deyir, Bakıda «İsmailiyyə qətlgahı» vaqiəsini hədyan, şayiə elan edir. Və xəyallı, ümidli, fəryadlı epiloqda divanə bir inamla oxucuya üz tutur: «Bilirmisiniz İsmailiyyənin yandırıla bilmədiyni aləmə isbat edən bir həqiqət hankısıdır? Azərbaycan parlamanı üzərindəki üçrəngli və səkkizguşə yıldızlı təmuc üçün Azərbaycan bayrağı!» («İstiqlal», 4 fevral, 1920). Doğrudan da, həmin istiqlal bayrağının altında Cümhuriyyətin özünün vaxtında «İsmailiyyə»nin tarixi binası öz əvvəlki görkəminə qayıtdı...

AXC sözün çağdaş Avropa mənasında bütün Yaxın Şərqdə demokratik dövlət və cəmiyyət örnəyi idi. İstər mətbuatda, istərsə də sosial-siyasi qurumlarda tam bir polifoniya və plüralizm hakim idi. Parlamanda bütün əsas firqələr və milli azlıqlar təmsil olunmuşdu. Ölkədə çeşidli firqələr («İttihad», «Əhrar», «Slavyan-rus ittifaqı» və «Daşnaksütyun» da daxil olmaqla) və onların mətbuat orqanları açıq fəaliyyət göstərirdi. 200-ə yaxın qəzet çıxırdı. Hətta bolşeviklər öz mətbuat orqanlarını

(«Əxtər», «Haqq», «Zəhmət», «Kommunist», «Gənç işçi» və «Yaşıl qələm»ə qarşı «Qırmızı qələm» ədəbi birliyini) yaratmışdılar.

DİL MƏSƏLƏLƏRİ. Azərbaycan Xalq Cümhuriyyəti nəinki xalqımızın, ümumən qoca Şərqin tarixinə daxil olmuş ilk demokratik respublika, Azərbaycan Milli Şurasının elan etdiyi ilk parlamentli dövlət olmuşdur. AXC-də müstəqil dövlətin bütün atributları – bayraq, gerb, dövlət dili vardı. Təəssüf ki, onlardan biri, daha doğrusu, dövlət dili, indiyədək geniş və hərtərəfli tədqiq edilməmişdir.

Yenicə yaranan müstəqil Azərbaycan Respublikası fəaliyyətinin elə ilk günlərində öz dövlət dili haqqında qərar verdi. Həmin qərarı olduğu kimi veririk:

«DÖVLƏT DİLİ» HAQQINDA

28. Dövləti lisan türkcə qəbul edilərək, müvəqqətən hökumət müəssisələrində rus lisanı istemalına müsaidə edilməsi haqqında.

Hökumət 27 iyun 1918-də qərar verdi: Dövləti lisan türk dili qəbul edilərək ilərıdə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin[1].

Qərardan göründüyü kimi, hökumət o vaxtlar türk dili adlanan Azərbaycan dilini dövlət dili kimi qəbul edərək, ölkənin məhkəmə, daxili işlər idarələrində və sair dairələrdə vəzifə başında olanların dövlət dilini bilmələrinə qədər olan müddətdə hökumət müəssisələrində rus dilinin işlənməsinə də icazə vermişdir. Qərarın mətnindən göründüyü kimi, Azərbaycan Xalq

[1] Ə. Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, B., 1979, səh. 93.

Cümhuriyyətinin rus dilinin istifadəsinə icazə verməsi müvəqqəti tədbir olmuş və yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, dövlət dili haqqında olan bu qərar hökumətin «Milli bayraq haqqında»kı 9 noyabr 1918-ci il tarixli qərarından altı ay əvvəl verilmişdi. Bu fakt ilk Azərbaycan hökumətinin dövlət dili məsələsinə necə diqqət yetirdiyini aydın göstərir.

Həmin qərar dilimizin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Başqa sözlə, həmin qərarın verildiyi gündən Azərbaycan və Azərbaycan dili tarixində Azərbaycan dili ilk dəfə dövlət dili elan olunmuşdur.

Etiraz edilə bilər ki, hələ XVI əsrdə Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi məlumdur. Ə.Dəmirçizadənin yazdığı kimi, «XVI əsrdə Şah İsmayıl Xətainin başçılıq etdiyi Səfəvilər dövləti zamanından başlayaraq Azərbaycan dilinin mövqeyi, nüfuz dairəsi daha da genişlənməyə başladı və Azərbaycan ədəbi dili dövlət idarələrində, sarayda, hərbi hissələrdə işlənilən rəsmi dillər sırasında yer tutdu, o zaman islamiyyətin dini dili sayılan ərəb dili və bədii ifadə vasitəsi kimi modalaşmış fars dili ilə yanaşı işlənən bir dil hüququ qazanmış oldu».[1] Lakin, yenə də Ə.Dəmirçizadənin çox doğru olaraq göstərdiyi kimi, «bütün bunlara baxmayaraq, demək lazımdır ki, bu dövr Azərbaycan dilinin rəsmi dövlət dili hüququ tam olmamışdır. Çünki tam rəsmi dövlət dili hüququ yeganə rəsmi dövlət dili olmaq deməkdir. Madam ki, Səfəvilər dövləti sarayında, idarələrində, **rəsmi yazışma işlərində ərəb və fars dilləri də eyni dərəcədə** (seçdirmə mənimdir – A.A.) işlənilmişdir, deməli burada tam hüquqlu Azərbaycan dövlət dilindən danışmaq olmaz. Bundan başqa, belə bir əlaməti nəzərə almalıyıq ki, hər hansı bir dilin rəsmi dövlət dili

[1] Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, səh. 167.

hüququnda olması həmin dilin əsas təlim-təhsil vasitəsi və tədris fənni olması deməkdir. Məlum olduğu üzrə, XVI əsrdə Azərbaycan dili hələ belə bir dil hüququna malik deyildi».[1]

Ana dilimiz xüsusən XIX əsrdə dövlət dili statuslu bir dil olmaq səviyyəsinə daha çox yüksəlir. Milli təşəkkül mərhələsində Azərbaycan ədəbi dilinin, demək olar ki, bütün üslubları fəaliyyət göstərir. Həmin dövrdə «ictimai-siyasi üslubun müxtəlif qolları, xüsusən sənədat üslub şaxəsi»[2] çox inkişaf edir, şərtnamə, intizamnamə, təməssüknamə, vəkalətnamə, icarənamə, qəbələnamə, habelə çeşidli elannamə, qərardadnamə və nizamnamələr də Azərbaycan dilində yazılır. Bunlar hamısı dövlət dili üçün, şübhəsiz ki, baza sayıla bilər.

Bununla belə, nəinki XIX əsrdə, heç XX əsrin əvvəllərində də Azərbaycan dövlət dili rəsmi olaraq mövcud deyildi.

Azərbaycan dilinin rəsmi dövlət dili olması məhz ilk Azərbayçan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci ilin 27 iyununda verdiyi qərardan başlayır.

AXC hökuməti və parlamenti dövlət dili ilə bağlı, əvvəldə göstərilən qərardan başqa digər heç bir qərar və ya fərman qəbul etməmişdir. Bu haqda Baş Arxiv İdarəsinin rəisi Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci il 2 noyabr tarixli iclasında rəsmi şəkildə məlumat vermişdir: «Dövlət arxivlərində saxlanılan, dövlət dili haqqında məlumat olan ilk sənəddə – 1918-ci il iyul (əslində iyun –A.A.) ayının 27-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən qəbul edilmiş qərarda türk dili dövlət dili kimi elan edilmişdir. Sonra parlamentin fəalliyyəti zamanı onun iclaslarının bütün materiallarına biz baxdıq. Belə bir məsələ parlamentdə qaldırılmayıb. Demək istəyirəm ki, qanun səviyyəsində dil haqqında elə bir qərar qəbul edilməyib.[1]

Lakin Azərbaycan dili haqqında xüsusi qərar və fərmanlar olmasa da, o zamanlar türk dili adlanan ana dilimizə məclis məbusları, başqa sözlə, parlament üzvləri vaxtaşırı münasibət bildirirdilər. Xüsusən, parlamentin 1919-un 21 avqustunda keçirilən iclasında gündəlikdəki məsələ – Bakı Universitetinin açılması məsələsi ilə bağlı deputatların çıxışlarında dil məsələsinə xususi diqqət yetirilmişdir. Çıxış edənlərin, demək olar ki, hamısı universitetdə, ölkəmizin bu ilk ali məktəbində tədris işləri ilə bərabər, onun hansı dildə aparılması məsələsinə də xüsusi diqqət yetirmişlər.

Parlamentdə sol müstəqil Abdulla bəy Əfəndizadə deyirdi: «İndiki darülfünunu yetişdirən müəllimlər gərək türk dilinə aşina olsunlar. Ona görə də lazımdır ki, darülfünuna elə müəllimlər dəvət edək ki, türk dilini yaxşı bilsin... hər şöbədə, necə ki, qeyd olunubdur, türk dili məcburi olsun. Bir məcburi deməklə olmaz. Gərək bunun proqramı olsun...»! (6,14).[2] Tədrisdə ana dili məsələsinə böyük əhəmiyyət verən məclis üzvü universitet məzunlarını nəzərdə tutaraq bu məsələnin vacibliyini bir daha vurğulayır: «Bir şəxs ki, darülfünunu ikmal etdi... edadidə tədris edəndə də darülfünundan özünə götürdüyü elmləri lazımdır ki, gözəl ədəbi türk dilində tədrisə müqtədir olsun»

Göründüyü kimi, A. Əfəndizadə tədris işində dövlət dilinin zəruriliyinin tam tələbkarı kimi çıxış edir.

Parlamentdə müsavat və bitərəflər fraksiyasının üzvü Yusif Əhmədov da eyni fikirdədir: «Biz istərdik

[1] Yenə orada.

[2] M.Cahangirov Milli təşəkkül mərhələsində Azərbaycan ədəbi dilinin aparıcı üslubları. B., 1989, səh. 222-229.

[1] "Azərbaycan" qəzeti, 7 noyabr, 1995.

[2] Azərb. Respublikası MDA, f. 893, siyahı 1, iş 133.

ki, hər bir təsisat ki, yapırız, onu öz dilimizdə yapa idik. Lazımdır ki, hər bir millət çalışıb yoldaşa elmdə bərabər olsun. Güman ediyorum ki, hər bir təsisat öz dilimizdə ola».[1]

Əhrar fraksiyasına daxil olan məclis üzvü Muxtar Əfəndizadə məsələni qəti qoyur: «Qonşularımız erməni və gürcülər bizə gülüyorlar: «Bizim (yəni erməni və gürcülərin –A. A.) məmləkətdə ana dili işlədigi halda (orada, yəni Azərbaycanda – A.A.) hənuz rus dili işlənir».[2]

Məsələyə müsavatçıların lideri M.Ə.Rəsulzadənin münasibəti öz reallığı və obyektivliyi ilə fərqlənirdi: «Ülum və fünun bitərəfdir. Dünyada rus elmi deyil, beynəlmiləl bir elm var. Biz bu beynəlmiləl elmi hər bir millətin ağzından eşitdiyimiz kimi, rus professorları ağzından da öyrənə biləriz»[3] Daha sonra: «Vəqtilə bu darülfünun get-gedə milliləşəcək. Bununla bərabər, orada türk dili ümumi surətdə məcburi olaraq keçiləcək və öyrədiləcək. Rus və ya əcnəbi bir lisanda təhsil etdiyi bir elmi öz dilində ifadə edə biləcək. Halbuki xaricə gedən tələbəmiz üçün bu mümkün degil. Onlar öz lisan və mühitlərindən məcburiyyətində olduqları halda darülfünumuz tələbələri isə təhsil etdikləri elmlərlə bərabər, xalq arasında olacaqlar ki, bunun da bizə bir çox faydası dəgəcəyi təbiidir».[4]

Bakı Universitetinin açılmasının qızğın tərəfdarı olan M.Ə.Rəsulzadə dil problemini tutarlı əsaslarla həll etməyə çalışır və muxtəlif ölkələrin təcrübəsindən misallar gətirir: «Və əgər bugünkü darülfünunlara baxsanız, orada da almanca, firəngcə təlim aldıqlarını görərsiniz, heç bir millət tarixən ilk addımında milli bir

[1] Yenə orada, 12.
[2] Yenə orada, 19.
[3] Yenə orada, 9.
[4] Azərb. Respublikası MDA, f. 893, siyahı 1, iş 9.

darülfünuna sahib olmamışdır. Əvvəlcə özgələrdən istifadə edərək, sonra get-gedə quvvət kəsb etmişdir. Binaənileyh qorxmamalıdır. Darülfünun hər dildə olsa da olsun, açıb oxumalıyız».[1]

Parlamentin sosialistlər fraksiyasından olan Səmədağa Ağamalı oğlu və Əliheydər Qarayev müxalifətdə olsalar da, darülfünun və dil məsələsində onların fikri müsavat liderinin fikirləri ilə üst-üstə düşür. Qeyd edək ki, onların çıxışlarında gətirdikləri əsaslar bir-birlərindən fərqli olsalar da, məqsəd və ideyasına görə vəhdət təşkil edir. Səmədağa Ağamalı oğlunun çıxışından: «Deyirlər ki, türkün öylə quvvətli dili yoxdur ki, onun darülfünunu olsun. Əvvəlcə dili qüvvətləndirib, sonra darülfünun açmaq lazımdır. Darülfünun olmasa, dil də qüvvətlənməyəcəkdir. Darülfünun olan yerdə dil də böyüyür. İnandırıram ki, revolyusiyadan əvvəl dil bilməyənlər indi yavaş-yavaş məcbur olub dil öyrənib, öz köçünü sudan çıxarır».[2]

Darülfünunun açılmasına böyük səy göstərən Əliheydər Qarayev ana dili probleminin özünə aydınlıq gətirməyə çalışır: «Darülfünun, doğrudur, öz ana dilimizdə milli olmalı idi. Zatən biz deyürüz ki, cəmi millətlər azaddır və onların lisanı da, dili də azad olsun. Halbuki Nikolay bizim milli lisanla tədrisatımıza mane olduğu üçün bir deyil darülfünunu, hətta ibtidai məktəblərimizi də milliləşdirmədik».[3] Bu sözlər də onundur: «Çün biz bu vaxta qədər ibtidai və edadilərdə milli ruhda tərbiyə almamışıq ki, milli dilimizi bilək və milli lisanda leksiya oxunanda anlayaq» (yenə orada).

Müxtəlif partiya və fraksiyalara mənsub olan parlament üzvləri M.Ə.Rəsulzadə, S.Ağamalı oğlu və Ə. Qarayevin çıxışlarında təhsil və dil problemi üzrə

[1] Yenə orada, 10.
[2] Yenə orada, 17.
[3] Yenə orada, 20.

söylənilən mülahizələr, verilən təkliflərin təsiri idi ki, dil məsələsini təhsil və tədrisdən üstün tutan və məsələdə çox aydın mövqeyi olduğu halda parlament üzvlərinin bir qismi konkret bir mövqe tuta bilmirdi. Bu baxımdan, sol müstəqil Abdulla bəy Əfəndizadənin çıxışları bunu aydın göstərir: «Darülfünun hər hanki dildə olursa-olsun, o, elm mənbəyidir. Vətən üçün, demək, yaxşı işçilər, siyasi adamlar, elmili adamlar hazırlayacaq... Söz yox ki, darülfünun güşadı sözü meydana gəldikdə, demirik ki, əvvəlinci gündən türk dilində olacaq. Bu mümkün olan şey deyildir. Bizim hazırlığımız rus darülfünununda oxumaq üçündür. İstəsək də o qədər qüvvə və professor tapmarıq ki, öz dilimizdə elm və fünun keçək... Lakin hər iki tərəfi barışdırmaq, bir neçə illərdən sonra da olursa türkcə keçə bilərsən, o da türk lisanına məxsus vəziyyətdir ki, əsaslıdır».[1]

Bəzi məclis üzvlərinin çıxışı isə öz reallığı və konkretliyi ilə fərqlənir. Məsələn, əhrar fraksiyasından olan deputat Muxtar Əfəndizadənin çıxışında bu, aydın hiss olunur: «Məhəmməd Əmin əfəndi eyi təsvir etdi ki, ülum bitərəfdir. Hanki dildə olmuş ola elmdir. Lakin onu bilməlidir ki, tarixi-ədibə bir elmdir ki, onu ana dilindən başqa bir dildə öğrətmək olmaz».[2]

Bakı Universitetinin açılması məsələsinə həsr olunan yalnız bir iclasda Azərbaycan dili barəsində deyilənlər, göründüyü kimi, birbaşa dövlət dili, onun tədris və təhsil işində yeri kimi ciddi problemlə bağlıdır. Parlament üzvlərinin çıxışları istisnasız olaraq, hökumətinin «Dövlət dili haqqında» qərarına uyğun olmuşdur.

F.Xoyskinin çıxışlarında hökumətin dövlət dili sahəsində görülən işlər barəsində vaxtaşırı verdiyi məlumatlar dövlət dilinin daim hökumətin diqqət mərkəzində durduğunu göstərir: «Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır»[1] və yaxud: «İmdi şukürlər olsun bir çox ədliyyə idarələrinə turk dili bilən adamlar təyin edilmişlər».[2]

PARLAMENTİN DİLİ. Azərbaycan dilinin Azərbaycan Xalq Cümhuriyyətinin sözün əsl mənasında dövlət dili kimi işlənməsi öz həqiqi təcrübi tətbiqini geniş şəkildə ilk Azərbaycan parlamentinin dilində tapdı.

Bəlli olduğu kimi, Azərbaycan parlamentinin ömrü çox da böyük olmayıb. O, öz fəaliyyətinə 1918-in 7 dekabrında başlamış, 1920-nin 27 aprelində başa çatdırmışdır. Parlament bu müddət ərzində 140-a yaxın iclas keçirmiş və 300-dən çox qanun qəbul etmişdir. Bir neçə təntənəli və növbədənkənar iclas nəzərə alınmazsa, bugün yığıncaqlar işgüzar şəraitdə keçmişdir. İlk Azərbaycan parlamentinin iclas protokollarının dili uzərində apardığımız müşahidələr onun dili haqqında aydın təsəvvür yaradır. Bu təsəvvür tam əsas verir deyək ki, *Azərbaycan ədəbi dilinin rəsmi parlament uslubu ilk dəfə məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi dövrdə yaranmışdır.*

Bir cəhəti də qeyd etmək lazım gəlir. Dövlət dili haqqında verilmiş qərarda, məlum olduğu kimi, məhkəmə, daxili idarə işlərində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilirdi. Parlament isə bu siyahıya daxil deyildi. Ona görə də parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, parlamentin üzvlərinin öhdəsinə buraxılmışdı. «Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu

[1] Yenə orada, 13.
[2] Yenə orada, 18.

[1] Azərbaycan Respublikası MDA, f. 895, siyahı 1, səh. 14.
[2] Yenə orada, səh. 14.

məsələ xüsusi müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində türkcəsi etmələri məqbul hesab edilmişdi. Bununla belə, rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə adətən parlamentin sədr müavini Həsən bəy belə bir məzmunda dərkənar qoyurmuş: «Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır».[1]

Azərbaycan parlamenti sənədlərinin dilində diqqəti cəlb edən ilk cəhət onun bütöv bir dövrün ədəbi dili barədə tam təsəvvür yaratmasıdır. Məlumdur ki, bütün dövrlər üçün olduğu kimi, XX əsr ədəbi dilimizin ümumi mənzərəsini də həmin dövrdə yazılmış bədii əsərlərin və çox geniş şəkildə olmasa da, dövrün mətbuatının dili verir. Azərbaycan ədəbi dilinin tarixinə həsr olunmuş əsərlərdə göstərildiyi kimi, o dövrdə Azərbaycanda bədii ədəbiyyat tənqidi-realist ədəbiyyat, realist-maarifpərvər ədəbiyyat, romantik ədəbiyyat olmaqla üç ədəbi üslubda mövcud olmuş və öz ifadələrini üç ədəbi-bədii dil üslubunda tapmışdır. Lakin XX əsrin əvvəllərindən başlayan bu dil durumunda bir-birindən prinsipcə fərqlənən iki əsas səciyyəvi cəhət olmuşdur. Azərbaycan parlamentinin dilində də bu iki cəhət özünü aydın göstərir: bir tərəfdən, Azərbaycan ümumxalq dili üzərində yüksələn, o biri tərəfdən, daha çox osmanlı dilinə çəkən, bəzi hallarda tamamilə osmanlı dilindən ibarət olan bir dil. Lakin ədəbi dilimizin parlament üslubunda onun tam bu şəkildə qəliblənmiş formaları əvəzinə vəziyyətlə, mövzu ilə, şəraitlə bağlı daha çevik ifadə tərzləri vardı. Azərbaycanın ilk parlamentindəki

[1] N.Nəsibzadə Azərbaycan Demokratik Respublikası. B., 1990, səh. 61.

çıxışlar dilcə daha rəngarəng idi və əvvəlcədən müəyyənləşmiş qəliblərə çətin yerləşirdi.

Deyilənləri parlament üzvlərinin çıxışlarından gətirilən aşağıdakı nümunələrdə aydın görmək olar.

Azərbaycan Cümhuriyyətinin məclisi-məbusanının (parlamentinin) birinci iclasında Şurayi-Millinin (Milli Şuranın) rəisi Məhəmməd Əmin Rəsulzadənin giriş sözündən: «Möhtərəm məbuslar! Azərbaycan Cümhuriyyətinin ilk məçlisi –məbusanını açmaq yum səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə müftəxərəm (alqışlar), əfəndilər. Rusiyada zühur edən inqilabi-kəbir digər həqiqətlər arasında bir həqiqəti - bahirəni dəxi elan etmişdi. Bu, millətlərin həqqi-hürriyyət və istiqlalları idi. Rusiya inqilabı təbiətində mövcud olan ruha sadiq qalaraq təbii yolu ilə inkişaf etsəydi, millətlərin hüququnu təmin ilə muxtariyyətlərdən mütəşəkkil, azad və demokratik bir Rusiyanı bir an əvvəl təsis edəcəkdi. O vaxt təbii idi ki, Rusiyada yaşayan musəlmanların da həyati-siyasiləri, digər məhkum millətlərlə bərabər, başqa bir təriqdə cərəyan edəcəkdi. Millətlər kəndi müqəddəratlarının təyinini pək səmimani bir surətdə Rusiya məclisi-müəssisanından gözlədilər».[1]

Həmin iclasda vükəla rəisi (baş nazir) **Fətəli Xan Xoyskinin** çıxışından: «Möhtərəm Azərbaycan parlamenti əzası! Bugünkü gün Azərbaycan üçün böyük, əziz, mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız, hökumət vəkaləti ilə özümüzü də sizinlə bərabər təbrik edirəm (alqışlar). Hökumətin borçudur, hüzurunuzda olsun, əski fəaliyyəti və hanki övza altında işlədiyini sizə ərz etsin. Mən bu gün hər nəzarət haqqında sizə məlumat verə bilərəm. Mən bu gün hökumətin tarixini və nə kimi övza altında təşkil etdiyini sizə ərz edəcəyəm».

[1] Azərbaycan Respublikası MDA, f. 895, siyahı 1, səh. 2.

özünü dilin bütün, yəni həm fonetik, həm leksik, həm semantik, həm də qrammatik səviyyələrində göstərir. Başqa sözlə, onun nitqində alınma sözlər (məbus, yum, müftəxor, bahirə, təriq, kəndi, pək, səmimani, zühur və s.), izafət tərkibləri (məclisi-məbusan, inqilabi-kəbir, həqiqəti-bahirə, həqqa-hürriyyət, həyati-siyasilər, məclisi-müəssisan) bu kiçik mətn parçası üçün olduqca çoxdur. Ərəb və fars dillərinə uyğun, habelə «millətlərin hüququnu təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik» tipli qeyri-adi sintaktik konstruksiyalar bu dilin intonasiyasına da bir yadlıq və arxaiklik gətirir. M.Ə.Rəsulzadənin yazılarında da Azərbaycan dilinin morfoloji normaları türk dili normaları ilə əvəz edilmişdir; məsələn: felin indiki zaman şəkilçiləri və birinci şəxs şəkilçiləri, əmr şəklinin birinci şəxs sonluğu, ismin təsirlik hal şəkilçisi və s.

F.Xoyskinin nitqində isə əza, ərz etmək, hüzurda olmaq, övza kimi dilimiz üçün müəyyən dərəcədə arxaikləşmiş alınma sözlərdən başqa heç bir yad şey yoxdur. Sosialistlərdən Ə.Şeyxülislamovun nitqi isə müasir dilimizə bütün parametrlərdə daha yaxındır. Nəhayət, Q.Qarabəylinin dili, göründüyü kimi, M.Ə.Rəsulzadənin dili ilə formaca daha çox səsləşir.

Az-çox fərqlə bu dil xüsusiyyətləri parlamentin digər nümayəndələrinin də çıxışında müşahidə olunur.

Belə düşünmək olar ki, bu, çıxış edənlərin partiya mənsubiyyətlərindən irəli gəlir. Doğrudan da, məsələn, müsavatçılarda o dövrün humanitar və ictimai elm nümayəndələrinin üslubuna yaxınlıq və meyl daha çox hiss olunur. Deyək ki, M.Ə.Rəsulzadə ilə yanaşı, müsavatçılardan Nəsib bəy Yusifbəyli, Mustafa Mahmudovun nitqlərində o vaxtın hakim dairələrinin və Ə.Hüseynzadə kimi ideoloqların dilinə və üslubuna çəkən cəhətlər var. Məsələn, **Nəsib bəy Yusifbəylinin** nitqinə diqqət yetirin: «Möhtərəm məbuslar! Qarabağ

hadisatının təfsilatından sizə ərz etməyəcəyəm. O vüquat ki, orada olub, mən güman edirəm, siz onun təfsilatını burada söyləyən yoldaşlarınızdan eşitmişsiniz».[1] Və yaxud **Mustafa Mahmudov**: «Vaqe olan istizahə cəvabən hökumət rəisinin Qarabağ məsələsi və bu vilayətdə vəhşiliklər icra edən Andranik çetesi haqqında verdiyi izahatı dinləyərək Azərbaycan məclisi-məbusanı vətənin tək malliyyəti-mülkiyyəsi, Azərbaycan Cümhuriyyəti əhalisinin təmini-asayişi və hürriyyətinə aid olan bu məsələdə bu vaxta qədər görünmüş olan tədbirlərdən əlavə, hökumətin daha şiddətli və daha qəti siyasi və əsgəri tədbirlər icrasında məbusan heyətinin daima himayəti-etibarilə məzhər olacağını bəyan ilə növbədəki məsələlərin müzakirəsinə keçir».[2]

Guclü üslub yaxınlığı sosialistlər fraksiyasından olan deputatların dilində də müşahidə olunur. Əvvəldə sosialistlərdən Əkbər ağa Şeyxülislamov və Aslan bəy Səfikürdskinin, xususən Əliheydər Qarayevin çıxışlarından gətirdiyimiz misallardan göründüyu kimi, onların dili həmin dövrün ədəbi dilinin Abdulla Şaiq, Seyid Hüseyn, Cəfər Cabbarlı qoluna, üslubuna uyğun olub, müasir dilimizə də yaxındır. Bu xüsusiyyət həmin fraksiyadan olan başqa deputatların çıxışlarında da müşahidə edilir.

Əhrar və İttihad fraksiyasından olan parlament üzvlərinin dili, bəzi xüsusiyyətlərinə görə müsavatçıların, bir çox cəhətdən isə sosialistlərin dilinə yaxındır. Əhrarçılardan **Abdulla bəy Əfəndiyevin** çıxışından: «Darülfünunun açılması» «Əhrar» firqəsində iki cərəyana səbəb oldu. Bir neçəsi əleyhində, bir neçəsi ləhində. Hər iki tərəfin gətirdiyi məvadları mülahizə edəndə, müqayisə edəndə aşkar olur ki, əleyhinə olanların fikri bir qədər

[1] Azərbaycan Respublikası MDA, f. 825, siyahı 1, iş 100, səh. 24.
[2] Yenə orada, f. 895, siyahı 1, iş 1, səh. 24.

doğrudur və əqlə batır. Nəzəriyyələrdən bəhs etmək istəmirəm, bir neçəsini göstərmək istəyirəm ki, o da bu dərəcədədir».[1] İttihadçılardan **Qara bəy Qarabəylinin** çıxışından: «Azərbaycanın müxtəlif guşələrindən təşrif gətirmiş olan cəmaət nümayəndələrini təbrik etməklə bərabər, «İttihad» firqəsi hakimiyyəti-milliyyə ide-yasının, (yəni millətin öz üzərinə hakim olmaq üsulunun) qismən isə vücudə gəldiyi uçun bəyani-məmnuniyyət edər. Zira zənciri-əsarət altında yaşayan müsəlman millətinin hüququnun müdafiəsi üçün ixtiyar etdiyi mübarizədə firqə daima bu məqsədi tətbiq etmiş idi. Lakin şəraiti-siyasiyyə hazırda da nəşət edən müşkülat qarşısında şu parlamentin surəti-təşkilini firqə idealına təmamilə təcəssüm edəməz.

Məəmafiyə üzərində Azərbaycan bayrağı tümuc edən və əsas etibarilə hər bir müsəlman üçün müqəddəs əddedilməsi lazım gələn bir müəssisədə bizlər firqə və sinif mənfəətinin müdafiəsi üçün deyil, milləti təşkil etmək üçün toplanmışız. Onun üçün də ən qərib bir zamanda burada demokratik üsul ilə intixab edilmiş əsl məclisi-müəssisan üzvlərinin ərsə vücud etmələrini mütalib və məqsədimizin müqəddəsi kimi tələqqi edəriz».[2]

Bununla belə, parlament üzvlərini dil və üslublarına görə onları partiya üzrə qruplara ayırmaq tam doğru sayıla bilməz. Belə ki, partiya üzvləri ayrı-ayrılıqda da bir-birlərindən fərqlənirlər. İlk növbədə müxtəlif bölgələrdən olduqlarına görə. Bəlli olduğu kimi, parlament tərkibində Milli Şuranın 44 nəfər üzvündən başqa, daha 36 nümayəndə seçilməsi nəzərdə tutulmuşdu: «Bu nümayəndələrdən beşi Bakıdan, ikisi (biri şəhər, biri mahal əhalisindən) Göyçaydan, ikisi Cavaddan, üçü Qubadan, ikisi Lənkərandan, ikisi Şamaxıdan, üçü Gəncədən, ikisi Ərəşdən, biri Cavanşirdən, ikisi Zəngəzurdan, biri Qazaxdan, biri Cəbrayıldan, ikisi Nuxadan, ikisi Şuşadan, ikisi Zaqataladan, üçü keçmiş İrəvan quberniyasının Azərbaycan hissəsindən (Naxçıvan, Şərur, Ordubad), birisi isə keçmiş Tiflis quberniyasının Azərbaycan hissəsindən (Borçalı) seçilməli idi».[1] Belə zəngin coğrafi ərazidən olan deputatlar, şübhəsiz, doğma yerlərinin ləhcə xüsusiyyətlərini, güçlü olmasa da, hər halda saxlayırdılar. Ancaq katibliyinmi, protokol yazanlarınmı səyi nəticəsində ləhcə xüsusiyyətləri çox az nəzərə çarpır.

Məclis üzvlərinin Qərbə və Şərqə münasibətləri, mədəni səviyyələri, dil məsələsində tutduqları mövqe, yaş və başqa cəhətlər də parlament dilinin rəngarəngliyinə zəmin hazırlayırdı. Odur ki, bu amillərə görə parlament dilini partiya prinsipi ilə üslublar qamması kimi izah etmək həqiqətən çətindir.

Müsavatçılardan M.Ə.Rəsulzadə və N.Yusifbəylinin çıxışlarından əvvəldə verilən nümunələrlə Müsavat partiyasının digər nümayəndəsi, parlament sədrinin birinci müavini Həsən bəy Ağayev və parlamentin üzvü, Müsavat və bitərəflər fraksiyasında olan Rza bəy Ağayevin çıxışlarından gətirilən misalların müqayisəsində bunu aydın görmək olar. **Həsən bəy Ağayev:** «Möhtərəm parlament üzvləri! Bugünkü tarixi gündə mənim boynuma böyük bir şərəf, böyük bir iqdam düşdü. İzhari-etimad ilə məni uca mənsəbə layiq bildiyinizdən dolayı, bilaistisna hamınıza təşəkkür edirəm. Məni sərəfraz parlament birinci müavinliyə intixabla minnətdar buyurdunuz. Rəis cənabları gələnə kimi onun ağır vəzifəsinin ifadəsi öhdəmə buraxıldı. Bu gün vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu, bunu deməyə cəsarət eləmirəm. Zira vəzifə xeyli məsuliyyətli və ağırdır.

[1] Yenə orada, f. 893, siyahı 1, iş 133, səh. 13.
[2] Azərbaycan Respublikası MDA, f. 895, siyahı 1, iş 1, səh. 26.

[1] N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. B., 1990, səh. 73-74.

Burası hamınıza məlumdur. Fəqət hamının məqsədi sevgili Azərbaycanın səadəti, buraya toplanmamızdan murad əziz vətənimizi sahili-nicata çıxarmaq olduğundan ümidvaram acizləriniz sizinlə bərabər məqsədə nail və sizin müavinətiniz ilə vəzifəmi hüsni-ifayə müvəffəq olacağam».[1] Və yaxud **Rza bəy Ağabəyov:** «Ağa Aşurovun qorxusu yersizdir. Məsələ belə deyildir. **Kasıb-dövlətli**, şəhərli-kəndli deyilmiyor. Yer var, nadelni, yer var xüsusi nadelni yerlər odur ki, hər kəndin müəyyən yeri vardır. Onun da özünün qaydası var. Deməli, kəndin ki, müəyyən yeri var, ondan vergi alınır. Ola bilər ki, nadelni yeri olan qonşusundan, yer ala. Yəqin şeydir ki, onun əlində çox olar» və s.

Başqa fraksiya və partiya nümayəndələrinin çıxışlarında da bu hal müşahidə olunur. İttihadçı **Sultan Məcid Qənizadənin** çıxışından: «Qaçqınlar barəsində belə söhbət oldu ki, onlara kömək lazımdır. Onlara öküz də, kotan da vermək lazımdır. Böylə söhbət oldu ki, Şamaxı qaçqınları da var. Onlar öz əlimizdədir. Onlara buğda, öküz, kotan indicə verilə bilməz. Lakin Zəngəzur əhvalatı fənadır. Onları qoymayırlar rahat yaşasınlar.[2]

Sosialistlərdən **Aslan bəy Səfikürdskinin** dili isə indiki parlament dilindən az fərqlənir: «Bu gün kiçik bir türk parlamenti açılıbdır. Bizim bu parlamentimiz gözlərdə bir ağ kimidir. Çox imperialistlər onu görmək belə istəmirlər. Cümhuriyyətimizə türk cümhuriyyəti deyil, Azərbaycan cümhuriyyəti dedik ki, hamı vətəndaşlara ümumi bir vətən olsun (alqış). Azərbaycanda hamı hürr yaşamalıdır. Heç kəsə fərq qoyulmamalıdır».[3]

[1] Azərbaycan Respublikası MDA, f. 895, siyahı 1, səh.5-10.
[2] Azərbaycan Respublikası MDA, f. 895, iş 100, səh, 9.
[3] Azərbaycan Respublikası MDA, f. 895, siyahı 1, səh. 17.

Azərbaycanın ilk parlamentinin dilinin özünəməxsusluğundan danışarkən bir məsələni xüsusilə qeyd etmək gərəkdir. O da bundan ibarətdir ki, dövlətin bu ali orqanında yazılı dillə şifahi nitq arasında ciddi fərq olmuşdur. Bəzi istisnalar nəzərə alınmazsa, sənədlərin, təkliflərin dili bir ümumi, bəlkə də məcburi prinsipə əsaslanmış, şifahi nitqdə isə, bir qayda olaraq, sərbəstliyə imkan verilmişdir. Məsələn, sosialistlər fraksiyasından olanların çıxışları öz sadəliyi və milliliyi ilə müasir dilimizə çox yaxın olduğu halda, onların təqdim etdiyi sənədlər öz qəlizliyi ilə, məsələn, parlamentin açılışında M.Ə.Rəsulzadənin söylədiyi rəsmi nitqin dilindən az fərqlənir: «**Əhməd Cövdət** – Sosialistlər ittifaqı parlamentə belə bir təklif edir (oxuyur).

Məclisi-məbusanın sosialistlər fraksiyonu hökumət rəisinin Qarabağ mahalında Andranikin elədiyi zülmlər və bunların əleyhinə görülən tədbirləri haqqındakı izahatı kafi bilməyib, həqiqi və qəti tədbirlər ittixazini tələb etməklə bərabər növbədəki məsələlərin müzakirəsinə keçməyi təklif edir.

Sədr –Müsavat firqəsi də bu təklifi edir (oxuyur).

Vaqe olan istihzah və cəvabən hökumət rəisinin Qarabağ məsələsi və bu vilayətdə vəhşiliklər edən Andranik çetesi haqqında verdiyi izahatı kafi görməklə bərabər, Azərbaycan məclisi-məbusanı vətənin təmamiyyəti-mülkiyyəsi, Azərbaycan Cümhuriyyətinin heysiyyəti, cümhuriyyət əhalisinin təmini-asayişi icratına aid olan məsələlərdə görəcəyi daha qəti siyasi və əsgəri tədbirlər icrasında məbusan heyətinin daima humayat və etibarına məzhər olacağını bəyan ilə növbədəki məsələnin müzakirəsinə keçməyi təklif edir».[1]

Əksinə, M.Ə.Rəsulzadənin parlamentdəki adi (ordinar) çıxışlarında isə biz, onun rəsmi nitqlərindən və yazılı əsərlərinin dilindən tamamilə fərqli sadə bir

[1] Azərbaycan Respublikası MDA, f. 895, siyahı 1, iş 1.

dillə qarşılaşırıq. Parlamentin ikinci iclasındakı çıxışından: «...Əcəba böyük məclis quran müxtəlif firqələrdə proqram dəyişikliyi görmürsünüz?».[1] Yenə həmin iclasda dediklərindən: «Bəyannaməmizi elan etmədən əvvəl müqəddimə olaraq bəyan etmək istəyirəm ki, keçmiş hökumətin fəaliyyəti haqqında vaxt müsaidə etmədiyindən firqəmiz ayrı bir zaman bəyanatda bulunacaqdır» (yenə orada). Eyni üslubla onun 1919-un 21 avqustunda keçirilən parlament iclasındakı çıxışında da qarşılaşırıq: «Və əgər bugünkü türk darülfununlarına baxsanız, orada da almanca, firəngcə təlim aldıqlarını görərsiniz. Heç bir millət tarixən ilk addımında milli bir darülfünuna sahib olmamışdır. Əvvəlcə özgələrdən istifadə edərək, sonra get-gedə qüvvət kəsb etmişdir».[2]

AXC-nin parlament dilində çıxış etiketi də dil baxımından maraqlıdır. Dil etiketi dedikdə, parlament üzvlərnin iclas iştirakçılarına müraciət formaları nəzərdə tutulur. İclas protokolları üzərində aparılan müşahidələr nəticəsində aşağıdakı müraciət formalarına rast gəldik: «Həzarat», «Möhtərəm parlament əzası», «Əfəndilər», «Möhtərəm məbuslar», «Möhtərəm məclis əzaları», «Möhtərəm Azərbaycan parlament əzası», «Möhtərəm əzalar», «Möhtərəm parlament əzaları», «Möhtərəm məclis əzaları», «Möhtərəm parlament üzvləri».

Bu on müraciət formasından istifadə edənlərin hamısı mənsub olduqları fraksiyalarla müəyyən dərəcədə bağlı olmuşdur. Lakin bu sistem şəklində olmamışdır. Məsələn, Müsavatın lideri Məhəmməd Əmin Rəsulzadə çıxışını adətən «Möhtərəm məbuslar» sözləri ilə başlamaqla yanaşı, çıxışlarında «Əfəndilər» müraciət formasından da istifadə etmişdir.

[1] Yenə orada.

[2] Yenə orada, MDA, f. 893, siyahı 1, iş 133.

İclaslara sədrlik edən müsavatçı Həsən bəy daha çox «Möhtərəm parlament əzası», «Möhtərəm parlament üzvləri», «Əfəndilər» müraciət formalarını işlətmişdir. «Həzarat» xitabına İttihad fraksiyasından olan Qara bəy Qarabəyovun çıxışında rast gəldik. O, sosialistlərdən Əkbər aqa Şeyxülislamov və sol müstəqil Abdulla bəy Əfəndizadə kimi eyni zamanda «Möhtərəm məclis əzaları» müraciət formasından da istifadə etmişdir.

Vükala rəisi Fətəli Xan Xoyskinin çıxışlarında isə daha çox müraciət formasına rast gəlirik: «Möhtərəm Azərbaycan parlament əzası», «Möhtərəm məbuslar», «Möhtərəm əzalar», «Möhtərəm parlament əzaları»«. Azərbaycan Xalq Cümhuriyyəti parlamentində iclasın gedişi və protokollardakı remarkalar da dil baxımından diqqəti cəlb edir. Hər şeydən öncə, qeyd edək ki, onların dili xeyli sadədir və bir çox cəhətdən indiki parlamentdəkindən az fərqlənir. Bununla belə, özünəməxsusluqlar da çoxdur. İclasların gedişindən bir neçə məqamı nəzərdən keçirək. Qeyd edildiyi kimi, ilk iclası Milli Şuranın sədri M.Ə.Rəsulzadə açmış və dil baxımından mürəkkəb, məzmunca çox qiymətli giriş sözü söyləmiş və təşkilati məsələyə, rəhbərliyə namizədlərin verilməsi məsələsinə keçəndən sonra, «Şəfi bəy —»Müsavat və bitərəflər namından rəisliyə Əlimərdan bəy Topçubaşov, birinci müavinliyə doktor Həsən bəy Ağayevin namizədliyini təklif edirəm.

Heybətqulu Məmmədbəyov – İttihad firqəsi tərəfindən Əlimərdan bəy Topçubaşovun namizədliyinə etiraz yoxdur, fəqət Həsən bəyin göstərildiyinə rəy verməyəcəyik.

Şeyxülislamov – Sosialist Hümmət firqəsi tərəfindən Müsavatın namizədlərinə etiraz yoxdur.

Sədr – Şu surətdə məsələni səsə qoymalıdır. Hər kəs bu namizədliyə razıdır, əlini qaldırsın (İttihadi-ara ilə Əlimərdan bəy Topçubaşov sədrliyə seçilir).

Sədr –Deməli, Əlimərdan bəy həzrətləri rəisliyə intixab edilmiş olur. Fəqət Əlimərdan bəy həzrətləri burada yoxdur. İndi isə baş müavini intixab edəlim. Hər kəs Həsən bəy Ağayevin baş müavinliyinə razı isə əlini qaldırsın (İttihad firqəsindən başqa ittifaqi-ara ilə. Həsən bəyin namizədliyi keçir. Alqışlar altında Həsən bəy mövqei-sədarəti işğal edir)».[1]

İclasa sədrlik edəndən asılı olaraq, iclasın gedişində müəyyən özünəməxsusluqlar olur. M.Ə.Rəsulzadədən sonra Həsən bəy iclasları daha çox sadə danışıq dilində aparır: **«Sədr»** – Söz sosialistlər ittifaqı tərəfindən Səfikürdlü Aslan bəyindir.

Aslan bəy – Yüz ildən bəri bizim vətənimiz, indiki Azərbaycan olan, İran padişahının istibdadından qurtarıb rus padşahının əlinə keçdi (2). Və yaxud: **«Sədr»** –Söz Vinoqradova verilir.

Vinoqradov – (rusça).

Sədr – Daha natiq olmadığından Müsavatın bu təklifini səsə qoyuram.

Şeyxülislamov – (yerindən) Söz veriniz.

Sədr – Danışmaq istəyirsiniz?

Şeyxülislamov – Bəli, söz istəyirəm.

Sədr –Buyurunuz.

Şeyxülislamov –Möhtərəm məclis əzaları!»[2]

İclasın gedişində sədrin dilindəki xüsusiyyətlər aşağıdakı nitq parçasında daha aydın nəzərə çarpır: «Rəis» – Olmaz, səsə qoyuram. 2-ci maddəni Müsavatın təklifilə səsə qoyuram. Kim qəbul edirsə, rica edirəm, əlini qaldırsın (əllər qalxır). Kim bunun əleyhinədir? (əllər qalxır). Kim səs verməyib? (əllər qalxır). Ləhinə 16, əleyhinə 17, səs verməyib 13.

[1] Azərbaycan Respublikası MDA, f. 893, siyahı 1, iş 133.

[2] Azərbaycan Respublikası MDA, f. 895, siyahı, 1, iş 1.

* Həsən bəy Ağayev.

* Burada rəis sədr mənasındadır. Sədrliyi Həsən bəy Ağayev edir.

Əksəriyyət rəy ilə təklif qəbul edilməyir. Qəbul edilmədiyi halda layiheyi-qanuniyyənin əslində iki yüz və dörd yüz faiz ki, vardı, o qalır. Layiheyi-qanuniyyənin maddəsini eyni surətdə səsə qoyuram. (Katibə) oxuyunuz. Eyni surətdə maddəni. (Salonda qarışıqlıq). Rica edirəm səs salmayasınız. Bir də mən komisyon üzvlərindən rica edirəm ki, dokladçik təyin edəndə ona (müavin) də olsun. Komisyonun rəylərini mühafizə edən olmayır. Müavin olsa, rəylə məlum olar. Çünki indi komisyonun bir hissəsinin rəyi məlum oldu, lakin əqəliyyət tərəfindən danışan olmadı. Komisyonun 25 faizi əlli, yüz faizi iki yüz, iki yüz faizi dörd yüz faiz etmək qərarı keçmədi. Ona görə maddəni hökumətin təklifi kimi səsə qoyacağam.[1] İclasın gedişində məclis üzvlərinin ona müdaxilə etməsi də nəzərə çarpır: **«Səslər** –По существу, по существу.

Hacı Kərim Saniyev – По существу ərz edəcəgəm. Belə ianələr neçə dəfə göndərilib, bir dəfə. Ağaxan və Mirbağırova verildi ki, aparub qaçqınlara versinlər. Onlar Bakıda qoydular ciblərinə, bunu biz bilirik. Milli komitə adına iki vaqon buğda aparub Tiflisdə satıb pulunu ciblərinə qoymuşdular. Onu da bilirik.

Abbasqulu –Eyb olsun onlara.

Hacı Kərim Saniyev – İravan qaçqın və aclarına axır dəfə göndərilən pullar qaçqınlara paylanmaq əvəzinə Oriyant qastinində yemək içində gizləndiyini də biz bilirik. O millətpərəstlər ki, iki milləti vuruşdurub bir-birinə qırdırmaq istəyirlər, İrəvanda da var. Cəfərqulu xan və Kəlbəli xan əvvəlcə xalqı qızışdırıb bir-birilə vuruşdurur, sonradan da Ordubada kedib Ordubad cəmaətini Ermənistana tabe etmək istəyirlər. Əvvəlcə xalqı vuruşdurub, sonra özləri ermənilərlə bir yerdə kef çəkirlər. Amma arada fəqirlər qırılır...».[2]

[1] Azərbaycan Respublikası MDA, f. 893, siyahı 1, iş 133.

[2] Yenə orada, səh. 12-13.

İclaslarda sədrin əsəbiləşdiyi hallar da olub: «Sədr – Rica edirəm, mənimlə mübahisəyə girişməyəsiniz və ila nakaz üzrə rəftar etməyə məcbur olacağam.[1]

Göründüyü kimi, sədrin birinci müavini Müsavat partiyasının üzvü, ixtisasca hüquqşünas olan Həsən bəy Ağayevin dili öz düzgünlüyü, intonasiyaca tam milli olması, danışıq etiketi baxımından yüksək üslubu sintaktik quruluşca aliliyi ilə fərqlənir.

İclasın gedişində bəzi gərginliklər nəzərə alınmazsa, dil etiketinə yetərincə əməl olunmuşdur. Kobud münasibətlər, qəzəbli, bəzən hətta təhqirli müraciətlər, hədələr ölkəmizin ilk parlamentinin iclaslarına yaddır. İclasın sədrinin nəcabəti, alicənablığı onun yüksək mədəni nitqi ilə vəhdət təşkil edir, parlament üzvləri ilə rəftarı yuksək nitq səviyyəsində daima ali nitq etiketi ilə müşayiət olunur. Parlamentin protokollarındakı remarkaların dili də diqqəti cəlb edir və parlamentin katibi ən gənc deputat, Müsavat partiyasının üzvü Rəhim Vəkilovun yazılı nitqi barədə müsbət təsəvvür yaradır; misallar: «Sədr müsavatın formulunu rusca tərcümə edir», «sosialistlərin formulunu rusca tərcümə edir», «Azərbaycanın müxtəlif nöqtələrindən və müxtəlif müəssisələrindən alınmış teleqramları oxuyur», «Fətəli Xan Xoyski mərkəz və sağların gurultulu alqışları arasında kürsüye-xitabata çıxır» və s. Hətta ilk iclasın təşkilati məsələlərin həllinə həsr olunmuş başlanğıc hissəsinə sədrlik edən M.Ə.Rəsulzadə öz nitqində rəis sözünü işlətdiyi halda, katib öz partiya rəhbərindən fərqli olaraq remarkada sədr yazır.

Parlamentin iclaslarında bəzi deputatların soyadlarının iki formada işləndiyi müşahidə olunur. Sədrin nitqində və remarkalarda bu ikilik daha çox nəzərə dəyir: «Yusifbəyli – Yusifbəyov, Rəfizadə – Rəfiyev, Şəfi bəy Rüstəmbəyli – Rüstəmbəyov, Məlikyeqanlı – Məlikyeqanov, Nərimanbəyli – Nərimanbəyov, Mirzə Sadıx Axundzadə – Axundov, Ağabəyov – Ağabəyli, Əhmədzadə – Əhmədov, Qarabəyli – Qarabəyov, Qənizadə – Qəniyev, Heybətqulu bəy Məmmədbəyli –Məmmədbəyov, Kiçikxanlı – Kiçikxanov, Sanılı –Saniyev, Qaraşarlı –Qaraşarov, Səfikürdlü – Səfikürdski, Əbilzadə – Əbilov, Şeyxülislamzadə – Şeyxülislamov və qeyriləri.

AXC-nin parlament dilində terminlərin işlənməsində də maraqlı cəhətlər vardır. Aydın görünür ki, terminologiya sahəsində çox böyük sərbəstlik olmuşdur. Parlamentin adı, vəzifə bildirən terminlərin hələ formalaşmadığı aydın görünür: Məsələn, parlament - parlaman, məclis-məclisi məbusan, rəisi-vükəla-hükumət rəisi-vükəla rəisi-baş nazir-nazirlər sovetinin sədri, məbusan-parlament üzvləri-parlament əzası, parlament nümayəndəsi kimi termin paralelləri dediklərimizi sübut edir.

Azərbaycan Xalq Cümhuriyyətinin parlament dilinin tədqiqinin ilk nəticələri də göstərir ki, AXC Azərbaycan ədəbi dilinin tarixində həqiqətən ayrıca bir dövr təşkil edir.

Fonetik, leksik və qrammatik xüsusiyyətlər. AXC-nın dövlət dili, başqa sözlə, sənədlərin və parlamentin dili XX əsrin birinci rübündə Azərbaycan ədəbi dilinin hakim sinif yönlü mətbuatın dili və rəsmi – dəftərxana üslubunda olan bir dil idi. Bu dil əksər cəhətlərdən osmanlı dilinə olduqca yaxın idi, bəlkə də həmin dilin eyni idi. Sosialist deputatların parlament çıxışları göstərir ki, onlar xalq dilinə, habelə ədəbi dilimizin o dövrün demokratik yazıçılarının (A.Şaiq, S.Hüseyn, C.Cabbarlı və b.) əsərlərinin dilinə yaxın olan bir dildən istifadə etsələr də, qrammatik cəhətdən çox vaxt osmanlı dili quruluşundan istifadə edirdilər. Bu, AXC-nin dövlət dilinin ümumi xüsusiyyətlərindəndir.

İndi də bu dili səciyyələndirən bəzi konkret fonetik, leksik və qrammatik xüsusiyyətlər haqqında.

[1] Azərbaycan Respublikası MDA, F- 895, iş 100, səh. 18.

*
* *

Fonetik cəhətdən AXC-nin dövlət dili iki xüsusiyyəti ilə diqqəti cəlb edir: sait və samit əvəzlənmələri və fonetik hadisələr.

Müşahidələr göstərir ki, ə//e müvaziliyi o dövrün parlament dili üçün sanki norma olmuşdur. Bəzi natiqlərin nitqində ə, bəzilərininkində isə e saiti işlənmişdir: «halbuki xaricə gedən tələbimiz üçün bu mümkün dəgil» (M.Ə.Rəsulzadə): «Mən o qədər xəbərdar dəgiləm» (Ağa Axundov). İlk baxışda bu e > ə əvəzlənməsi cənub, yəni Naxçıvan dialekti xüsusiyyəti kimi izah edilə bilsə də, səbəbi, bizcə, daha dərin olub, türk dilləri üçün səkkiz sait fonemin ümumi hal olması ilə bağlıdır. Belə olmasaydı, həmin fonetik formadan istafadə edən M.Ə.Rəsulzadə elə eyni nitqində ə saitini e kimi işlətməzdi: «Dünyada rus elmi deyil, beynəlmiləl bir elm var».

Fonem müvaziliyi nəzərdən keçirilən mətnlərdə samitlər sahəsində daha çoxdur. Həmin mətnlərdə n//m, m//b dodaq samit paralelliyinə daha çox təsadüf olunur: «...imdi yavaş-yavaş məçbur olub dil öyrənib, öz köçünü sudan çıxarar» (S.Ağamalı oğlu), «Qonşularımız... bizə gülüyorlar» (M.Əfəndizadə): «...bən çox bir şey əlavə etməyəcəyəm» (R.Kaplanov): «...bən də iştirak edirəm» (Ə.Pepinov). M.Ə.Rəsulzadənin nitqində də bən sözü çox işlənmişdir. Bu, şübhəsiz, osmanlı dilinin təsiridir. Eyni sözləri x//q, q//k, k//s, y//g, y//n samit müvazilikləri haqqında da demək olar: «Məsələni sədr cənabları çox düz qoydu (M.Məmmədov): «Yaşasın Kafkaz millətlərinin dostluğu» (Ə. Pepinov): «Kafkaziya millətləri içində milli şovinizm baş qaldırır» (Ə.Şeyxülislamov): «Hansı sinfi nə qədər artırmaq onu

bən türkcə başa düşməmişəm» (Ağa Aşurov): «Hər iki tərəfin gətirdigi məvadları mülahizə edəndə...» (A.Əfəndiyev): «Hanki dildə olmuş ola elmdir» (M.Əfəndizadə): «...ana dilindən başqa bir dildə ögrətmək olmaz» (M.Əfəndizadə): «...bir çox pullar buraxdıq denildi» (Hacı Hüseyn Əfəndiyev): «...şəhərlikəndli denilmiyor» (R.Ağabəyov): «Vəqtilə bu darülfünun get-gedə millileşəşəcək (M.Ə.Rəsulzadə): «...türk dili öyrədiləcəkdir» (M.Ə.Rəsulzadə): «...biz onları tənbəlliyə ögrədəriz» (H.H.Əfəndiyev): «Bizim ilə qonşu və qardaş olan...» (Ə.Pepinov): «Heç vaxt allah verən canın bəndənin almağa haqqı yoxdur» (A.Səfikürdski): «Bunun lehində və əleyhində olanlar çoxdurlar» (M.Hacınski): «Məmələ belə deyildir» (R. Aqabəyov) və s.

Nəzərə dəyən fonetik xüsusiyyətlərdən biri də sözlərdə ahəng qanununun pozulmasıdır. Xüsusən alınma sözlərdə bu çox müşahidə olunur: dəvam, cəmaət, cəvab kimi sözlər dilimizdə artıq tamamilə azərbaycanlaşmışdır.

İsmin yönlük və çıxışlıq hallarının iki şəkilçisindən yalnız birindən istifadə edilməsi də (ittifaqə gəlmək, ittihada dəvət, namindən danışmaq və s.) dilin ahəng qanununun pozulmasına səbəb olmuşdur.

* *
*

AXC-nin dövlət dilinin qrammatik cəhətdən daha çox özünəməxsusluqları var. Burada da nəzərə çarpan əsas cəhət qrammatik ifadə vasitələrinin sinonimliyi və osmanlı dilinin güclü təsiridir. Bu xüsusiyyəti nitq hissələrindən isim və əvəzliklərdə daha çox görürük. İsimlərdə də qrammatik sinonimlik (müvazilik) özünü daha çox ismin təsirlik hal şəkilçisində göstərir. Belə ki,

AXC-nin parlament materiallarında ismin təsirlik halının qrammatik mənası həm -- yi..., həm də – ni... şəkilçisi ilə ifadə olunur: «**Qara bəy** – Mən təklif edirəm birinci məsələyi sonraya qoyaq...», «**Müstafa Mahmudov** (Müsavat) –»Məsələni sədr cənabları çox düz qoydu». Bu çümlələrdəki məsələyi sözündəki –yi və məsə-ləni sözündəki –ni şəkilçi müvaziliyini izah etmək çətindir. –yi şəkilçisi osmanlı dilindəki təsirlik halın təsiri kimi izah edilərsə, təklif edirəm sözünün təklif ediyoram kimi işlənməməsinin səbəbini açıqlamaq çətin olur. Eləcə də ikinci çümlədəki –ni ... şəkilçisi ana dilinə uyğunluq kimi açıqlananda, çox sözünün çoq kimi işlənməsinin səbəbi qaranlıq qalır.

Bəllidir ki, əvəzliklər məhdud sözlər qrupu olub, bütün dünya dillərində nisbətən sonrakı dövrlərin məhsuludur. Azərbaycan dilində əsas söz kimi cəmisi iyirmi iki əvəzlik var: mən, sən, o, biz, siz, bu, elə, belə, həmin, öz, bəzi, kim, nə, neçə, necə, hansı, hara, haçan, bəzi, hər, bütün, hamı.

Həmin əvəzliklər müəyyən fonetik dəyişikliklə müxtəlif türk dillərində də işlənməkdədir. AXC-nin dövlət dilində, bunlarla yanaşı, başqa əvəzliklərə də rast gəlirik: «Bu, böylə deyil» (M. Rəfiyev): «...o öylə səhvdir ki, ...» (M.Vəkilov): «Mən öylə bilirəm ki,...» (M.Vəkilov): «Öylə başa düşürəm...» (A.Aşurov): «Bən türkcə başa düşməmişəm» (A.Aşurov): «...şu surətdə bəyan ediriz». (Ə.Pepinov): «Darülfünunun tarixi böylədir» (M.Hacınski): «...Xalqın dili dilimdən, dini dinimdən» deyə kəndinə məxsus sağlam hiss ilə dərk etdiyi düsturda görüyorız» (M.Ə.Rəsulzadə); «Hanki dildə olmuş ola elmdir» (M.Əfəndizadə): «Lakin hanki vaxtda və nə şərait ilə açılsın» (Y.Əhmədov).

Bu misallardakı öylə, böylə, şu, bən, kəndi, hanki əvəzlikləri o zamanlar hələ osmanlı dili adlanan türk dilindən alınmışdı və parlamentdə çıxış edənlərin dilində öz paralelləri olan elə, belə, bu, mən, öz, hansı

əvəzlikləri ilə müvafzi surətdə işlənmişdir. Birincilər (öylə, bən, hanki və s.) daha çox müsavatçıların və ittihadçıların, ikincilər isə (elə, mən, hansı və s.) dava çox sosialistlər fraksiyasına mənsub olanların dilində işlənmişdir.

Parlamentdə çıxış edənlər **indi** əvəzinə **imdi**, xüsusən daha fəzlə **şimdi** zaman zərfindən də istifadə edirdilər: «Bir qismi şimdi öz yerlərinə qayıdırlar» (B. Rzayev): «Şimdi isə baş müavini intixab edəlim» (M.Ə.Rəsulzadə): «...dil bilməyənlər imdi yavaş-yavaş məcbur olub, dil öyrənib...» (S.Aqamalı oğlu).

Dövlət dilinin morfoloji quruluşunda fellə bağlı olan özünəməxsusluqların, demək olar ki, hamısı osmanlı dilinin qrammatik quruluşu ilə bağlı olmuşdur. Məlum olduğu kimi, Azərbaycan və türk dilinin fel sistemindəki əsas fərqlər felin əmr şəklinin birinci şəxs cəm şəkilçisi, xəbər şəklində isə yalnız indiki zaman formasının qrammatik əlamətinə görə fərqlənir. Belə ki, Azərbaycan dilində əmr formasının birinci şəxsinin cəmi –aq//-ək (alaq, kələk), türk dilində isə –alım//-əlim şəkilçisi ilə yaranır.

AXC-nin dövlət dilində bəzi deputatlar türk formasından istifadə etmişlər: «...baş müavini, intixab edəlim» (M.Ə.Rəsulzadə): «...deklarasiyaya kecəlim» (M.Ə.Rəsulzadə).

Felin indiki zaman şəkilçisindən istifadəyə gəlincə, parlament üzvlərinin əksəriyyəti türk dili formasından istifadə etmişdir. Bəziləri isə əksər çıxışlarında həmin formaya üstünlük vermişdir: «...şəhərli-kəndli denilmiyor» (R.Ağabəyov): «...məsələdən sui-tənhim olacığını görüyor və bundan qorxuyoram» (R.Kaplanov): «Qomşularımız... bizə gülüyorlar» (M. Əfəndizadə); «Güman ediyoram ki, hər bir təsisat öz dilimizdə ola» (Y.Əhmədov): «Hiss ilə dərk elədiyi düsturla görüyoruz» (M.Ə.Rəsulzadə): «...faydalı bilmiyorum» (A.Əmirxanov;

Bununla belə qeyd etməliyəm ki, felin indiki zamanının milli formantı (-ir//-ır//-ür//-ur) parlament dilində qat-qat çox işlənmişdir.

Müasir ədəbi dilimizdə olduğu kimi, AXC parlament dilində felin nəqli keçmiş zamanının hər iki formasından (-ıb... və -mış...) istifadə edilmişdir: «Bir çox hadisələr **vüqu olmuşdur**» (B.Rzayev): «...qeyri-qanuni hərəkətlər **olubdur**» (M.Vəkilov): «Lakin komisyondan heç xəbər **alınmayıb**» (M.Rəfiyev): «Hökumət bir komisyon **təşkil etmişdir**» (M.Hacınski): «Heç bir millət tarixən ilk addımında milli bir darülfünuna **sahib olmamışdır**» (M.Ə.Rəsulzadə): «Hökumət bu axtarışı siyasi cəhətcə müzürr bilib ki, **əmr verib** dayandırsın» (Ə.Pepinov).

Hər iki formadan istifadə edilməsi ədəbi dilə münasibətdən ziyadə, çıxışların mövzusu və məzmunu ilə bağlı olmuşdur.

Fellərdə nəzərə çarpan ən çox yayılmış morfoloji xüsusiyyət şəxs kateqoriyasında birinci şəxsin cəm şəkilçisi kimi türk dili şəxs sonluğu – iz... şəkilçisinə olan meyldir: «Darülfünun hər dildə olsa da olsun, açıb oxumalıyıq» (M.Ə.Rəsulzadə): «Biz xahiş ediriz ki, hökumət bu xüsusda nə kimi təşəbbüsatda bulunduğu haqda məlumat versin» (Məhərrəmov): «O dövlətliyə deyiriz, ona dövlətli demək olmaz» (A.Aşurov). Maraqlıdır ki, adətən daha «təmiz» Azərbaycan dilində danışanlardan Əliheydər Qarayevin dilində də bu formantla qarşılaşırıq: «Zatən biz **deyirüz ki**, cəmi millətlər azaddır», «Biz bu əsas üzərində **işləyiriz**». Göründüyü kimi, **deyirüz,** sözü fonetik tərkibinə görə qrammatik dialektizm olmasına baxmayaraq, morfoloji cəhətdən alınma qrammatik vasitə ilə işlənmişdir. Bu şəkilçi hətta xalq dilində yazan Abdulla Şaiq kimi yazıçı və şairdən də yan keçməmişdir: «Həpimiz bir günəşin **zərrəsiyiz**».

Bu şəkilçi nə qədər çox nəzərə dəysə də, öz Azərbaycan dili qarşılığını sıradan çıxara bilməmişdir: «...və şüarı bayrağımızda qaldırıb, **yürümüşük** və **yürüyürük**» (Ə.Şeyxülslamzadə).

Nisbətən az olsa da, o vaxtkı dövlət dilimizin bir sıra maraqlı sintaktik xüsusiyyətləri də vardır.

İlk öncə söz birləşmələri və izafət müvaziliyini qeyd etmək olar müəyyən dərəcədə fərdi səciyyədə olsa da, bu sintaktik müvazilik o dövrki dövlət dilimizə xas olan xüsusiyyətlərdəndir: «Çünki **ədliyyə idarəsi** olmayınca məmləkəti **polis qüvvəsi** ilə idarə etmək olmaz» (F.Xoyski): Burada xalqın öz rəyini bilmək lazım idi» (F.Xoyski): «Zülmət zamanı qayalıq içində nazik bir taxta bir qayığa bənzər idi ki, hər dəqiqə qaylara toxulub **dağılmaq təhlükəsi** var idi» (F.Xoyski): «Həsən bəy mövqeyi-sədarəti işğal edir» (Remarka): **«Rəisi-vükəlanın** verdiyi izahatdan görünür ki, ...» (Q.Qarabəyov): **«Hökumət rəisinə** söz verilir» (H.Ağayev): «Maliyyə nəzarəti tələb edən üç məsələ vardır» (N.Ağabəyov): « ...Hər desətin bağlıq yeri nə qədər gəlir verir, hər desətin əkin yeri nə qədər gəlir gətirir» (R.Ağabəyov): «... İndiki **əsrim məhsulu** olan sinif ayrılığı və sinif mübarizəsi qolaylıqla bizim **cəmiyyətin içinə** girər və bu da ümumi demokratiyanın xeyrinədir» (Ə.Pepinov): «...Azərbaycan **məclisi-məbusanı** vətənin tək maliyyəti-mülkiyyəsi, Azərbaycan Cümhuriyyəti əhalisinin təmini-asayişi və hürriyyətinə aid olan bu məsələdə... **hökumətin** daha şiddətli... **Tədbirlər icrasında məbusan heyətinin** daima himayəti-etibarinə məzhər olacağını bəyan ilə növbədəki məsələlərin müzakirəsinə keçir» (Müsavat təqdim etdiyi sənəddən).

Misallardan göründüyü kimi, dövlət dilində işlənmə tezliyinə və rəngarəngliyinə görə Azərbaycan dilinin sintaktik quruluşuna uyğun olan söz birləşmələri üstünlük təşkil edir. Xüsusən, F.Xoyskinin dilində izafət yox

kimidir. Onun nitqindəki **ədliyyə idarəsi, polis qüvvəsi** kimi ikinci növ təyini söz birləşməsi hətta termin səciyyəsindədir. Söz birləşməsi // izafət paralelliyi termin vəzifəsində bəzən lap sinonim kimi də istifadə olunur. Qara bəy Qarabəyovun rəisi-vükəla izafətinə qarşılıq kimi Həsən bəy Ağayev hökumət-rəisi söz birləşməsini işlədir. Müsavatın təqdim etdiyi sənədlərdə isə onların işlənmə tezliyi, demək olar ki, bərabərdir. Parlament dilində çıxış edənlərdən maarif naziri Rəşid bəy Kaplanovun çıxışında izafətə daha çox rast gəldik: sun-tənhim, ruhi-qövhər, istiqbali-maliyyə, **xatimeyi-kəlam, dərəceyi-hörmət, mülahizati-şəxsiyyə, məmaliki-əcnəbi, məqsədi-əsliyyə, təzahirati-milliyyə, vəsaiti-madiyyə, vəsaiti-mənəviyyə, ehtirasi-siyasi** və s. Yeri gəlmişkən qeyd edim ki, R.Kaplanovun dilinə o zamankı Osmanlı türkcəsinin güclü təsiri hiss olunur, müvazisiz şu, qaç (neçə mənasında) əvəzlikləri, ismin təsirlik hal və felin indiki zaman şəkilçiləri də nəzərə alınarsa, onun dili daha çox osmanlı dili sayıla bilər.

İzafət Məhəmməd Əmin Rəsulzadənin də dilində çox işlənir: **Hüsni-münasibat, əhli-vətən, təhti-təyin, heyəti-vükəla, ümumi-məzhbiyyə, hadisati-ələmiyyə, inqilabi-kəbir, əksəriyyəti-əzəmiyyə, ixtilafi-nəzər, sitareyi-ümid, cəhəti-camiə, təhrirati-rəsmiyyə, qanuni-intixab, şəraiti-hazirə, ədəbi-mərkəziyyət** və s.

AXC-nin dövlət dilində, müasir dilimiz səviyyəsindən baxdıqda, söz birləşmələrinin növləri üzrə bəzi fərqlər var. Parlament nitqlərində ikinci növ təyini söz kimi çıxış edən **sinif ayrılığı, sinif mübarizəsi** kimi atributiv sintaqmlar müasir ədəbi dilimizdə birinci növ təyini söz birləşməsi kimi işlənir: **sinfi ayrılıq, sinfi mübarizə.**

AXC-nin dövlət dilində sintaktik əlaqələr baxımından da özünəməxsusluqlar var. Məsələn, dilimizdə **qane etmək, müdafiə etmək** feilləri tabe olan sözlərin ismin təsirlik halında olmasını tələb etdiyi halda, AXC-in

dövlət dilində onlar ismin yönlük halında olan sözlərlə işlənmişdir: «...Hökumətin verdiyi bəyanat onları qane eləmir» (Ə.Pepinov); «Gələcək hökumətin... vəzifəsi Azərbaycan Cümhuriyyətinin istiqlalına bütün qüvvəsilə **müdafiə etməkdir**» (Ə.Pepinov).

O dövrün dövlət dilində say-isim birləşmələrində ismin cəm şəkilçisi qəbul etməsi də dilimizə məxsus sintaktik əlaqəyə uyğun gəlmir: «Zakafkaziyada yaşayan üç böyük millətlər bir-birilə sıxı əlaqədə olduqlarından»... (Müsavatın parlamentə təqdim etdiyi sənəddən).

AXC-nin parlamentindəki çıxışların dilində bir sintaktik xüsusiyyət də diqqətimizi cəlb etdi: bir qayda olaraq, aid olduğu sözdən sonra gələn qoşmalar və qoşma vəzifəsi daşıyan sözlər (posleloqlar), predloq kimi aid olduqları sözdən əvvəl işlənir: «Hal-hazırda **dair hökumətə** bir sual verilmişdi» (H.Ağayev); «...ila nakaz üzrə rəftar etməyə məcbur olacağam» (H.Ağayev); «Hökumət rəisi deyir ki, projesi vardır... **Haiz daşnak firqəsi...**» (Ə.Şeyxülislamov).

Doğrudur, burada predloq (ön qoşma) vəzifəsində işlənən **dair, ila** və **haiz** sözlərindən heç biri Azərbaycan sözü deyil. Onların üçü də dilimizə ərəb dilindən keçmişdir. Onlardan ikisi (ila və haiz) indi dilimizdə işlənmir. Dair sözü isə daha çox qoşma funksiyası daşıyır və aid olduğu sözdən sonra gəlir və ərəb dilində ifadə etdiyi üç mənadan üçüncüsündə (haqqında, barəsində) işlənir. Sədrlik edənin dilində göstərilən məqamda işlənməsi, görünür, interferensiya (ilk növbədə rus dilindən) nəticəsidir. İla sözü ərəb dilində, sözlərin əvvəlində gələrək qədər, ...dək, ...can mənasında işlənir. Məncə, bu da rus dili ilə bağlı interferensiya hadisəsi nəticəsidir. Bunu onun rus dilinə aid zakon sözü ilə yanaşı işlənməsi də təsdiq edir. Cümlədə «по закону» («qanun üzrə») mənasında işlənilmişdir. Üçüncü sözün ərəb dilində qoşma mənası yoxdur. Məncə, bunu fərdi dil xüsusiyyəti saymaq daha düz olar.

Sintaktik xüsusiyyətlərin digər ikisi cümlə səviyyəsindədir. Bunlardan birincisi şəxssiz cümlələrlə, daha doğrusu, cümlənin şəxsə görə növləri ilə əlaqədardır: «Dövlət müəssisələri ilə təhrirati-rəsmiyyənin mümkün olduqca milliləşməsinə cəhd etməlidir. (Şiddətli və sürəkli alqışlar)». (M.Ə.Rəsulzadə); «Əvvəlcə özgələrdən istifadə edərək, sonra get-gedə qüvvət kəsb etmişdir. Binaən-ileyh qorxmamalıdır» (M.Ə.Rəsulzadə). Göründüyü kimi, hər iki cümlə M.Ə.Rəsulzadənindir və məntiqi cəhətdən şəxssiz cümlədir. Belə cümlələr ədəbi dilimizdə bu gün də işlənməkdədir. Lakin qrammatik cəhətdən uğurlu deyillər. Birinci cümlənin xəbəri əslində felin məlum yox, məchul növündə deyilməlidir: «...milləşməsinə cəhd edilməlidir». İkincisinin daha düzgün forması belədir: «...qorxmaq gərək deyil». Lakin bu zaman o, qrammatik cəhətdən artıq şəxssiz cümlə olmaq keyfiyyətini itirir. Görünür, Müsavatın rəhbəri məntiqi siqlət üçün «qrammatik xırdalığa» əhəmiyyət verməmişdir. Parlament dili çıxış və nitqlər, müzakirələr, sual və cavablar, münasibətlər dili olduğundan cümlələrin intonasiya baxımından çeşidli növləri də çox işlənmişdir. Müasir nida cümlələrinə, başqa sözlə siyasi nidalara dilimizin tarixində legitim surətdə ilk dəfə məhz AXC-nin yarandığı dövrdən başlayaraq rast gəlirik. Parlamentdə səslənən şüarlardan: «Yaşasın Azərbaycan Demokratik Cümhuriyyəti! Yaşasın Kafkaz millətlərinin dostluğu! Yaşasın cəmiyyəti-əqvam! Yaşasın sosializm!» (Ə.Pepinov); «Yaşasın Azərbaycan Cümhuriyyəti! Yaşasın demokratiya! Yaşasın... millətlərin qardaşlığı!» (A.Səfikürdski).

Sual cümlələrindən alternativ sual cümlələri diqqəti daha çox cəlb edir: «Xalq yeni işlərə razı olacaqmı, yoxmu? Təzə yolla getmək istəyəcəkmi?» (F.Xoyski); «Bu ağır vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu?..» (H.Ağayev); «...böyük məclis quran müxtəlif firqələrdə

proqram dəyişikliyi görmürsünüz?.. Fəqət bu gün nə görürsünüz?» (M.Ə.Rəsulzadə); Sual cümlələri Fətəli Xan Xoyskinin dilinin üslub xüsusiyyətlərindəndir. Onun nitqində hansı növdə olmasından asılı olmayaraq bu cümlələr gözəl səslənir: «...böylə olan surətdə bu məsələdən başqasına artıq əhəmiyyət olurmu idi?

* *
*

Fonetika və qrammatika sahələrində olduğu kimi, leksik cəhətdən də AXC-nin dövlət dilində diqqəti ən çox çəkən paralelizmlərdir. Səslərin, qrammatik formaların müvaziliyi kimi leksik paralellər də bu dildə mühüm yer tutur. Bununla yanaşı həmin dildə xeyli başqa özünəməxsusluqlar da mövcuddur və onlar dövrün, şəraitin və ictimai-siyasi mühitin özü ilə bağlıdır.

Rusiya imperiyasının dağılması onun bir sıra əyalətlərinin müstəqil dövlətlərə çevrilməsi ilə nəticələndi. Yeni yaranan bu dövlətlər az vaxt içərisində öz hökumətlərini, parlamentlərini, dövlət atributlarını yaratmaq qayğısı qarşısında qaldılar. Həmin xoş qayğılardan biri də az vaxt ərzində dövlət dilini yaratmaq, formalaşdırmaq qayğısı idi. Azərbaycan tarixində ilk və həqiqətən demokratik dövlət olan Azərbaycan Cümhuriyyəti bu məsələdə tam demokratik və müdrik mövqe tutdu: ana dilini bilən dövlət işçiləri yetişdirmək.

Dövlət dilinin yaranması və formalaşmasında ilk vaxtlar üçün məhdudiyyət qoymayan respublika hökumətində və xüsusən parlamentində sözlərin işlədilməsində, termin yaradıcılığında bir sərbəstlik vardı. Çıxış edənlər o dövrün bütün dil üslublarından istifadə edirdilər. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə bir cür, Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski başqa, Maarif naziri Rəşid bəy Kaplanov üçüncü cür,

əkinçilik və əmək naziri Əkbər ağa Şeyxülislamzadə dördüncü cür və s. çıxış edirdilər. Məsələn, Nazirlər Şurasının sədrinə biri rəisi-vükəla, digəri vükəla rəisi, üçüncüsü hökumət rəisi və s. deyirdi və belə termin azadlığı çox normal qəbul edilirdi. Sözlərin seçilməsi və paralel işlədilməsində də sərbəstlik vardı və bunun nəticəsində dövlət dilinin lüğət tərkibində bugündən baxanda çox böyük rəngarənglik özünü göstərirdi.

Lüğət tərkibinə daxil olan sözləri dörd böyük qrupa ayırmaq olar: 1) Azərbaycan sözləri, 2) osmanlı dili sözləri, 3) ərəb və fars sözləri, 4) rus sözləri.

Azərbaycan və osmanlı türkcə sözləri arasında sərhəd qoymaq bəzi sözlər nəzərə alınmazsa, çətindir. Həmin sözlərə əvəzliklər (kendi) öz mənasında (şu, işbu hanki və b.), **şimdi** və **imdi** zaman zərfləri, **əvət, iştə** ədatları və bir neçə termin səciyyəli (anarşi) anarxiya mənasında), çete (ordu birliklərindən olmayan silahlı kiçik dəstə) və s. sözlər daxildir.

Azərbaycan sözləri qrupu deyəndə mən əsas etibarilə leksik və semantik neologizmləri nəzərdə tuturam: **vergi, yer vergisi, gəlir, azadəlik, qardaşlıq, beynəlmiləlçik*, parlament* nümayəndələri*, qərar layihəsi* sosialistlər fraksiyası*, hökumət rəisi*, sinif* ayrılığı, sinif mübarizəsi*, rəislik*, daxiliyyə naziri*, pulun qiyməti*, məclis rəisi*, məclis katibi*, sədr müavini*, baş nazir*, alqış, sürəkli, millət*, nümayəndələri*, oxunmuş (birinci, ikinci), bağlıq yeri, əkin yeri, maliyyə* nəzarəti*, gömrük, inqilab bayrağı, seçki, seçki qanunu, bəyannamə, birər, ikişər müştərək müqavilə**, ticarət* nəzarəti, müsavat* fraksiyası*** və s.

Əsasən bitərəflərin və sosialistlər fraksiyasına mənsub olan deputatların çıxışlarında səslənən bu sözlər və söz birləşmələrinin çoxu bugünkü dövlət dilimizdə də fəaliyyətdədir.

Ərəb və fars sözləri qrupu deyəndə, müasir dilimiz üçün artıq arxaikləşmiş sözlər və söz birləşmələri (izafətlər) nəzərdə tutulur: **məbus, məvad, vükəla, rəisi-vükəla, mənbər (xitabət kürüsü mənasında), ricu, istizah, məclisi- məbusan, haiz, ədəmi-mərkəziyyət, istiqlal, qanuni-intixab, şəraiti-hazırə, məruzat, təhrirati-rəsmiyyə, təbən, bizzat, mətlub, bilxaq, bittəb, mühafil, məstəhaq, müsalimət, istihaqq, təhti-təyin, müsalihəkar, heyəti-vükəla, ümumi-məzhəbiyyə, hadisati-ələmiyyə, inqilabi-kəbir, ixtilal, məşimə, əksəriyyəti-əzəmiyyə, binaənileyh, əhəmiyyəti-siyasiyyə, xatimeyi-kəlam, tələqqi, mülahizat, dərəceyi-hörmət, mülahizati-şəxsiyyə, nizai, istiqbali-maliyyə, lisan, tədrisat, müstəcəl, müstəscəl, üləma, ülum, fünun, ürfan, mübin, tütəfənnin, sabatkar, zəvat, bəyani-əfkar, əltələbil-elm, mötəriz, qəraət (oxunuş mənasında), məgulat, yomiyyə, müzakirati-yomiyyə, təshihiyyə, məşruhə, müsadimə, müsalimə, irsal, mərsul, intixab (seçki mənasında), mövqeyi-sədarət, ittifaqi-ara, icab etmək, sui-tənhim, müstəhziyanə, məhfuz, ati, vüquat, istinkaf, məcib olmaq, layiheyi-qanuniyyə, mühəvvəl, bəratülqovl (protokol)** və s.

Bu sözlərə Müsavat və İttihad fraksiyalarına daxil olan parlament nümayəndələrinin, ən çox M.Ə.Rəsulzadə və R.Kaplanovun nitqlərində rast gəlinir.

Parlament nümayəndələrinin dilində işlənən rus sözləri qrupu dedikdə, rus dili vasitəsi ilə Avropa dillərindən keçən sözlər də nəzərdə tutulur: **doqovor, kollektivnıy doqovor, komisiya, inspektor, podatnı inspektor, ustav, universitet, desətin, fraksiya, demokratiya, deklarasiya, proqram, smeta, büdcə, revolyusiya, uyezd, teleqram, teleqraf, ministr, sosialist, kapital, mandat, nadelni, sud, doklad, poğrom, zemlyaçestvo, zakon, akop, şkol** və s.

Rus və rus dili vasitəsi ilə Avropa dillərindən keçən sözlər qrupu bir sıra maraqlı xüsusiyyətlərinə görə fərq-

lənir. İlk öncə, qeyd edim ki, bu 30 sözdən yalnız 12-si qarşılıqı olmadan işlənən sözlərdir: **inspektor, podatnı inspektor, desətin, demokratiya, smeta, büdcə, uyezd, teleqram, teleqraf, sosialist, nadelni, zemlyaçestvo.**

Qalan sözlərin isə istər fonetik, istərsə də leksik qarşılığı vardır. Fonetik qarşılığı olan, yəni fonetik paralelləri olan sözlər bunlardır: komissiya//komision, fraksiya//fraksion, deklarasiya//deklarasion. Bu sözlərin hər üçü mənşəyinə görə latın sözləridir. Onlardan birinci tərəfdə duranlar (komisiya, fraksiya, deklarasiya çıxış edənlərin dilinə rus dili vasitəsi ilə, ikinci tərəfdəkilər isə ya fransız dilində bir başa, ya da ki, türk dili vasitəsi ilə keçmişlər. Parlament sözünün isə üç fonetik qarşılığı olmuşdur: parlament//parlaman// parlamant. Fransız dilində parle danışmaq sözündən yaranmış həmin sözün birinci variantı (parlament) parlament dilinə rus dili vasitəsi ilə keçmiş ikinci variantı (parlaman) və üçüncü variantı (parlamant) isə, görünür, parlament üzvlərinin öz yaradıcılıq məhsuludur. Müasir türk ədəbi dilindəki **raçva** sözünü onlar italyan dilindən götürmüşlər.

16 sözün hamısının isə ilk parlamentimizin dilində leksik qarşılığı olmuşdur: doqovor//müqavilə, kollektivnıy doqovor//(müştərək müqavilə), ustav// nizamnamə, universitet//darülfünun, deklarasiya//bəyannamə, proqram//məramnamə, revolyusiya//inqilab, ministr// nazir//vəkil, kapital//sərmayə, mandat//etibarnamə (mandat komissiyası//etibarnamə komissiyası), sud //məhkəmə, doklad//məruzə pağram//talan, zakon //qanun, akop//səngər, şkol//məktəb, politika//siyasət. Sonuncular, şübhəsiz ki, tamamilə fərdi səciyyədədir, necə deyərlər bir ovuc işlənən sözlərdir. Zakon sözünü 67-ci iclasa sədrlik edən Sultan Məcid Qənizadə işlədib. Necə deyərlər, gəlişi gözəl. Politika, akop, şkol sözlərini isə gözlənilməyən bir şey –M.Ə.Rəsulzadə. Yenə də,

necə deyərlər, gəlişi gözəl. Sud sözünə yenə də gözlənilmədən ittihadçı Qara bəy Qarabəyovun nitqivdə rast gəlmişəm: «O zaman bizim sudumuz və hökumətimiz borcludur canilərə cəza versin».[1] Sərmayə və kapital sözlərini isə birincini açıqlamaq məqsədi ilə Səməd ağa Ağamalı oğlu işlədib: «Universitet açmaq bir işə sərmayə qoymaqdır. Mən sərmayə dedikdə bilirsiniz nədir? Mən kapital demək istəyirəm».[2]

Parlamentdə iclasın gedişində sədrlik edən Həsən bəy Ağayevin istifadə etdiyi **nakaz** sözünü də bu sıraya daxil etmək olar.

Bu qeydlər, tariximizin iki ildən bir ay qısa olan bu müddətinin dil tariximiz üçün həqiqətən bütöv bir dövr olduğunu aydın göstərir. Doxsan illik zaman məsafəsində həmin dövr dil yaddaşımızın uca zirvələrindən biri olaraq qalır.

İNCƏSƏNƏT VƏ TEATR. XX əsrin əvvəllərində böyük ictimai-siyasi dəyişikliklər, inqilab və milli-azadlıq hərəkatının kenişlənməsi, milli, ictimai oyanış ona səbəb olur ki, milli mədəniyyətin inkişaf problemləri də ölkənin siyasi həyatında mühüm rol oynamağa başlayır. H.Zərdabi, C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Sabir, Ü.Hacıbəyov, Ə.Haqverdiyev və b. kimi görkəmli maarifçi-demokratlar dövrlərinin qabaqcıl ideyaları ilə çıxış edir və Azərbaycan incəsənətini milli ənənələr əsasında inkişaf etdirirdilər.

Yeni əsrin əvvəllərivdə ümumi mədəni yüksəlişlə əlaqədar ölkədə «Nicat», «Nəşr-maarif», «Səfa» kimi cəmiyyətlər yaranırdı. Bu cəmiyyətlərin başında duran görkəmli teatr və musiqi xadimləri H.Sarabski, H. Ərəblinski, M.Əliyev, C.Zeynalov, S.Ruhulla, Ü.Hacı-

[1] Azərbaycan Respublikası MDA, f. 895, iş 100, səh. 34.
[2] Azərbaycan Respublikası MDA, f. 843, siyahı 1, iş 133, səh. 16.

bəyov, Z.Hacıbəyov xalqın maarifləndirilməsi yolunda çalışır, müxtəlif konsert və teatr tamaşaları, siyasi və elmi məruzələr keçirirdilər. Bu dövrdə Azərbaycan mədəniyyətinin ən sürətlə irəliləyən sahələrindən biri teatr sənəti idi. Azərbaycan dramatik teatrı çox çətin şəraitdə fəaliyyət göstərir və həqiqi xalq sənəti uğrunda mübarizə aparırdı. Məhz bu teatr milli opera sənətinin yaranmasında xüsusi rol oynamış və ilk Azərbaycan opera və operettaları bu teatr ustalarının qüvvələri ilə, bu teatrların səhnələrində qoyulmuşdu.

XX əsrin əvvəllərində Azərbaycanın musiqi-konsert həyatı getdikcə zənginləşirdi. Bakıya bir çox görkəmli musiqiçilər qastrol səfərlərinə gəlir, teatrların səhnələrində xarici və yerli aktyorların qüvvəsilə rus və italyan bəstəkarlarının operaları qoyulur, simfonik konsertlər keçirilirdi. Q.Pirimov, C.Qaryağdı, S.Mirbabayevin, ustad aşıqlardan Abbasqulunun, Nəcəfqulunun iştirakı ilə Şərq konsertləri verilirdi. Bütün bunlar xalqan maarifləndirilməsində, milli demokratik incəsənətinin inkişaf etməsin-də böyük əhəmiyyətə malik idi.

Xalqın milli azadlıq hərəkatında həqiqi xalq mədəniyyəti uğrunda mübarizədə ön cərgədə gedənlərdən biri də Azərbaycan teatr mətbuatı idi. Bu dövrdə Azərbaycan və rus dillərində müxtəlif qəzetlər nəşr olunmağa başlayırdı. C.Məmmədquluzadə tərəfindən yaranan «Molla Nəsrəddin» jurnalı isə bir qrup maarifçi demokratın qabaqcıl ideyalarının carçısına çevrilirdi. Bu jurnalın iti qələmli müəlliflərindən biri də Azərbaycan musiqisinin klassiki Ü.Hacıbəyov idi. «Filankəs» adı ilə çap elətdirdiyi felyetonlarda bəstəkar dövrünün ən qatı sosial əyriliklərini ifşa edirdi. Məhz bu felyetonların ümumi məzmunundan Ü.Hacıbəyovun «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan» musiqili komediyalarında güçlu satirik planda istifadə edilmişdi. Bəstəkar çox gözəl başa düşürdü ki, məhz musiqili

komediya janrına məxsus yumor və kəskin satira vasitəsi ilə dövrün ziddiyyətlərini, ictimai-siyasi həyatını vermək olar. 1918-1920-ci illərdə isə Ü.Hacıbəyov artıq həm də öz adı ilə «Azərbaycan» qəzetində çıxış edir. Məqalələrində yeni demokratik respublika dövründə Azərbaycanın siyasi və mədəni həyatında baş verən hadisələrin təhlilini və şərhini verirdi.

1908-ci il yanvarın 12-si Azərbaycan musiqi tarixində ilk operanın yaranması günüdür. Ü.Hacıbəyov ilk «Leyli və Məcnun» operasından sonra «Şeyx Sənan», «Əsli və Kərəm», «Şah Abbas və Xurşud Banu» kimi digər muqam operalarını da yaradır. Bəstəkar teatrın, musiqi teatrının xalqın maarifləndirilməsində, bədii zövqün inkişaf etdirilməsində oynadığı böyük rolu dərindən başa düşür və opera yaradıcılığı ilə yanaşı, mətbuatda da öz fikirlərini müxtəlif məqalələrində izah edirdi.

Milli musiqi janrının yaranması yolunda Ü.Hacıbəyovla çiyin-çiyinə çalışan xadimlərdən biri də Müslüm Maqomayev idi. Fəaliyyətinə teatr orkestrinin skripkaçısı kimi başlamış M.Maqomayev, tezliklə orkestrin dirijoru olmuş və nəhayət Azərbaycan opera sənətinin daha bir klassik əsəri «Şah İsmayıl» operasının müəllifi kimi çıxış etmişdir. 1916-cı ildə yazılmış opera məhz 1919-cu ildə ilk Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə səhnəyə qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdı.

Azərbaycan musiqi teatrının yaranıb inkişaf etməsində Zülfüqar Hacıbəyov da böyük rol oynamış, Ü.Hacıbəyovun yolunu davam etdirərək «Aşıq Qərib» operasını, «Əlli yaşında çavan» və «Evliykən subay» operettalarını yazmışdır.

XX əsrin əvvəllərində Azərbaycanın musiqi həyatında «İnternasional», «Marselyoza» kimi inqilabi mahnıların, «Koroğlu», «Qaçaq Nəbi», «Səttarxan» tarixi mahnılarının geniş yayılması təsadüfi deyildi. O

dövrün ümumi əhvali-ruhiyyəsi, camaatın inqilabi hissləri, demokratik meyllər belə mahnıların özünəməxsus melodiyalarında öz ifadəsini tapırdı. Məhz həmin dövrün bu mahnılarının təsiri altında Ü.Hacıbəyov Cəmo bəyin mətni əsasında «Marş» yazmışdı. Bu əsərdə bəstəkar demokratik respublika dövründə xalqının qəlbində baş qaldıran vətənpərvərlik hisslərini, mütərəqqi ideyaları, milli qüruru ifadə etmişdi.

1917-1920-ci illərdə Azərbaycan incəsənət xadimləri çətin bir şəraitdə işləməyə məcbur olmuşlar. Azərbaycan mədəni-iqtisadi cəhətdən də mürəkkəb bir dövr yaşayırdı.

* *
*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan teatrının repertuarında olan ən yaxşı tamaşalar «Dəmirçi Gavə», «Nadir şah», «Ölülər», «Yağışdan çıxdıq, yağmura düşdük», «Bəxtsiz cavan», «Əlli yaşında cavan», «Şamdan bəy», «O olmasın, bu olsun», «Qazavat», «Ağa Məhəmməd şah Qacar», «Şah İsmayıl», «Pəri cadu», «Otello», «Qaçaqlar», «Dağılan tifaq», «Əlmənsur», «Hacı Qara», «Bədbəxt milyonçu», «Vətən, yaxud Silistrə», «Ev tərbiyəsinin bir şəkli», «Evli ikən subay», «Arşın mal alan» əsərləri idi.

Mart hadisələrindən sonra İrana getməyə məcbur olmuş Üzeyir və Zülfüqar Hacıbəyovlar məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıya qayıdaraq fəaliyyətə başlamışdılar. Hacıbəyov qardaşları müdiriyyəti Bakı artistlərindən ibarət dəstə təşkil etmiş, dövrün tanınmış sənətkarları Hacağa Abbasov, Əhməd Ağdamski, Cəlil Bağdadbəyov, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Muxtar Məmmədov, Rza Darablı, Sidqi Ruhulla, Əbülhəsən Anaplı, Əhməd

Anatolu, Mir Mahmud Kazımovski və başqalarını bir yerə toplamışdı. Maarif Nazirliyi Opera teatrını müsəlman teatr cəmiyyətinə verməyi qərara almışdı. Mətbuat bunu da qeyd etmişdi ki, Azərbaycan opera, faciə və komediya sənətkarları (aktyorları) birləşib bir ümumi türk aktyorları dəstəsi düzəltmişlər. Dəstəyə Ərəbli, Sarablı, Şərifzadə, Mirzə Ağa, Ələkbər və Üzeyir bəy kimi mahir sənətkarlarımız daxil idi. Bu haqda tamaşaçı və oxucularına məlumat verən «Azərbaycan» qəzeti 1918-ci il 2 təşrini-əvvəl tarixli nömrəsində yazırdı: «Neçə aylardan bəri qapanmış müsəlman teatrosu qəhrəman türk ordusunun vürudu sayəsində şimdi yavaş-yavaş açılmağa qədəm qoymuşdur».

«Azərbaycan» qəzetinin həmin sayında dərç edilmiş elana görə «Hacıbəyli qardaşları» truppasının yeni teatr mövsümü 1918-ci il oktyabrın 3-də o vaxtlar Malakan bağının yanında yerləşən «Mikado» teatrında böyük bəstəkarımız Üzeyirbəy Hacıbəylinin «Arşın mal alan» operettası ilə açılmış və tamaşada «Üzeyirbəyin əski artist və artistkaları» iştirak etmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə nisbətən müntəzəm fəaliyyət göstərən «Hacıbəyli qardaşları» truppasının üzərinə Bakıda yaşayan aktyorları birləşdirmək kimi məsul bir vəzifə düşmüşdü: «Hacıbəyli qardaşları» müdiriyyəti Bakıda olan türk artistlərindən mürəkkəb, qüvvətli bir dəstə təşkil etməkdən ötrü hazırda Bakıda yaşayan artistləri dəvət etmiş və qərara alınmışdır ki, aşuradan sonra fəaliyyətə başlayacaq Mayılov qardaşları teatrosunda (indiki Dövlət Opera və Balet Teatrı – red.) drama, opera və oneretta dəstələri təşkil olunsun».[1]

---

[1] Teatro və musiqi "Azərbaycan" qəzeti, 1918, 15 təşrini-əvvəl, N 15.
* Aktyorların soyadları "Azərbaycan" qəzetində yazıldığı kimi verilir. Digər səhifələrdə də bu prinsipə əməl olunacaq - red.

Truppa həftədə üç gün növbə ilə drama, komediya, opera və operetta tamaşaları göstərir, habelə «Azərbaycan hökuməti ilə qonşu cümhuriyyətlərin başqa şəhərlərində tamaşalar verməkdən ötrü» zəruri hallarda qastrol səfərlərinə çıxmağı da nəzərdə tuturdu.

Yenidən təşkil olunmuş «Hacıbəyli qardaşları»nın truppası aşağıdakı tərkibdə idi: «Hacıağa Abbaszadə», Əhməd Ağdamlı, Cəlil Baqdadlı, Hüseyn Ərəbli (rejissor), Abbas Mirzə Şərifzadə (rejissor), Hüseynqulu Sarablı, Mirzə Muxtar Məhəmmədzadə, Mirzağa Əlizadə, Sidqi Ruhulla, Ələkbər Hüseynzadə, Əbdülhəsən Anaplı, Rza Darablı, Məhəmmədəli Qayıbzadə, Mir Mahmud Kazımi, Xəlil Hüseynzadə, Məmmədtağı Bağırzadə, İbrahim Atakişizadə, Bağır Cabbarzadə, Yunis Nərimanzadə, M.Ə.Sidqi (suflyor), Hacıbaba Şərifzadə, Rüstəm Kazımzadə, Cəlil Qarabağı, Yeva Olenskaya, Məğfurə xanım, Səmnur xanım, Minaxanım.

«Azərbaycan» qəzetində kiçik elan xarakterli bir yazı teatrın kadr problemi ilə yanaşı, repertuar çətinlikləri çəkdiyini də göstərirdi: «Səhnəmiz teatr əsərlərindən xeyli kasıb və yoxsul olduğunu nəzərə almaqla, yazıb möhtərəm cəmaətdən və səhnə həvəskarlarından xahiş edirik ki, hər kəsdə Türkiyə yazıçılarının əsəri və İstambul çapı (təbi) teatro kitabı varsa, mövqe tamaşaya qoymaq üçün aşağıdakı ünvan ilə müdiriyyətimizə təşrif gətirib şərti məlum eləməklə səhnəmizə müavinətdə bulunsun».

Çox mənalı və simvolikdir ki, «Hacıbəyli qardaşları» truppası ilk tamaşalardan biri kimi Şəmsəddinbəy Saminin məşhur «Gaveyi-ahəngər» əsərini seçmiş və tamaşanın gəliri Azərbaycanın müstəqilliyi və istiqlaliyyəti uğrunda şəhid olanların ailələrinə yardım üçün ayrılmışdı (1918-ci il oktyabrın 26-da).

1918-ci il dekabrında müstəqil Azərbaycanın ilk parlamentinin açılışı günü «Hacıbəyli qardaşları» truppası milli parlamentə aşağıdakı məzmunda təbrik məktubu göndərmişdi: «Hacıbəyli qardaşları» müdiriyyəti və onun təht-idarəsində olan artistlər dəstəsi cavan parlamanımızın güşadını ən səmimi qəlb təhniyyəti təbriklə vətən və millətimizin azad istiqlalı uğrunda var quvvəsi ilə çalışmaqla milli ədəbiyyat, milli mənəviyyat və sənaye-nəfisəmizdən azad və sərbəst tərəqqi və inkişafına bir vəsilə olacağına qüvveyi-imanda etimad ediyor.[1]

1919-cu il avqustun 22-də Bakı «Türk aktyorları ittifaqı» idarəsi ilə «Hacıbəyli qardaşları» müdiriyyətinin birgə keçirilmiş iclasında «milli səhnəmizi daha müntəzəm bir hala salmaq» məsələsi müzaklrə edilmiş, müqtədir aktyor və aktrisalar yetişdirmək məqsədilə dörd şöbədən ibarət bir «bədaye kursu»nun təsis edilməsi qərara alınmışdır (həmin kursun dram şöbəsinə A.M.Şərifzadə, H.Sarablı; komediya şöbəsinə Mirzağa Əlizadə; musiqi şöbəsinə Üzeyirbəy və Zülfüqarbəy Hacıbəylilər, Qurban Pirimov, tarix şöbəsinə Əliabbas Müznib; ədəbiyyat şöbəsinə Rza Zaki müəllim təsdiq olunmuşdur. «Bu kursa daxil olacaq erkəklər hər halda türk və müsəlman, qadınlar isə hər bir millətdən ola bilərdi».[2]

1918-1919-cu il teatr mövsümünün başa çatması münasibətilə «Azərbayçan» qəzetində «Axırıncı tamaşalar» adlı bir yazıdan məlum olur ki, aktyorlar Milli İstiqlaliyyət bayramı günü süvari musiqi dəstəsinin müşayiətilə bəzəkli avtomobillərdə Azərbaycanın milli marşlarını xorla oxuyaraq Teymurləng, Çingiz xan, Ağa Məhəmmədşah Qacar, Şah Abbas, Şeyx Şamil, Bakı, Şəki,[1]Şirvan, Gəncə, Səlyan, Quba, Qarabağ xanlarının obrazlarında qoşunun müşayiətilə hökumət

[1] Təbrik. «Azərbaycan». 1918, 7 kanuni-əvvəl, N 58.
[2] «Azərbaycan», 1919, 3 sentyabr, N 267.

teatrından çıxıb şəhərin küçələrini keçərək Parlamentin binası qarşısına (indiki Əlyazmaları İnstitutu – red.) gəlmiş, Parlamentin üzvlərini təbrik edərək, yenidən şəhərin müsəlmanlar yaşayan hissəsini gəzib, teatra qayıtmışlar. Bütün bunlar aktyorlarımızın Xalq Cümhuriyyəti dövründə ölkənin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini göstərən faktlardır.

«Hacıbəyli qardaşları»nın teatr truppasında Əbdürrəhimbəy Haqverdiyevin «Dağılan tifaq», «Pəri Cadu», «Ağa Məhəmməd şah Qacar», Şəmsəddin bəy Saminin «Gaveyi-ahəngər», Sultan Məcid Qənizadənin «Axşam səbri xeyir olar», Mehdibəy Hacınskinin «Sultan Əbdülhəmidin «xəl»i və yaxud zülm və istibdadın axırı», Cəfər Cabbarlının «Ənvərbəyin Ədirnə fəthi», İsabəy Aşurbəylinin «Azərbaycan» və «Cəhənnəm», Sergey Lanskoyun «Qazavat» kimi dram əsərləri; Üzeyirbəy Hacıbəylinin «Arşın mal alan», «O olmasın, bu olsun», «Leyli və Məcnun», «Əsli və Kərəm», «Şah Abbas və Xurşudbanu», Zülfüqarbəy Hacıbəylinin «Aşıq Qərib» «Evli ikən subay», Müslümbəy Maqomayevin «Şah İsmayıl» kimi opera və operetta əsərləri dəfələrlə teatrsevərlərin mühakiməsinə verilmişdir.

Truppa ayrı-ayrı səhnə xadimlərinin şərəfinə də tamaşalar göstərmişdir. Sürəyya xanım və Tanailidinin şərəfinə «Arşın mal alan», Əbdülhəsən Anaplının benefisinə «Cəhənnəm», Abbas Mirzə Şərifzadə və Xəlil Hüseynovun şərəfinə «Azər-Baycan», Hacıbaba Şərifovun və Aleksandra Olenskayanın şərəfinə «Şah İsmayıl» və «Şah Abbas və Xurşudbanu», Əhmədbəy Ağdamskinin şərəfinə «Əsli və Kərəm», İbrahimbəy Atakişiyevin və Bağır Cabbarzadənin şərəfinə «Ənvərbəyin Ədirnə fəthi» əsərləri göstərilmişdir.

1919-1920-ci illər teatr mövsümü ölkənin həyatında xüsusilə əlamətdar olmuşdur.

Məhz bu zaman Azərbaycan Dövlət Teatrı təşkil olunmuş və rəsmi şəkildə o, 1919-cu il oktyabrın 24-də İsabəy Aşurbəylinin «Azər-Baycan» pyesinin tamaşası ilə açılmışdır.[1] Pərdə açıldıqda Qulamzadə Şərifov başda olmaqla Teatrın bütün heyəti səhnəyə çıxmış, Rza Zəki Əfəndi öz nitqində Qafqazın, xüsusilə də Bakının milli teatr tarixi haqqında qısa söz söyləmişdir. Dövlət Teatrının tarixi əhəmiyyəti və vəzifələri, həmçinin publisist Mirzəbala Məhəmmədzadənin «Azərbaycan» qəzetində dərc olunmuş «hökumət və teatr məsələsi» adlı məqaləsində ətraflı işıqlandırılmışdır».[2]

Mirzəbala Məhəmmədzadə öz məqaləsində milli və qüdrətli bir səhnəyə malik olmaq üçün qələmindən yüksək səviyyəli əsərlər meydana çıxara biləcək yazıçıların, həmçinin, həmin səhnə əsərlərini xalqa çatdırmağa qadir olan aktyorların yetişdirilməsini zəruri sayır və bildirirdi ki, onların hər ikisi bizdə vardır.

Azərbaycan Xalq Cümhuriyəti dövründə teatr sahəsində atılmış mühüm addımlardan birisi də ayrıca teatr rəssamı vəzifəsinin təsis edilməsi olur, Azərbaycanda teatr rəssamlığı müstəqil bir peşə kimi 1919-cu ildən formalaşır.

Teatr təşkil olunduqdan sonra onun repertuarı həm milli dramaturqlarımızın, həm də Qərbi Avropa klassiklərinin səhnə əsərləri ilə zənginləşir. Vilyam Şekspirin «Otello» faciəsinin tamaşaya qoyulmasının ölkənin mədəni həyatında önəmli bir hadisə olduğunu açıqlayan «Azərbaycan» qəzeti yazırdı: Teatro işlərini hökumət kəndi ehtibarına aldıqdan sonra ədəbiyyat və sənaye-nəfisəmizin bu cəhətdən bir tərəqqi görünməkdədir. Bu gün bizim tamaşa etdiyimiz və məmnuniyyətimizə mucib olan «Otello» faciəsi də bu tərəqqinin bir nümunəsidir».[3]

---

[1] Dövlət teatrosu. "Azərbaycan" qəzeti, 1919, 22 təşrin-əvvəl, N 306.
[2] "Azərbaycan" qəzeti, 1919, 21 təşrini-sani, N 327.
[3] "Azərbaycan" qəzeti, 1919, 14 kanuni-əvvəl, N 343.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə tamaşaya qoyulmuş səhnə əsərləri dövrün teatr tənqidində incələnmiş, onların heç də hamısı tənqid tərəfindən rəğbətlə qarşılanmamışdır. Ə.Haqverdiyevin «Dağılan tifaq», S.Lonskoyun «Qazavat» və s. əsərlərin tamaşası mətbuatda tənqidə səbəb olmuşdur. 1918-1920-ci illər arasında teatr tənqidi müntəzəm olaraq tamaşaçı probleminə, tamaşaçı etikası, tamaşaçı davranışı məsələlərinə də toxunmuş, müasir teatr və müasir tamaşaçı problemi ilə vəhdətdə məşqul olmuşdur.[1]

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ziyalılar, teatr tənqidi ilə məşğul olan ədəbiyyatçılar (İbrahim Qasımov, Xəlil İbrahimov, Üzeyir Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Kərimbəy Məlikov, Kazım oğlu (Seyid Hüseyn), Mehdi bəy Hacınski və b.) teatr prosesini diqqətlə izləyir, onun yeni tamaşaları, rejissor və aktyorlar barədə fikir söyləyir, obyektiv və prinsipial rəylərində teatrın inikşafına təsir göstərirdilər.

Dünya klassik dramaturgiyasına Azərbaycan teatrının müraciət etməsini cəsarətli, qeyrətli bir iş hesab edən tənqid yazırdı: «Bu gün artist öz məharətini təcrübə edirsə və yaxud imtahan vermək istəyirsə, Şekspirin əsərlərinə müraciət edər. Şekspirin əsərlərini oynamaq üçün bir çox hazırlıqlarla bərabər bir az da düha lazımdır. Demək olar ki, cümə gecəsi Azərbaycan teatrı səhnə və teatr aləmində imtahan verdi. Özünün qabiliyyətini göstərdi, müvəffəq də oldu».

Məhəmməd Əmin Rəsulzadənin «Əsrimizin Səyavuşu» əsərində yazdığı kimi, respublika «Azərbaycan türk teatrı ilə musiqinin inkişaf edən bir göstəricisi»nə çevrildi. «Cümhuriyyət zamanında teatr sənəti olduqca irəlilədi. Hökumət himayəsinə alınan türk səhnəsi ilə

[1] Bax: "Azərbaycan" qəzeti, 1919, 27 kanuni-sani N 98.

musiqisi ona verilən dövlət teatrında on illik bir irəliləmə əlaməti göstərirdi. Dekor, oyun, rəqs, səs və ifa cəhətincə parlaq nümunələr, zəngin çiçəklər verdi. Az zamanda Azərbaycan sənəti avropavari bəstəkar, tragediya, komediya, opera, operetta, aktyor və aktrisaları ilə ümid verən rəssamlara sahib olduğunu sübut etdi».

Bir cəhətə də fikir verək ki, bu dövrdə teatr haqqında, ayrı-ayrı aktyorlar barədə ən çox və ən tutarlı, samballı məqalələr məhz demokratik Cümhuriyyətin orqanı olan «Azərbaycan» qəzetində çap olunurdu. Cümhuriyyətin rəhbəri Məhəmməd Əmin Rəsulzadə hələ 1908-ci ildə «Nicat» mədəni-maarif cəmiyyətinin sədri olmuş, teatra, ayrı-ayrı görkəmli sənətkarlara olan hücumları dəf etmiş, C.Zeynalov, H.Ərəblinski, H.Sarabski və digər səhnə ustalarımızı yersiz, qərəzli tənqiddən, böhtandan qorumuşdur. «Qazavat» əsərini tamaşaya hazırlayan Hüseyn Ərəblinskiyə qarşı hazırlanmış təxribatın qarşısını alan Rəsulzadə «Tərəqqi» qəzetində çap etdirdiyi məqaləsində özünün mütərəqqi mövqeyini, sənət və sənətkara hörmətini büruzə vermişdir. Həmin dövrdə milli kinematoqrafiya sənətinin inkişaf etdirilməsi sahəsində müəyyən tədbirlər görülür, bədii əsərlərin ekranlaşdırılmasına diqqət artır. Misal olaraq, Üzeyir Hacıbəyovun Şərq ölkələrində şöhrət qazanmış «O olmasın, bu olsun» musiqili komediyasının çəkilişini göstərmək olar. «Neft və milyonlar səltənəti» filmi, Bakı şəhərinin «Renessans», «Mon-Repo», «Mikado» və başqa kino-teatrlarında böyük müvəffəqiyyətlə nümayiş etdirilirdi.

* *
*

Azərbaycan Xalq Cümhuriyyəti ilk növbədə milli dövlət aparatı və ordu yaratmaqla yanaşı, maarif və mədəniyyət məsələlərinə də xüsusi əhəmiyyət verirdi.

Öncə dövlət bayrağı və gerbinin hazırlanması üçün aparılan tədbirləri qeyd etmək lazımdır. Azərbaycan Xalq Cümhuriyyətinin milli simvolları üçün məşhur alim, dövlət xadimi və rəssam Əlibəy Hüseynzadənin irəli sürdüyü «türkləşmək, islamlaşmaq və müasirləşmək» şüarı əsas götürülmüşdür. Mavi, qırmızı və yaşıl rəngli milli bayrağın ortasında müasirləşmənin timsalı olan qırmızı və islamın rəmzi olan yaşıl rəngin fonunda türkdilli xalqların qədim simvolları – aypara və 8 guşəli ulduz verilmişdir. Dairəvi qalxan formalı dövlət gerbində də həmin rənglər və simvollar, eləcə də dəfnə və sünbül çələngləri əsas yer tutur.

Azərbaycan Xalq Cümhuriyyəti maarif sahəsində də bir sıra tədbirlər həyata keçirmişdir. Bakı Dövlət Universitetinin, Dövlət teatrının, «İstiqlal» muzeyinin, digər maarif və sənət ocaqlarının açılması bu qəbildəndir. 1919-cu ilin dekabr ayında açılmış «İstiqlal» muzeyində milli dekorativ sənəti nümunələri, xalça və tikmələr, silahlar, əlyazmalar, kitablar, Quranın nadir nüsxələri toplanmışdır.

1919-cu ildə nəşr olunan «Zənbur» jurnalında satirik qrafikamızın banisi Əzim Əzimzadənin zamanın ictimai-siyasi problemləri ilə səsləşən karikaturaları çapdan çıxırdı. Karikaturalardan biri ciblərində silahlı Denikini, Kolçakı və Andraniki gəzdirən ingilis qəsbkarlarına həsr olunmuşdu. Rəssam satirik rəsmlərdə cəhaləti, nadanlığı, milli ədavəti, erməni millətcilərinindaşnakların vəhşi və iyrənc əməllərini ifşa edirdi.

Bu mövzu rəssam Bəhruz Kəngərlinin də yaradıcılığında əhəmiyyətli iz buraxmışdır. Onun məşhur «Qaçqınlar» rəsm silsiləsini, erməni-müsəlman münaqişəsini əks etdirən Əlibəy Hüseyzadənin «Şeyxülislamın portreti» və «Bibi-heybət məscidi» adlı tablolarını xüsusi qeyd etmək lazımdır. İlk peşəkar heykəltaraş Zeynal Əlizadə respublikamızın milli gerbi və xatirə medallarının hazırlanmasında iştirak edirdi. Onun layihəsinə əsasən buraxılmış döş və xatirə medallarında parlament binası, bayraqlar, aypara, səkkizguşəli ulduz, günəşin doğması, gül çələngləri həkk olunmuşdur. Sənətşünaslardan Məhəmməd Ağaoğlu, Hüseyn Mirzəcamalov, memar Qacar Nəbioğlu muzeyşünaslıq, əsari-ətiqəni qorumaq sahəsində fəal çalışmışlar.

Milli rəssamlıq, teatr və musiqi sənətlərinin inkişafına xüsusi əhəmiyyət verilirdi. Görkəmli sənət xadimləri – dövlət himninin, inqilabi marşların müəllifi Üzeyir Hacıbəyov, Camo bəy, artistlərdən Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski qızğın fəaliyyət göstərirdilər. Əzim Əzimzadə «Otello», «Aşıq Qərib», «Dəmirçi Gavə» tamaşalarının bədii tərtibatı üçün dekor və geyim eskizləri hazırlamışdı, Bəhruz Kəngərli Naxçıvan teatrında «Haçı Qara» tamaşasına tərtibat vermişdi. Beləliklə, milli mədəniyyətin tərəqqisi və inkişafı yolunda ilk ciddi addımlar atılırdı.

Əsrin əvvəlindəki müstəqilliyimiz müddətində memarlıq sahəsində də müəyyən tədbirlər həyata keçirilmişdir. Məlumdur ki, 1918-ci ildə erməni daşnak bandaları tərəfindən Bakının möhtəşəm binalarından olan «İsmailiyyə», H.Z.Tağıyevin teatr binaları yandırılmış, H.Z.Tağıyevin qızlar məktəbinə zədə toxunmuşdu. Həmin illərdə Bakının baş memarı vəzifəsində çalışan görkəmli memar Zivər bəy Əhmədbəyovun layihələri əsasında bu binalar bərpa olunmuşdur. Erməni millətçilərinin basqını nəticəsində xarabalığa çevrilmiş Şamaxı şəhərinin bərpa edilməsi məqsədilə Zivər bəyin təşəbbüsü ilə «Yeni Şirvan» cəmiyyəti», həmçinin Bakının abadlaşdırılması üçün «Şəhər bağları cəmiyyəti» təsis olunmuşdu.

Zivər bəy Əhmədbəyov mühəndis Ömər bəy Abuyevlə birlikdə «İslam incəsənəti» abidələrini sevənlər və qoruyanlar cəmiyyətini yaradır. Həmin illərdə Z.Əhməd-

bəyov memar Qacar Nəbioğlu, mühəndis Məmmədhəsən Hacınski və Hacıbəy Axundov ilə birlikdə Şirvanşahlar Sarayı kompleksinin tədqiqi sahəsində fəaliyyət göstərirlər.

Memarlıq abidəsi kimi səyyahların diqqətini özünə cəlb edən Bibiheybət məscidi Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra kommunistlər tərəfindən vəhşicəsinə dağıdıldı. Yalnız respublikamız əsrin axırında yenidən milli istiqlal qazandıqdan sonra müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bu həm dini, həm də memarlıq baxımından tarixi abidəni həmin illərdə Ə.Hüseynzadənin sənətkarlıq fırçasından çıxmış tablonun köməyi ilə bərpa etmək mümkün olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti illərində xalqın tükənməz yaradıcılıq imkanlarını yüksək qiymətləndirərək M.Ə.Rəsulzadə yazmışdır: «Mən Azərbaycanın həyat qabiliyyətinə inanıram. Öz təbiətinə və potensial sərvətlərinə görə bənzərsiz olan bu diyar yerin təkində fəvvarələr və alovlar saxladığı kimi, öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində belə bir yaradıcılıq ruhu yaşadır ki, bu yaradıcılıq ruhu Türk xalqının azad inkişafı şəraitində, mənim dərin əqidəmə görə, dünyaya orijinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir».

DÖVRÜN TARİXİ-İCTİMAİ ƏDƏBİ VƏ MƏDƏNİ XÜLASƏSİ

Cəmiyyətdə gedən ictimai-siyasi, sosial-mədəni proseslər nəticəsində bir-birinin ardınca baş verən inqilablar Romanovlar sülaləsinin hakimiyyət dayaqlarını laxladaraq Rusiya imperiyasının dağılmasını şərtləndirdi. Uzun tarixi mərhələdən keçən sinfi mübarizə prosesində əlbir fəaliyyət göstərən hər bir xalq milli özünüdərki, milli mənlik şüurunu formalaşdırmağa başlayırdı ki, bu da nəticə etibarı ilə xalqların milli muxtariyyət və suveren dövlət yaratmaq arzusunu çiçəkləndirirdi. Odur ki, xalqların müstəqil yaşamaq hüququnun dərkindən doğan cəhdlər getdikcə güclənirdi. Qədim və zəngin millimədəni irs və tarixə malik Azərbaycan xalqı tarixin bir çox mərhələlərində ciddi siyasi və milli-mənəvi zərbələrə, aşınmalara məruz qalsa da, öz mənliyini, milli simasını qoruyub saxlaya bilmişdi. Ona görə də ictimai-siyasi və tarixi-inqilabi hərəkat prosesində digər xalqlarla inadla nəinki ayaqlaşmağa, hətta onlardan daha da irəli getməyə çalışaraq özünün tarixi haqqını — müstəqil və suveren dövlətə malik olmaq hüququnu bərpa etmək imkanını əldən vermədi. Bu işdə, yəni ictimai-siyasi və milli-mənəvi çarpışmaların ön cəbhəsində getməsində Azərbaycanın coğrafi mövqeyi, təbii sərvətlərinin zənginliyi və intellektual potensiyasının gücü ilə yanaşı, xüsusən XIX əsrin ortalarından başlayaraq qabaqcıl görüşlü xadimlərimizin apardıqları məqsədyönlü, ardıcıl və inadcıl mübarizələri, göstərdikləri fədakarlıq nümunələri də xüsusi rol oynadı. Eyni zamanda, qeyd etdiyimiz kimi, Azərbaycanın əlverişli coğrafi mövqeyi sənayenin və ticarət-iqtisadi əlaqələrin qovşaqlarında yerləşməsi istər-istəməz bu diyarı beynəlxalq həyatın qaynar guşələrindən birinə çevrilməsini təmin etmişdi. Bu da onu "Yağlı tikə"yə çevirərək zaman-zaman müxtəlif dövlətlərin münaqişə obyektinə çevirməkdədir.

Oktyabr sosialist inqilabından sonra Bakıda da hakimiyyət "komunnar"ların əlinə keçdi. Lakin kənardan gətirilən bu "sosializm" Azərbaycan xalqından çox Rusiyanın mənafeyinə xidmət etməkdə idi. V.İ. Leninin bir sıra məktub, teleqram və əsərlərində ifadə olunduğu kimi, Bakı o zaman Rusiyanın iri sənaye mərkəzlərindən hesab edilməklə, Rusiya sosialist inqilabının yaşamasına xidmət etməli idi. Bakı kommunası liderlərinin əksəriyyəti üçün Azərbaycan xalqının müqəddəratı əsas məqsəd yox, vasitə idi. Odur ki, onlar bu xalqın haqq səsini müxtəlif vasitələr, o cümlədən sınanmış milli qırğınlar yolu ilə batırmağa çalışırdılar. Mübarizənin əvvəlində yekdil olan xalqların bəzi liderləri sonrakı mərhələdə milli mənafe məsələsi ortaya çıxanda dünənki cəbhədaşlarına zidd mövqe tutmaqdan çəkinmirdilər. Nəticədə xalqların beynəlmiləl əməkdaşlıqlarına milli ədavət toxumu səpilərək onlar qarşıdurmaya doğru aparılırdı. Bu yolda isə hamının günahı və rolu, təbii ki, eyni deyildi.

Hələ XIX əsrin əvvəllərində çar Rusiyası ilə İran monarxiyası arasında parçalanan Azərbaycanı hər iki monarxiya tarixin səhifələrindən silərək öz içərisində əritmək üçün məqsədyönlü və planlı işlər görürdü. İnqilabi mübarizə prosesinin ilkin mərhələlərində bu işlərin təsiri özünü göstərirdi; siyasi mübarizə meydanında Azərbaycan adı və məfhumu, demək olar ki, görünmürdü. Milli siyasi şüur və təşkilatlanma zəif idi. Odur ki, bir çox milli-bəşəri və taleyüklü məsələlərin həllində digər xalqlardan geri qalırdıq. Bütün bunlar isə Azərbaycan xalqının azadlıq və istiqlaliyyət yolunda daha ağrılı mərhələlərdən keçməsi ilə nəticələnirdi. Rusiyanın tərkibində olan digər xalqlar, o cümlədən ermənilər isə hadisələrin son nəticələrindən maksimum istifadə etmək məqsədi ilə azərbaycanlıları da öz tərəflərinə çəkərək çarizmin tərkibindən çıxmaq üçün xüsusi qızğınlıq göstərirdilər. Bu cəhətdən "Şərqi-Rus" qəzeti ilə əlaqədar olan bir sənəd maraq doğurur.

1905-ci ildə Canişinin adına yazılan həmin sənəddə deyilir: "Keçən il "Şərqi-Rus"da elə məqalələr dərc olunmuşdur ki, bunun üçün Rusiyada hər hansı, hətta senzurasız bir qəzeti bağlatdırıb onun redaktorunu sürgün edərdilər. Amma bütün bunlar senzor Karaxanovun gözündən yayınmışdır. Bu həm də məhz elə bir dövrə təsadüf edir ki, hökumətin siyasətindən narazı qalan ermənilər çılğın hisslərlə müsəlmanları özləri ilə birləşməyə və "düşməni" əzməyə dəvət edirdilər".[1]

Bu sənəd bəzi siyasi hadisələrin səbəblərini aydınlaşdırmağa kömək edir; görünür, ermənilərlə azərbaycanlılar arasında ümumi düşmənə — çarizmə qarşı mübarizə meylini hiss edən kimi hələ kifayət qədər möhkəm olan imperiyanın dövlət aparatı vəziyyətdən çıxmaq üçün bu xalqlar arasına milli qırğın salınmasını zəruri hesab etmişdilər. Ermənilərin əsrlərdən bəri çəkdikləri vətənsizlik dərdi və özlərinə müəyyən ərazi tutub orada milli dövlətlərini yaratmaq həsrəti bu məkrli planın uğurla həyata keçməsini təmin edən ən əsas istinad nöqtəsi idi. Çünki hərisə həsrətində olduğu şeyi nişan vermək kifayətdir. Sadəcə olaraq həmin adamı inandır ki, onun dərdinin dərmanı məhz budur. Qalan hər şey asandır. Rusiya imperiyası da Azərbaycan kimi "yağlı tikə"ni əldə saxlamaq üçün ermənilərin bu yanğısından istifadə etmək qərarına gəldi və atdığı tor boşa çıxmadı.

Əlbəttə, bütün bunlar Rusiya imperiyasının ermənilərə canıyananlığından deyil, qeyd etdiyimiz kimi, Azərbaycanı əldə saxlamaq niyyətindən irəli gəlirdi. İmperiyanı bu ərazidə hansı millətin yaşaması yox, Azərbaycanın məhz onun maraqlarına xidmət etməsi

[1] Sitat Şövqi Novruzovun "Şərqi-Rus"un çağırışı (Bakı, Yazıçı, 1986, səh.80) monoqrafiyasından götürülmüşdür.

maraqlandırırdı. Təsadüfi deyil ki, dövrün qabaqcıl xadimləri bu qırğının kənardan törədildiyini göstərir, həmin mənfur niyyəti dönə-dönə ifşa edib xalqları birliyə çağırırdılar. Lakin ustalıqla düşünülən plan məharətlə həyata keçirilmişdi. Hər iki xalqın qabaqcıl görüşlü xadimləri isə məcburiyyət qarşısında qalaraq milli istiqlaliyyət uğrunda mübarizədən, müvəqqəti də olsa, əl çəkib milli qırğını yatırtmağa çalışırdılar.

Sınaqdan uğurla çıxan bu mənfur üsul tarixin dönüş nöqtələrində həmin xalqların milli istiqlaliyyət mübarizələrinin azdırılması vasitəsinə çevrildi və getdikcə əvvəlki əlaqələr qarşılıqlı etimadsızlıq və milli düşmənçiliklə əvəz olundu. Ermənilərin ərazi iddiaları milli ədavət zəminində inkişaf etdirildi. Bu məkrli plan, ideya həm də kilsənin fəal iştirakı ilə şüurlara elə ustalıqla, elə şirnikləşdirici üsullarla yeridildi ki, ruslardan əvvəl ermənilər və gürcülər Azərbaycanı bölüşdürməyə səy göstərməyə başladılar. Həmin cəhdlər 1918-ci ildə özünü qabarıqlığı ilə göstərirdi. Təsadüfi deyil ki, Kommuna hökuməti Bakı və Bakı quberniyasını Azərbaycandan ayırmağa çalışaraq, inqilabın digər ərazilərə yayılmasına maraq göstərmirdi. Bakı və Bakı quberniyasının müqabilində Qarabağ da daxil olmaqla, böyük bir ərazi ermənilərin üzdəniraq liderlərinin, qərb zonası isə gürcü menşeviklərinin nəzərində idi.

Başında S.Şaumyanla A.Çaparidzenin durduğu "Kommuna" hökuməti, ikili oyun oynayaraq, özlərinin milli şovinizm azarlarına məlhəm tapmağın çarəsini Bakı və ətraf rayonlarda azərbaycanlılara qarşı kütləvi qırğınlar təşkil etməkdə görürdülər. Odur ki, 1918-ci il martın sonlarında Bakıda, daha sonra Quba, Şamaxı, Qarabağ və Gəncədə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədildi. Xalq olmazın müsibətlərə məruz qaldı. Lakin bütün bu təzyiqlər Azərbaycan xalqının milli mənlik duyğusunu iflic etmək əvəzinə, onun milli istiqlaliyyət uğrunda mübarizə əzminə yeni təkan verdi. Nəticədə Birinci Dünya müharibəsinin sonuncu ili — 1918-ci il bir çox beynəlxalq məsələlərin aydınlaşması ilə yanaşı, Azərbaycan xalqı üçün də milliözünüdərk prosesinin kamilləşmə mərhələsinə qədəm qoyması kimi yadda qaldı.

Belə ki, əgər 1917-ci ilin fevral inqilabınadək çarizmin əsarətində olan digər xalqlar kimi Azərbaycan xalqı da, ancaq Rusiya ərazisi və hakimiyyəti daxilində ancaq muxtariyyət hüququ qazanmaq barədə düşünür və hələlik bunun uğrunda mübarizə aparırdılarsa, həmin ilin sonlarına və 1918-ci ilin əvvəllərinə doğru artıq siyasi hüquq, milli azadlıq ideyaları uğrunda mübarizə əsas fəaliyyət proqramına çevrildi. Həmin irəliləyişə və əlverişli tarixi-siyasi şəraitə Azərba ycan xalqının milli-mədəni və sosial-mənəvi cəhətdən hazır olması da möhkəm, etibarlı zəin hazırlamışdı. Belə ki, A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, Səid və Cəlal Ünsizadə qardaşları, Ə.Topçubaşov, Ə.Ağayev, H.Vəzirov, N.Vəzirov, N.Nərimanov, M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, S.M.Qənizadə, Ü.Hacıbəyov, M.B.Məhəmmədzadə, A.Y.Talıbzadə, F.Köçərli və b. səmərəli fəaliyyətləri, habelə siyasi partiyaların və ictimai birliklərin milli-mədəni atmosferdə yaratdığı sosial-siyasi yetkinlik, «milli dirilik» axtarışlarının həm də ideya-siyasi məzmun kəsb etməsi Azərbaycanın qabaqcıl görüşlü ictimaiyyətinin milli müstəqillik uğrunda mübarizəyə səfərbərliyini təmin etmişdi. Bütün bu ideya-mənəvi, sosial-siyasi proseslərin uğurlu nəticəsi olaraq 28 may 1918-ci ildə Azərbaycanın İstiqlal Bəyannaməsi elan edildi. İyunun 4-də isə Azərbaycan Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında bağlanan müqaviləyə əsasən, qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə

Azərbaycan Respublikası hökumətinə silahlı qüvvələrlə yardım etməyi qarşı (Osmanlı) tərəf öz öhdəsinə götürdü. Ona görə gənc Azərbaycan hökumətinin müraciətinə əsasən Türkiyənin hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Azərbaycana gəldi. Azərbaycan hökuməti bu ordunun köməyi ilə yerlərdə öz hakimiyyətini möhkəmləndirərək ölkədə əmin-amanlıq yarada bildi. Bundan sonra Bakı uğrunda mübarizə diqqət mərkəzində oldu.

Həmin günlərdə Bakıda hakimiyyət kommunarların əlində idi. Lakin bir tərəfdən daxili siyasi ziddiyyət, xalqımıza qarşı milli şovinizmdən doğan qüsurlu, məkrli fəliyyət proqramı və üsulu, digər tərəfdən də Denikinin iddiaları və beynəlxalq qüvvələrin Bakı neftinə olan maraqları vəziyyəti daha da kəskinləşdirir, sosial və mənəvi dayaqları zəif olub ancaq qan gölü üzərində dayanmağa çalışan Bakı Kommunasının süqutunu labudləşdirirdi. Odur ki, kommuna hökumətinin özünü xilasetmə cəhdləri puça çıxdı. Qısa müddət ərzində başına gələn müsibətlərdən düzgün nəticə çıxarda bilən Azərbaycan xalqı özünün milli və siyasi maraqlarına yad olan qüvvələrdən üz döndərdi. Üstəlik, kommunarların özlərinə müttəfiq hesab etdikləri Biçeraxov və erməni-daşnaq dəstələri Bakıya istiqamət götürən Qafqaz İslam Ordusunun vahiməsi qarşısında dayana bilməyib qaçdılar. Nəticədə iyunun axırlarında kommuna istefaya məcbur oldu. Bakıda hakimiyyət "Sentrokaspi" hökuməti kimi tanınan və yenə Azərbaycana tamamilə yad olan qüvvələrin əllərinə keçdi.

Məhz Azərbaycana, Azərbaycan xalqının milli mənafelərinə ögey münasibət bəsləyib, başlıca dayağı xaricdə, xarici qüvvələrin şirin vədlərində axtarmalarının nəticəsində "Sentrokaspi"çilərin də hakimiyyət ömrü çox qısa oldu. Onlar özlərinə yerli zəmində dayaq tapa bilmədilər. Sentrokaspi diktaturasının hakimiyyət başında olduğu günlərdə – avqustun 27-də Sovet Rusiyası ilə Almaniya arasında bağlanan müqavilənin 14-cü maddəsinə görə, Almaniya Bakı quberniyasının türklər tərəfindən tutulmasına yol verməyəcək, əvəzində Rusiya burada neft hasilatını təmin edərək, çıxarılan məhsulun dörddə birini, ya da xüsusi aylıq faizini Almaniyaya verəcəkdi.

Əlbəttə, Azərbaycan hökuməti onun xəbəri olmadan bağlanan bu həyasız müqaviləyə qarşı nota verərək bildirmişdi ki, "Bakısız Azərbaycan – başsız bədəndir".

İngilislərin Bakıya çağırılması da Sentrokaspi diktaturasını xilas edə bilmədi; sentyabrın 15-də Bakı azad edildi və Azərbaycan hökuməti öz qanuni paytaxtına sahib oldu. Ölkədə və sosial-mənəvi şüurda baş verən proseslər ədəbi fikrin diqqət mərkəzində dayandı; bir tərəfdən qazanılmış milli istiqlaliyyətin dəyəri yüksək qiymətləndirilərək xalqa onun əvəzedilməz müqəddəsliyi fikri təlqin edilir, bu nemətin qorunaraq əldə möhkəm saxlanılması və inkişaf etdirilməsi üçün hər kəs səfərbər olmağa səslənilir, düşmənlərin xaricdən və daxildən gözlənilən təhlükələri diqqətə çatdırılmaqla yanaşı, milli tarixi yaddaşa istinadən xalqın milli qürur, döyüşkənlik və qəhrəmanlıq duyğusu daha da alovlandırılır, orduya, orada xidmətə sevgi təlqin olunur, eyni zamanda qarşıda duran həlli vacib olan ölkədaxili məsələlər nəzərə çatdırılırdı. Buraya iqtisadi, mədəni, elmi, sosial hüquqi, ədəbi və s. sahələr daxil idi.

Azərbaycan xalqının soyqırım faciəsi, daşnaq və bolşevik birləşmələrin bu işdə əlbirliyi, məruz qaldığı fəlakətlərin təsiri ilə, müvəqqəti də olsa öləziyən ümidlərinin işıqlı gələcəyə inam və həyat eşqi ilə əvəzedilməsi məqsədi ilə ədəbi-ictimai fikrin axtarışları və uğurları da diqqəti cəlb edir. Bu işdə Qafqaz İslam ordusu ilə

birgə Azərbaycana göndərilən şair və publisistlər də özgün rol oynadılar. Milli ədəbi-ictimai fikir özünün türk qardaşlarının xilaskarlıq missiyasına laqeyd qalmadı; türkiyəli müəlliflərin əsərlərinə, bütövlükdə ümumtürk birliyinə dair əsərlər ədəbi ictimaiyyətin diqqətinə çatdırıldı. M.Hadi, A.Şaiq, Ümgülsüm, Ə.Cavad, Seyid Hüseyn, C.Cabbarlı, Əli Yusif, Gəncəli Davud, Məhəmməd Ümid Gəncəli, İbrahim Şakir, A.Qayıbov Nazir, M.B.Məhəmmədzadə və başqalarının yaradıcılığında türk ruhunun, türk dünyasının əzəmət və qüdrəti ilə yanaşı, onun gələcək tarixi taleyi ilə bağlı nigarançılıq dolu əsərlər də üzə çıxmağa başladı. Çünki I Dünya müharibəsində Antantanın qələbəsi ilə "Üçlər İttifaqı"nın nümayəndəsi kimi Türkiyə də ağır vəziyyətə düşdü və qalib tərəfin tələbinə əsasən öz qoşunlarını Qafqazdan geri çəkməli oldu.

Bununla belə, Türkiyə özünə qardaş saydığı Azərbaycan xalqına kifayət qədər kömək edə bilmişdi. Belə ki, Qafqaz İslam Ordusunun köməyi sayəsində azərbaycanlılar labüd qırğından və siyasi iflasdan xilas oldular. Ölkədə müəyyən qədər daxili sabitliyə, ordu quruculuğuna, sərhədlərimizin möhkəmləndirilməsinə və s. nail olundu. Paytaxt uğrunda aparılan mübarizə qələbə ilə bitdi. Elmi ədəbiyyatda deyildiyi kimi, "Bu dövrdə Azərbaycan hökumətinin istiqlaliyyət yolunda atdığı, bəlkə də, ən böyük addım onun öz paytaxtına sahib çıxıb, öz hakimiyyətini bütün Azərbaycanda yayması idi ki, bu yolda da qardaş türk xalqının mindən artıq əsgəri, otuz zabiti öz canlarını fəda etmişdilər... Bakı müsəlman xeyriyyə cəmiyyətinin qərarı ilə bu şəhidlərin xatirəsinə abidə ucaldılmalı idi və onları "işğalçı" adlandırmaq, "talançı" kimi qələmə vermək həmin dövrün təsəvvürlərinə görə nankorluq hesab edilirdi. O illərdə "Azərbaycan" qəzeti çox haqlı olaraq yazırdı: "Türk qoşunları Azərbaycan respublikasına köməyə imperialist məqsədlə, yainki işğal məqsədi ilə gəlmədi, onlar öz qardaşlarını xilas etmək üçün gəlmişdilər və öz qardaşları qarşısında borclarını yerinə yetirib getdilər"[1].

Bu da təsadüfi deyildi, çünki rus və ingilis diplomatiyasının əlində daima oyuncaq olan erməni siyasətçiləri türk xalqlarına kəskin düşmənçilik münasibəti bəsləyir, fürsət düşən kimi öz məkrli niyyətlərini vəhşilikdən betər bir çılğınlıqla həyata keçirirlər. Bu cəhətdən Məhəmməd Həsən Hacınskinin "Ermənistanın müstəqilliyinə münasibətiniz? – sualına... Ənvər paşanın verdiyi cavab maraqlıdır: "Türkiyə müstəqil erməni dövlətinin yaranması əleyhinə deyil. Bir şərtlə ki, ingilis-rus siyasəti xatirinə erməni xalqı türklərə qarşı intriqalarına son qoysun".[2]

Hadisələrin sonrakı gedişi Ənvər paşanın bu mülahizəsinin sərrastlığını təsdiq etdi. Belə ki, Azərbaycan Demokratik Respublikası özünün dövlət müstəqilliyini beynəlxalq aləmdə təsdiq etdirmək üçün Paris sülh konfransında apardığı məqsədyönlü mübarizənin həlledici anlarında öz varlığını, suverenliyini şimaldan gələn təhlükədən qorumağa çalışdığı günlərdə daim daşnaqların pozucu əks-təbliğatı, xəyanəti və Azərbaycan əleyhinə xəyanətkar müqavilələri ilə üzləşərək çətin vəziyyətlərə düşmüş, nəhayət, 1920-ci il aprelin sonlarında yenə daha çox ermənilərin qatı düşmənçilik hərəkatları nəticəsində milli müstəqil dövlət statusundan əl çəkməyə məc-

[1] Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası: İstiqlal sorağında. "Elm" qəz., 12 avqust 1989.
[2] Yenə orada.

bur olmuşdu.[1] Diqqətəlayiq haldır ki, ölkə və onun ətrafında çərəyan edən hadisələrin, onların sosial-mənəvi düşüncədə buraxdığı izlərin ideya-bədii əksi dövrün ədəbi məhsullarında öz əksini qabarıq şəkildə tapmışdır. Həmin əsərlərdə milli müstəqillik və dövlətçilik taleyimizin bərqərar olmasına, əbədiliyinə ümid dolu qayğı və vətəndaş narahatlığı qabarıqdır. Bu milli-bəşəri narahatlıqların bədii ifadə əlvanlığı, ümid və nikbinlik ruhu dünənimizdən bu günümüzə etibarlı ideya-mənəvi körpü salması ilə də dəyərlidir.

[1] Ətraflı bax: *Tadeuş Svyatoxovski.* Rusiya Azərbaycanı. 1905-1920-ci illər. "Müsəlman cəmiyyətində millət yarışı" kitabından (İngilis dilindən tərcümə edən: Vilayət Quliyev). "Elm" qəz., 2, 8, 30 sentyabr, 7, 14, 21 oktyabr 1989.

CARİ ƏDƏBİ PROSES: MƏTBUAT, PUBLİSİSTİKA, POEZİYA, NƏSR, DRAMATURGİYA VƏ TƏNQİD

MƏTBUAT VƏ PUBLİSİSTİKA. 1918-1920-ci illər Azərbaycan dövri mətbuatının ən yüksək inkişaf mərhələsi olmuşdur. Təkcə bunu demək kifayətdir ki, Azərbaycanda dövri mətbuatın yaranmasından keçən 43 il ərzində təxminən 40 adda qəzet və jurnal çıxmışdısa, bu rəqəm qeyd edilən iki il içərisində 200-ə yaxın olmuşdur.[1]

Əlbəttə, dövri mətbuaıtn qısa vaxt içərisində belə qeyri-adi coşqunluqla inkişafı təsadüfi deyildi. Bu, hər şeydən əvvəl Azərbaycanda mövcud olan şəraitin, ictimai-siyasi hadisələrin operativ ədəbi ifadə vasitəsi olan dövri mətbuat üzərinə qoyduğu vəzifələrdən irəli gəlirdi.

Məlum olduğu kimi, 1918-1920-ci illərdə Azərbaycanda böyük tarixi hadisələr baş vermişdir. Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil Respublika qurulmuşdu. Cəmi iyirmi üç ay davam etmiş bu respublikanın siyasi, ictimai, mədəni, əxlaqi, bir sözlə, sosial-iqtisadi və mənəvi həyat tərzi məhz bu illərin dövri mətbuatında öz əksini tapmışdır. Həqiqətən dövri mətbuat 1918-1920-ci illərdə Azərbaycan həyatının canlı salnaməsi, sənədli tarixi yadigarı kimi bizə gəlib çatmışdır.

1918-1920-ci illərin dövri mətbuatının ümumi inkişafının səciyyəsi təkcə onun say göstəricisində deyildir. Hər şeydən əvvəl onun ideya-məzmun zənginliyində idi. Bu dövrün mətbuatını ideya istiqaməti baxımından təxminən aşağıdakı kimi qruplaşdırmaq olar:

- Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını təbliğ edən milli mətbuat;

[1] Bax: Azərbaycan dövri mətbuatı (1892-1920) biblioqrafiya. Tərtib edəni N.Axundov. Bakı, 1987

- Milli hökumətlə müxalifətdə olan bolşevik ideyalı menşevik-eser mətbuatı;

- Azərbaycanı ərazi cəhətdən parçalayıb Ermənistana qatmaq uğrunda mübarizə aparan erməni daşnak mətbuatı;

- Özünü bitərəf adlandıran, heç bir siyasi partiyaya mənsub olmayan informativ qəzet və jurnallar.

1918-1920-ci illərdə Bakıda, Gəncədə, Şuşada, Tiflisdə, İrəvanda və digər inzibati mərkəzlərdə çıxmış bütün bu mətbuat nümunələri təkcə Azərbaycan dilində deyil, rus, erməni, gürcü, polyak, fars, alman və qeyri dillərdə də nəşr edilirdi. Bu çoxsaylı, müxtəlif dilli və müxtəlif əqidəli mətbuat nümunələri içərisində daha real həyat qüvvəsinə və daha geniş oxucu kütləsinə malik olması ilə seçilən milli istiqlal ideyaları ilə yaxından bağlı olan dövri mətbuat –

«İqbal» (1912-1915), «Dirilik» (1914-1916), «Açıq söz» (1915-1918), «Müsavat» (1917) kimi qəzet və jurnallar idi.

Qeyd etdiyimiz kimi, 1918-1920-ci illərdə Azərbaycanda həm də milli hökumətə qarşı güclü bir müxalifət mətbuatı da mövcud idi.

1919-cu ilin sonlarında ölkədə «İttihad», «Əhrar», «Sosialistlər», «Bitərəflər», «Slavyan-rus ittifaqı», «Müstəqillər», «Milli azlıqlar», Ermənilərin «Daşnaksütün» fraksiyaları kimi müxalifət fəaliyyətdə idi.[1] Bu fraksiyaların hər birinin bir neçə dövri mətbuat orqanı çap olunurdu.

Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli mətbuatın aparıcı orqanı «Azərbaycan» qəzeti idi. Bu qəzet həm Azərbaycan, həm də rus dilində gündəlik çap olunurdu. «Azərbaycan»ı ayrı-ayrı vaxtlarda Ü.Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahimov,

[1] Bax: Adres-kalendare Azerbaydjanskoy Respubliki za 1920 qod, Baku, 1920 s.21-23

Ceyhun Hacıbəyli redaktə etsə də, onun əsas redaktoru Üzeyir Hacıbəyli idi. Rusca nəşrinə isə Şəfi bəy Rüstəmbəyov, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları redaktorluq edirdilər.

«Azərbaycan» qəzetinin ilk dörd nömrəsi 1918-ci il iyun ayında (çıxma günləri göstərilməyib) o zaman Azərbaycanın müvəqqəti paytaxtı olmuş Gəncədə, 1918-ci ilə təsadüf edən sonrakı 75 nömrəsi isə Bakıda çıxmışdır. Bu qəzetin Azərbaycan dilində 1919-cu ildə 358, 1920-ci ildə - 28 aprelə kimi 85 nömrəsi dərc edilib. Qəzet əvvəl «Müsavat» partiyasına mənsub «Açıq söz» mətbəəsində, sonra isə «Turan» adı ilə tanınan həmin mətbəədə nəşr edilmişdir.

«Azərbaycan» qəzetində XX əsrin əvvəlləri milli ictimai şüurumuzun ən görkəmli nümayəndələri iştirak edirdi. Onların arasında Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Cavad, Əlabbas Müznib, Məmməd Sadıq Axundzadə, Cəfər Cabbarlı, Zülfüqar Hacıbəyli, Seyid Hüseyn, Əmin Abid, Əli Yusif, Əli Şövqi, Yusif Vəzir Çəmənzəminli, Mirzə Məhəmməd Axundov, Fərhad Ağazadə və digər tanınmış müəlliflər iştirak edirdi.

«Azərbaycan» qəzeti müasir jurnalistika tələblərinə cavab verən bir qəzet idi. Onun mövzu dairəsi çox geniş idi. Burada Azərbaycan dövlətinin ictimai-siyasi, iqtisadi, əxlaqi-mənəvi maraqlarını qorumaq uğrunda apardığı mübarizə öz əksini tapmışdır. Qəzetdəki yazılar Bakı xəbərləri, baş məqalələr, xəbərlər, teatr və musiqi, felyeton, müsahibə, siyasi-ictimai icmallar və sair rubrikalar altında dərc edilirdi. «Azərbaycan» qəzetinin çox geniş müxbirlər dəstəsi var idi. Bunlar respublikanın ən ucqar məntəqələrində baş verən hadisələri operativ şəkildə əks etdirirdilər. «Azərbaycan» qəzeti, respublikanın döyünən qəlbi, eşidən qulağı idi. Burada Şəki, Gəncə, Qarabağ, Lənkəran, Zəngə-

zur, Naxçıvan, habelə Azərbaycan türklərinin yaşadığı ayrı-ayrı kənar regionlardakı siyasi-ictmai həyat tərzi barədə analitik və informativ yazılar çıxırdı. «Azərbaycan» qəzeti 1918-1920-ci illərdə dünyada baş verən siyasi-ictimai hadisələrə çox fəal münasibət bildirirdi. Qəzetdə «Türkiyədə», «Paris xəbərləri», «Rusiya hadisələri», «İran işləri», «Hindistanda muxtariyyat hərəkətləri» və s. rubrikaları altında müxtəlif janrlarda yazılar çap edilirdi. Bütün bunlardan başqa «Azər-baycan» qəzetində respublika hökumətinin rəsmi sənədləri, protokolları, qərar və fərmanları çap edilmişdir. Ümumiyyətlə, «Azərbaycan» qəzeti yeni qurulmuş milli hökumətin canlı salnaməsi idi.

1918-1920-ci illərin milli mətbuatı içərisində «Müsavat» patiyasının rəsmi orqanı sayılan qəzet «İstiqlal» qəzeti idi. Bu qəzetin 1918-ci ildə 7, 1919-cu ildə 28, 1920-ci ildə isə 15 nömrəsi çıxıb. «İstiqlal» qəzetini redaksiya heyəti nəşr edirdi. Həftədə bir dəfə nəşr edilən bu qəzetin ideya mübarizəsi onun sərlövhəsi üzərində verilən «Millət yoludur, haqq yoludur tutduğumuz yol» - epiqrafında ifadə edilirdi. Qəzetdə Ə.Cavad, Mirzəbala Məhəmmədzadə, Ə.Həmdi, Əli Yusif, Hüseyn Sadiq (Seyid Hüseyn), Hüseyn Mirzə-camalov, A.Şaiq, Ə.Razi, Fərhad Ağazadə, Xəlil İbrahim və başqa müəlliflər iştirak edirdi. «İstiqlal» qəzeti «Novruz» mətbəəsində çıxırdı.

Azərbaycan milli dövri mətbuatının əhalinin müxtəlif zümrələrinin mənafeyini təmsil edən orqanları var idi. Bunlar içərisində gəncələrə məxsus - «Gənclər yurdu», tələbə və müəllimlərə aid - «Əfkari-mütəllimin», elm xadimlərinin - «Mədəniyyət» kimi qəzet və jurnallarını göstərmək olar.

1919-cu ilin 11 martında nəşrə başlayan «Ovraqi-nəfisə» jurnalı əsasən incəsənət məsələlərindən bəhs edirdi. «Ovraqi-nəfisə»nin naşiri Zülfüqar Hacıbəyli, redaktoru Ə.Müznib idi. Bu jurnalın səhifələrində H.İ.Qasımov, F.Köçərli, A.Şaiq, Cəmo Cəbrayılbəyli kimi müəlliflər iştirak edirdi. «Ovraqi-nəfisə» özünün 5-ci nömrəsində yazdığına görə, kağız qıtlığı üzündən 1919-cu ilin 6-cı sayından sonra bağlanır.

İlk nömrəsi 1920-ci ilin əvvəlində çıxmış «Qurtuluş» jurnalının nəşri milli hökumətin süqutundan sonra dayanır. Bu jurnalda A.Şaiq, H.Cavid, S.Mümtaz, Feyzulla Sacid, Əli Yusif, Əbdürrəhman Dai və başqa müəlliflər iştirak edirdi.

1918-1920-ci illərdə Azərbaycanda «Şeypur» və «Zənbur» adlı satira jurnalları da çıxırdı. İlk nömrəsi 1918-ci il 5 oktyabrında nəşr olunan «Şeypur»un naşiri Səməd Mənsur, redaktoru M.Ə.Sidqi idi. Bu jurnalın 1918-ci ildə 11, 1919-cu ildə 3 nömrəsi çıxır. «Şeypur»un nəşri 1919-cu il yanvar 8-dən sonra dayanır. «Şeypur» Bakıda «Turan» mətbəəsində çap edilirdi. Jurnalda «Dağlı», «Lağlağı», «Təəssübkeş», «Pampuşəli», «Hatif», «Sırtıq» və başqa gizli imzalar altında yazılar çıxırdı. Bunlar əsasən ciddi milli mətbuatda iştirak edən müəlliflər idi.

1919-cu ilin aprel ayında «Zənbur» satira jurnalı çıxmağa başlayır. Bu jurnalı redaksiya heyəti buraxırdı. Türk nəşriyyatı cəmiyyətində çıxan «Zənbur»da M.Ə.Sidqi, Ə.Nəzmi, S.Mənsur, Balaqardaş Səttaroğlu və başqa müəlliflər «Sərgərdan», «Gülcahan», «Ədibülhükəma», «Təəssübkeş», «Köhnə ovçu», «Xəlifə», «Dəli», «Hərzəkar», «Boynuyoğun» və başqa gizli imzalar altında şeir və publisist yazılar dərc etdirirdilər. Rəngli karikaturalarla buraxılan bu jurnalın rəssamı Əzim Əzimzadə idi. Həftədə bir dəfə çıxan «Zənbur»un cəmi 24 nömrəsi nəşr edilmişdir. Ciddi üslublu mətbuat kimi satira jurnalları da gənc müstəqil dövlətin bütün ərazisində yayılırdı.

Qeyd etdiyimiz kimi, 1918-1920-ci illərdə AXC hökumətinə müxalifətdə olan mətbuat içərisində ən fəalı və güclüsü bolşevik mətbuatı idi. Bu mətbuat həmin illərdə Azərbaycanda sovet hakimiyyəti qurulması uğrunda mübarizə aparırdı. Azərbaycan bolşevikləri Rusiyada qurulmuş Sovet hökumətindən təkcə ideoloji cəhətdən deyil, həm də maddi-texniki cəhətdən yardım alırdılar. Məhz bunun nəticəsində onlar geniş mətbuat şəbəkəsi yaratmağa nail olmuşdular. Bolşeviklər 1917-1920-ci illərdə Azərbaycanda qırx addan artıq qəzet və jurnal nəşr edirdilər. Bolşevik mətbuatını çox hazırlıqlı siyasi qüvvələr idarə edirdi. Bu illərdə Azərbaycan bolşevik mətbuatı cəbhəsinin başında sonralar keçmiş Sovet dövləti və Kommunist Partiyasının görkəmli xadimləri olmuş N.Nərimanov, M.S.Ordubadi, Ə.Qarayev, R.Axundov və bunlarla çiyin-çiyinə eyni məqsədlər uğrunda çalışan rus və digər millətlərin nümayəndələri dayanırdı.

Bolşevik mətbuatının bir nömrəli mətbuat orqanı «Hümmət» qəzeti idi. Bu qəzet 1917-1918-ci illərdə görkəmli yazıçı və publisist M.S.Ordubadi və peşəkar inqilabçı-publisist Dadaş Bünyadzadənin redaktorluğu ilə çıxırdı. «Hümmət»dən sonra Azərbaycan bolşevikləri bir sıra qəzet və jurnallar nəşr edirdilər. 1918-1920-ci illər bolşevik mətbuatının ən fəal nümayəndəsi Əliheydər Qarayev idi. O, 1918-ci ildə bir müddət Tiflisdə Gürcüstan menşevik hökuməti daxilində «Hümmət» partiyasının millətçi fraksiyasına məxsus «Al bayraq» adlı bir qəzetin redaktoru olmuş, 1919-cu ildən isə Bakıya gəlib bolşeviklərlə əməkdaşlığı başlamışdı. Ə.Qarayev 1918-1920-ci illərdə rus və Azərbaycan dillərində nəşr edilən on addan yuxarı qəzet və jurnalın redaktoru olmuşdur.[1]

[1] Bax: A.Ə.Hüseynov, Əliheydər Qarayev (Bioqrafik oçerk). Bakı, 1961, s.43

Bunların içərisində «Əxbari», «Al bayraq», «Zəhmət səsası», «Azərbaycan füqərası», «Bednota», «Raboçaya pravda», «Qolos truda», «Oktyabr inqilabı» kimi qəzet və jurnallar var idi. Əlbəttə, Ə.Qarayevin nəşr etdiyi bütün bu dövri mətbuat zahirən nə qədər rəngarəng olsa da, məzmunca yekrəng idi. Bu məzmun isə xalqın milli birliyini sinfi qarşıdurma ideyası ilə əvəz etməkdən ibarət idi. 1918-1920-ci illərdə Bakıda yerli bolşeviklərlə bir mövqedə dayanan və Azərbaycanda milli hökumətlə müxalifətdə olan «Bakinets» (1907-1920, redaktoru R.S.Djanoridze, M.D.Manuçaryan), «Bakinskaya jizn» (1919, redaksiya heyəti), «Bakinskiy raboçiy» (1906-1920, RSDFP Bakı Komitəsinin orqanı), «Bakinskoye slovo» (1918-1920, redaktor Qlaxenqauz), «Bakinskoye utro» (1919, redaktor M.N.Sergeev), «İskra» (1919, redaksiya heyəti), «Nabat» (1919, redaktor A.A.Murovyan, F.E.Maxaradze), «Naşa jizn» (1919, redaktor S.Q.Şaumyan), «Proletariy» (1919, redaksiya heyəti) və s. rus dilində qəzet və jurnallar da çıxırdı. 1918-1920-ci illərdə Azərbaycanda milli hökumətə qarşı erməni dilində çıxan qəzet və jurnallar içərisində «Artsax» (1919, red.heyəti), «Aparaj» (1917-1919, red. Ayrapet Musaelyan) və sair kimi düşmən mövqeli qəzet və jurnallar xüsusilə fəallıq göstərirdi. Rus dilində çıxan daşnak istiqamətli «Znamya truda», «Yedinaya Rossiya» («İskra»), «Naşe vremya», «Vperyod» kimi qəzetlər Azərbaycanda milli hökumətin əleyhinə təbliğatda heç də onlardan geri qalmırdı.

1918-1920-ci illərdə Bakıda, gürcü, yəhudi, polyak, fars və başqa dillərdə də milli hökumətə müxalif dövri mətbuat nəşr edilirdi. Ümumiyyətlə, bu illərdə milli hökumət və mətbuatla müxalifətdə olan qəzet və jurnalların sayı yüz əllidən artıq idi.

1918-1920-ci illərdə Azərbaycanda ideoloji mübarizənin bütün ağırlığı dövri mətbuatın kəskin silahı onun publisistikanın üzərinə düşürdü. Həmin illərdə dövri mətbuatda üstünlük təşkil edən publisistika bütün ictimai-siyasi fikir aləmini öz təsiri altına almışdır. Bədii ədəbiyyatın janrlarında, natiqlik sənətində, hətta, məktəb dərsliklərində belə, publisistika yaradıcılıq növünün təsirləri özünü açıq göstərirdi. Bir sözlə, xalq kütlələrini müəyyən ideallar uğrunda mübarizə cəbhəsində birləşdirməkdə publisistika 1918-1920-ci illərdə ən münasib ədəbi ifadə vasitəsinə çevrilmişdir.

Cümhuriyyət dövrü Azərbaycan publisistikası ideya-mövzu cəhətdən çox zəngindir. Əslində burada Azərbaycanın daxili və xarici həyatı ilə bağlı bütün ictimai-siyasi, sosial və mənəvi-əxlaqi problemlər əhatə olunur. Bunlardan birincisi, həm də başlıcası – Azərbaycan xalqının yenicə əldə etdiyi milli müstəqilliyi qoruyub saxlamaq, onun qayğılarını əks etdirmək; ikincisi - müasir cəmiyyətin ictimai təbəqələri arasındakı sosial ziddiyyətləri, sinfi qarşıdurmanı qızışdırmaq təbliğatı ilə səciyyələnirdi. 1918-1920-ci illər Azərbaycan publisistikanın birinci istiqamətinə milli mətbuat, ikinci istiqamətinə isə bolşevik mətbuatı rəhbərlik edirdi. Əlbəttə, Azərbaycan publisistikasının 1918-1920-ci illərdə xüsusilə geniş təbliğ etdiyi bu iki böyük istiqamət təzə hadisə deyildi. Məlum olduğu kimi, hər iki istiqamətlə təmsil olunan problemlər Azərbaycan publisistikasını əvvəllər də məşğul etmişdi. Azərbaycan publisistikası milli müstəqillik idealları ilə yanaşı, sinfi idealları uğrunda mübarizənin də zəngin tarixinə malikdir. Lakin, məhz 1918-1920-ci illərdə bu problemlər ən kəskin və prinsipial xarakter almışdı, Azərbaycan publisistikasını üz-üzə dayanan iki cəbhəyə parçalamışdı. Belə ki, «dövrün ən kəskin problemi olan milli məsələdə bolşeviklər və Müsavat daban-dabana zidd mövqelərdə dayanırdılar.

1918-1920-ci illər Azərbaycan publisistikasının istər ideya-məzmun, istərsə də bədii ifadə zənginliyi milli mətbuatın səhifələrində daha geniş şəkildə əksini tapıb. Yuxarıda qeyd edildiyi kimi, milli publisistikanın özünəməxsus mövzu və problemləri var idi. Bu problemlər çarizm əsarətindən yenicə qurtarmış Azərbaycanın milli müstəqilliyini qoruyub saxlamaq, milli ordu yaratmaq, ölkədə demokratik parlament seçkilərit keçirmək, bolşevik və Denikin təhlükəsini dəf etmək, Qarabağda erməni millətçilərinin törətdiyi müharibə yanğınını söndürmək, ölkə daxilindəki təfriqəçiliyi, Bakı nefti uğrunda xarici imperialistlərin apardıqları didişmələri göstərmək və sairədən ibarət idi. Azərbaycan milli publisistikasının problemləri təkcə daxili həyatla bağlı deyildi. Respublikanın sərhədlərindən kənarda - İranın hakimiyyəti altında olan azərbaycanlı bacı və qardaşların taleyi də onu narahat edirdi.

Bu dövrdə Azərbaycan publisistikasının əsas aparıcı janrı siyasi publisistika idi. Bu illərdə milli publisistikanı təmsil edənlər içərisində Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Məhəmməd Hadi, Fərhad Ağazadə, Yusif Vəzir, Ə.Müznib, Şeyxülislam Axund Ağa Əlizadə, Adilxan Ziyadxanov, Mirzəbala Məhəmmədzadə, Məhəmməd Sadıq Axundov, Şəfiqə xanım Əfəndizadə, Bədrəddin Seyidzadə və başqaları var idi.

Azərbaycan milli publisistikasının strateji mübarizə cəbhəsində xalqın gələcəyi ilə bağlı böyük bir ictimai-siyasi konsepsiya dayanırdı. Bu konsepsiya XX əsrin əvvəllərində Azərbaycanda intişar tapmış - «Türkləşmək, islamlaşmaq, müasirləşmək» idealında təcəssüm olunurdu. Həmin konsepsiyaya söykənməklə Azərbaycan publisistikası xalqı öz tarixi köklərinə bağlayır, onu milli və dini qaynaqdan gələn mənəvi dəyərlərdən qida almağa çağırır, habelə müasir dünyanın elm və mədəniyyəti ilə zənginləşməyə dəvət edirdi.

1918-1920-ci illərdə milli publisistikanın ön sırasında «Azərbaycan» qəzeti gedir, milli idealları təcəssüm etdirirdi.

«Azərbaycan» qəzeti müasir publisistikanın demək olar ki, bütün janrlarından sənətkarlıqla faydalanırdı. Bu qəzetdə ictimai-siyasi məqalələr, müsahibələr, sual və cavablar, xəbərlər, resenziyalar şəklində olan yazılar dərc edilirdi. Əlbəttə, «Azərbaycan» qəzetinin ən fəal janrı publisistik məqalə idi. Bu məqalələr ictimai-siyasi, ədəbi, tarixi, dini, əxlaqi-mənəvi, hüquqi və sair məsələləri əhatə edirdi. «Azərbaycan» qəzetindəki məqalələrin əksəriyyəti publisist səciyyədə olub, ictimai-siyasi tədqiq və təhlilə əsaslanır, xalqı milli maarifçilik ruhunda tərbiyələndirməyə çalışırdı. «Azərbaycan» qəzetinin bütün publisist məqalələri konkret fakt və hadisələrə, habelə məntiqi mühakimələrə əsaslanırdı.

«Azərbaycan» qəzetinin publisist mübarizəsinin başında, qəzetin əsas redaktorlarından olmuş Ü.Hacıbəyli (Ü.Hacıbəyov) dayanırdı. Ü.Hacıbəyovun publisistikası həm ideya-mövzu, həm də janr və forma cəhətdən rəngarəng idi. Onu ictimai həyatın demək olar ki, bütün ictimai-siyasi, mənəvi-əxlaqi məsələləri düşündürürdü. Ü.Hacıbəyovun «Azərbaycan»da istifadə etdiyi forma əsasən «Təəssürat» başlığı ilə verilən və respublika parlamentindəki hadisələri şərh və təhlil edən «Hesabat» janrlı publisist yazılar idi. Bunların içərisində milli ordunun yaradılması (1919, 28 mart, № 143), erməni-daşnak qüvvələrinin Qarabağ və Naxçıvana qarşı təcavüzünə qarşı milli birliyə çağırış mövzusu öz kəskinliyi ilə seçilirdi. Ü.Hacıbəyovun «Azərbaycan» qəzetindəki siyasi publisistikasında milli birliyə, milli həmrəyliyə çağırış, daxili siyasi pərakəndəliyin tənqidi daha geniş yer tutur. Onun «Qara təhlükə» adlı bir məqaləsində (1919, 8 haziran, №-198) Azərbaycanda öz

müstəmləkəçilik hökmranlığını bərpa etməyə çalışan Denikin ifşa edilirdi. Ü.Hacıbəyov Azərbaycanın istiqlalını hədələyənlərin təkcə erməni-daşnak və rus şovinist generalı Denikindən ibarət olmadığını xalqa başa salır, «içimizdəki denikinlər» barədə xalqa məlumat verirdi. O, yazırdı: «Bir Denikin var ki, bizi xaricdə təhəddüd ediyor. Bir çox denikinlər var ki, içimizdə dolub, ən xətərli yerlərdə gizlənib də bizi qorxudurlar (1919, 10 həziran, № 200).

1918-1920-ci illərdə Ü.Hacıbəyov publisistikasının mühüm tənqid hədəflərindən biri Azərbaycan xalqını dünyaya «vəhşi», «qaniçən», «mədəniyyətsiz» kimi tanıdan erməni-daşnak təbliğatı idi. Bu mövzuda yazdığı «Səddi-İskəndər» adlı məqaləsini (1919, 26 həziran, № 212), Ü.Hacıbəyov Azərbaycan nümayəndə heyətinin Fransaya sülh konfransına getdiyi günlərdə qələmə almışdır. O, erməni-daşnak təbliğatı nəticəsində Azərbaycan diplomatiyası qarşısında dayanan maneələri «İskəndər-səddi» hesab edir. Bu səddi keçmək üçün Azərbaycan hökumətinin və xalqının qarşısında duran çətin vəzifələri aydınlaşdırırdı. 1918-1920-ci illər Azərbaycan publisistikasının sənətkarlıq səviyyəsi Ü.Hacıbəylinin yazılarında öz əksini tapıb. Onun siyasi publisistikasında bədii suallar, təkrirlər, müqayisələr və s. bədii vasitələrdən geniş şəkildə istifadə edilib. Bu cəhətdən onun Azərbaycanın milli müstəqilliyini görmək istəmyən müxalifətçi partiyalara qarşı yazdığı aşağıdakı sətirlər çox səciyyəvidir: «Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmirlər. Qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb da söz söyləməsini eşitmək istəmirlər. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər...»[1]

[1] «Azərbaycan» qəz.; 1918, 18 kanuni-əvvəl, №56

1918-1920-ci illərdə Azərbaycan siyasi publisistikasının ən parlaq nümunələri Məhəmməd Əmin Rəsulzadənin qələminə məxsus idi. Onun siyasi publisiskası XX əsrin əvvəllərində Azərbaycan xalqını milli-azadlıq idealları ilə tərbiyələndirməkdə böyük təbliğati qüvvəyə malik idi. Bu cəhətdən onun Azərbaycan Respublikasının yarandığı ilk günlərdə qələmə aldığı «Azərbaycan paytaxtı» adlı tarixi-publisist məqaləsi[1] bu gün belə öz ictimai təsir qüvvəsini saxlamaqdadır. M.Ə.Rəsulzadə silsilə məqalələrdən ibarət olan yazısında Azərbaycan türklərinin tarixi keçmişindən, yaşadığı ərazinin coğrafi hüdudlarından bəhs açır, vətəni, milləti sevməyə çağırırdı.

Böyük vətənpərvərlik ruhu ilə dolu olan bu məqaləsində M.Ə.Rəsulzadə yazırdı: «Mən mətbuatı çox aradım. Lakin Bakı barədə bir yazıya rast gəlmədim. Bu həvəs cəsarət verdi: müxtəsər də olsa, Bakının tarixi haqqında bir kaç yarpaq qaralayalım. Şübhəsiz ki, bu sətirlərlə veriləcək məlumat Azərbaycan paytaxtının şan və heysiyyəti və hüciyyəti ilə olmayacaq... Düşündüm ki, naqis də olsa, bir şey olsun.

Biz naqisini başlarıq, mütəşəbbüs gənclərimiz də çalışar vətən eşqi, məmləkət məhəbbəti ilə səy edər, bu başlanğıcı təkmil edərlər...» M.Ə.Rəsulzadənin siyasi məqalələri rəngarəng bədii boyalarla zəngindir. Bu məqalələrdə ictimai ideallar oxucuya müxtəlif bədii suallar, güclü məntiqi cavablar vasitəsilə çatdırılır. Məsələn, onun 1918-ci ilin sonunda Azərbaycanda Şurayi-millinin açılması və ondan gözlənilən ictimai ümidlər ətrafında düşüncələri ifadə edən «Hanki ümidlə?» adlı məqaləsi yenicə qurulmuş milli respublikanın gələcək taleyinə geniş xalq kütlələrində böyük ümidlər yaradırdı.[2]

[1] «Azərbaycan» qəzeti, 1918, kanuni-əvvəlin 3, 6, 19, 31-ci nömrələri

[2] «Azərbaycan» qəzeti, 1918, 18 təşrini-sani, №-41

M.Ə.Rəsulzadənin siyasi məqalələri ideya-məzmun zənginliyi ilə yanaşı, həm də həyat faktlarını seçmək və onları ümumiləşdirmək bacarığı ilə seçilirdi. Bu cəhətdən onun «Samoupravlenie» adlı məqaləsi Azərbaycan Respublikasını daxili siyasi çəkişmələrlə parçalamağa çalışan müxalifət partiyalarına qarşı yazılmış kəsərli bir cavab idi. M.Ə.Rəsulzadənin bir publisist kimi yazıları və şifahi çıxışları o dövrün ən gərgin siyasi hadisələrinə təsir göstərirdi. Bu baxımdan, Azərbaycan bolşeviklərinin xəyanəti nəticəsində işğalçı Rusiyanın milli hökumət üçün yaratdığı təhlükəyə qarşı onun Məclisi-Müəssisandakı səfərbəredici çıxışı ən kəsərli publisist sözü kimi diqqəti cəlb edir: «Əfəndilər! Məsələ qətiyyən pək mühümdür. Zənn etməyiniz ki, mənim könlümdə Rusiya bolşeviklərinə qarşı o qədər böyük inad vardır ki, sui-niyyətə alışaraq onlarla anlaşmaq istəməm. Xeyr, həmişə mühakimə etmək mümkündür. Bir taqım şəraiti-siyasiyyə ilə uzlaşmaq, barışmaq olur. Fəqət bizə desələr ki, əgər bir üsyançı qüvvətlə barışmasanız, Rusiya da sizinlə barışmayacaqdır. Biz görsək ki, bizim içərimizdə bir neçə Əliheydərlər varmış, onlarla hesablaşmaq lazım imiş, lakin, bir millətin rəyi və hüququ ilə hesablaşmaq lazım deyilmiş, o halda biz böylə bir qüvvətə heç vaxt inanmarız...»[1]

M.Ə.Rəsulzadənin «Azərbaycan» qəzetində çıxmış yazılarının əksəriyyəti 1918-1920-ci illərin ən gərgin siyasi hadisələri ilə bağlı idi. Onun bu dövrdə Azərbaycan hökumətinin lideri kimi Azərbaycan Məclisi-Müəssisanının iclaslarında etdiyi alovlu çıxışları XX əsrin əvvəlləri Azərbaycan natiqlik sənətinin parlaq nümunələri idi. M.Ə.Rəsulzadənin bu çıxışlarında onun xalqı səfərbər etmək bacarığı yüksək sənətkarlıqla özünü göstərir. O, bu çıxışlarında ölkəni bürümüş ağır siyasi-iqtisadi vəziyyətin səbəblərini son dərəcə inan-

[1] Bax: «Azərbaycan» qəzeti, 1920, 1 nisan

dırıcılıqla açır, xalqı ağır günlərə dözməyə, gələcəyə olan ümidlərə səfərbər edirdi.

XX əsr Azərbaycan milli hərəkatının görkəmli xadimlərindən olmuş Mirzəbala Məhəmmədzadənin sonralar yazdığı kimi, M.Ə.Rəsulzadənin «Müstəqil milli Azərbaycan Cümhuriyyətinin davamı müddətincə (1918-1920) gərək parlamentdə, gərəksə parlament xaricindəki nitq və məruzələri, məqalə və bəyanatları da bu milli türk dövlətinin və bu ilk müsəlman cümhuriyyətinin möhkəmlənməsinə xidmət edirdi.[1]

Yusif Vəzirin Azərbaycanda müstəqil respublikanın qurulması ərəfəsində Müsavat partiyasının «Açıq söz» qəzetində çap etdirdiyi «Türk millətinə xitab» sərlövhəli silsilə məqalələri Azərbaycanda milli azadlıq şüurunun formalaşmasında mühüm rol oynayır. Bu məqalələrdə Y.Vəzir Azərbaycan xalqını Rusiya imperiyasının dağılmasından sonra əldə edilmiş milli-azadlıq imkanlarından istifadə etməyə, bu ideal uğrunda bütün siyasi qüvvələri birləşməyə çağırırdı. O, bütün müxalifət qüvvələrinə müraciətlə yazırdı: «İndi əqidə davası eləmək zamanı deyil...»

Onun publisistikası müasirlik keyfiyyəti, fakt və məntiqi ilə böyük təsiredici qüvvəyə malik idi. Y.Vəzirin 1919-cu ilin erməni-daşnak təcavüzü dövründə yazılmış «Ermənilər və biz» adlı publisist məqaləsində (1919, 13 təmuz, № 223) bu təcavüzün tarixi kökləri və ictimai-siyasi dayaqları təhlil edilir, bu hadisənin iki yüz illik tarixi araşdırılır.

Ceyhun Dağıstani (Hacıbəyli - İ.A.) «Tarixi gün» adlı məqaləsində (1918, № 5) Azərbaycan hökumətinin Gəncədən Bakıya köçdüyü 15 sentyabr gününü böyük vətənpərvərliklə vəsf edərək yazırdı: «15 sentyabr ən səadətli, ən şövkətli günlərindən ədd alacağı şübhəsizdir...» Hüseyn Mirzəcamalov xalqı yeni qurulan müstəqil Azərbaycanı bürümüş siyasi və iqtisadi böhranlara görə ümidsizliyə qapılmamağa çağırırdı (1918, 2 təşrinisani, № 49). Fərhad Ağazadə gənc Azərbaycan Respublikasının ana dili, yeni əlifba, təhsil, mədəniyyət və sair ictimai sahələrdəki siyasətini xalqın milli mənliyinin əsasları kimi izah edirdi.

Ümumiyyətlə, bu dövrdə milli hökumətin başında duran bütün ictimai xadimlər, publisistlər təsirli söz deməyə qadir adamlar idi. Məsələn, Şeyxülislam Axundağa Əlizadə «İstiqlaliyyət» adlı məqaləsində öz oxucusuna ən təbii bir məntiq ilə milli azadlığın mənasını bu cür başa salırdı: «İnsanlar asudə yaşamaq üçün xəlq olunublar və bu yaşadığımız yer biltəfavüt insanların ixtiyarına vagüzar olubdur. Ona görə hər millətə istiqlal verilməlidir ki, ta kamali-asudəliklə öz hüquqlarına nail olsunlar».[1]

1919-cu ildə Azərbaycan Respublikasının bir illiyi münasibətilə «Azərbaycan» qəzetində çıxmış ədəbi-publisist məqalələr heyrətedici dərəcədə qüvvətli idi. Burada M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Yusif Vəzir, Şeyxülislam Axund Ağa Əlizadə, Ə.Müznib və başqa müəlliflərin yazıları milli istiqlal ideallarını çox sərrast şəkildə ifadə edirdi.

Məsələn, dövrün görkəmli şairi və publisisti Əli Yusif AXC-nin bir illiyi münasibətilə keçirilən bayramı belə təsvir edirdi: «Azərbaycan Cümhuriyyətinin paytaxtı milli bayramlara qərq olaraq istiqlalı bayram ediyordu».[2]

1918-1920-ci illər Azərbaycan publisistikasının vətənpərvərlik çağırışları tarixi və elmi əsaslara söykənirdi. Bu dövrdə Azərbaycan publisistləri cəmiyyətə

[1] Bax: Mirzəbala Məmmədzadə. «Azərbaycan» (Ankara) dərgisi, №12. (36), 1955 № 12 (36)

[1] «Azərbaycan» qəzeti, 1919, 28 may.
[2] Yenə orada, 1919, 30 may.

təsir etmək üçün daha çox tarixi yaddaşa müraciət edir, keçmişin qəhrəmanlıq ənənələrini yada salır, xalqı milli özünüdərkə çağırırdı.

Bu illərdə Azərbaycan publisistikasının digər qanadını - onun hakim xalq Cümhuriyyəti ilə müxalifət cinahını bolşevik publisistikası təşkil edirdi. Bunlar arasında bolşevik publisistikasının N.Nərimanov, M.S.Ordubadi, S.M.Əfəndiyev, Tağı Şahbazi, Əliheydər Qarayev, Ruhulla Axundov və digər bu kimi görkəmli nümayəndələri var idi. Bu müəlliflər içərisində N.Nərimanovun siyasi publisistikası daha güclü ictimai təsir qüvvəsinə malik idi. Onun 1918-ci ildə «Hümmət» və «Əxbari» qəzetlərində bolşevizmin təbliğinə həsr etdiyi məqalələrində güclü publisist qələmi özünü göstərir. N.Nərimanovun ürəkləri riqqətə gətirən, şüurlara təsir edən publisistikasının bir parlaq nümunəsi belə idi: «Fəhlələr, zəhmətkeşlər və vicdanları ayılmış ziyalılar! Millətin səadətini istəyirsinizsə və bu milləti zikr olunan qitəyə dəvət edirsinizsə, «Hümmət» ictimaiyyun-amiyun firqəsi, «Hümmət» təşkilatının bayrağı altında cəm olunuz. «Hümmət» firqəsi Rusiya ictimaiyyun-amiyun fəhlə firqəsinin hissəsi olub öz bayrağının üstündə Marksın və Engelsin gözəl, məşhur sözlərini yazıbdır: «Bütün cahan füqərayi-kasibəsi, birləşin!» Ona görə bu firqə var qüvvəsilə indiki kapitalizm, sərmayədarlıq qaydasını bilmərrə yıxmağa çalışıb, onun əvəzində sosializm qaydasını tikməyə var qüvvətilə işləyəcəkdir və işləyir. Yeni elə bir üsuli-idarə tikmək istəyirik ki, insanlar arasında dövlətli-kasıb, ağa-qul olmasın, hamı bərabər, qardaş olsun. Budur ictimaiyyun-amiyun firqəsinin tələbi, budur «Hümmət»in bayrağında yazılan tələblər. Yaşasın «Hümmət» firqəsi! Yaşasın Rusiya ictimaiyyun-amiyun fəhlə firqəsi! Yaşasın hamı millətlərin qardaşlığı! Yaşasın sosializm».[1]

[1] «Hümmət» qəzeti, 1917, № 1

N.Nərimanov başqa bir publisist məqaləsində Azərbaycan xalqını sosializm dövləti qurmaq uğrunda mübarizəyə bu cür çağırırdı: «Siz səadətinizi istəyirsinizsə, xoşbəxt olmağa çalışırsınızsa, qeyri millətlərin fəhlə və zəhmətkeşləri ilə birləşiniz, ittifaq bağlayınız, o vaxt hüququnuzu paymal edən səbəbi tez və asanlıqla yıxıb məhv edərsiniz».[1]

Gördüyünüz kimi, N.Nərimanovun alovlu publisistikası o vaxtlar hələ səmimiyyətlə inandığı sinfi həmrəylik və mübarizə utopiyasına, vətənpərvərlik idealları ilə kommunizm ideyalarına, bolşevik inqilabına inam ehtirası ilə dolu idi. Məhz buna görə bu publisistika o zaman yüz minlərlə binəsiblərin, yoxsulların ürəyini riqqətə gətirir, onları yaşadıqları cəmiyyətin varlı zümrələrinə qarşı qiyama çağıra bilirdi.

1918-1920-ci illərin ictimai-siyasi mübarizəsində bolşevik Əliheydər Qarayevin publisist fəaliyyəti də eyni dərəcədə emosional və təsirli idi.O, da N.Nərimanovun müraciət etdiyi həmin binəsiblərə üz tutaraq deyirdi: «Bakı fiqərayi-kasibəsi əlində olan qırmızı bayrağı heç bir xainin qabağına əyməyib, əyməyəcəkdir».[2]

1918-1920-ci illərdə Azərbaycanda istər milli, istərsə də, bolşevik cəbhəsinə məxsus publisistlər satirik üslubdan da istifadə edirdilər. Bu illərdə «Şeypur» və «Zənbur», «Tartan-partan» və «Məşəl» adlı jurnallarda satirik publisistika üstünlük təşkil edirdi. Bu dövrün satirik mətbuatı daha çox kiçik publisistik janrlardan istifadə edirdi. Satirik xəbərlər, atalar sözləri kimi formalarda siyasi-ictimai həyatın müxtəlif məsələləri öz əksini tapırdı.

Satirik «Zənbur» jurnalında çarizmin devrilməsindən sonra Bakıda hökm sürən hərc-mərclik, hakimiyyət uğrunda gedən çəkişmələr, xaricilərin yenidn Bakıya

[1] Yenə orada 1918, № 31.

[2] Bakı fəhlə konfransının əxbari, 1919, 8 iyun.

axışıb gəlməsi müxtəlif satirik janrlarda lağa qoyulurdu. Məsələn, «Gəncə küçələri» adlı bir yazıda Denikinin Gəncəyə soxulmasına «Zənbur» jurnalı belə lağ edirdi: «Ölkədə çaqqal az idi, biri də gəmiylə gəldi».[1] «Zənbur»un başqa bir «məsləhətində» deyilidi: «Qoy müsəlmanlar qapaz altında yaşasınlar! Onda hökumətin dostu çox olar. Bəd gündə tərəfdarları artıq olar».[2]

1918-1920-ci illərdə çıxmış «Şeypur» satirik jurnalının başlıca gülüş hədəflərindən biri ermənilərin Qarabağda törətdikləri vəhşiliklər idi. «Azərbaycanlı» imzalı müəllifin «Erməni yuxusu» adlı («Şeypur» 1919, 11 yanvar, №13) yazısında məhz bu məsələyə toxunulurdu. «Şeypur» jurnalı bu dövrdə Azərbaycanın milli müstəqilliyini qəbul edə bilməyən bolşevikləri bu cür lağa qoyurdu: «Kerenski hökumətindən sonra Rusiyada baş qaldırıb dünyanı azad edəcəyini vəd edən füqəra tərəfdarı, bir noi firqə adamı «bolşoy» (yəni böyük) adam peyda olub...

Həmin firqə Bakıda Şaumyandan ibarət idi. Bakıda yaşlı iranlılardan bəziləri bu firqənin məramnaməsini qəbul edib, bərbad halda olan İranı abad etmək istəyirdilər» («Şeypur», 1919, № 1). «Şeypur» satirik jurnalı milli müstəqilliyin qorunması fikrini öz oxucusuna bu şəkildə çatdırırdı: «Mart hadisələrindən sonra suya batmış toyuq kimi suyun süzülə-süzülə, büzülmüş, bir tərəfdə qalmışdın. Öz şəhərində, öz evində özgə yerdən gəlmişlərin əli altında əzilirdin. Küçədən keçəndə divar dibi yeriyib, öz ana dilində danışmağa ehtiyat edirdin. Bu altı ay sənin üçün çox zülmlü olub. Lakin, oyunlar üçün çalmağa şeypur olmayıb. İndi şükr olsun «Şeypur»umuzu partlayana qədər çalmağa başlayırıq»...[3]

[1] «Zənbur», 1835 (4), №-12
[2] Yenə orada, №-16
[3] Altı ay. «Şeypur», 1919, №-1

«Şeypur» öz ətrafına bir sıra peşəkar publisistlər toplamışdı. Bu yazıçılar milli əxlaqa və dünyagörüşünə yad olan tiplərdən daha çox yazırdılar. Məsələn, «Pompuşəli»nin (Səməd Mənsur) «Ziyalılar» adlı yazısında öz milli mənliyini itirmiş iki ziyalının danışığı bu cür gülüş hədəfi edilir:

- «Hi, Əli Muradəliyeviç, ya Allah!

- Hüseynqulu Daşdəmirovuç, mayo poçiteni, keyfiniz?..»

«Şeypur» ermənipərəst bolşevik rus qəzeti «Vperyod»u lüğət şöbəsində bu cür lağa qoyurdu. «Vperyod» əslən rus sözü olub, bu axır vaxt ermənilər onu çox istemal edirlərdi. Bu sözün əsl mənası «qabağa» deməkdir. Amma nədənsə ermənilər onu tərsinə başa düşüb, «dala» deyə işlədirlər. Qədim zamanlarda da erməni daşnaklarının həmin adda Bakıda bir qəzetləri çıxırdı. Müsəlmanlara müraciətlə hər gün şirinşirin məqalələr yazmaqda idi.[1]

1918-1920-ci illərdə bolşevik satirik publisistikasının fəal iştirakçısı olan Əliheydər Qarayev redaktoru olduğu «Tartan-partan» və «Məşəl» jurnallarında, habelə «Hümmət», «Hürriyyət» və «Əxbari» kimi ciddi üslublu qəzetlərdə «Xırdavatçı» imzası ilə «Xırda-mırda» adlı satirik yazılarla çıxış edirdi. Belə yazılarının birində o, yenicə təşəkkül tapan Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi çətinliklərinə lağ edir, onun vəziyyətini «Qorxma» adlı uşaq oyunundakı bir adamın gülünc halına bənzədirdi.[2] «Əxbari»də isə «Çomaq» imzalı müəllif «Nağıl» adlı yazısında öz milli azadlığını qoruyan qüvvələrə «millətçi» deyib istehza edirdi.

Milli publisistikanın iştirakçıları bolşeviklərin müstəqil Azərbaycana qarşı təcavüz siyasətinə və bu siyasəti həyata keçirən Lenin və Denikinin arzularına isteh-

[1] Yenə orada
[2] «Əxbari» qəz., 1918, 12 may

za edirdilər. Bolşevik publisistləri isə Azərbaycanda hakimiyyət başında dayananları, bəy, xan, mülkədar, kapitalist zümrəsindən olmalarına görə tənqid edirdilər.

1918-1920-ci illərdə Azərbaycan milli satirik publisistikasının bir sıra diqqətəlaytq nümunələri əsasən «Azərbaycan» qəzetində çıxmışdır. Burada felyetonlar (bəzən «kiçik felyeton»)*, «Filankəsin», «Ordan, burdan» (Ü.Hacıbəyov), «Avara»nın «Məharət» başlığı ilə günün müxtəlif məsələlərindən bəhs açan satirik yazıları çıxırdı. «Azərbaycan»ın bu yazılarında keçmiş çar dövrü çinovnikləri və hadisələri lağa qoyulurdu. Bu satirik yazıların xalq danışıq üslubunda şirin ifadə tərzi olurdu. Məsələn, «Filankəs»in «Bir naxoş» adlı felyetonunda deyilirdi: «Qədim zamanlarda yəni Nikolayın vaxtında Bakıda belə bir «mod» var idi. Baqqal Məşhədi Səlim hər gün yerindən qalxıb dükana gəlmədən əvvəl evdə bir «bismillah» deytb, sonra da kəlmeyi-şəhadətini oxuyub və övrət-uşağına əlvida edib sonra əfsəri tapançasını belinə bağlayıb gedirdi alış-verişinə...»[1]

Azərbaycan satirik publisistikası istər ideya-mövzu, istərsə də ədəbi forma zənginliyi baxımından ciddi üslublu publisistikaya nisbətdə çox zəif idi.

Əlbəttə, bunun səbəbləri var idi. Bu səbəblərdən başlıcası o idi ki, həmin illərdə Azərbaycan satirik publisistikasının aparıcı qüvvəsi olan «Molla Nəsrəddin» jurnalı və onun yaradıcısı C.Məmmədquluzadə Azərbaycanda deyildi və ölkənin ictimai-siyasi həyatında bilavasitə iştirak etmirdi.

Ən başlıca səbəb isə odur ki, 1918-1920-ci illərin ağır maddi və mənəvi həyatı şəraitində ən mühüm sosial və ictimai faciələri əks etdirmək vəzifəsini yerinə yetirmək üçün mətbuatda gülüş və istehzaya deyil, ciddi

* «Azərbaycan» qəzetində felyeton sözü həm də qəzetin «podval» hissəsində çıxmış məqalə mənasında idi.

[1] «Azərbaycan» qəz., 1918, təşrini-əvvəl, №-39

sözə, dəlilli, sübutlu təbliğata daha böyük ehtiyac var idi. Siyasi, fəlsəfi və bədii publisistika XX əsrin əvvəllərində Azərbaycanda gərgin, mürəkkəb ictimai-siyasi həyatı, onun mənzərəsini əks etdirmək üçün əvəzedilməz imkanlara malik idi.

POEZİYA. İstiqlal dövründə bədii ədəbiyyatın ən geniş yayılmış qolu poeziya idi. Çünki iri həcmli nəsr və dram əsərlərinə nisbətən poeziya örnəkləri qəzet və jurnalların səhifələrində tez nəşr olunur, asanlıqla oxucu kütlələrinə çatdırılırdı. Həm də bu illərdə ədəbiyyatda tərənnüm ruhunun güclü olması poeziya janrının geniş yayılmasını şərtləndirirdi.

İstiqlal dövrü poeziyası üçün mövzu və ideya əlvanlığı, sənətkarların ayrı-ayrı məsələlərə fərdi münasibəti səciyyəvi idi. Burada milli azadlıq sevincinin tərənnümü olduqca güclü idi. Hələ yüzilliyimizin başlanğıcında ədəbiyyatda kök salan «türkləşmək, islamlaşmaq və müasirləşmək» idealının tərənnümü də güclənmişdi.

M.Hadi, H.Cavid, A.Şaiq kimi sayımlı romantik şairlər «böyük» ədəbiyyat örnəkləri yaratmaqda davam edirdilər. Onları ən çox insan və onun taleyi, bəşəriyyətin faciələri düşündürürdü. H.Cavid daha əhatəli, fəlsəfi problemlərlə məşğul olurdu - ən çox tarixi mövzulara üz tuturdu. Müharibələrin, qanlı çarpışmaların bəşəriyyətə gətirdiyi sonsuz acılar, insan xislətindəki ziddiyyət onu daha çox düşündürürdü. Azərbaycan romantizminin daha bir nəhəng nümayəndəsi M.Hadi isə gah dövrün fövqündə dayanır, real Azərbaycan həyatından, milli taledən və gələcəkdən, gah da ümumiyyətlə bəşəriyyətin problemlərindən söz açırdı. «İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah» poeması, «Aydınlıq bir gecədə təfəkkür dəqiqələri», «Baharın ictimai rəmzləri», «Kor-soqqur» əsərləri şairin fəlsəfi irsinin ən gözəl örnəklərindəndir.

«Şühədayi-vətən» şeirində şair Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə mart qırğını zamanı şəhid olmuş vətən övladlarının ruhunu yanıqlı lirik təranələrlə oxşayır, «Əsgərlərimizə, könüllülərimizə» adlı silsilə şeirlərində isə yurddaşlarını Azərbaycan istiqlalının qorunmasına çağırırdı. Hadi sanki bütün sevindirici halları, gələcək ümidlərini inkar edirmiş kimi birdən-birə milli-demokratik mətbuatdan bolşevik mətbuatına üz tuturdu. Ancaq bu onun öz amalından, öz yolundan dönməsi deyil, sözünü demək, ürəyini boşaltmaq üsulu idi:

Dəhrdə bilməm nədir qanlar içənlər şanlıdır,
Qan ilə imdad edən sərvətlidir, səhmanlıdır,
Haqqına talib olanlar bir taqım biçarələr,
Haqqı inkar eyləyənlər oxludur, qalxanlıdır.
Daima məğlub olan həqdir əlində qüvvətin,
Sanki qüvvət ingilisdir, həq də bir iranlıdır...

XX yüzil Azərbaycan mədəniyyəti tarixində maarif xadimi, görkəmli yazıçı, şair kimi tanınan A.Şaiq Müsavat partiyasına ayrıca şeir həsr edir, «birləşəlim, türk oğlu, bu yol millət yoludur» deyərək uzaqgörənliklə hamını milli birliyə səsləyirdi. «Vətənin yanıqlı səsi» adlı poemasında isə Azərbaycan istiqlalının qorunmasına, Vətən yolunda əzmkarlığa çağırırdı.

Siyasətlə yaxından uğraşmağı o qədər də sevməyən şair işğalçılığa qarşı çağırış ruhlu əsərlər yazırdı:

Şu diyarın dağlarında, daşında
Qurtarıcı qəhrəmanlar az deyil;
O əllər ki, səni bu gün qurtarmaz,
O dillər ki, səni bu gündə anmaz,
O ürək ki, sənin üçün çarpamaz,
O ayaq ki, Vətən üçün qoşamaz
Al qanına boyansın,

Sevgilisi baş üstündə yas qursun,
Anaları ağı desin, saç yolsun,
Sənin kimi ağlasın.[1]

Dövrün poeziyası üçün ideyalılıq, həyata bağlılıq və bunun da nəticəsində çox vaxt bədiiliyin zəifləməsi səciyyəvi idi. Həmin dövrdə nəşr olunmuş Ə.Cavadın «Dalğa», H.K.Sanılının «Yeni şərqilər», Feyzulla Sacidin «Fəryad» adlı şeir kitabları, «Milli şərqilər» adlı poeziya toplusu bu fikri təsdiq etməkdədir. AXC dövri poeziyasının ən bariz nümunəsi kimi tədqiqatçıların üz tutduqları Ə.Cavad Axundzadənin «Dalğa» kitabı idi.

Ə.Cavad və M.Hadi başda olmaqla böyük bir şairlər dəstəsi Azərbaycan istiqlalını tərənnüm edən əsərlər yazır, üçrəngli milli bayrağı vəsf edir, xalqı vətənin müdafiəsinə səsləyir, türkləşmək, müasirləşmək ideyalarını təbliğ edirdilər.

Ə.Cavad bədii yaradıcılığa xeyli əvvəl başlamışdı. «Qoşma» adlı ilk şeir kitabı 1916-cı ildə çap edilmişdi. «Dalğa» isə şairin əsasən istiqlal dövründə yazılan əsərlərini əhatə edirdi. Azərbaycanın milli azadlıq əldə etməsi xalqın çoxəsrlik arzularının nəticəsi idi. Bunun bədii ədəbiyyata gəlişi də təbii idi. Ə.Cavad «Azərbaycan bayrağına», «Al bayrağa» adlı şeirlərini milli bayrağa həsr etmişdi.

Mən çeynənən bir ölkənin
Haqq bağıran səsiyəm -

deyə poetik məramını müəyyənləşdirən, mürəkkəb yaradıcılıq yolu keçən Ə.Cavad 1918-1920-ci illərdə poeziyamızın qüdrətli nümayəndələrindən idi. Onun» Azərbaycan bayrağına» şeiri milli marş kimi dillər əzbəri idi:

[1] «İstiqlal» qəzeti, 4 fevral 1920, № 1

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərməğan yolla sən yara, bayrağım!

Ən gözəl şeirlərini, qaynar şairlik təbini, sonsuz ilhamını Azərbaycanın milli istiqlalının tərənnümünə həsr edən şairin «Gəlmə», «Bakı deyir ki...», «İngilis» şeirləri azad milli varlığın əks-sədası kimi səslənirdi:

Bu dağlar mənimdi, yeni gün gördü,
Boğar səni ahım, ey duman, gəlmə!
Sevdası könlümdə bir darğan ölkə,
Baxar yad gözlərə pək yaman, gəlmə!

İstiqlal dövründə açıqca bildirdiyi bu fikirləri Ə.Cavad sovet hakimiyyəti illərində yazdığı şeirlərdə rəmzlərlə ifadə edəcəkdi və bunun cəzasını çəkəcəkdi. «Göygöl» şeirində yazacaqdı:

Dumanlı dağlara gələn suala,
Bir cavab almamış soralı Göygöl.

İngilislərin Bakıya gəldiyi zaman yazdığı «İngilis» şeirində də şairin doğma xalqına sonsuz vurğunluğu duyulur. Onun bu dövr poeziyasında ən ilahi sevgi, ən ülvi məhəbbət azad Vətən sevgisi idi.

O xain gözünü dikdiyin ellər
Mənim nişanlımdır, türkülər söylər.

Milli azadlığımızı təhdid edən şimal yelinə, azad dağlarımızı bürümək istəyən dumana, gücsüzlüyümüz qarşısında meydan oxuyan qüvvətə qarşı çıxırdı:

Sən ey gözlərimə batan quruntu
Sağlam bir imana səndən nə qorxu?!
Bəslərsə vicdanlar pək böyük duyğu,
Yıxılmaz qaladır hər vicdan, gəlmə!

Ahəngdarlıq, yüksək pafos, emosional zənginlik Ə.Cavadın son dərəcə sadə, anlaşıqlı dildə yazdığı lirik şeirlərinin əsas keyfiyyəti idi. Şairin poeziyasında lirizmlə vətəndaşlıq qaynayıb qarışmışdır.

Sovet dövründə belə üsyankar ruhlu şeirlər yazmaq imkanı verilməyən, ideoloji basqı altında əsərlər yazmağa məcbur olan şair istiqlal dövrü poeziyasına dönmüş ovqatı artıq rəmzlərlə verirdi. «Göygöl»ün üzərinə çökmüş qara duman «Gəlmə» şeirində gəlişi uzaq-görənliklə düşünülən milli əsarət dumanı idi.

Həmin dövrdə şairlər türk əsgərlərinin yaxından köməyi ilə Bakının bolşevik-daşnak tör-tökünTÜlərindən təmizlənməsinə də şeir həsr edirdilər. Ə.Cavad «Qalx» şeirində Anadoludan azərbaycanlı qardaşlarının yardımına gəlmiş türk əsgərinin qəbrini oxşayaraq yazırdı:

Qalx, qalx sarmaşıqlı məzar altından,
Gəlmiş ziyarətə qızlar, gəlinlər.
Ey karvan keçidi yollar üstündə
Hər gələn yolçuya yol sonra əsgər.

Şairin bu misraları daha obrazlı və təsirli idi:

Keçərkən göylərdən bir qatar durna,
Ağlar buraxdığın gözləri sorma!

İstiqlal ideyası M.Hadinin yaradıcılığında da öz parlaq əksini tapırdı. Şair demokratik mətbuat orqanlarında çap olunmuş onlarla şeirində milli istiqlalı, cümhuriyyəti alqışlayır, onu böyük tarixi olay kimi

dəyərləndirirdi. «Məfkureyi-aliyyəmiz» şeirində Hadi oxucusuna milli dövlət quruculuğu yolunda axıra qədər dönməzlik inamını bildirirdi:

Məfkurəmiz yolunda nə lazımsa etməli,
Məqsudə doğru əzmü-xüruşanla getməli.
...Çıxsın dilərsə qarşımıza həp məzarimiz
Dönməz məzaridən bu dili-əzmkarimiz.

Şair «əsgər» olmaq bir şərəfdir türk üçün, islam üçün» deyərək gur səslə sanki komandan kimi yol göstərir, üzünü Vətən oğullarına tutaraq düşmən ayaqları altında tapdanmaq qorxusu olan Vətənin taleyinin onlardan asılı olduğunu, xalqımızın onlardan böyük hünər gözlədiyini söyləyirdi:

Bəkliyor sizdən zəfər atimiz, istiqbalımız,
Şanlı qeyrət, şanlı himmət, şanlı cürət gözləyir.
Payimali-düşmən olsunmu çəmənzari-vətən,
Yurdunuz sizdən bu gün çox ali himmət gözləyir.
Millətim istər ürəkdən pək şərəfli bir həyat,
Anlasın etsin bunu idraki əhli-kainat.

İstiqlal dövrü poeziyasında belə çağırış ruhlu əsərlər mühüm yer tuturdu və Hadinin silsilə şeirləri bu poeziya nümunələrinin ən səciyyəvilərindən idi. Şairin yaradıcılığının ayrılmaz xüsusiyyəti kimi yüksək pafos, təntənəli ifadə tərzi bu illərdə yazılmış əsərlərində daha da güclənir, ahəng də, musiqililik də, sehrləyici lirizm də məhz bu ideyanın tərənnümünə xidmət edir:

Amalımıza doğru şitaban olalım gəl
Millətlə vətən rahinə qurban olalım gəl.

Fikir, ideya poeziyada çox vaxt mahiyyət təşkil edir. Təsadüfi deyil ki, yeni bir janrın - marş janrının uğur qazanmasını görürük. Poeziya nümunələri əsasən bədiiliyi, sənətkarlıq xüsusiyyətləri ilə deyil, fikrin, ideyanın ön plana keçməsi ilə yadda qalır. Sürətlə baş verən hadisələr işığında ədəbiyyatda yeni məzmuna uyğun yeni forma axtarışları çox vaxt uğurlu olmurdu. Böyük idealların təbliğinə həsr olunan əsərlər bəzən sənətkarlıq baxımından sönük olurdu. «Azərbaycan» qəzeti səhifələrində çoxsaylı əsərləri çap olunmuş türk şairləri Rövşən Əşrəfin, Arif Ürfan Qaraosmanın, İbrahim Şakirin, Davudun, Mürşidin və başqalarının əsərləri də bu qəbildəndir. Hadi poeziyası bu mənada tam istisna təşkil edirdi. O, marş janrında belə təsirli, ahəngdar, sənətkarlıq baxımından kamil sənət örnəkləri yarada bilmişdir.

Bir tərəfdən, qondarma ərazi iddiaları ilə Azərbaycan torpaqlarını zəbt etməyə çalışan erməni-daşnak hökuməti, başqa bir tərəfdən xalqımızı yenidən Rusiya əsarətinə almağa çalışan Şimal təhlükəsi yenicə qurulmuş Azərbaycan hökumətinin başı üzərini almışdı. Bolşevik və daşnakların Bakıda törətdiyi Mart qırğını dövrün ən faciəli hadisələrindən idi. M.Hadinin «Azərbaycan» qəzeti səhifələrində dərc olunmuş «Şühədayi-hürriyyətimizin ərvahinə ithaf» şeiri bu faciə mövzusunda ən gözəl örnəklərdən idi. Şair Mart qırğınını Azərbaycanın azadlığı uğrunda döyüşlərdən biri kimi mənalandırır, milli istiqlal yolunda canını qurban verən şəhidlərin ölməz ruhunu lirik təranələrlə oxşayır, öz millətini əsarət pəncəsindən xilas etmək üçün ölənlərin daim diri qalacaqlarına yanıqlı bir dillə inandırır, onlara «Hürriyyətimizin şəhidləri» kimi ağı deyirdi:

Sizin məzarınız iştə qülubi-millətdir,
Bu sözlərim ürəyimdən gələn həqiqətdir.

Sizi unutmayacaq şanlı millətim əsla,
Əmin olun buna, ey ziynəti-cahani fəna.
Sizinlə buldu bu millət həyati-püriqbal,
Sizinlə buldu bu millət şərəfli istiqlal.

Hadinin «Azərbaycan» qəzetində dərc olunmuş «Əsgərlərimizə, könüllülərimizə» silsiləsi də, adından göründüyü kimi, vətənin fədakar oğullarına şairin müraciəti, azadlıq uğrunda mübarizəyə çağırışı idi:

Bil ki, Vətənin sevgili bir madəri-candır,
Vermə bunu düşmən əlinə, rəhm et, amandır,
Hürriyyətimiz hürri-füsunsazi-cahandır,
Bax bir, nə gözəldir, necə candır, nə cavandır,
Biz verməriz əldən bunu, düşmənlərə qandır!

Dövrün mətbuat orqanlarında belə çağırış ruhlu şeirlər çox idi. Hadinin dostu Mürşid də «Şühədayi-Vətən» şeirində Hadinin səsinə səs verir, Vətən yolunda, Qarabağ müharibəsində şəhid olanların millətin qəlbində əbədiyyət qazandığını göstərirdi:

Sən də fəxr et, bambaşqadır bu ölüm,
Bənzəməzsən sən bir adi ölmüşə,
Cismin əgər gömülmüşsə məzara
Ruhun millət qəlbindədir həmişə.

Demokratik mətbuatın səhifələrində çap olunan onlarla şeirdə də belə çağırış ruhu hakim idi. «İstiqlal» toplusunda azərbaycanlı ana öz uşağına belə layla deyirdi:

İlahi, vətənimi,
Qıl səlamət bəladan,
Vətən, millət yolunda

Keçərəm bu bəladan;
Laylay balam, a laylay,
Əsgər balam, a laylay.

Beşik başında dayanan ana öz körpəsini gələcək azadlıq mübarizələrinin yenilməz əsgəri kimi əzizləyirdi. «Azərbaycan» qəzetində «Əsgər şeiri» adlı ayrıca guşə də açılmışdı. Ə.Cavadın «Gəlmə», «Qardaş», «İngilis», A.Şaiqin «Vətənin yanıq səsi», Mürşidin «Əsgər şərqisi», «Qarabağda həlak olmuş arkadaşımın ruhuna ithaf», Davudun «Əsgər şeirləri», «Azərbaycan ordusuna», «Bir əsgərin dilindən», Ə.Şövqinin «Azərbaycana», M.Ümid Gəncəlinin «Azərbaycan vətən şərqisi», Əli Yusifin «Azərbaycanlıya», Ümgülsümün «Əsgər anasına», «Çəkil, dəf ol!», «Bir mayıs günündə»... əsərlərində milli istiqlalımızın qorunmasına çağırış ruhu güclü idi. Dövrün ədəbi prosesində seçilən imzalar sırasında Ümgülsüm Sadıqzadə, Əli Yusif, Mürşid Balaqardaş və Davud Ağamirzadənin də adlarını çəkmək olar.

Milli dövlət quruculuğu zamanı çox gənc olan Ümgülsüm Sadıqzadə (yazıçı-tənqidçi Seyid Hüseynin həyat yoldaşı, M.Ə.Rəsulzadənin əmisi qızı, Müsavat partiyasının yaradıcılarından Məhəmmədəli Rəsulzadənin bacısıdır) bədii yaradıcılığa xeyli əvvəl başlasa da, özünü azad Azərbaycanın şairi adlandırırdı – əzilməkdən qurtarmış, yabançı ayaqlar altında tapdanıb qalmış yurdunun şairi! Şairənin şeirləri sənətkarlıq baxımından ideal səviyyədə olmasa da, öz üsyankarlığı, patetik ruhu ilə seçilirdi. «Çəkil, dəf ol!» şeirində rus istibdadına, Azərbaycanın başı üstünü almış Şimal qorxusuna qarşı çıxır, milli azadlıq ideyalarını tərənnüm edir, xarici işğalçılara sonsuz nifrətini bildirirdi:

Annəciyim, mənim bu yaşıl dağlar,
Mənsiz nəşə bulmaz çiçəkli bağlar,
Mənsiz bülbül ötməz, çəmənlər ağlar,
Yurduma buraxmam alçaq düşməni...
Ey buzlu Şimaldan qopan ruzigar,
Toxunma qəlbimə atəşi parlar.

Ümgülsüm sovet dövründə yazdığı əsərlərində də istiqlal dövrü ovqatını saxlamış, bəzən rəmzlərlə, bəzən də açıq-aşkar vermişdir:

Günəşim bir daha doğmayacaqmı?!
Vəhşi qaranlığı boymayacaqmı?!
Buludları günəş qovmayaqmı?!
Sordum, ümidini qırma dedilər...

Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk illərində qələmə alınmış bu şeirində olduğu kimi, 1937-ci ildə Bayıl həbsxanasında yazdığı əsərlərində də rus istibdadından narazılıq, üsyankarlıq duyulur. «Əsgər anasına» şeirində isə analarını milli istiqlalın qorunmasına yardım etməyə çağırırdı. Şeir, ahəngi, ifadə gözəlliyi, həm də yeni forma axtarışları baxımından seçilsə də, ideyaca həmin mövzuda yazılan əsərlər silsiləsində parlaq yer tuturdu:

Ey möhtərəm köksündə sönməz sevgi saxlayan,
Ey şəfqətli gözündə inci yaşlar parlayan,
Ey möhtərəm Validə!
Mane olma şu gəncə, burax hərbə gediyor,
Sənin bu göz nurunu əziz Vətən bəkliyor.
...Yurdu qurtarmaq istər həp coşqun bir əzmlə,
Türk duyğusu daşıyır pak və təmiz qəlbində...

İstiqlal dövrü poeziyasında öz səsilə seçilən, demokratik mətbuat səhifələrində tez-tez görünən Mürşid də «Əsgər şeirləri» yazırdı. Azərbaycanın yenidən rus işğalına məruz qalacağı vaxtdan bir az əvvəl bu şeirlər mətbuatda çap olunur - «Əsgər hərbə gedərkən», «Ana deyir», «Bu günün gənclərinə», «Şühədayi-vətən» şeirləri bu silsilədən ən yaxşı əsərlər sayıla bilər. Gəncəli şair Davudun «Əsgər şərqisi», «Məqsədimiz», «Azərbaycan ordusuna», «Əsgər» şeirlərində də bu ideya qabarıq idi. Mürşidin «Bir qaçqın çocuğun dilindən» şeiri türk şairi Feyzulla Sacidin «Fəryad» kitabındakı silsilə şeirlərlə səsləşir. Şair erməni təcavüzünün əzab verdiyi, yurd-yuvasız qoyduğu, körpə qəlbinə sağalmaz yaralar vurduğu balaca uşağın şikayətlərini, üsyanını dərin bir səmimiyyət və həssaslıqla qələmə alır. Bəzən tarixi hadisələrlə bağlı olaraq şeirdə şüarçılıq ovqatı sənətkarlığa xələl gətirirdi. Şeirlərin yazılmasında bir tələsiklik, həyat materialının işlənməsində ötərilik də duyulurdu.

Milli hökumətin xaricə ali təhsil üçün göndərdiyi yüz tələbədən biri olan istedadlı şair Əli Yusif istiqlal poeziyasında orijinallığı ilə seçilən simalardan idi. İstiqlalı böyük sevinclə, ruh yüksəkliyi ilə qarşılayan gənc şair istibdad zəncirindən qurtarmağı Azərbaycan üfüqündə doğan sönməyəcək bir ulduz kimi mənalandırır, ilk dəfə milli dövlət elan edilməsindən qürur duyurdu:

Ey vətəndaş, bu gün sənin taleyinə
Bir əbədi sönməyəcək ulduz doğur.
...Bundan sonra Azərbaycan ölkəsində,
Azadlığın, istiqlalın kölgəsində
Sənin dəxi bir müqəddəs vətənin var,
Bayrağın var, buludlardan uca qalxar!

Həqiqi poeziya üçün mahiyyət təşkil edən hissiyyatla istedadın vəhdəti Əli Yusifin əksər şeirlərinə hakim idi; alovlu bir poetika, yeni poetik obyektə - azad Vətənə sonsuz sevginin ifadəsi olan səmimi bir vurğunluq istiqlal dövrü şeirinin səciyyəvi meylləri kimi Əli Yusif poeziyasının da başlıca xüsusiyyətləri idi. İstedadın və yeni varlığın doğurduğu ilhamın qovuşması fikrin, ideyanın yüksək sənətkarlıqla verilməsini asanlaşdırırdı:

Ey türk oğlu, səni Tanrı Şərqə hadi göndərdi,
Yatmış yurdu qardaş kimi titrət, çalxat, oyandır,
Yeni, məsud bir həyata dəvət eylə hər fərdi,
Ürəyində sönməyəcək bir təbii od yandır!

Şair başqa bir şeirində:

Yüksəl, ey qayeyi-ülvi, yüksəl,
Yüksəl, ey qayeyi-ümmid və əməl -

deyərək üçrəngli Azərbaycan bayrağını tərənnüm edirdi.

Poeziyada milli bayrağın vəsfinə həsr olunmuş şeirlər silsilə təşkil edirdi. Ə.Cavad, C.Cabbarlı, Seyidzadə Bədri, Əbdülxalıq Cənnəti, Əli Şövqi, Davud Ağamirzadə kimi sənətkarlar müstəqillik rəmzi kimi tərənnüm etdikləri üçrəngli bayrağın xalqın qəlb arzularının ifadəsi, Azərbaycanı dünyada tanıdıb şöhrətləndirən vasitə, xalqın əsarət və köləliyinə qoyulan nöqtə kimi mənalandırırdılar. İstiqlal dövrü şeirlərində sevgili kimi, müqəddəs amal kimi sevilib oxşanan bayraq müqəddəs idealların rəmzi olduğu üçün şairlər bəzən dəfələrlə onun vəsfinə şeirlər həsr edirdilər. Həmin dövrdə Müsavat partiyası gənclər təşkilatının rəhbəri, Azərbaycan parlamentinin stenoqrafı olan Cəfər Cabbarzadə

«Azərbaycan» qəzetində çap olunan «Sevdiyim» və «Azərbaycan bayrağına» adlı iki şeirində milli bayrağı tərənnüm edir, «Yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim» - deyərək bu yeni məşuqəyə öz odlu sevgilərini bildirirdi:

Bu göy boya göy moğaldan qalmış bir türk nişanı
bir türk oğlu olmalı.
Yaşıl boya islamlığın sarsılmayan inamı,
ürəklərə dolmalı.
Al boya da azadlığın, təməddünün gümanı,
mədəniyyət bulmalı.
Səkkiz hərfli bu ulduz da səkkiz hərfli
od yurdu,
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi
səhərlərə uçmuşdur.

Gənc şairin «Sevimli ölkəm» şeirində müstəqil Azərbaycan, «Salam» şeirində isə türkçülük, turançılıq ideyaları tərənnüm edilirdi. Milli bayraq haqqında şeirlər Azərbaycanda milli dövlət quruculuğunu alqışlayan poeziya örnəkləri ilə səsləşməkdə idi.

Bu dövrdə milli demokratik ruhu mətbuat orqanları milli müstəqillik, türkləşmək, islamlaşmaq, müasirləşmək ideyalarının təbliğinə üstünlük verirdi. Belə qəzet və jurnalların səhifələrində bu mövzuda bədii ədəbiyyat örnəklərinə, ən çox da poeziyaya geniş yer verilirdi. Azərbaycan hökumətinin yarımrəsmi orqanı olan «Azərbaycan» qəzeti, «Açıq söz», «Bəsirət», «Müsavat» «İstiqlal», «Övraqi-nəfisə», «İttihad», «Qurtuluş» belə mətbuat orqanlarından idi. Təkcə «Azərbaycan» qəzeti səhifələrində çıxan poeziya örnəkləri öz həcminə görə bütövlükdə başqa mətbuat orqanlarında çap olunmuş əsərlərdən artıqdır. Milli demokratik ruhlu mətbuat orqanları arasında mərkəzi mövqedə dayanan «Azər-

baycan» qəzeti öz ətrafında Cümhuriyyəti ruh yüksəkliyi ilə, sevinclə qarşılayan müəllifləri birləşdirirdi. M.Hadi, Ə.Cavad, C.Cabbarlı kimi şöhrət qazanmış sənətkarlar, eləcə də milli müstəqillik elanı ilə yaradıcılığının parlaq dövrünə qədəm qoyan Mürşid, Əli Yusif, Ümgülsüm, Davud, Əli Şövqi və b. şairlər ən çox bu qəzetin səhifələrində çıxış edirdilər.

Mətbuatda türk poeziyasının təbliğinə geniş yer verilirdi. «Azərbaycan» qəzeti səhifələrində «Türk duyğuları» adlı şöbə də daimi fəaliyyət göstərirdi. Bu başlıq altında Məhəmməd Əmin Yurdaqulun «Ordunun dastanı» əsəri bir neçə nömrədə bütöv çap olunmuş, Rövşən Əşrəf, Feyzulla Sacid, Arif Ürfan Qaraosman və b. türk şairlərinin onlarla şeiri oxuculara çatdırılmışdır.

Feyzulla Sacidin «Fəryad» adlı şeirlər kitabı da Bakıda Zəngəzur və Naxçıvan qaçqınlarının nəfinə çap olunmuşdur. Şair kitaba yazdığı ön sözdə Azərbaycan və türkləşmək, türkçülük haqqında fikirlərini belə açıqlayırdı: «Böyük türklük soydaşlıq aləmində yekparə və bulunmaz bir şəxsiyyətdir. Madam ki, biz azərilər və osmanlılar o şəxsiyyətin ayrılmaz üzvlərindən ikisiyiz, osmanlıların şundan aldığı yaraların acısını azərilər duymasın və azərinin ən kiçik iztirabilə osmanlının qəlbi sulanmasın: bu mümkün deyildir».

İstiqlal dövrü poeziyasında əksər şeirlərin başlıca idealına çevrilən türklük, türkün şanlı keçmişinin poetik tərənnümü, Azərbaycanın, Turanın ayrılmaz tərkib hissəsi olması kimi həqiqətlər Sacid poeziyasının da aparıcı xəttini təşkil edirdi. «Fəryad» kitabına daxil olan şeirlərin mühüm qismi türkçülük ideyalarını tərənnüm edirdi. Türkün şanlı keşmişi, qəhrəmannlıqlarla, zəfərlərlə dolu tarixi, dünyanın qarşısında lərzəyə gəldiyi türk qüvvəti, türkün yenilməz gücü dərin bir lirizmlə tərənnüm edilirdi:

Bayrağımız ən yuca qələlərə çəkildi,
Məğrur başlı krallar önümüzdə əyildi.
Yenilməyən qüvvətlər qolumuza yenildi,
Əzmimizin önündə cahan böyük deyildir
Bizə dağlardan aşan, sədlər yıxan türk derlər.

«Türkün kitabı» silsiləsinə daxil olan başqa bir şeirdə türkün parlaq tarixi ilə bugünkü tənəzzülü, Qərbin müasir sivilizasiyası ilə türkün tarixi üzləşdirilir, şairin öz irqinə sonsuz sevgisi ifadə olunur. F.Sacidin Qərblə üzləşdiyi «Böyük türk» təkcə Türkiyə deyildi – o, Vətən deyərkən dünyanın müxtəlif guşələrinə səpələnmiş, bir-birindən ayrı düşmüş türk ellərini düşünürdü. Bu ayrılığa, tarixi tənəzzülə dəruni bir duyğu ilə yanıb yaxılırdı:

Batmış mənim günəşim, tək-tük ziyası qalmış,
Fərabilər, Səlimlər, Sinalar mənim;
Ey qərb, dinlə tarixi, o qaranlıq cahanı,
Guruldayan o dərin dəyralar mənim...

Dövrün poeziyasında belə ruhlu şeirlər ayrıca istiqamət təşkil edirdi.

Sacid müstəqil Azərbaycan dövlətinin yaranmasını sevinclə qarşılamış, ay-ulduzlu bayrağı oxşayaraq, milli müstəqilliyimizi alqışlamışdır. Şairin şimallı, cənublu Azərbaycan faciəsinə həsr etdiyi «Mütarikə, yaxud yaralı Vətənə mərsiyə» şeiri də yaddaqalandır. Yüksək sənətkarlıqla, axıcı lirik bir dillə yazılmış şeirdə yüz ildə Azərbaycanın milli zülmə, əsarətə dözə-dözə inləməsindən, bu ürək parçalayan iniltisinin vətən övladlarına təsir etməməsindən şikayətlənir, öz əli ilə vətənin ikiyə bölünməsinə qol qoyan vətən oğullarını töhmətləyir, yaralı Azərbaycana mərsiyə deyib ağlayırdı:

Yüz ildi qiyamət başından getməz,
Yüz ildi inlərsən kimsə yetişməz,
Yüz ildi ölürsən, ölümün bitməz...

Həmin vaxt Bakıya gəlmiş türk şairi Rəşid Sürəyya bəy F.Sacidə həsr etdiyi «Araz sahilində» şeirində bir daha bu böyük tarixi faciəyə dönmüşdür:

Araz, Araz, ey türkü türk elindən alan
Araz, Araz, ey ümidi-nurə bir məğbər -

deyərək Arazı ittiham edən şair sonra günahı, Sacid kimi, insanlarda görürdü. Onun da şeirlərində axıcılıq, sadəlik, ahəngdarlıq başlıca keyfiyyət idi.

1918-1920-ci illərin poeziyasında klassik poeziyadakı sevgili obrazı öz yerini azad Vətən, milli bayraq simvollarına vermişdi.

Feyzulla Sacid səmimi Azərbaycan şivəsində yazdığı bir şeirində vətən və azadlıq mövzularının artıq poeziyanın aparıcı leytmotivinə çevrildiyini belə ifadə edirdi:

Sevilən gözəllər gözəl deyildir,
Bir gözəl sevdim ki, Vətən dedilər...
Ağladım, ruhumu sellərə verdim,
İnlədim, ahımı yellərə verdim,
Könlümü bu xarab ellərə verdim,
Bu xarab ellərə canan dedilər.

Poeziyada Əbdülhəqq Hamid, Namiq Kamal, Tofiq Fikrət, Məhəmməd Əmin bəy kimi Türkiyə klassiklərinin təsiri açıq-aşkar güclənməkdə idi. M.Hadinin çağırış ruhlu şeirlərində N.Kamal və Ə.Hamidin təsiri duyulmaqdadır. Təsadüfi deyil ki, N.Kamalın «Vətən» marşındakı:

Altı da bir, üstü də birdir yerin,
Arş igidlər, Vətən imdadına -

misralarını Hadi özünün «Əsgərlərimizə, könüllülərimizə» silsiləsinə epiqraf seçmişdir. «Zəfəri-nəhaiyyəyə doğru» adlı şeirində isə Əbdülhəq Hamidin:

Öylə bir əzm ilə çıxdım ki, yola,
Qarşıma çıxsa məzarım dönməm! -

misralarını sənətkarlıqla iqtibas etmişdir.

Türkiyə ədəbiyyatında ayrıca məktəb yaradan Məhəmməd Əmin Yurdaqulun Ə.Cavad yaradıcılığına təsiri də güclü idi. Şeirlərinin sadəliliyi, xalq dilində yazılması bu sənətkarları birləşdirən əsas cəhətlər idi. Bununla yanaşı, hər iki sənətkar türkün şanlı tarixinin tərənnümünə də geniş yer verirdi.

Azərbaycan poeziyasında həm də ictimai həyatda tez-tez eşidilən sinfi mübarizə, Rusiya ilə birlik ideyalarının əks-səda notları da duyulmaqda idi. Azərbaycan parlamentində sosialist «Hümmət» blokunun üzvü olan Hacı Kərim Sanılının 1919-cu ildə çapdan çıxmış «Yeni şərqilər» kitabında məhz belə inqilabi mübarizəni tərənnüm, Azərbaycan hökumətini tənqid edən, nicatı yalnız bolşevizmdə, sinfi mübarizədə görən poeziya nümunələri toplanmışdı. Ədəbiyyatda bu istiqamətin tərəfdarları nisbətən az idi. Mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın, M.S.Ordubadinin, hətta mütəfəkkir şair Məhəmməd Hadinin bolşevik mətbuatı orqanlarında çap olunan şeirlərində də dövrün haqsızlıqlarına etiraz, mövcud ictimai quruluşun tənqidi əsas yer tuturdu, inqilabi mübarizə ideyasını «Hürriyyət», «Hümmət», «Yoldaş», «Azərbaycan» (Cənubi Azərbaycan demokratlarının orqanı), «Bayraqi-ədalət» kimi qəzet və jurnallar yayırdılar. «Hürriyyət» qəzeti isə belə ədəbiyyat nümunələrinin nəşrinə xüsusi yer verirdi.

Ə.Qəmküsar «Ələman bu müstəbidlərdən İlahi, ələman» - deyərək milli hökumətə rəhbərlik edənlərin xalq tərəfindən sevilmədiyini iddia edir, yeganə nicatı yenə də qan tökməkdə, siniflər mübarizəsi yolunda görürdü:

Bidad eləyib tökməyəsən qan, başa gəlməz!

M.S.Ordubadi də Azərbaycanın milli azadlığı ilə barışmır, «Zavalı əcəmistan» şeirində düşmənin böyüklüyündən, «iqtidarın»dan qorxmayıb mübarizə etməyə səsləyirdi:

Bir ingilis əsirisən, ey əski məmləkət,
Qəmli sükutuna bulamam başqa bir cəhət.
...Sanma böyükdü düşmənimiz, iqtidarı var,
Bir səmtə daim əsməyəcəkdir bu ruzigar.

Mütəfəkkir Hadinin son məlum əsəri istismar, haqsızlıq dünyasına qarşı son üsyan səsi oldu - şair arzuladığı ideal cəmiyyəti görmədən dünyanı tərk etdi:

Gözüm bir gülməyir bu ərzi-fəryadı görən gündən,
Könül şad olmayır bu səhni-naşadı görən gündən.

Belə poeziya nümunələrinin yaranması, hətta Hadi kimi mütəfəkkir şairin bolşevik mətbuatına üz tutması təsadüfi deyildi. Azərbaycanda milli müstəqillik əldə olunsa da, zəhmətkeş xalqın ağır həyat durumuna tam son qoyulmamışdı, əhali arasında narazılıq, aclıq, müharibələrin gətirdiyi fəlakətlər hələ qalırdı. Bunlar da ədəbiyyata yeni mövzular gətirirdi.

İstiqlal dövründə Azərbaycan şeiri yeni inkişaf yoluna qədəm qoyurdu - 1920-ci il aprelin 28-də bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi poeziyanın bu təbii sürəkli inkişafını yarımçıq qoydu.

NƏSR. Dövrün ictimai-siyasi, milli-mənəvi problemlərinin bədii əksində poeziya müəyyən operativliyə malik olsa da, bu işdə nəsrin spesifik imkanlarını inkar etmək olmaz. Milli nəsrimiz Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-milli-mənəvi problemlərin bədii əksi üçün öz imkanlarını səfərbər etməyə çalışırdı. Düzdür, M.B.Məhəmmədzadənin yazdığı kimi, o zaman dövrün ictimai-siyasi və milli-mənəvi problemlərinin bədii həllini özündə əks etdirən romanlar «meydana atılmadı» (Bu, əslində, birdən-birə bəlkə də mümkün deyildi. Vaxt və hadisələrin gedişi imkan versə idi, şübhəsiz, bu cür əsərlər yaranacaqdı.), lakin bədii nəsr təfəkkürü dövrün hadisələrinin mahiyyətinə nüfuz etməyə cəhd göstərir və hələlik bəzi «xırda-para» bədii nəsr nümunələrini «meydana atırdı». Həmin əsərlər əsasən kiçik hekayələrdən, özü də publisist ruhlu hekayələrdən ibarət idi ki, bunu da dövrün tələbində axtarmaq lazımdır; belə ki, hadisələrin sürətli və dəyişkən inkişafı zamanı lakoniklik; həm də publisist ruh və operativlik bədii ədəbiyyatdan da tələb olunurdu. Nəsr dövrün bu tələbi ilə hesablaşmaqla yanaşı, mövzu dairəsinin genişliyi qayğısına da qalırdı...

İctimai milli mənlik şüurunun təntənəsinin bədii əksini dövrün nəsrində də görürük. Özü də bu nümunələrdə xalq milli ruhunun ifadəsi konkret detal üzərində cəmlənir. Belə ki, Azərbaycanda törədilən mart hadisələri zamanı xalqımızın verdiyi külli miqdarda maddi, fiziki və mənəvi itkilər içərisində milli istiqlaliyyətimizin qərargahı olan binanın — tarixdə «İsmailiyyə» adı ilə məşhur olan və hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşən binanın xalqımızın bədxahları tərəfindən yandırılması da var idi. Binanın yandırılması bir yana, xalqımızın çörəyini yeyib,ona qənim kəsilənlər "İsmailiyyə"nin axırına çıxmaq üçün onun sökülməsinə çalışırdılar. İlk baxışda bir binanın

yararsız olduğu üçün sökülməsi adi haldır. Lakin burada söhbət adi yox, tarixi bir binadan getdiyi üçün ictimai-milli mahiyyət kəsb edir. Belə ki, xalqımızın ictimai-milli oyanış və mübarizə dövrünün bir növ qərargahı kimi xalq təfəkküründə o zaman müqəddəsləşən bu binanın məhv edilməsi düşmənlərə ona görə lazım idi ki, milli özünüdərk prosesi keçirən, milli azadlıq və istiqlaliyyət uğrunda mübarizə aparan azərbaycanlıların milli qürur simvolu məhv edilsin və xalqın azadlığa olan ümidi qırılsın. Ümidsiz xalqın isə bir yana çıxması, əlbəttə, müşkül işdir. Xalqın azadlıq və istiqlaliyyət simvolu kimi baxdığı bu binanı uçurtmaq istəyənlər arzularına çatmaq məqsədli ilə onun yaşayış üçün yararsızlığı haqda rəy yaratmışdılar. Guya, binanın uçması hər dəqiqə gözlənilir. «İsmailiyyə»nin Azərbaycan xalqının milli istiqlaliyyət və müstəqillik simvoluna çevrilməsinə səbəb isə bu binanın mövcudluğunun tarixən qısa bir dövründə xalq üçün dəyərli xidmətlər göstərməsi, ən əsas *İSTİQLAL* məfkurəsinin, Milli Muxtariyyət fikrinin birinci dəfə bu binadan pərvazlanması idi. Çünki «İsmailiyyə» o zaman milli düşüncə qərargahı olmuş, xalqın tarixi taleyində mühüm rol oynayan məsələlər bu binada həll edilmişdi. Nəticədə xalq «İsmailiyyə»yə ümid dayağı kimi baxırdı. Odur ki, xalqın milli mənliyinin yüsətinə hazırlanan bu qəsdə vətəndaş yazıçı Seyid Hüseyn etinasız baxa bilməyərək öz yanıqlı və siyasi çağırış ruhlu harayını ucaldır...

Azərbaycanlılara hazırlanan bu qəsdin qarşısını almaq üçün Seyid Hüseyn «Həzin bir xatirə, «İsmailiyyə»[1] adlı bir hekayə yazmışdır. Dərin lirizm, ictimai vətəndaşlıq duyğusunun gücü və publisistik ruhu ilə seçilən bu hekayə İsmailiyyənin keçdiyi tarixi yolun bədii salnaməsidir. Yazıçının ruhunu ehtizaza gətirib bu hekayənin meydana çıxmasına səbəb isə, yuxarıda dediyimiz kimi, xalqımıza hazırlanan milli-mənəvi qəsdin məkrli ictimai-siyasi köklərini görməsi və onun ağırlığını dərk etməsidir. Odur ki, binanın sökülməsi haqda qərar verildiyini biləndə yazıçının vətəndaş qəlbi özünə yer tapa bilmir:

«Keçən gecə həqir, fələkzədə, öksüz bir qızın saçları kibi hali-məşuşda bulunan pərişan odamda əyləşib «İsmailiyyə» binasına, o Azərbaycan millətinin hürriyyət və istiqlalı uğrunda şəhid düşmüş qəhrəmanlar kibi düşmənin amansız qurşunlarına köksünü sipər edən binaya nəzər pəncərəyi açaraq onu seyr ediyor, düşünüyor, həm də onun dağıdılması haqqında olan axırıncı qərarı qəzetdə oxuyaraq düşünürdüm.

Bir dürlü bilməyirəm, səbəbini anlamayıram ki, bəni nə kibi şeylər, nə kibi əlaqələr «İsmailiyyə» binasına bağlayıb mərbut etmişdir ki, onun sökülüb dağılması fəqərəsi, onun yandırılıb xarabazara döndərilməsi qədər bəni mütəəssir etmişdir. Düşünür, həm də fikirsiz, qayəsiz və mouzəsiz olaraq düşünürdüm. Xəyalım bir çox geri getmiş, bir çox xatirələr ilə məşğul olmuşdu. Nəzərimdə bir taqım rəngarəng şəkillər və mənzərələr tərsim edilirdi. Bən «İsmailiyyə» binasının çox da uzun olmayan tarixçəsini, 18-20 sənəlik bir həyatını, tərcümeyi-halını gözümün önündə təcəssüm etdiriyordum», — deyən müəllif «İsmailiyyə»nin yaranma tarixinə xəyali səyahət edərək onun xalqa etdiyi xidmətləri həzin bir dillə təsvir edir. Vətəndaş yazıçıya görə, binanın xalq qarşısında etdiyi bir-birindən dəyərli xidmətlərindən ən qiymətlisi onun siyasi cərəyanlar meydanına çevrilərək, milli «istiqlaliyyət məfkurəsini, Azərbaycan qayəsini bir Ana kibi, məşfəq və mehriban bir Ana kibi ağuşunda, bəsləməsi», milli azadlıq mübarizəmizin tarixində əvəzsiz rol oynamasıdır. Bu haqda hekayədə oxuyuruq:

[1] "Azərbaycan" qəz., 20,25 və 26 avqust 1919.

«İnqilabdan sonra «İsmailiyyə» binası siyasi cərəyanların mərkəzi oldu. Birinci Qafqaz müsəlman qurultayı orada açıldı. Birinci olaraq muxtariyyət və ədəmimərkəziyyət fikri orada meydana atıldı.

Bu tarixdən sonra bütün yığıncaqlar, siyasi müsahibələr, məruzələr həp orada olur, oxunur, dinləniyordu.

İsmailiyyənin o kimsəyə baş əymək istəməyən möhtəşəm salonu bir çox tarixi vaqeələrin şahididir. Bir çox natiqlərin nitqini onun yanmış daşları hələ də əks etdirməkdədir. Biz azərbaycanlılar «İsmailiyyə»də bir çox şad və qəmgin günlər keçirmişik. Müqəddəratımız haqqında övzada bir çox məruzələr dinləmişik, gələcəyimiz barəsində bir çox qərarlar çrxarmışıq...

«İsmailiyyə»nin, bizim müqəddəs adını böhq qazanan o millət öyünün, o bizim siyasi fikirlərimizi, istiqlaliyyət məfkurəsini, Azərbaycan qayəsini bir Ana kibi, məşvəq ve mehriban bir Ana kibi ağuşunda, qəlbində bəsləyən dilbəranə binası, məhrəmi - əsrarımız olan divarları martın (1918-ci il mart hadisələrinin — *A.B.)* fəci günlərində bir çox düşmən qurşununa köks gərmişdi».

Demək, «İsmailiyyə» Azərbaycan xalqının ən ülvi, bəşəri duyğularını, arzu və əməllərini şəfqətli bir ana kimi qoynunda əzizlədiyinə görə millətimiz üçün həmin ideallar qədər ulu və müqəddəsdir. Milli düşmənləmiz isə məhz bu müqəddəsliyi və ululuğu məhv edərək xalqımızın azadlıq və istiqlaliyyətə olan inam və əqidələrini torpağa gömmək istəyirdilər. Bunu sanki «İsmailiyyə" də dərk edərək, düşməni yandırmaq üçün qəzəbindən od saçır: «...Xalqda dogan muxtariyyət fikrini əbədiyə basmaq üçün bu fikrə pərvəriş verən İsmailiyyənin edamına qərar verilmiş, ona düşmən əli ilə od vurulmuşdu. Bu kərrə İsmailiyyə qəzəbindən atəş püskürür, düşməni yaxmaq diləyordu».

Lakin düşmən elə düşməndir. Ona görə ondan hər cür əzazillik gözləmək olar və bu, təbiidir. Ancaq zərbə özününkü tərəfindən endiriləndə daha dözülməz olur. Odur ki, «İsmailiyyə»nin yandırılmasında digər milli partiyaların da nadancasına rolunu görmək hər şeydən ağırdır. Həmin ağırlıq hər bir namuslu vətəndaşın ürəyini sıxır, amansızlıqla əzir. Çünki milli hiss və duyğudan, milli mənlik şüur və qürurundan məhrumluğu ilə barsızlığa düçar edilən bu cür saxta beynəlmiləlçi sosialistlər öz bədnam əməlləri ilə anlamadan düşmən dəyirmanına su tökərək? mənsub olduqları xalqı siyasi və milli faciəyə sürükləyirdilər. Sanki xalqın gələcək milli faciəsi bu xəyanətdən, özünübaltalamadan başlayırdı. Ona görə hekayənin sonluğu son dərəcə həyəcanlı və dərin vətəndaş narahatlığından doğan çağırış notları ilə bitir:

«Ey bakılı qardaş, ey azərbaycanlı vətəndaş, niyə dayanıb baxıyorsan? Qoş! İsmailiyyənin, hər vaxt böyük salonunda öz gələcəyin üçün gün ağladığın «İsmailiyyə»nin qarşısına gəl. Onu səndən ayırırlar. Onu lüzumsuz bir meyit kibi dəfn ediyorlar. Həm də sənin gözüyün qabağında dəfn ediyorlar. Halbuki, onun məhzun gözləri səni gözləyir,sənin həsrətini çəkir. Son kərrə olmaq üzrə get, ona, o müqəddəs binaya, o Azərbaycan bayrağını yuxarı qaldıran binaya doyunca bir tamaşa et. Çünki bir daha onu görmək sənə müyəssər olmayacaqdır. Çünki onu sökür, dağıdırlar».

Bu çağırış həm də ona görə qiymətlidir ki, xalq, milli iftixarına sadəcə tamaşa etməyə yox, öz milli qürurunun müdafiəsinə səslənilirdi. Çünki xalq təxəyyülündə milli azadlıq simvolu kimi müqəddəsləşən İsmailiyyənin qorunması mahiyyətcə milli istiqlaliyyət duyğusunun xilası deməkdir.

Maraqlıdır ki, Seyid Hüseynin «Həzin bir xatirə. «İsmailiyyə» adlı bu hekayəsindən sonra «Yaşıl qələm» ədəbi dərnəyi «Ismailiyyə» müsabiqəsi elan edərək[1] bu movzuda Azərbaycan bayrağına həsr olunan bir neçə

[1] Bax:"Azərbaycan" qəz.,23 eylul (sentyabr) 1919.

poetik əsərin də üzə çıxmasına nail olur. Nəticədə, görünür, həm də bədii sözün təsiri ilə əsas məqsədə nail olaraq İsmailiyyənin, onun timsalında azərbaycanlıların azadlıq və milli istiqlaliyyət duyğularının qırılmasının qarşısı alınır. "İsmailiyyə" hal-hazırda öz əzəməti və vüqarı, möhtəşəmliyi və ülviyi ilə durduğu kimi, Azərbaycan xalqının da milli istiqlaliyyət, milli müstəqillik duyğusu getdikcə daha dolğun və əlvan keyflyyətlər kəsb etməkdədir...

Seyid Hüseyn 1920-ci ildə bu mövzuya yenidən qayıdaraq «İsmailiyyə»[1] adlı ikinci bir xatirə-hekayə yazmışdır. Ancaq budəfəki «İsmailiyyə» Azərbaycanın istiqlaliyyət məfkurəsini öz qoynunda bəsləyib, «Azərbaycan bayrağını yuxarı qaldıran» həmin binanın uçuruma yuvarlanması cəhdinin qarşısının alınmasından doğan sevinc və iftixar hissindən yaranmışdır. Odur ki, hekayədə qələbə təntənəsinin doğurduğu qürur və işıqlı sabaha, xoşbəxt gələcəyə olan güclü inam hakimdir. Eyni zamanda həmin yazıda da «İsmailiyyə» binasınm xaincəsinə və alçaq niyyətlə yandırıldığı və bundan doğan vətəndaş qəzəbi və narahatlığı qabarıqlığı ilə duyulmaqdadır. Qanlı mart hadisələri və xəyanətlərindən sonra İsmailiyyənin pərişan vəziyyətini yanıqlı bir dillə qələmə alan S.Hüseyn öz düşüncə və qənaətlərini, qəzəb və hiddətini belə ifadə edir: «Gözlərimə inanmaq istəməyirdim. «İsmailiyyə», o milli əməllərimizin doğulduğu yer, o möhtəşəm bina,o Azərbaycan fikrini, Azərbaycan hürriyyəti və istiqlaliyyəti məfkurəsini bir Ana kibi bəsləyib tərbiyə verən, millət arasında nəşr edən mərkəz. O gözəl və sevimli bina qəzəbli, həm də xəyanət nəticəsi olaraq məcburiyyətdən dolayı qəzəbli bir qəhrəman kibi ərzi-vücud etməkdə, ona tamaşa edənlərə kinli-kinli baxmaqda idi».

[1] "İstiqlal" qəz.,4 fevral 1920.

Buradan bir daha aydın olur ki, «İsmailiyyə»nin taleyi ilə əlaqədar narahatlıq, sadəcə olaraq bir binanın uçurulub-uçurulmamasından irəli gəlmir. Bu narahatlığın kökü milli və bəşəri duyğulardan qidalanır. Ona görə də qələbə çalır. Bu uğuru S.Hüseyn iftixar hissi ilə belə təqdim edir: «... Tək bir həqiqət işin hər tərəfini bana kəşf etdi. Bənim bu xüsusdakı məruzələrim dişarı çıx...xatalıdır... başına uçar...» — deyib bəni oradan (İsmaiüyyənin yanmış binasının içərisindən —*A.B.)* kənara dəvət edən biganə hami xeyirxahımı sükuta məcbur etdi.

Bilmirsiniz, «İsmailiyyə»nin yandırıla bilmədiyini aləmə isbat edən bir həqiqət hansıdır?

Azərbaycan parlamanı üzərində üç rəngli və səkkiz guşə yıldızlı təmuc üçün Azərbaycan bayrağı».

"İsmailiyyə»nin qorunub saxlanılması ilə nəticələnən həmin əsərlər bədii sözün düşmən üzərində qələbəsi idi. Bu qələbə milli özünüdərkdən, milli istiqlaliyyət, milli azadlıq duyğusundan qüvvət alan vətənpərvər yazıçılarımızın, bədii söz sənətimizin təntənəsi idi.

Milli şüurun, milli mənlik duyğusu və qürurunun, istiqlal və müstəqilliyə inamın bədii əksini «Hekayənəvis» imzalı əsərdə[1] də aydın görmək olur. «Azərbaycan» qəzetində "Həftə felyetonu» rubrikası ilə çıxan bu hekayədə təsvir olunur ki, Məşədi Murtuza öz evində kefi kök, damağı çağ çay içir. Bu zaman qapı açılır və Məşədi Murtuzanın ən yaxın arkadaşlarından olan Salman oğlu Süleyman gələrək xəbər verir ki, bu günlərdə Denikin yüz min əsgərlə hücum edəcək. Hətta onun ayroplanları (təyyarələri) şəhərə bomba da atıb, lakin partlamayıb. Əsərdə göstərilir ki, Məsədi Murtuza siyasətlə maraqlanmır. Lakin bu xəbərdən təşvişə düşür. «... Çünki Salmanoğlunun cavablarından

[1] "Azərbaycan" qəz.,7 təşrini-sani (noyabr) 1919.
Qeyd: Əsər,"Hekayət" başlığı ilə çap olunub.Biz onu "Könüllü" adlandırmağı münasib bildik (A.B.)

bele anlaşıldı ki, Denikin yüz min qoşun ilə gəlir,özü də həm qurudan və həm də sudan şəhəri topa tutub, bir dənə də evi sağ-salamat qoymayacaq və şəhəri alt-üst edəcəkdir. Qurudan hücum edib kişi, arvad, hər nə var hamını qılıncdan keçirəcəkdir və birini də diri buraxmayacaqdır. O cavablardan əz cümlə bu da məlum oldu ki, Denikinin «Əyriplan'ları dünən şəhərin yanında uçuşurmuşlar. Və hətta bomba dəxi salıbdırlar, ancaq Allahdan olan kimi açılmayıbdır».

Bu şayiələrin vahimə dolu xofu Məşədi Murtuzanın əl-ayağını boşaldır, boğazını qurudur və bir az əvvəl çıxan gur, amiranə səsini batırır. Rəngi-rufu qaçmış halda Salman oğlu Süleymandan «fikrin nədir?» — deyə soruşur.

Hekayədə eşitdiyi bəd xəbərin təsiri ilə Məsədi Murtuzanm keçirdiyi psixoloji sarsıntı belə təsvir olunur;

«Bu sualın («Fikrin nədir?» — sualının — *A.B.*) əqbincə qorxu iztirabilə sararmış olan bir üz, üzərində ucu nazilmiş bir burun, yarımaçılmış ağız gah yas, gah ümid, gah xof, gah rica izhar edən iki dənə göz əlavə olaraq Salman oğlu Süleymana tərəf döndü.»

Salman oğlu Süleyman Məşədi Murtuzanın sualına cavab olaraq, çıxış yolunu qaçmaqda görür. Lakin ötən (1918-ci il) mart hadisələrində qaçarkən necə əzablara düçar olduqlarını, necə fiziki, iqtisadi və mənəvi sarsıntılara məruz qaldıqlarını xatırlayıb göz önünə gətirən Murtuza bu təklifə bir qədər tərəddüdlə yanaşaraq, qohumu Fərəclə görüşüb həqiqəti ondan öyrənməyi məsləhət bilir. Hər iki dost Fərəcin dalınca gedərkən küçədə ona rast gələrək eşitdiklərini vahimə ilə danışıb, qaçmaq fikrində olduqlarını və bunun üçün onun fikrini öyrənmək istədiklərini bildirir. Fərəc onların bu halına gülür. Onun gülüşü Məşədi Murtuzanı bir qədər toxdadır. Sanki gözləri açılan Məşədi Murtuza ətrafda həyatın normal axarı ilə getdiyini müşahidə edir:

«Konkaların biri gedib, biri gəlməkdə idi. Milisioner, çiynində tüfəng, dayanıb yanından keçən faytona baxırdı.Hammal divar dibində əyləşib hərdəm əsnəyirdi. Qərəz, hər kəs öz işinə məşğul idi».

Hekayədə təsvir olunur ki, bu zaman onların hər üçünün diqqətini marş oxuya-oxuya nizami addımlarla irəliləyən əsgərlər və onların arxası ilə gedən könüllülər dəstəsi cəlb edir.

Məşədi Murtuzanı «belə qəhrəman qoşunu olan adam qaçarmı?» — iradı ilə utandıran Fərəc onun sorğusuna cavab olaraq, könüllülərin və könüllülüyün funksiyasini izah edir. Məşədi Murtuza fikrə gedir. Onun bu fıkrə getməsinin nəticəsi olaraq, bir həftə sonra Məşədi Murtuzanı könüllülər sırasında görürük. Bu barədə hekayədə oxuyuruq:

"Bir həftə sonra idi ki, əsgərlərimiz genə əqbincə könüllü dəstəsi dəmdar olaraq zikr oxuya-oxuya kəmali-nizamla küçədən keçirdilər. Bunlara bir inşirah qəlblə tamaşa edərkən könüllülərdən bir nəfər qara saqqallısı, ağzında "iləri, iləri, Azərbaycan əsgəri» zikrini mərdanə bir səslə oxuyan və addımlarını arkadaşlarınınkına uydurmağa çalışarkən diqqətimi cəlb etdi. Bu əsnada Fərəc mənə tərəf yan alıb: — Məşədi Murtuzaya bax, mərhəba! — deyərkən o könüllünün Məşədi Murtuza olduğunu anladım. Məşədinin əynindəki əsgəri əlbəsənin onun ruhuna böyük bir cəsarət vermiş olduğunu sifətindəki mərdanəlik əsərindən görmək olardı».

Obrazın ictimai-milli hərəkata, istiqlal mübarizəmizin və milli müqəddəratımızm taleyinə əvvəlki səthi və qeyri-müəyyən münasibətdən, ictimai-siyasi və milli vətənpərvərlik duyğusunun son dərəcə zəifliyi ucbatından hər cür şayiəyə uyub vahimə içində sarsıntılar keçirməsindən könüllü əsgər səviyyəsinə yüksəlməsi Məşədi Murtuzanın milli oyanışı və milli özünüdərkindən irəli gələn, öz ləyaqətini, vətəninin şərəf və hey-

siyyətini müdafiəyə qalxması prosesinin ustalıqla təsviri hekayənin ideyasının açılmasına layiqincə xidmət edir. Məşədi Murtuzaların əvvəlki vahimə və fərariliklərinin cəsarət, vüqar və vətənpərvərliklə əvəz olunması milli istiqlaliyyətimizin əbədiliyinə və vətənimizin yağı tapdağından azad olunacağına inamımızı artırır. Çünki sosial-siyasi şüuru və milli təəssüb hissi möhkəm olub, öz ləyaqətini dərindən dərk edən xalq yenilməzdir.

Təbii ki, hamının ideya-siyasi və milli-mənəvi inkişafı eyni səviyyədə olmur. Xalqın elə nümayəndələri də olur ki, ətrafında cərəyan edən hadisələrdən qətiyyən baş açmayaraq ona heç etina da göstərmir. Bu cür adamlar öz milli-mənəvi ətalətləri ilə ikraha və tənqidə məruzdurlar ki, «Özü» imzalı «Babidir!...»[1] adlı kiçik bir hekayənin mövzusu budur.

Hekayədə göstərilir ki, bir dəstə adam Naxcıvanın N kəndindən Məşhədə ziyarətə yola düşürlər. Kişi, qadın və uşaqlardan ibarət bu dəstənin üzvlərinin bəzisi maddi cəhətdən imkanlı, bəzisi isə kasıbdır. Məşhəd yolunda uzun əzab-əziyyətə düçar olan həmin adamlardan yolda xəstələnib ölən də olur, ağır maddi böhrana düşən də. Eləsi olur ki, hətta mehmanxana pulunu da neçə aydır yoldaşlarından aldığı borclarla verir. Zəvvarlarla mehmanxanada görüşüb onların acınacaqlı vəziyyətlərindən rəncidə olan cavan indiki halda Məşhəd yolunda çəkilən bu əzab və məhrumiyyətlərdənsə, goyə sovurduqları pulla bir şirkət təşkil edərək, dükan açıb xalqın ağır maddi vəziyyətinin dirçəldilməsinə əməli kömək etməyin daha səmərəli və savab iş olduğunu söylədikdə, onlar bu məsləhəti qəbul etməyərək, üstəlik məsləhət verənin babı olması, ağılsızlığı qənaəti ilə özlərinə və bir-birlərinə təsəlli verirlər.

Bu cür ictimai-milli ətalət və dargozlük Nəcəfbəy Vəzirovun «Dərviş» imzası ilə yazdığı «Naleyi-dərviş»[1] hekayəsinin də tənqid hədəfidir. Hekayədə müəllif ölkəni sarmış aclıq və səfalət günlərində belə öz pul kisələrindən asılı qalan var-dövlət sahiblərini aclıq, soyuq və evsizlikdən əziyyət çəkən vətən övladlarına köməyə çağırır. Üzdə mömün, əsl həqiqətdə isə qaniçən təbiətə malik ağaların iç üzünü açan müəllif üzünü onlara tutaraq deyir:

«Ey dörd-beş kasa xəmiraşı, ya düşbərə yeyib beş-altı dəfə «afiyət olsun» eşidib istirahət edən ağalar, görmürsünüzmü altı-yeddi yaşında cındır libasda soyuqdan titrəyə-titrəyə küçələr divarında pənahlanmış tifilləri?.. Rast gəliblərmi sizə qoca kişilər, dalında cındır yorğan balasının əlindən tutmuş, yanında ayaqyalın övrətləri, qollarında tifilləri?..

« – Ay qardaş! Acıq, allah xatirinə!»

« – Pul istəmirik, bir parça çörək bu tifilə...»

« – Olarmı bir yer ki, bir-iki saata pənahlanaq...»

Eşitmirsinizmi bu nalələri?.. Eşitmisiniz, yəqinimdir. Görmüsünüz bişək! Necə ola bilərdi görmüyəsiniz. O soyuqdan,o acından taqəti kəsilmiş, «yalvarmağa» gücü çatmayan keçənlərə məzlum-məzlum baxan tifilləri ... görmüsünüz. Amma... insaf, mürvət, vicdan sizdə olmuyub. Məişət, dünya, qaraca pul sizdə insanlıq nişanəsi qoymuyub. ...Allah versin, deyib keçmisiniz...

Sübhdən axşamadək alış-verişdə əhalinin nəfsini darıxdırıb birə on qazanırsınız... Barı füqəralara rəhm ediniz!.. Quranınızı yad ediniz...

Mən qana bilmirəm, mümkün olan işdirmi
güşpərəni çırtıldadam,qonşum acından köpük qussun...

Qana bilmirəm, necə rahat yatmaq olar isti
otaqda, biləsən ki,küçədə cındır yorğan altında bərabər arvad, iki tifil titrəşə-titrəşə bir-birinə qısılıb növbə gözləyirlər...»

Yazıçının nalə və fəryad dolu bu vətəndaş yanğısı əhalini çulğayan aclıq və səfalətdən irəli gəlməklə, yalnız özünü milli heysiyyət və düşüncədən məhrum

[1] "El həyatı" jurn., 25 fevral 1918, № 3, c. 11-13

kimsələrin adi insanlıq sifətindən belə uzaq simalarını qarsır, damğalayırdı. Vətəndaşları milli, insani ayıqlığa çağıran müəllif vicdanlarını piy basmış «ağaların» milli ətalət və kəsalətlərindən dəhşətə gələrək fəryad edir:

«Vay, fələk! Kim deyir insafım var?
Ah kifayətdir, Ağa Dərviş!..»

Təqdirəlayiqdir ki, müəllif gördüyü ictimai, millimənəvi eybəcərliklərdən darılıb fəryad etməklə kifayətlənmir. O, «ah kifayətdir!» — deyə oxucuları da mövcud eybəcərlikləri aradan qaldırmaq üçün əməli fəaliyyətə, mübarizəyə səsləyir.

İctimai, mıllı mənəvi bəlaları tənqidlə kifayətlənməyən nəsr mövcud eybəcərliklərin kökünü də axtarmağa cəhd edir. Bu cəhətdən «Ə.» imzalı «Tərbiyə»[1] hekayəsi maraqlıdır.

Hekayənin qəhrəmanı Kərim ağa kübar cəmiyyətdə tərbiyə alaraq, mənsub olduğu xalqın övladlarına yabançı ruhda böyüyür. O, gimnaziyada öxuyanda qapalılıqdan birdən-birə çıxaraq öz yolunu daha da azıb qumara qurşanır. Oxuya bilməyib iki il bir sinifdə qalır. Hər şeyini uduzan Kərim ağa ictimai-milli oyanışdan xəbərsizdir. Hətta inqilaba nifrət edir. Lakin iş elə gətirir ki, inqilab Kərim ağaya var-dövlət bəxş edir; belə ki, sənaye və iqtisadiyyatın millileşməsi ilə əlaqədar millileşdirilən mülkləri müqabilində Kərim ağaya xeyli pul çatır. O, öz məişətini yenidən dirçəltsə də, qumardan əl çəkə bilmir.

Burada oxucuya belə bir ideya təlqin olunur ki, hər bir fərdin milli vətəndaş fəallığı onun tərbiyəsindən asılıdır. Hekayənin adı da bu ideya-bədii məqsədə xidmət edir. Eyni zamanda oxucu vicdani mühakiməyə səslənilərək, bu cür tiplərin layiq olmadıqları mərtəbəyə yüksəlməsi ictimai-siyasi ədalətsizlik kimi damğalanır.

1 "Azərbaycan" qəz.,14 təşrini-sani (noyabr) 1919

Həmçinin hekayədə öz zərərli vərdişindən əl çəkə bilməyən Kərim ağaların aqibətlərinin puçluğuna inam ifadə olunur.

«Tərbiyə» hekayəsindən fərqli olaraq, Ağababa Yusifzadənin romantik-sentimental səpkidə yazdığı «Sınıq qanadlar»[1] romanının qəhrəmanı «Nadir bəstə boylu, girdə sifətli, xumar gözlü və çatma qaşlı» bir uşaqdır. Uşaqlıqdan fitri istedada malik olduğu onun hərəkətlərində, oyun tərzində, yaşıdları ilə münasibətlərində və s. müşahidə olunmaqdadır. Ancaq Nadir atadan yetimdir.

Anası Məryəm isə «Hərçənd sabiqdə böyük bir əqrəbanın nazlı pərvərdəsi isə də, son vaxtlar həmin köməkləri qırılıb puç olmuşdular». Odur ki, bir tərəfdən, ağır maddi ehtiyaca, digər tərəfdən də ərinin vəsiyyətinə görə, oğlunu səkkiz yaşa çatdıqda dəllək yanına şagird qoymaq istəyirdi. Söz yox, Nadir anasının sözünə baxacaqdı. Ancaq dəlləkliyə heç həvəs və marağı yox idi. Fikri-zikri oxumaq idi.

«Yay fəsli başlanıb, xırman yetişmişdi. Məryəm qış azuqəsi yığmaq üçün gedib şəhərin ruhanisindən müstəhhəqlik kağızı aldı, oğlu Nadiri də yanına götürüb kəndlərə zəkat yığmağa yola rəvanə oldu».

Qızmar günəş altında piyada yol gedən ana-bala uzun əzab-əziyyətdən sonra Məryəmin vaxtı ilə evində paltar yuduğu İsmayıl bəyin kəndinə çatırlar. Məryəm mollanın kağızını göstərərək fitrə yığmağa gəldiyini bildirib, İsmayıl bəyin bu işə imkan və şərait yaratmasını xahiş edir.

İsmayıl bəy ziyalı və vətənpərvər, humanist bir adamdır. O, Məryəmə lazımı köməklik göstərməklə yanaşı, onları kənddə həm dincəlmək, həm də öz ailəsinə həyan olmaq üçün bir müddət öz evində saxlayır.

1 "El həyatı" jurn., 1918, № 1,s.10-14, № 2, s. 6-9, №3, s. 8-11

Bura Nadir üçün də rahatdır. O, tezliklə İsmayıl bəyin qızı Münəvvərlə dostlaşır. Bir neçə təsadüf İsmayıl bəyi Nadirin istedad və qabiliyyətindən xəbərdar edir. O, Məryəmdən oğlunu oxumağa verməsini xahiş edərək, təhsil xərcini öz öhdəsinə götürdüyünü bildirir. İsmayıl bəyin təklifi ana-balanı – Məryəm və Nadiri çox sevindirir və təklifə dərhal razılıq verirlər.

Nadirlə Münəvvərin bir-birlərinə bağlanmalarını və qızının öz dostu Nadirlə gününün şən keçməsini nəzərə alan İsmayıl bəy Nadiri öz evində saxlayır. Beləliklə, Nadir üç il Münəvvərlə bir evdə yaşayıb ünsiyyətdə olur. Getdikcə bir-birinə daha yaxından bağlanan və xeyli böyüyüən bu dostlar sevişirlər. Lakin İsmayıl bəyin Canişin idarəsinə verdiyi ərizəyə gələn cavab gənclərin iztirabları üçün zəmin olur; bu cavaba görə, bir həftə müddətində İsmayıl bəy Tiflisə gedib yeni təyin olunduğu xidməti qulluğa başlamalı idi. Onun köç hazırlığı Münəvvərlə Nadirin rahatlığını əllərindən alır. Onların narahatlıq ifadə edən elə ilk hərəkətləri İsmayıl bəyi düşüncələrə qərq edir. Bu barədə əsərdə oxuyuruq:

«...Bu günləri hamının ürəyinə Nadir ayrılığı şikəstəlik verib, İsmayıl bəy özü də Nadir məsələsini necə həll eyləsə yaxşı olar, bilməyirdi. Axırda nahara əyləşmişdilər! Balaca Münəvvər böyük bir səbirsizlik ilə Nadir məsələsinin necə həll olunduğunu düşünmək istəyirdi.

Səbr edəməyib nahar etdiyi bir halda: «Papa, Nadir də Tiflisə getməlidir?» — deyib sual etdikdə İsmayıl bəy guya qəflət yuxusundan ayılıb başqa aləmdə xəyal etməyə başladı. İsmayıl bəy öz-özünə «Münəvvər niyə bu qədər qərarsızlıq edir, hətta adəti üzrə təam da yeyə bilməyib xəyalı pərişandır?».

Bu xəyallar İsmayıl bəyin Nadir məsələsini böylə həll etməginə səbəb oldu.

Nadir iki ildən sonra ibtidai şəhər mədrəsəsini bitirməlidir. Gələcək təhsili üçün də bu mədrəsədən şəhadətnaməsi olmağı onun işlərini yaxşı edər və əlavə, Münəvvər ilə Nadir miyanında (arasında — *A.B.)* bacı və qardaşlıq məsəlində olsa da, bir məhəbbət müşahidə olunmaqdadır ki, axırı yox... Fənalıq verə bilər».

İsmayıl bəy bu düşüncələrlə Məryəm xanımı çağırıb Nadirin öz təhsilini bitirmək üçün burada qalmağının vacibliyini bildirərək, onun bundan sonrakı təhsil xərcini də öz üzərinə götürdüyünü söyləyib, Məryəmdən Nadirin oxuması üçün tələb olunan hər bir işi yerinə yetirməsini xahiş edir.

Göründüyü kimi, Ismayü bəy Nadirin istedadlı uşaq olduğunu görüb, «Bu qədər istedad sahibi bir cocuğu elm feyzindən məhrum etmək böyük bir cəfadır. Necə olsa da, buna bir əncam çəkib məktəbə göndərməlidir» — qənaəti ilə Nadiri məktəbə qoyaraq, onun təhsil və dolanışıq xərcini bütünlüklə öz öhdəsinə götürüb axıradək mövqeyində sadiq qalsa da, Münəvvərlə Nadirin — bəy qızı ilə kasıb balasının sevgisinə, onların gələcəkdə ola biləcək izdivaclarına «axırı yox» bir iş kimi baxır. Onun bəylik izzət-nəfsi ilə ziyalılıq mənəviyyatı qarşılaşanda birinci tərəf - bəylik qururu, bəylik izzət-nəfsi üstünlük qazanır ki,bu da İsmayıl bəyin bir ziyalı vətəndaş kimi hələ tamamilə kamilləşmədiyinə dəlalət edir.

İsmayıl bəyin mənəvi dünyasında olan bu çatışmazlıq dövrün xüsusiyyətindən,cəmiyyətin milli-psixoloji şüur səviyyəsinin hələ kamillikdən aşağı olmasından irəli gəlir. Elə ictimai-milli və mənəvi-psixoloji səviyyədə olan çatışmazlıq sevgililərin nakam taleləri üçün sosial baza rolunu oynayır.

...Bir-birlərindən çox çətinliklə ayrılan sevgililərin iztirablı günləri başlayır. Hər şeydən əli üzülüb ümidsizləşən Nadir Münəvvərin ilk məktublarına cavab yazmır ki, bəlkə sevgilisinin bu vəfadarlığı keçicidir. Lakin özü

dərsdən soyuyub tezliklə yorğan-döşəyə düşür. Münəvvərdən gələn dərin həsrət və iztirab dolu növbəti məktub Nadirdə sevgisinə olan ümid qığılcımlarını artıraraq onu cavab məktubu yazmağa sövq edir.

Nadirin bu halına onun anası ilə yanaşı müəllimləri, məktəb yoldaşları və məktəb həkimi də qəlbən acıyıb vəziyyətdən çıxış yolu axtarırlar. Nadiri diqqətlə müayinə edən həkim onun bədəninin sağlam oldugunu bildirir. Ancaq Nadirin dərdi tamam başqadır. Bu dərdə Münəvvər də mübtəla olub. Hər iki yeniyetmə bir-birlərinin həsrəti ilə qovrulurlar. Bu, onlanın məktublarında da qabarıqlığı ilə görünür. Ancaq təəssüf ki, onların «təqib etdikləri qayənin nədən ibarət olduğunu kəndiləri də düşünməyirdilər. Fəqət ciddi bir cocuqluq, ibtidai cavanlıq məhəbbəti hər ikisini də işğal etdiyini hiss ediyordular. İştə bu haliməchul ilə hər iki tərəf bir nöqtəyə doğru yürüdüklərini görüyordularsa da, nəticəsinin nədən ibarət olacağını heç də düşünməyirdilər».

Burada roman yarımçıq qalır. Onun nə əlyazması, nə də dərc olunduğu «El həyatı» jurnalının davamı (əgər varsa) əlimizdə olmadığı üçün əsər haqqında tam təsəvvür əldə etmək mümkün deyil. Ancaq mövcud hissədən, hadisələrin inkişafından və əsərin adından («Sınıq qanadlar») çıxış edərək sevgililərin talelərinin uğursuzluqla nəticələnməsi qənaətinə gəlmək olar.

Romanın mövcud hissələrindən belə bir ideya da hasil olur ki, zəhmətkeş xalq içərisindən çıxan, həyatın isti-soyuğunu öz üzərində çəkən qabiliyyətli vətəndaşların düzgün əqli və mənəvi inkişafına şərait yaradılarsa, onlar vətənin layiqli övladı kimi yetişə bilər, vətən və xalq yolunda hər cür fədakarlıqdan çəkinməzlər. Əlbəttə, bunun üçün hələlik həqiqi ziyalı və vətəndaş sərvətdarlarımızın ciddi kömək və himayədarlığına ehtiyac

var. İsmayıl bəy məhz bu cür ziyalı vətəndaşlarımızın ümumiləşdirilmiş obrazıdır. Lakin hələlik bu tipli adamlar belə öz bəylik izzət-nəfslərindən asanlıqla aralana bilmirlər. Bu da cəmiyyətdə müəyyən mənəvi-psixoloji problemlərin meydana çıxması ilə nəticələnir.

Gəncliyin, yeni nəslin nümayəndələrinə - Nadirlə Münəvvərə bu sosial-mənəvi və psixoloji fərq anlayışı yad olduğu üçün onlar bütün varlıqları ilə bir-birlərinə bağlanaraq vüsal və səadətə can atırlar. Lakin onların kövrək, hələ bərkiməmiş qanadları mövcud sosial-psixoloji maneə və gərginliyə davam gətirməyə hələ hazır deyil. Ona görə bu qanadlar cəmiyyətdə rast gəldikləri sosial-psixoloji maneələr qarşısında əyilməsə də, sınırlar. Sınıq qanadlı varlıqlar isə cəhalət və ictimai ədalətsizlik məngənəsində ümidsizcəsinə çırpınırlar.

Nadirlə Münəvvərin uğursuz taleyi cəmiyyətdə hökm sürən ictimai, milli və mənəvi çatışmazlıqlara qarşı olan etirazın, üsyanın bədii əksi kimi üzə çıxır.

Dövrün nəsrində sosial-siyasi və milli-mənəvi naqisliklərı daha qüvvətli ifşa edən «Təzə» imzalı «Reminqitonistqalar»[1] adlı hekayədən bəhs etməyə bilmərik.

Ədəbi- ictimai fikrimizdə xalqın ictimai, milli mənəvi inkişaf səviyyəsi, bir qayda olaraq, qonşu xalqlarla müqayisəli şəkildə əks etdirilir. Burada məqsəd «millətlərin yarış və vuruş meydanı olan yer üzündə» (M.Hadi) xalqın ictimai –mədəni tərəqqicə geri qalmasına yol verməməkdir. «Reminqitonistqalar» hekayəsində də bu ənənəni görürük. Əsər ictimai-milli və siyasi cəhətdən yeni mərhələyə qədəm qoyan Qafqaza uzun ayrılıqdan sonra gələn bir azərbaycanlının Ermənistan, Gürcüstan və Azərbaycanda başına gələn əhvalatların təsvirindən ibarətdir. Hekayə qəhrəmanın dilindən nəql olunur. Bu da hadisələrin reallığına, eyni zamanda ideya-bədii keyfiyyətinə əhəmiyyətli təsir göstərir. Hekayənin qəhrəmanı

[1] "Azərbaycan" qəz.,6 təmmuz (iyul) 1919.

Qafqaza qayıdışından aldığı ilk təəssüratı belə nəql edir:

«Qafqazdan çoxdan çıxdığıma görə heç zaddan xəbərim yox idi! Öylə bilirdim ki, Qafqaz genə həmin Qafqazdır; yəni rus qaradavoyu, rus dili və sairə.

Elə ki,təkrar Qafqaza qayıtdım, onda işlərdən xəbərdar oldum; məni hali eylədilər ki, Qafqaz Rusiyadan ayrılıbdır və hər millət özü üçün bir cümhuriyyət düzəldibdir.

Bu əhvalat mənim xoşuma gəldi».

Beləliklə,qəhrəmanın Qafqazda ilk ayaq basdığı cümhuriyyət Ermənistan olur, İş elə gətirir ki, onun idarəyə işi düşür və ərizə yazıb lazımi yerinə təqdim edir. Səhərisi gün məlum olur ki, onun ərizəsinə belə bir «rezalyutsiya» qoyulub ki, ərizən dövlət dilində deyil, rusca olduğu üçün ona baxılmadı. Onun «nə hökumət dili?!"- sualına cavab olaraq bildirilir ki, «o hökumət dili ki, adına Ermənistan deyirlər. Ermənistan hökumətinin də hökumət dili, əlbəttə, ermənicə olacaqdır».

Ermənistandan Gürcüstana daxil olan qəhrəmana burada da ərizə yazmaq lazim olur və o, fikirləşir ki, «...Ermənistan başqa, Gürcüstan başqa. Ermənistan hökuməti daşnaqlardan əmələ gəlir və daşnaqlar da, məlum olduğu üzrə, mütəəssüb millətpərəstdirlər. Madam ki, Xatisovu Xatisyan edirlər, o halda, təbiidir ki, rus dilini də atıb öz dillərini işlədəcəkdilər.

Hərçənd ki, ermənilərin ruslara məhəbbəti baqidir. Və daşnaqlarla «denikinlər»in aşiq və məşuquluq əlaqəsində olduğu müsbətdir, lakin bunun dilə dəxli yoxdur. Bu, rusca bilməyən müsəlman dövlətlilərinin ruslardan aşna saxladığı kibi fəqərəyə bənzər bir işdir.

Amma gürcü hökuməti sosialist hökumətidir; və mən də qabaqlarda öz müsəlman sosialistlərimizdən eşitmişdim ki, sosialistlər üçün millət ayrılığı yoxdur. O halda dil ayrılığı heç ola bilməz. Çünki millətləri birbirindən ayıran ən əvvəl dilləridir».

Bu mülahizə və düşüncələrlə ərizəsini rusca yazıb lazımi idarənin rəisinə təqdim edən qəhrəman Ermənistandan betər bir vəziyyətlə qarşılaşır; rəis ərizənin rusca yazıldığını görən kimi onu qatlayıb sahibinə qaytararaq, özünü də kabinetdən çıxarır. Bayırdakılardan bir nəfər ona başa salır ki, gərək ərizəni gürcücə yazasan. Qəhrəman «Bəs, sosialistlər üçün millət ayrılığı və dil ayrılığı gərək olmasın», — etirazının cavabında ona vəziyyəti başa salan gürcüdən aşağıdakı sözləri eşidir:

«...Onu söyləyən, yəqin ki, sizin sosialistlərdəndirlər, başqalarla işləri yoxdur. Və bir də gürcü kəndlisi və füqərayi-kasibəsi nə bilsin ki, Ruxmin kimdir, Curayev nəçidir. O öz Remişvilisi, öz Çeretelisini tanıyır və dilini də başa düşür...».

Oradan Azərbaycana gələn qəhrəmana, tərs kimi, burada da ərizə yazmaq lazım olur. Hekayənin qəhrəmanı Ermənistan və Gürcüstan cümhuriyyətlərində başına gələn əhvalatlardan belə bir haqlı qənaətə gəlir ki, «hər cümhuriyyətin rəsmi kağızları öz dillərində olmalıdır. Ona görə də ərizəmi türk (Azərbaycan — *A.B.)* dilincə yazıb, lazım olan dairəyə rəvan oldum».

Getdiyi idarələrdə əvvəlkilərdən də betər və dözülməz bir münasibətlə - etinasızlıq və bürokratizmlə qarşılaşan qəhrəman düşdüyü vəziyyəti belə təsvir edir:

«Dedilər ki, nə istəyirsən? Dedim ki, rəisi görəcəyəm. Dedilər, nə üçün? Dedim, ərizəm vardır. Dedilər, ərizəni ver,özün get. Bunu deyib ərizəmi əlimdən aldılar və heç baxmadılar ki, görək nə yazılıb və nə dildə yazılıbdır. Dedim,bəs,cavab üçün nə vaxt gəlim? Dedilər, bir-iki gündən sonra».

Acınacaqlı haldır ki, bu mükalimədə ümumiləşdirilən idarə bürokratizmindən gələn laqeydlik və etinasızlıq bizdə bu gün də davam etməkdədir. Əksər idarələrimizdə insan taleyinə qeyri-insani münasibət elə indi də var. Dövlət məmurlarının əksəriyyəti şikayətçini dinlə-

mədən, onun ərizəsinə heç baxmadan kənara atır. Özün soruşub dalınca düşməyincə verilən ərizənin cavabının nə vaxt olacağı haqda belə heç nə demirlər. Bu, bizim milli-psixoloji bəlamızdır. Şair-jurnalist Mahir Qarayev məqalələrinin birində yazır: «Beş-altı ilin söhbətidir. M.Ə.Sabirin yaradıcılığına həsr edilən bir məclisdə idim. Çıxışçılardan Allah bilir neçəncisi Sabir satirasından ağızdolusu danışandan sonra təmtəraqla qeyd etdi ki, Sabir bu gün də müasirdir və hələ neçə-neçə nəsillərin də müasiri olacaq! Və Allah bilir salonu neçənci dəfə gurultulu alqışlar bürüdü. Hamı çıxışçının sevinc dolu nidasını ümid və sevinclə qarşıladı...

Amma mən başa düşmədim ki, Sabir satirasına cəmiyyətimizin bu qədər ehtiyacı varsa, bu camaat, bu ziyalılar niyə sevinir, nəyə sevinir? Min dəfə alqış Sabirə və min dəfə vay bizim halımıza, vay bizim günümüzə»[1]

Çox-çox təəssüf ki, doxsan il əvvəl yazılan bir hekayədəki ictimai-bədii mənzərə bizim bugünkü həyatımızda yenə öz eybəcərliyi və möhkəmliyi ilə qalmaqdadır. Maraqlıdır ki, Ermənistan və Gürcüstan idarələrində insan taleyinə bəslənən münasibət öz operativliyi ilə rəğbət doğurur. Lakin bunlarla iş bitmir. Hekayə qəhrəmanını, Azərbaycan vətəndaşını öz evində daha dəhşətli və təhqiramiz anlar gözləyir. Milli-mənəvi ləyaqətin düşkünlüyü dərəcəsini görmək üçün aşağıdakı parçaya diqqət yetirək:

«Bir-iki gündən sonra getdim; dedilər ki, hələ ərizənə baxılmayıbdır. Çünki, tərcümə etməyibdirlər. Dedim, siz ərizəyə bəxmadınız, ərizə türkcə (Azərbaycanca - A.B.) yazılıbdır, tərcüməyə ehtiyac yoxdur. Dedilər, elə türkcə yazıldığına görə tərcüməyə ehtiyac

[1] Bax: «Elm» qəz.,7 oktyabr 1989.

vardır; sənin ərizən gərək tərcümə edilə, sonra verilə «Reminqitonistka"ya (dəftərxana işçisi, makinaçı qız, qadın —*A.B.)*, o da onu çap edib sonra rəis cənablarına pişnəhad edə. Dedim, rəis cənabları rusdurmu? Dedilər, xeyr, müsəlmandır. Dedim, öylə isə, görünür, onun türkcə savadı yoxdur. Dedi, rəhmətliyin oğlu, nə boşboğazlıq edirsən? Sən bura göydən düşməmisən, yerdən çıxmamısan, qayda belədir! İndi ki, ərizələr türkcə yazilacaqmış, bəs bu bir düjün reminqitonistqalara biz müftə pul verəcəyik? Onsuz da onların dili üstümüzdə bir arşındır; deyirlər ki, qoy Denikin gəlsin, görün Azərbaycanın başına nə açacayıq! Bəs bu cür adamlara müftə pul vermək olar?! Sən ağlını hara veribsən!? Və bu adamları nə hesab ediyorsan!? Qoy reminqitonistkaların canı çıxsın, işləsinlər ki, aldıqları məvacib də haramları olmasın!

Dedim, bu qədər reminqitonistqa saxlamaq məmləkətin mənafeyi nəzərindən vacibatdandırmı?

Dedi, mən görürəm sən çox uzun danışansan, amma səni xəbərdar edirəm ki, mən də bir kəmhövsələ adamam. Qorxuram ki,sözümüz tərs gələ, aramızda inciklik ola.Məsləhət belədir ki, çıxıb gedəsən!

Gördüm ki, məsləhət pis məsləhət degildir; ona görə çıxıb getdim...»

Reminqitonistqalar və reminqitonistqa kimilər qarşısında göstərilən milli nökərçilik, kölə xisləti ilə öz dilinə, milli mənəviyyatına, vəzifə qorxusuna, şəxsi mənafe naminə arxa çevirən çinovnik xislətli dövlət məmurlarının şovinist əda və hədə-qorxu qarşısındakı hədsiz itaətkarlığı, «göstəriş» və reminqitonistqaları işlətmə tərzi oxucuda ikrah və qəzəb hissi doğurur. Erməni və gürcü milliliyinin dargözlü,özündənrazılıq ədası nə qədər qeyri-insanidirsə, azərbaycanlıların öz milli ləyaqət və şərəfini unutmaq, hətta itirmək dərəcəsinə gələn ifrat «beynəlmiləlçiliyi» ondan da artıq

dözülməz və bağışlanılmaz milli simasızlıqdır. «Reminqitonistqalar» hekayəsində bütün bu bəlaların - Azərbaycan idarələrində indi də hökm sürən bürokratçılıq və etinasızlıq vərdişlərinin, başqalarına isə yersiz, düşüncəsiz, manqurtcasına itaətkarlığın hökm sürməsinin,bir sözlə,milli-mənəvi simasizlaşmaya doğru «inkişafın» sosial-mənəvi və psixoloji səbəb və köklərinin bədii əksini qabarıqlığı ilə görmək olur.

Bütün bunlar göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəsr sosial-siyasi, milli-mənəvi və ictimai-əxlaqi problemlərə cəsarətlə müdaxilə edə bilmişdir. Odur ki, onun mövzu və problematika dairəsi rəngarəng olmuşdur. Lakin toxunulan problemlərin ideya-bədii əksinin dərinliyinə gəlincə, bu əsərlərdə ədəbiyyatın və qoyulan problemin ideya-estetik həllinin hələ istənilən səviyyədə olmadığını qeyd etməliyik. Bütün bunlar mövcud ictimai-siyasi problemlərin və cəmiyyətdə gedən milli-mənəvi proseslərin hələ dövrün ədəbiyyatı tərəfindən dərketmə və mənimsəmə prosesinin yenicə başlanması ilə əlaqədardır. Çünki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni həyatın,yeni düşüncə və yaşayış tərzinin formalaşması hələ təzə başlamış, öz yolunu və istiqamətini kifayət qədər aydınlaşdıra bilməmişdi. Buna beynəlxalq vəziyyətin mürəkkəbliyi, habelə ölkədaxili təsərrüfat həyatının və siyasi vəziyyətin tam qaydasına düşə bilməməsi də təsir göstərirdi. Odur ki, bədii söz hələ daha çox üzdə olub fəal cərəyan edən, dövlətin və xalqın istiqlal ideallarının müqəddəratında mühüm rol oynayan problemlərin mümkün qədər operativ işıqlandırılmasına fikir verməli olurdu. Təbii ki, bütün bunlar yaranan əsərlərin bədii sənətkarlıq xüsusiyyətlərinə, mövzunun ideya-estetik həllinə öz təsirini göstərirdi. Təsadüfi deyil ki, nisbətən üzdə olub, qabarıqlığı ilə nəzərə çarpan milli özünüdərk və milli istiqlaliyyət arzusu və idealından irəli gələn vətənpərvərlik hissi dövrün poeziya və nəsrində

özünün dolğun bədii əksini tapmış, lakin sosial-siyasi problemlər bir növ diqqətdən kənarda qalmış, mənəvi-əxlaqi məsələlərin işıqlandırılmasına isə nisbətən az diqqət yetirilmişdir.

DRAMATURGİYA. Siyasi, ictimai, mədəni yüksəliş, azadlıq hərəkatının güclənməsi, elmin, maarifin təkamülü ilə səciyyələnən bir dövrdə milli ədəbiyyatımız, o sıradan da dramaturgiyamız məxsusi bir şəkildə davam etmişdir. Tarixən çox qısa, lakin ictimai, siyasi və mədəni baxımdan zəngin və sürəkli olan bu dövrdə dramaturgiyanın inkişafında bir cəhət daha qabarıq şəkildə özünü göstərir: zəmanənin tələb və ruhuna cavab vermək - müasirlik. Bu zaman artıq ənənəvi ümumbəşəri mövzular: ailə-məişət, əxlaqi və fəlsəfi, maarifçilik mövzuları bir növ arxa plana keçir; Azərbaycanın gələcək və çağdaş müqəddəratı ilə sıx bağlı olan məsələlər - milli azadlıq hərəkatı, dövlətçilik və müstəqillik məsələləri, istiqlaliyyət arzuları dramaturgiyanın aparıcı mövzularına çevrilir.

Səhnənin inkişafı, əhalinin getdikcə teatra marağının artması həvəskar ziyalıları da pyes yazmağa ruhlandırırdı.

Həvəskarlar tərəfindən qələmə alınmış bəzi yüngül məzhəkələr elə ilk tamaşadan sonra sönür və kəskin tənqidə dözmürdü. Məsələn, Sultan Muradovun «Kəblə Xudu», Əli Qəmbərlinskinin «Vaxtın var» adlı pyeslərinin taleyi belə olmuşdu. «Yeni iqbal» qəzetinin 30 aprel 1917-ci il nömrəsində bu tipli pyeslər haqqında oxuyuruq: «Hürriyyətdən sonra (1917-ci il fevral inqilabı nəzərdən tutulur) Bakıda bir çox pyeslər meydana çıxmışdır. Belə əhəmiyyətli bir zamanda bu kimi əhəmiyyətsiz məsələlərdən bəhs etmək yersiz görünsə də, fəqət, camaatın əfkarına səhnə artıq təsir etdiyindən, əks surətdə əfkarı dəxi də fəallaşdırdığından bu barədə bir neçə söz söyləmək istəyirik: «Kəblə

Xudu» namında iki pərdəli məzhəkənin bir neçə cümləsi çıxıldıqdan sonra tam bir gülünc və yaramaz bir şey idi... Bu kimi pyeslərdən millət bir qəpiklik mənfəət aparmayır, ancaq biçarə tamaşaçılar vaxtını itirəcək...»

AXC-nin qurulması ərəfəsində və yaşadığı qısa bir zaman içərisində Azərbaycanın çağdaş gerçəkliyini göstərən dramaturji irs kəmiyyətcə o qədər də zəngin deyildi. O zamanlar həm bədii, həm də ideya-məfkurə baxımından sönük və zəif olan, meydana çıxması ilə sönməsi eyni vaxta düşən bir neçə əsəri nəzərə almasaq, yaşarı və əhəmiyyətli pyeslərin sayı azdır. Bu dövrdə zamanın keçilməz zəruri və kəskin problemlərinə çevik əks-səda verən müəlliflər içərisində ən fəalları C.Məmmədquluzadə, C.Cabbarlı və Mirzəbala Məhəmmədzadə idi. Maraqlıdır ki, cəmisi 3-4 ildəki ictimai-siyasi dəyişikliklər, kəskin çevrilişlər dövründə tanınmış yazıçı-dramaturqlardan N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov kimi sənətçilər bu illərdə çağdaş mövzularda dram əsərləri yazmamışdılar. Hüseyn Cavid isə ənənəvi mövzulu romantik yaradıcılığını davam etdirirdi.

Yaxın və Orta Şərqdə Azərbaycanla bağlı və sıx əlaqəli şəkildə milli azadlıq, istiqlal mövzusunda - əsər yazanlardan biri C.Cabbarlı idi. Nə yazıq ki, bolşevik ideologiyasının tüğyan etdiyi 1920-30-cu illərdə Cəfər Cabbarlının «Bakı müharibəsi», Mirzəbala Məhəmmədzadənin «Bakı uğrunda müharibə» və başqa bir sıra əsərlər uzun müddət əlyazması halında gizlində qalmış və itirilmişdir.

C.Cabbarlının «Ədirnə fəthi» (1917), «Trablis müharibəsi», yaxud «Ulduz» (1918) pyeslərinin mövzusu Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatından götürülmüşdü. «Ədirnə fəthi» Balkan müharibəsi dövründə türk xalqının istiqlal mübarizəsini əks etdirir. Bu mövzu o dövr üçün yeni deyildi. Asim Hacı Əbdürrəhmanzadənin «Ədirnə müharibəsi, yaxud

qəhrəman Şükri paşa», Rəhim Məhəmmədzadənin «Ənvər bəy, yaxud Kamil paşa kabinəsi), Namiq Kamalın «Osmanlı müharibəsi», Məmmədbağır Əliyevin «Kamil paşa və yeni türklər» adlı pyesləri də eyni mövzuda idi. Lakin bu əsərlərin heç biri davamlı səhnə ömrü yaşamadı. Gənc Cabbarlının «Ədirnə fəthi», «Trablis müharibəsi, yaxud «Ulduz» pyesləri isə uzun müddət repertuardan düşmədi, eyni mövzuda yazılan pyesləri kölgədə qoydu.

1911-ci ildə başlanan İtaliya-Türkiyə və Birinci Dünya müharibəsi ərəfəsində Yaxın Şərqdə, xüsusilə kiçik Asiyada imperialist işğalçılarına qarşı milli azadlıq hərəkatının, istiqlaliyyət ideyalarının işığı altında qələmə alınmış «Ədirnə fəthi», «Trablis müharibəsi, yaxud Ulduz» pyesləri konkret zamanın azadlıq hərəkatı və ideyaları ilə qovuşaraq, Balkan müharibələri hadisələrini də əhatə edirdi.

Gənc türklərin liderləri, o cumlədən C.Cabbarlının «Ədirnə fəthi» və «Trablis müharibəsi» pyeslərində müəyyən mənada rəğbətlə mənalandırılan Ənvər paşa, İzzət paşa kimi tarixi şəxsiyyətlər türk burjuaziyasının hakimiyyətinə nail olmaq üçün istiqlaliyyət, milli mənlik meyllərindən, vətənsevrərlik, hətta dini duyğulardan bəhrələnərək bunları təmsil edən qüvvələri öz xarici və daxili əleyhdarlarına qarşı çevirirdilər. Gənc türklərin başçılıq etdikləri və istiqamətləndirdikləri milli müstəqillik uğrunda hərəkat burjuaziyanın qələbəsi ilə qurtardı və öz dövrünə görə qabaqcıl hadisə idi. İmperialistlər feodal-sultan hakimiyyətinin devrilməsindən (1908) sonra həm iqtisadi və həm də siyasi baxımdan iflasa uğramış, zəif düşmüş Türkiyəni bölüşdürmək planlarını irəli sürür, onun köhnə müstəmləkə ərazilərinə özləri sahib olmağa can atırdılar. İngiltərə Türkiyənin bir sıra Asiya vilayətlərini, Fransa, Suriya və Livanı, İtaliya Trablisi, (indiki Liviya cümhuriyyəti),

çar Rusiyası İstanbulu və körfəzləri, Almaniya isə bütün kiçik Asiyanı işğal etməyə çalışırdı.

Çernoqoriya, Bolqarıstan, Serbiya və Yunanıstandan ibarət olan Balkan dövlətlərinin hakim dairələrinin də Türkiyə ərazisinin bir hissəsində gözü var idi.

Beləliklə, Birinci Dünya müharibəsi ərəfəsində imperialist dövlətlər tərəfindən zəif salınmış, parçalanmış, ərazisinin və mühüm şəhərlərinin, limanlarının çoxu işğal olunmuş Türkiyədə ziyalı və burjua təbəqələri arasında baş qaldıran türkçülük hərəkatı öz mahiyyəti ilə azadlıq, istiqlaliyyət və demokratiya uğrunda bir hərəkat idi.

Türkiyədə milli-azadlıq hərəkatına rəğbət bəsləyən C.Cabbarlı öz ölkəsinin və xalqının istiqlaliyyət və azadlıq yolları barədə düşünür, bədii əsərləri ilə ictimai fikirdə inqilabi vətənsevərlik ideyalarına məhəbbət hissi oyatmağa çalışırdı. «Ədirnə fəthi», «Trablis müharibəsi», yaxud «Ulduz» pyesləri də həmin ideyaların məhsulu idi. Gənc Cabbarlı o zamanlar (1916-1920-ci illərdə ilk tarixi pyeslərini yazdığı vaxtlar nəzərdə tutulur) türk ədəbiyyatının, öncə də Namiq Kamalın qüvvətli ədəbi-mənəvi təsiri altında idi. 1907-ci ildə Namiq Kamalın «Vətən, yaxud Silistrə» və «Röya» əsərləri M.M.Axundovun çevirməsində Gəncədə Hacı Həsənzadə mətbəəsində və Tiflisdə «Qeyrət» mətbəəsində Azərbaycan türkcəsində çap olunmuşdu. 1873-cü ilin 1 aprelində məhz Namiq Kamalın «Vətən, yaxud Silistrə» pyesi tamaşaya qoyulurdu. Əsərin böyük uğur qazanan ilk tamaşası Sultan hakimiyyətini narahat etmişdi. 1873-cü ildə pyesin tamaşaya qoyulması münasibəti ilə məqalə dərc edən «İbrət» qəzeti bağlanmış, Namiq Kamal isə əvvəlcə həbs edilib, sonra məsləkdaşları ilə birlikdə ölkədən sürgün olunmuşdu. «Trablis müharibəsi», yaxud «Ulduz» və «Ədirnə fəthi» pyeslərində mücərrədlik və konfliktsizlikdən yaxa

qurtarmaq üçün Cabbarlı «Vətən, yaxud Silistrə» pyesində epizod şəklində olan övladın valideynləri itirməsi, yaxud qardaş-bacının aralı düşüb bir-birini tanımaması ucundan eşq macərasına düşmələri süjetindən istifadə etmiş və vətən uğrunda müharibə səhnələrini, fərdi taleləri, ehtiraslar və mübarizələrin toqquşması ilə qovuşuq şəkildə təsvir etmişdir.

C.Cabbarlının müsbət qəhrəmanları da Namiq Kamalın qəhrəmanları kimi vətən uğrunda həlak olmağı şərəf sanan qorxmaz, mərd fədailərdir.

Ədirnəni zəbt edənlərə, imperialist işğalına, müstəmləkə zülmünə qarşı türk vətənsevərlərinin vuruşması fonunda milli istiqlaliyyət, azadlıq ideyalarını tərənnüm edən dramaturq bu ideyalara münasibətini qəhrəmanların mübarizəsində, qarşılıqlı münasibətlərində açır. Bu qəhrəmanlar tamamilə aydın və müqəddəs bir vəzifə uğrunda – doğma yurdu yadellilərdən qorumaq uğrunda canlarından keçməyi şərəfli borc bilirlər. Milli istiqlaliyyət savaşının qızğın dövründə darülfünundan könüllü olaraq cəbhəyə yola düşmüş Zəhra və Rüfət belə qəhrəmanlardandır. Döyüş cəbhəsində bir-birini sevən bu gənclərdən şəfqət bacısı Zəhra vətəndaşlıq borcunu və vicdanı təsəllisini «vətən namusu üçün ölümün gözünə süngü kimi soxulan», sevdiyi torpağın müdafiəsi üçün canından keçən gəncləri ölümdən qurtarmaqda, onlara hamilik və qayğıda tapır. O, vətən və xalq üçün müqəddəs olan keyfiyyətləri zabit Rüfətdə görür və onu sevir. Rüfətin məqsədi, amalı isə mücərrəd, dumanlı, çılğın bir ehtiras deyildir. Özünün dediyi kimi, onun məqsədi ümidsizlik və çarəsizlikdən «intihar deyil», vətən uğrunda şərəfli ölümdür. C.Cabbarlının gənc qəhrəmanlarına ruh verən, onları qətiyyətli və dönməz edən fanatizm deyil, aydın və müqəddəs bir idealdır.

C.Cabbarlı qəhrəmanlarının mənəvi aləmini, əxlaqi kamilliyini, həm də ruhi ziddiyyətlərini açmaq, əsərin

süjet əlaqələrini maraqlı etmək, mündəricəni zənginləşdirmək üçün qeyri-adi, bəzən macəraçı məhəbbət intriqalarından da istifadə edir. Sadəlövhlükdən aldanmaq, bilməyərəkdən öz doğma bacısına aşiq olmaq, sevdiyinə çatmaq üçün qarşı-qarşıya, mərdanə döyüşə çıxmaq, yüksək pafos, bəzən çılğınlıq dərəcəsinə gətirən ehtiraslar «Ədirnə fəthi»ni romantik faciə səviyyəsinə qaldırır.

Pyesin mürəkkəb, ziddiyyətli obrazlarından biri Kamildir. Əvvəllərdə cəmiyyətin amansız qanunları, mal-dövlət hərisliyi onu yaman yollara salmışdır. Pul gücünə gözəl bir qıza zorla sahiblənən Kamil, arada həqiqi məhəbbət və mənəvi bağlılıq olmadığından təhqir və rüsvay edilir. Zorla Kamilə arvad edilmiş qız Xalidin qardaşına qoşulub qaçır. Lakin pis əməllərdən peşiman olmaqdansa, Kamil təhqir və rüsvayçılığın əvəzini amansız qisas almaqla çıxmaq istəyir. Onu rüsvay edən nəsildən, ailədən intiqam almaq üçün o itkin düşmüş və bir-birinə tanımadan aşiq olmuş qardaş-bacını uğursuz, rüsvayçı izdivaca sövq etmək istəyir. Zəhranın doğma qardaşı Xalidi hər an izləyib mənəvi təsiri altına salır, hətta satqınlığa və casuslğa cəlb edir. Lakin qəribədir ki, öz günahı ucundan təhqir və rüsvay olunan Kamil də, öz şəxsi məhəbbətinə nail olmaq üçün xalqa xəyanət edən Xalid də tam miskin adamlar deyillər. Xəbis əməl və ehtiraslardan asanlıqla əl çəkə bilməsələr də, onlar mənəvi şikəstlik və qəbahətlərini hiss edib peşiman olurlar. Onlar vətən məhəbbəti, el qeyrəti üçün iş görmək lazım gələndə öz şəxsi mənafelərindən əl çəkib, həqiqəti namusla boyunlarına alırlar. Xalid fitrətdən saf, sadəlövh olduğu üçün Kamilin amansız niyyətini, Rüfət də xəyanət yoluna düşmüş Xalidin məqsədini başa düşmür. Hadisələri gah döyüş meydanında, gah da şəxsi qarşılaşdırmalarda inkişaf etdirən müəllif qəhrəmanlarının daxili aləmlərini, mənəvi sarsıntılarını incəlikləri ilə açmağa çalışır. Həyatın amansız zərbəsini dadmış

Kamil, həm əslində günahı olmayan adamlardan amansız intiqam almaqla ehtirasını söndürmək istəyir, həm də vətən uğrunda canından keçən qəhrəmanların əməllərini yüksək qiymətləndirib, peşimançılıq hissi keçirir, onları xəyanət qurbanı etmək istədiyindən əzab çəkir. Xalid də kimliyini bilməyərəkdən dəlicəsinə vurulduğu bacısını Rüfətə «tərk etməmək naminə» öz əməllərini «qara xəyanət» adlandırır. Lakin o, qəlbini əsir etmiş bir qızın məhəbbəti qarşısında gücsüzdür.

Maraqlı obrazlardan biri də Qalibdir. O, Kamilin oğludur. Xəyanət, cinayət yoluna düşdüyünü bildikdə, o, vətən və xalq naminə öz atasına belə güzəştə getmir.

Hərb səhnələrində müəllifin məhəbbətlə təsvir etdiyi kütləvi bir obraz da vardır ki, bu pyesin baş qəhrəmanı olan və istiqlal savaşına, ölüm-dirim mübarizəsinə qalxan xalqdır. Bu kütləvi obrazı Cabbarlı obrazların dilindən mənalandırır. Rüfət Zəhra ilə söhbətində deyir ki, «...türklər hər bir fəlakəti sakit ürəklə, açıq alınla, soyuq qanla qarşılayırlar. Zəhra, ağlama, türklər ağlamağa adət etməmişlər».

Əlbəttə, bunlar zahirən mücərrəd səslənsə də, əslində söhbət ayrı-ayrı fərdlərdən, qruplardan deyil, məhz xalqdan, yaşamaq və varlıq, ölüm-dirim məsələsi meydana çıxdıqda onu qarşılaya bilmək qüdrətindən gedir. Əvvəllərdən yarımmüstəmləkə və asılı hala salınmış Osmanlı imperiyasının yuxarı təbəqələri öz çirkin mənafeləri ucundan təslimçilik yoluna yuvarlanıb, işğalçılara hər an sülh təklif etməyə hazır idilər. Onlar bu işdə ölüm-dirim mübarizəsinə girişən xalqı yolundan döndərmək üçün ruhanilərin təbliğatından da istifadə edirdilər. Böhranlı dəqiqələrdə müəllif satqın başçılar və səbatsız hərbçilərlə xalqı qarşılaşdırır. Bütün bu səhnələrdə uzağı görə bilməyən, lovğa, şöhrətpərəst xadimlər öz xudbin mənafeləri üçün hakimiyyətə can atmaq naminə xalqın iradəsi qarşısında boyun əyməli

olurlar. Müəllif xalqın mübarizədə əzmkarlığının səbəblərini çox dürüst aydınlaşdırır. Pyesdə mübarizəni qələbəyə qədər davam etdirmək əzminin mahiyyət və səbəbini müəllif Rüfətin dili ilə belə bildirir: «Durunuz, ey qafillər». «Sülh istəyiriz» söyləmək arxasında nə qədər fəlakətlər gizləndiyini bilirsiniz? Siz Ədirnədə məsum türk qızlarının namuslarının hərb cəngavərlərinin kobud əllərində çeynəndiyini görmədiniz?.. Düşmən çarıqları altında səfilanə yaşamaq, rəzalətlə sürünmək üçün sülh istəyənlər, ölümdən qorxanlar evlərində gizlənsinlər».[1] Azadlıq savaşında təslimçi dövlət deyil, məhz xalq qalib gəlir, ölkə imperialist işğalçılarından təmizlənir.

C.Cabbarlının «Ədirnə fəthi»ndən sonra qələmə aldığı «Trablis müharibəsi, yaxud Ulduz» pyesində də eyni dövrün hadisələri təsvir edilir.

«Ədirnə fəthi»ndə müəllif dövrün siyasi hadisələrini, ictimai hərəkatı səciyyələndirən durumu daha qabarıq verməyə çalışır. Burada ayrı-ayrı obrazların, tiplərin baxışları və səciyyəsi ümumi bir ideala yanaşmaqda, daha doğrusu, milli-azadlıq hərəkatına münasibətdə aydınlaşır, «Trablis müharibəsi, yaxud Ulduz» pyesində isə xarakterlərin fərdi cizgiləri daha önəmlidir. Müxtəlif baxışların, xarakterlərin toqquşması və mübarizəsi fonunda müəllif obrazların ictimai mövqelərini, daha dürüstü isə vətənə, xalqa və ictimai ideala münasibət məsələlərini aydınlaşdırmağa çalışır. Pyesdə ziddiyyət və çəkişmələr getdikcə kəskinləşir. Müəllif oxucu və tamaşaçıları bütün hadisələri dərin bir maraq və gərginliklə izləməyə yönəldir.

Ramiz, Ulduz, Haris, Əbdürrəhman kimi gənclərin həyatını, şəxsi keyfiyyətlərini bəzən incəliklərinə qədər göstərən dramaturq sübut edir ki, şəxsi həyatlarında təmiz, pak və mərdanə olanlar, ləyaqət və halal

[1]

zəhmətə tapınanlar, dostluq və yoldaşlıqda sadiq olanlar vətənə və xalqa bağlanıb, ona sədaqətlə xidmət edir, yeri gəldikdə, bu yolda canlarını belə qurban verməkdən çəkinmirlər. Xəbislər, namərdlər, dostluq və yoldaşlıqda xəyanət və hiyləgərlik yolunu tutanlar vətənə və xalqa da xəyanət edirlər.

Əsərin obrazlarının əksəriyyəti könüllü surətdə vətənin müdafiəsinə qalxan, xalq içərisindən çıxmış ərəblər və türklərdir.

Kiçik yaşlarından hiyləgərlik yoluna düşən Haris öz ata-anasını, bacısını şəxsi məqsədi yolunda məhv etməyə qədər alçalır. O, vərəsəlik hesabına mənsəbə çatmaq üçün qardaşlarını xaincəsinə boğub öldürür. Sonra isə paşa qızı, gözəl Ulduza sahib olmaq üçün öz yoldaşı Ramizə xəyanət edir. Əbdürrəhman da Haris kimi ərəbdir. Lakin o, tamamilə Harisin əksinə olan bir adamdır. Haris onu xəyanət və cinayət yoluna çəkmək üçün milliyyətçilik, təəssübkeşlik hisslərindən istifadə etmək istəyir. Lakin o, bir insan kimi şərə qarşı mərdanəlik, səmimilik bayrağını uca tutur. Onun aləmində milliyyətindən asılı olmayaraq, kim olursa-olsun, məzlumları zalimlərdən müdafiə etməlidir. O, Haris kimi qaçaqçılığa bir quldur niyyəti ilə deyil, «zülmə qarşı cəza vermək üçün», «müdafeyi-məzluman heyəti» düzəltmək üçün qoşulmuşdur.

Əsərin əsas ideyası Ulduz - Ramiz xətti ilə inkişaf etdirilir. Bir paşa qızı olan Ulduz «sultan saraylarında şahzadələr tərəfindən həsrəti çəkilərkən» əsl fədakarlıq göstərib, özünü sevgilisi Ramizə həsr edir, doğma ata-anasından ayrılıb, ona qoşulur və bütün çətinliklərə sinə gərir.

Ramiz də Ulduz kimi mərdanə, həqiqətsevər və bütün münasibətlərdə sədaqətli bir gəncdir. Vətən yolunda ölümə belə hazır olan bir əsgər olmaq istərkən, məhəbbət onu quldur adı daşımağa, mağaralarda

yaşamağa məcbur edir. O, məzlumların himayəçisidir və özü dediyi kimi, «zalimləri çapır, zənginlərdən alıb yoxsullara verir». Lakin xalq arasında yaman ad daşıması, quldur adlandırılması onun qəlbini sıxıb əzab verir: «Əməlimizə baxan varmı? İnsanlara mələklər qədər məhəbbət, peyğəmbərlər qədər yaxşılıq edirsən, yenə bizə quldur deyirlər. Namuslu bir adama da bir dəfə quldur dedilərmi, həmişəlik vicdan əzabına düşməsi üçün yetər» - deyir.

Ramiz həm də sadəlövhdür, tez aldanır və hissiyyata qapılır. Haris xəyanət və hiyləgərliklə onda Ulduza qarşı şübhə, qısqanclıq hissi oyada bilir. Hiyləgərlik qurbanı olan Ramiz və Ulduz uzun müddət birbirindən aralı düşüb, min bir əzaba qatlaşmalı olurlar.

C.Cabbarlının gənc qəhrəmanlarının başlıca keyfiyyətlərindən biri də vətəndaşlıq qürurudur. Ramiz, Xalid kimi gənclər ölkəyə basqınçıların hücumu zamanı «vətən yolunda, mübarizə meydanında vicdanla ölmək» üçün and içirlər».

«Ədirnə fəthi» pyesindən fərqli olaraq, «Trablis müharibəsi» pyesində müəllifin qəhrəmanları daha ehtiraslı və həyəcanlıdırlar. Onlar bəzən ehtiraslı pafosla romantik duyğulu mühakimələr yürüdür, bəşəriyyət, insanlıq, mübarizə, əxlaq və mənəviyyat haqqında məntiqi nəticələrə gəlirlər. Dramaturq çeşidli zümrələrdən və millətlərdən olan adamları böhranlı anlarda savaş meydanında, döyüş səhnələrində qarşılaşdıraraq bu nəticəyə gəlir ki, bütün millət, qövm və nəsillərdə yaxşı və pis, mərd və xəbis adamlar vardır. Sınaqlar, həyatın ibrət dərsləri, bəzən adamları pis əməllərdən döndərir, bəzən də mayasında xəbislik olan adamlar heç zaman, hətta ölüm qorxusu altında and içib tövbə dedikləri vaxtda da pis əməllərindən, qara niyyətlərindən əl çəkmirlər; Haris belələrindəndir. O, məqsədi naminə rəqiblərindən elə bir intiqam almaq istəyir ki, «yəhudilərin İsaya, Fironun Musaya, Şəddaddın Əbu Həzəqə» eyləmiş olduqları zülm onun yanında bir heç olsun.

Müəllif xain, xəbis Harisi bütün hiyləgərlikləri, mürəkkəbliyi ilə açır, onu müxtəlif, rəngarəng çalarlarda göstərir. Lakin hadisələr nə qədər gərginləşsə də, böhran səviyyəsinə qalxsa da, həqiqət xəyanət üzərində qələbə çalır. Haris həm Ulduzu, həm də Ramizi həlak etmək istəsə də, özü tələyə düşür.

Gənc C.Cabbarlının qəhrəmanları fədakar və mübariz olsalar da, həqiqətin gözünə açıq baxsalar da, eyni zamanda ülvi bir xəyalın şəfəqlərində qızınırlar. Bəzən onlar, «Ədirnə fəthi»ndə olduğu kimi, özlərini qəzanın, taleyin qucağına atıb, «Allah alnımıza nə yazıbsa, o olacaq» deyə təskinlik tapırlar. Bəzən də düşmən əlində əsir olduqları və hər an ölüm gözlədikləri məqamlarda belə, sarsılıb göz yaşları tökmür, yalvarıb aman diləmirlər. Ramiz Türkiyəyə göz dikən işğalçıların və xain Harisin əsiri olduğu vaxt düşmənlərin mühitini «ədəbsiz», özlərini isə «qorxaq tülkülər», «qolubağlı bir mübarizin» izzət-nəfsini tapdalayan alçaqlar adlandırır. Ramiz bəzən böhranlı anda Allaha belə üsyan edib deyir: «Allahın yaranmışlarına böyük minnətlərlə verdiyi dirilik bundanmı ibarətdir?».

Pyes xeyirin şər üzərində, sülhün və əmin-amanlığın müharibə kabusu üzərində qələbəsi ilə bitir. İşğalçılar ölkədən qovulur, şəhərlər düşmən ordularından azad edilir. Əzab çəkən qəhrəmanlar qələbə sevinci ilə gülümsəyirlər, sevgililər qovuşurlar.

Tənqidçi Seyid Hüseyn 1919-cu ildə «Ədirnə fəthi» pyesinin tamaşası münasibətilə yazdığı məqaləsində əsərin bədii metodu və obrazlarının qeyri-adiliyi məsələlərinə toxunmuşdur. O yazırdı: «...Romantik müəlliflər heç bir qanuna tabe olmaq istəməzlər. Onların

şəxsi zövqləri onlar üçün qanundur. O, öz düşüncə və mühakiməsində sərbəstdir. Onlar hər şeydə gözəlliyi güdərlər. Bu yolda hissiyyati-tərbiyəyə namütənahi bir surətdə qapılarlar.

...Cəfər Əfəndinin «Ədirnə fəthi» əsərini müəyyən etmək bir qədər güclüdür. Zira o nə romantik, nə də həyatın üryan («çılpaq») tamaşasından zövq alan realistdir. Daha doğrusu, bir az naturalist kibi görünür».[1]

Seyid Hüseyn pyesin romantik əsər olduğunu əsaslandırmaq üçün qəhrəmanların qeyri-adiliyini, hədsiz hissiyyatla hərəkət etdiklərini dedikdə bəlkə də haqlı idi. Lakin hər cür ibrətli əhvalat, macəra, romantizm üçün əsas şərtlər deyildir. O, əsərin qəhrəmannlarından biri olan Kamilin şəxsi intiqam almaq üçün müxtəlif hiylələrə əl atmasını «realist», Zəhra ilə Xalidin qardaş-bacı olduqları halda, aralı düşüb, bilməyərəkdən birbirini sevdiklərini, «romantik olmağın» şərtləri kimi mənalandırır.

Həm «Ədirnə fəthi», həm də «Trablis müharibəsi» pyeslərində müəyyən tarixi hadisələri, xalqın azadlıq, milli istiqlaliyyət uğrunda mübarizələri əks etdirən Cəfər Cabbarlı bədii təxəyyülün məhsulu olan obrazlarla bərabər Ənvər paşa və İzzət paşa kimi tarixi surətlər də yaratmışdır. Ənvər paşa və İzzət paşa kimi tarixi şəxsiyyətlərin, gənc türklərin burjua liderlərinin öz mənafeləri, hakimiyyət uğrunda mübarizə naminə xalqın istiqlaliyyət hərəkatından faydalanmağa çalışdıqlarını həqiqətə uyğun şəkildə vermək C.Cabbarlının milliyyətçiliyinə deyil, realizminə dəlalət edir. 1916-1917-ci illərdə pyeslərin qələmə alındığı vaxtlarda gənc türklər hərəkatının tanınmış lilerlərindən biri Ənvər paşa haqqında gənc Cabbarlının məlumat və təsəvvürü o zamanlar məhdud və dumanlı idi. O, hər iki pyesində

[1] Kazımoğlu: «Ədirnə fəthi», Açıq tənqid. «Azərbaycan» qəz., 1919, avqust, № 253-254

Ənvər paşanı «qəhrəman», «Osmanlı imperatorluğunun» «şanlı-şövkətli əzəməti» ilə öyünən, milli azadlıq uğrunda «mücahid», başqa xalqlara hörmət edən «beynəlmiləlçi» kimi təsvir edir. Ənvər paşa işıqlı, parlaq, mərdanə qəhrəmanlıqları ilə dolu ömür yolu ilə yanaşı, həm də ziddiyyətli bir şəxsiyyətdir. Özünün şöhrətpərəstliyi, intriqabazlığı, bonapartçı ədası ilə Ənvər paşa Türkiyədə «napoleonçik» ləqəbi qazanmışdı (Əli Nazim).

C.Cabbarlı özü «Trablis müharibəsi» pyesini faciə adlandırırdı. Gərgin mübarizələrdən, məhrumiyyətlərdən sonra hadisələr müsbət bir sonluqla, xeyirin, ədalətin təntənəsi ilə bitir və şən, gümrah bir ovqat yaradır. Əsərin əsas, özü də mənfi obrazlarından biri - Haris etdiyi «zülmlərə qarşı cəza» olaraq həlak olur.

Əlbəttə, hər bir dramatik əsərdə tragizmin dərəcəsi yalnız tökülən qanların çoxluğu, həlak olanların sayı ilə təyin edilmir. Tragizm konfliktin öz təbiətindən, əsərin əsas qəhrəmanlarının düşüncə və əməllərinin ziddiyyətlərindən doğur. «Ədirnə fəthi»nin əsas obrazlarında, onların mübarizələrində məqsədi, amalı uğrunda çarpışmaq əzmi ilə onu reallaşdırmaq arasında uçurum yoxdur. Əksinə, şərait, hadisələrin inkişafı qəhrəmanlara işıqlı ideala çatmaq yolunda uğurlu bir imkan yaradır.

1916-17-ci illərdən yazmağa başladığı «Anamın kitabı» dramını Cəlil Məmmədquluzadə 1919-cu ildə Azərbaycanın istiqlaliyyət qazandığı bir dövrdə tamamlayır. «Anamın kitabı» Vətənin tarixi dövlətçilik müqəddəratı mövzusu ilə sıx bağlı olan bir əsərdir. Nə yazıq ki, milli dramaturgiyanın şah əsərlərindən olan «Anamın kitabı» çağdaş günlərə qədər layiqincə qiymətləndirilməmişdir. Bolşevik ideologiyası bu əsərin böyük bəşəri və əbədi idealını açmağa imkan verməmişdir. Daha faciəli cəhət bu idi ki, 1920-30-cu illərdə C.Məmmədquluzadə yaradıcılığını təhlil edən

bəzi müəlliflərimiz «Anamın kitabı»nda eqoizm, dildə, şüurda millilik axtararaq onu ləkələməyə, kiçiltməyə, gözdən salmağa çalışmışlar.

Milli istiqlal, dövlətçilik ideallarının reallaşdığı, ərəfədə gənc C.Cabbarlı qardaş türk xalqının və onun vətənsevər övladlarının istiqlal savaşından nümunə və ibrət götürməyi bədii baxımdan mənalandırmağı məqsəd seçmişdisə, C.Məmmədquluzadə bu əzəli və əbədi mövzunun - istiqlal və dövlətçilik idealının mənəvi və ideoloji cəhətlərini yüksək bədii-dramatik yöndə mənalandırmışdı. Böyük dramaturqun mənalandırdığı ali məqamlar və məqsədlər o idi ki, istiqlala, sərhədləri pozulmaz müstəqil dövlətçiliyə yalnız fiziki güclə, çoxsaylı ordu ilə, silahla çatmaq və onu qoruyub yaşatmaq olmaz. Milli istiqlalın, müstəqilliyin ali şərtləri milli-mənəvi ideal birliyi, özünü dərk etmək və millətlər, xalqlar arasında öz məqamını düzgün seçməkdir.

Dramatik əsərin bütün tələblərinin yüksək bədiiliklə həll edildiyi bu əsərdə bir ailə və onunla bağlı olanların timsalında bütöv bir cəmiyyətin, xalqın çağdaş mənəvi, əxlaqi, psixoloji durumu heyrətamiz sənətkarlıqla açılır.

«Anamın kitabı» pyesi həm Azərbaycan dramaturgiyası, həm də C.Məmmədquluzadə yaradıcılığında yüksək mövqeyi olan dərin mənalı, bədii baxımdan kamil bir əsərdir. Məzmunu, gərgin dramatizmi, bədii ümumiləşdirmə gücü, siyasi və ideoloji mövqeyi ilə çağdaş keyfiyyətlərə malik olan «Anamın kitabı» dramı məhz «Molla Nəsrəddin» ideallarının, C.Məmmədquluzadə demokratizminin bədii təcəssümüdür.

«Anamın kitabı» ictimai-siyasi hadisələrin mürəkkəb və böhranlı bir dövründə, Rusiyada bolşevik çevrilişindən sonra Azərbaycan xalqının tarixi müqəddəratının, azadlıq, istiqlaliyyət arzularının bir problem kimi qarşıda durduğu vaxtda qələmə alınmışdır. Bu elə bir zaman idi ki, çağdaş mürəkkəb hadisələr ziyalılardan ciddi fikir yürütməyi, öz mövqelərini açıq və cəsarətlə bildirməyi tələb edirdi. Bəzi nüfuzlu ziyalılar milli şüurun oyanmasına və inkişafına istiqamət verə bilmir, çarizmlə sazişə girmək meylləri yabançı ideyaların, təmayüllərin ölkədə yayılmasına şərait yaradırdı. Bəziləri isə müxtəlif məsləklərə, məfkurələrə meyl göstərirdilər. Və yaxud fikri başlıca məqsəddən yayındırıb mənasız sözbazlıqla beyinləri dumanlandırır, xalqı çaşbaş salırdılar. Şərq ölkələrində təhsil almış bəzi ziyalıların rus əsarətinə qarşı müəyyən narazılıqları olsa da, bu hal giley-qeybətdən uzağa gedə bilmir, nə çarizmə, nə də başqa yabançı qüvvələrə qarşı qüvvətli, ardıcıl hərəkata çevrilə bilmirdi. Tarixi dövrün belə bir mürəkkəb çağında, milli müqəddərat məsələsinin qarşıya kəskin düşüncəli şəkildə qoyulduğu bir vaxtda qələmə alınan «Anamın kitabı» bütün xalqı, milli ziyalıları, fürsəti əldən vermədən istiqlal fikri, vətən və vətəndaşlıq amalı ətrafında birləşməyə çağırırdı.

«Anamın kitabı»nda hər hansı fəaliyyət, əməl haqqında ümumiləşdirici, yekunlaşdırıcı fikir, qiymət hadisələrinin öz mahiyyətindən, inkişafından doğan məntiqi nəticədir.

Böyük demokrat pak, nəcib xəlqi xüsusiyyətləri qoruyan və əbədiləşdirən adamların halal zəhmət yolunu satqınlara, məsləksizlərə, müftəxorlara qarşı qoyur. «Anamın kitabı» məfhumu Azərbaycan türklərinin həqiqi istiqlaliyyətə qovuşmaq arzularını, əzmini əks etdirən dərin *rəmzi məna* daşıyır. Müəllif belə bir fikri aşılayır ki, xalqı işıqlı yoldan, əzəli arzulardan, uğurlu səmtdən sapdıranlar, yadlara xidmət edənlər məhv olmalıdırlar.

«Anamın kitabı»nda Azərbaycan xalqının müqəddəratı ilə bağlı olan tarixi ədalətsizlik, faciəvi şəkildə parçalanıb, ayrı düşmüş bir xalqın birləşməsi, demokratik bir quruluşa qoşulması kimi ali bir ideya yüksək bədii ümumiləşdirmələrdə mənalandırılmışdır.

Tarixi inkişafın ziddiyyətli, tələtümlü bir çağında ucqar müstəmləkə Azərbaycanda xalqı təmsil etmək iddiasında olan milli ziyalılar vahid bir məslək ətrafında birləşə bilmirdilər, çox zaman da bir-birlərinə qarşı dururdular. Rusiya, Türkiyə və İranın müəyyən nüfuz dairələrini təmsil edən, müstəqil yolu, məqsəd və əqidə birliyi olmayan satqın ziyalılardan başqa, bunlara və hər cür irticaya qarşı duran, xalqın taleyi ilə bağlı olan məsələlər, ideyalar ətrafında düşünən, mübarizə aparan mətin ziyalılar dəstəsi də var idi. Bunlardan biri, mollanəsrəddinçilər ədəbi-ictimai hərəkatının başçısı, «Anamın kitabı»nın müəllifidir. Məhz bu əsərdə ədib müstəmləkə zülmünü, doğma xalqının azadlıq və istiqlaliyyətinə qarşı çevrilmiş yad təsir və ideyaları, bu ideyaların əsiri olanları ifşa etməklə, milli birlik və müqəddərat məsələlərini orijinal bədii vasitələrlə, yüksək pafosla, dərin lirizm və emosionallıqla təsvir etmişdir. «Anamın kitabı»ndakı realizmin qüdrəti yadları təmsil edənlərin, düşmən dəyirmanına su tökənlərin xalqdan uzaq olduqlarını və nəticədə xəyanət yoluna yuvarlandıqlarını bədii yüksəklikdən sübut etməsindədir. Əsərdə yadlaşmış ziyalılar Əbdüləzimin oğlanları - Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahid onların «məsləkdaşları»nın timsalında ifşa olunurlar.

Müəllif əsas obrazların daxili aləmini, mahiyyətini açmaq üçün ümumiləşdirici, məcazi mənalar daşıyan bədii vasitələrdən istifadə etmişdir. Bunlar özlüyündə bilavasitə müəllif müdaxiləsi olmadan, qeydsiz-şərtsiz hər bir obrazı tamamlayıb, onun real sosiyyəsini yaratmağa imkan verir. Əsərdə yadlaşmış ziyalıları ifşa etmək məqsədi ilə müəllifin təsvir etdiyi əsas «sınaq meydanı» onların fəaliyyətinin mərkəzləşdiyi xeyriyyə cəmiyyətidir.

Təmtəraqlı nitqlər, «ümidli vədlər»lə dolu olan zadəgan-meşşan xeyriyyəsinin mahiyyəti göstərir ki, bu yalnız müftəxor, yalançı millət qəhrəmanlarının hiylə, sui-istifadə, riyakarlıq mərkəzidir.

Cəmiyyətin fondunda toplanmış vəsaiti «bal» qonaqlıqlarına, əyləncələrə sərf edən «millət vəkilləri» biriki ac dilənçini əliboş, gözüyaşlı yola salmalı olurlar. Bu səhnənin təsvirində dərin bir komizm, mahiyyəti sarsıdan kəskin ironiya-satira nümayiş etdirilir və «millət qəhrəmanları»nın iç üzü - gülünc mahiyyəti açılıb göstərilir.

Müəllif sübut edir ki, millətin taleyini belələrinə etibar etmək cinayətdir. Məhz bu kimi məsələlərin qoyuluşunda Azərbaycan demokratları ilə mühafizəkarların məslək fərqini, yol və ideal ayrılığını seçmək, mahiyyətini saf-çürük etmək mümkündür.

Çarizmin milli müstəmləkələrdə hansı məsələlərdən ehtiyat etdiyini göstərmək üçün müəllifin seçdiyi üsul çox maraqlıdır. Çar polisi üç «ziyalı» qardaşın - Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahidin fəaliyyətindən şübhələnib evlərində axtarış aparmağı qərara alır. Sanki o bitərəfdir, məsələlərin məna və istiqamətinə biganədir. Lakin bu zahiri cəhətdir. Əslində çarizmi təmsil edən nümayəndə - senzor Mirzə Cəfər bəyin nitqində bu məsələlər bilavasitə açılır. Senzor üzünü guya «şübhəli» şəxslərə tutub deyir: «...Sizin bir para bədxahlarınız hökumət nəzərində sizi belə qələmə veriblər ki, siz üç qardaş sözbir və həmfikir olmusunuz ki, əvvəla, Rusiya islamlarını Türkiyə dövlətinə tərəf çəkib, ittihadi-müsəlman cəmiyyətində iştirak edəsiniz. Saniyən, axır zamanlarda Azərbaycanda əmələ gələn Hübbi-vətən və Ədəmi-mərkəziyyət firqəsinin amalı yolunda çalışmaqdasınız ki, bir tərəfdən, Qafqaz Azərbaycanını, digər tərəfdən, İran Azərbaycanını ki, ibarət olsun Təbriz, Gilan, Osmanlı və İran Kürdüstanı, Urmu və qeyriləri - bu vilayətləri bir-birinə ilhaq edib, müstəqil Azərbaycan hökuməti əmələ gətirəsiniz və salisən bu fikirdən də uzaq deyilsiniz ki, müsavat və hürriyyət əsaslarını kəndli və əhli-kəsəbə içində mün-

təşir edirsiniz ki, min il yuxuda olan camaat hökumətin əsarət zəncirini qırıb, özləri üçün bir nicat yolu tapsınlar və həmin niyyətlərinizi əmələ gətirmək yolunda lazımi mətbuat cəmləyib, qələm ilə çalışmaqdasınız. Məhz bu səbəbdən siz üç qardaşın cəmi kitablarını bu saat gərək təftiş edək».

Lakin qardaşlar və onların «məsləkdaşları» senzorun çıxışında ifadə olunan azadlıq və hürriyyət meyllərindən, siyasi ayıqlıq-sayıqlıqdan, milli istiqlaliyyətdən və birlik uğrunda fədakarlıq göstərmək kimi böyük ideallardan uzaq adamlardır.

Qardaşların bütün kitabları, sənədləri yoxlanıldıqdan sonra, müəllifin təbirincə aydın olur ki, bunlarda «...Hökuməti-aliyyənin politikasına xətər yetirən mətləblər tapılmadı». Əksinə, senzor bu qardaşları çarizm üçün «...ən səlamət və zərərsiz bəndələr cümləsində» hesab edir.

«Anamın kitabı» məfhumu altında ümumiləşdirilmiş böyük rəmzi, məcazi məna əsərin başlanğıcından sonuna qədər bütün hadisələrin təhlilindən çıxarılan əsas mənaya çevrilir. Finalda Gülbaharın «...Adamlar niyə hərə bir yana gedir, hamısı bir yerə getmir?» sualı dərin məna ifadə edir. C.Məmmədquluzadənin öz həmvətənlərinə, xalq və millət yolunda çalışanlara arzu etdiyi yol «Anamın kitabı» məfhumunda mənalandırılan yoldur. Bu vətənin, xalqın azadlıq və istiqlaliyyəti, müstəqilliyi uğrunda çarpışmaq, «bərabərlik və hürriyyət əsaslarını kəndli və əhli-kəsəbə işində müntəşir» etdirmək, «min il yuxuda olan camaata hökumətin əsarət zəncirini qırıb» atmaqda nicat yolu göstərmək, bu uğurda qələm ilə çalışmaq və s. kimi müqəddəs arzulardır.

«Anamın kitabı»nda ağıllı, sağlam vətəndaş, kamil insan olmuq üçün halal zəhmət, səmimiyyət vacib şərtlərdən sayılır. Sadə, zəhmətkeş çobanlar - Qənbər, Qurban və Zaman hər cəhətdən yadları yamsılayan, alayarımçıq, meşşan, yadlaşmış ziyalılardan üstün tutulur. Çobanların ana dilində danışdıqları da təsirli, ibrətamiz və səmimidir. Doğma vətənin və onun gözəlliklərinin rəmzi olan Ana və Gülbahar meşşan «ziyalı» qardaşların danışıqlarından, «nitqlərindən» heç bir mətləb anlaya bilmədikləri halda, çobanları həvəslə dinləyib, onların nəğmə kimi şirin, anlaşıqlı dillərindən hədsiz zövq alırlar.

C.Məmmədquluzadə yaradıcılığına xas olan ümumiləşdirmə və kütləvi xasiyyətnamə «Anamın kitabı» dramına da xas olan xüsusiyyətdir. Daha doğrusu, əvvəlki pyeslərdə olan monumentl obrazlılıq bu əsərdə də özünü göstərir. Əlbəttə, bu əsərdə də hər bir obrazdan ayrıca danışmaq olar. Lakin bir-birindən təcrid etmək mümkün olmayan obrazların heç biri ayrıca tip səviyyəsinə qaldırılmır. Əsərdə qruplaşmış – kütləviləşmiş obrazların toplusundan bəhs açmaq daha məqsədəuyğundur. Ayrı-ayrı obrazların hər birində təcəssüm edən konkret əlamətlərin toplusu ümumiləşmiş, monumental «obrazovannı» - burjua obrazını tamamlayır. Peterburqda universitet təhsili görmüş Rüstəm bəy özünü rus mdəniyyəti və tərbiyəsinin tərəfdarı və təbliğatçısı kimi aparır. Onun əsas fəaliyyəti «cəmiyyəti-xeyriyyə»nin iclaslarında sədrlik etmək və lüğət yaratmaqdır. Digər qardaşlarına nisbətən zahirən mədəni, ailədə «sərbəstliyin» tərəfdarı olan, özünə «tənqidi» yanaşan Rüstəm bəy əslində məsləksiz meşşandır. Bu obraz yazıçının «Molla Nəsrəddin»də hələ əvvəllər «bizim obrazovannılar»[1] adlı felyetonunda lağa qoyulan «ziyalı» tipini xatırladır. Öz ana dilini bilməyən Rüstəm bəyin lüğət yazması da gülüncdür, dərin bir komizm doğurur. İctimai həyatda Rüstəm bəy öz-özünü daha mənalı səciyyələndirir: «Hələ indiyə kimi xalq bir şeyi başa düşmürdü. İndiyə kimi

[1] «Molla Nəsrəddin», 1906 №2

xalq deyirdi: Mərhaba Əbdüləzimin oğlanlarına! Maşallah! Biri Peterburqda elm təhsil edib, biri İstanbulda, biri Nəcəfül-Əşrəfdə. Üçü də, maşallah, oxuyub alim olub. Amma bundan sonra ağızlarda söylənəcək ki, haman üç alimin biri xüsuf-küsuf duası yazır, biri məfailün-failatün; biri də... vallah, mən özüm də heç başa düşmürəm ki, mən nəçiyəm».

Ümumiyyətlə, yazıçının məqsədi budur ki, belə ziyalılar aldıqları təhsil və tərbiyə nəticəsində xalqdan büsbütün uzaqlaşmış, anlaşılmaz və tanınmaz hala düşmüşlər. Xalq da belələrinə acı-acı gülür.

Dramın üçüncü və dördüncü pərdələrində eyni atanın, eyni ana və vətənin, eyni xalqın övladları olan üç qardaş arasında əqidə fərqlərindən irəli gələn təzad getdikcə dərinləşərək ailənin dağılması ilə nəticələnir. Bir ailənin və onun əhatəsinin simasında dağılma, yadlaşma, pozulma prosesi özü də böyük, dərin bir mətləbə işarədir. Xalqı təmsil etməli olan ziyalıların yad, zərərli, düşmən məfkurələrinin təsiri altında yadlaşması ümumxalq mənafeyini, cəmiyyətin tərəqqi və istiqlaliyyətini təhlükə altına salır. Pyesdə Gülbahar və çobanlar rəğbət və məhəbbətlə, lirik-emosional üslubda təsvir olunur. Ana və Gülbahar dərin rəmzi məna daşıyan ümumiləşdirici obrazdır. Bunlar, hər şeydən əvvəl, doğma vətənin - Azərbaycanın, onun əzəli və gələcək varlığının, mövcudluğunun rəmzidirlər. Ana, atanın vətənə və xalqa sədaqət, əqidə birliyi haqqında müqəddəs vəsiyyətlərini bütün ruhu ilə qoruyub saxlayır. Onun xoşbəxtlik və səadəti bu müqəddəs vəsiyyətlərin qorunub bərqərar olunmasında, bədbəxtlik və faciəsi isə vətən və xalqçılıq örnəklərinin unudulmasında, pozulmasında və övladlarının bu yoldan sapıb yadlaşmasındadır. Oğlanların bu doğma yoldan çıxıb, xəyanət yoluna düşmələri, ayrıseçkilik salmaları anani qorxuya salır, sarsıdır.

Gülbahar müəyyən savada malik olan, namuslu, səmimi, xalqın, vətənin müqəddəratını, taleyini dərindən düşünən, eyni zamanda ciddi əzmkarlıq və qeyrət göstərən bir qızdır. O, ata-anasını, doğma qardaşlarını sevdiyi kimi, vətənini və xalqını bütün varlığı ilə sevir, qəlbən ona tapınır. Tüfeyli, meşşan, qeyrətsiz qardaşlar vətənin müqəddəratına, xalqın taleyinə yad olduqları halda, Gülbahar yadlaşmanın təhlükəsini vaxtında anlayır və onun qarşısını almağa çalışır.

«Anamın kitabı»nda qarşılaşan, biri digərinə daban-dabana zidd olan iki monumental-kütləvi obraz vardır. Bunlardan biri xalqı, onun tale və müqəddəratını, gələcəyini, yüksəliş və istiqlaliyyət arzularını, mübarizə əzmini göstərən obrazlar toplusudur ki, onun bütövlüyündən hasil olan monumental obraz xalqın özüdür.

İkinci monumental-kütləvi obraz yadlaşmış, xalq üçün düşmənə çevrilmiş, başa bəla «obrazovannı»lar obrazıdır.

«Anamın kitabı» müasir ideyalı bir əsərdir. Pyes yazıldığı dövrdə öz dərin məfkurəsi ilə əsrin ideyalarına qovuşaraq, Azərbaycan xalqının milli istiqlaliyyət, azadlıq və demokratiya uğrunda apardığı mübarizəsini, demokrat ziyalıların ideallarını yüksək sənət dili ilə göstərir.

1917-1920-ci illər arasında elə dram əsərləri var ki, onlar bədii metod baxımından bir-birindən fərqli sənətkarlar tərəfindən yazılsa da, bəziləri ümumi, birləşən və qovuşan mövzuları əhatə edir. Hüseyn Cavidin «İblis», C.Məmmədquluzadənin «Kamançа», C.Cabbarlının «Aydın» pyesləri ideal və amalca qovuşan əsərlərdir. Bəşəri şər - daha doğrusu, dünya müharibələrini, milli qırğınları, müstəmləkə zülmünü törədən imperiya şəri, pozğun ehtirasların, zorakılıq və əxlaqsızlığın törətdiyi şər bu əsərlərin əsas məğzini təşkil edir.

Birinci dünya müharibəsinin fəlakətləri, haqsızlıq və zorakılıq, başqa romantiklər kimi, Caviddə də müəyyən məyusluq əmələ gətirmişdir. Bu məyusluq bəzən inamsızlıq kimi hisslər də doğururdu.

«İblis» faciəsi H.Cavidin həmin illərin təəssüratı əsasında yaradılmış mükəmməl bir sənət örnəyidir. İlk əsərlərinə nisbətən daha canlı və şaxəli süjet əlaqələrindən, mürəkkəb xarakterlərdən istifadə edən Cavid zəmanə və insanlıq haqqında dərin, maraqlı mühakimlər yürüdür, oxucu və tamaşaçını düşündürür.

«İblis» faciəsində müharibələr əleyhinə qüvvətli motiv, etiraz vardır. Bununla birlikdə «İblis»də ümumiləşdirici xətt mücərrəd insandır, onu istiqamətləndirən, xeyrə və şərə sövq edən ehtiras və nəfsdir. Çoxşaxəli, mürəkkəb İblis obrazı bu əsərdə yalnız Cavidin əsr, zəmanə və onun insanları haqqında qənaətlərini ümumiləşdirmək üçün bədii bir vasitədir. Həqiqi, mövhumi, ənənəvi İblis obrazı yaratmağı isə Cavid qarşısında məqsəd qoymamışdır. Mövhumi İblis obrazı Cavid üçün mövcud olmayan bir heçdir. Əsərin finalında Cavid bu obrazı yaratmaqda məqsədini, onun əsl mahiyyətini çoxmənalı bir şəkildə ifadə edir:

İblis - Mən tərk edirəm sizləri əlan, nəmə lazım
Heçdən gələrək, heçliyə olmaqdayım azim.

Daha dəqiq və dürüst mənada isə İblis məfhumu, obrazı insana məxsus olan «xəyanətləri», «xainliyi», bir sözlə iblisləşməni açıb ifşa etmək üçündür. Yaşamaq uğrunda mübarizədə aldadıcı nəfsə tapınan, çox zaman isə çaşan, çıxış yolunu tapa bilməyən, xəyanətə və zorakılığa, vəhşi ehtirasa qul olan müasir insanın dərin, sarsıntılı faciəsini bütün dəhşətləri ilə göstərmək Hüseyn Cavidin «İblis»də başlıca qayəsidir.

«İblis»də birbaşa müharibə səhnələri təsvir olunmur. Obrazlar müharibənin, dağıntıların yaxınlığında top, mərmi partlayışları səsləri altında daşınıb, hərəkət edirlər. Rənanın atası xəyanətlə öldürülmüş, qardaşları bir-birindən xəbərsiz didərgin düşmüşlər. Bilmədən öz doğma bacıları Rənaya aşiq olan Arif və Vasif bu məhəbbətə nail olmaq üçün qatili tapmağa çalışırlar. Qatil ərəb zabiti İbn Yəmindir. Əsərin süjeti bu əsas hadisə ətrafında qurulmuşdur.

Mövhumi İblis obrazının ilk ümumiləşdirici mühakiməsi insan haqqındadır. O, insanı bütün müsibətləri, bəşərə üz verən bədbəxtlikləri, faciələri - müharibələri, zorakılıq və hər cür cinayəti törədən kimi tanıyır:

Dəryalara hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kimi axmaqda qızıl qan,
Canlar yaxar, evlər yıxar insan...

Yer üzündə xeyrin, ədalət və gözəlliyin simvolu olan Mələk obrazı İblisin əleyhinədir və belə güman edir ki, şərin, fənalığın baisi İblisdir. Əsərdə bu simvollar arasında gedən mübahisə cərəyan edən hadisələrin öz mahiyyətindən hasil olan məntiqi nəticə ilə həll olunur. Yalnız əsərin başlanğıcında görünən Mələk xeyirxah insanların şaşqınlığını, şərin müəmmasını ifadə edərək, yer üzündə onu hökm-fərma edən İblisə nə ehtiyac sualı ilə Allaha qarşı üsyan edir.

...Yox kimsədə insafü mürüvvət,
İblisəmi uymuş bəşəriyyət?
...Başdan-başa həp yer üzü vəhşət,
İblis ilə həmrəngi siyasət.

Addımbaşı cinayət törədə-törədə eldən-elə qaçan İbn Yəmin şərin inadkar rəmzidir. İblisliyin daha böyük bir rəmzi vardır. O əsərdə iştirak etmir, lakin şərin, müharibələrin mənbəyi kimi xatırlanır. Kiçik zabit Vasifin dediyi kimi:

...İdrakı sönük başçıların qəfləti ancaq.
Etmiş, edəcək milləti həp əldə oyuncaq.

Cavid mənalandırdığı həyatı, iblisin mənbəyini əxlaqı, əməli, niyyəti pis insanlarda, qanlı dərəbəylərdə tapır və bildirir ki, real iblislik insanın öz daxilindədir.

Əsərin final səhnəsində bütün obrazlar bir araya yığılır. Müşahidə və mühakimələr bu səhnədə yekunlaşdırılıb, hökm və nəticələr verilir. Qanlı müharibələrin, dünya malına səcdənin, xəyanət və yalanın, vəfasızlığın, ümumiyyətlə, bütün şərin rəmzi olan «İblis və iblislik nədir?» sualına dürüst cavab da bu səhnədə verilir. Aydın olur ki, iblis müxtəlif rütbəli, müxtəlif görünüşlü insanın özüdür.

H.Cavidin «Şeyda» və «İblis»i ilə C.Cabbarlının «Aydın»ı arasında da müəyyən bir yaxınlıq vardır. Kiçik yaşlarından yetim qalan, ağır günlər keçirən, məşəqqətli günlərin silinməz izləri hafizəsində qalan, romantik, üsyankar qəlbli Aydın zalım mühitdən intiqam almaq, eyni zamanda yazıq bacısını sevindirmək üçün «varlı», hörmətli bir adam olmaq arzusu ilə yaşayır. Bu arzu Çingiz xanın və Napoleonun həyatını öyrəndikdən sonra daha da artır. Coşqun romantik xəyallı gənc istəyir ki, «bütün dünya onunla hesablaşsın», «əyilmədən bir kimsə yanından keçməsin». Aydının ilk coşğun sevgisi də romantik, xəyali arzulara uyğundur. O əvvəllər adilikdən, müəyyən məcraya sığan, hər iki tərəfin arzularına uyğunlaşan «adi qaydalı», təbii məhəbbəti deyil, qeyri-adi, dillərə düşən, heyrət dolu, qovuşmağı müşkül olan, bir az da müəmmalı sevgi arzulayır. Asanlıqla, xoşbəxtliklə düzələn məhəbbət bu coşğun xəyallı, qaynar qəlbli gəncin ürəyincə deyil. Onun istəklərinin zirvəsi daha əlçatmazdır. O, aləmdə görünməmiş bir inqilab yaratmağı, «bütün bəşəriyyətin onun fikrinə tapınmasım» arzu edir. Ancaq məşəqqətli məhrumiyyətlərlə dolu olan həyat onu əlçatmaz, xəyali əngilliklərdən yerə endirir, bir çox amansız həqiqətləri anlatdırır. Həyatın əsl simasını, sinfi-mənəvi ziddiyyətləri, kəskin bərabərsizlikləri görən Aydının dünyagörüşündə müəyyən sarsıntılar əmələ gəlir. İndi başqa arzuya düşür: «Bütün yaşayışda bir inqilab yaratmaq!» Lakin hələ əvvəlki qeyri-adi oxşarsız xəyali şöhrət arzularından tamamilə əl çəkməmişdir. Bacısının və Gültəkinin məhəbbəti onu susdurub təslim olmağa məcbur edirsə də, dumanlı xəyallar mübarizəsinə dəqiqlik, aydınlıq gətirməyə mane olur. «...Şöhrət və böyüklük qapalı bir evdədir ki, yiyəsi altun, açarı təsadüf, qorucusu isə ölümdür», - deyən Aydında məqsədə doğru gedən yolda iradə və mətanət çatmır. O məqsədə çatmağı, arzuların doğulmasını yox, bu yolda məşəqqətlərlə, qeyri-adiliklərin şöhrəti ilə zirvəyə çatmağı arzu edir. Aydının «romantik ölüm» arzusu da qeyri-adidir. O, səadətə həyatın yalnız son anında, şöhrət və əzəmət gətirən anında çatmaq istəyir. «...Qalibiyyət və iftixar sevinclərində boğulub ölmək!» Aydının arzularının əksinə olaraq, həyat xəyal aləmindən ictimai mühitə enməyə məcbur edir. O, Gültəkini, Gültəkin də onu sönməz bir məhəbbətlə sevir. O, Gültəkinin sevgisindən, nəvazişlərindən bezməsə də, bu sevgi onu «Həyata təslim edə bilmir, qəlbində nə isə ram olmayan, çatmayan, çuğlamağa məcra tapmayan bir qüvvə vardır. Aydının qəlbində qarışıq boyalar olsa da, real həyatı, onun əsas və başlıca ziddiyyətlərini doğru açıqlamaq həssaslığı da vardır. O, yaşadığı mühiti, yığın-yığın

insanları «bir neçə ərkəsöyün qudurğanın təpiyi ilə alt-üst edilən «qarışqa» yuvasına bənzədir.

Aydının çətinliklərindən, əlacsızlığından, zəifliklərindən sui-istifadə edən Dövlət bəy Gültəkini təslim etməyə nail olur. Həm ruhi, həm fiziki baxımdan xəstə ərini aclıqdan qurtarmaq üçün həyatın çirkinliklərinə enməli olan Gültəkin «...məgər kasıbların, fəqirlərin namusu olmaz?» - deyə fəryad edərək Dövlət bəydən onların «yoxsul, sakit məişətlərini pozmamağı» diləyir. Lakin pulu Allah sayan, «görürsən ki, pul şeytana namaz qıldırır» deyən amansız dövlətbəylərin daş qəlblərini, murdar ehtiraslarını heç bir yalvarış, hıçqırıq yumşaldıb söndürə bilmir». Bütün bəşəriyyətə, bütün adətlərə, bütün kainata qarşı üsyan edən Aydının əsas diləyi budur: «Yer üzündə məhkum, məzlum kəlmələri durduqca bəşəriyyət bir gülər üz görə bilməz. Bu, «Aydın» faciəsinin əsas leytmotividir.

Azərbaycan istiqlalı uğrunda dönməz mübariz, ictimai xadim, milli Müsavat partiyasının liderlərindən Mirzəbala Məhəmmədzadə «Aydm» pyesində dünyəvi şər, çarizmin amansız müstəmləkə zülmünə qarşı kəskin bir etirazın olduğuna işarə edərək yazırdı: «Aydın» bir əmələ həyatından alındığı üçün bir bolşevik əsəridirmi? Mütəvəllinin altun və sərvət gücü ilə səadətlər və həyatlar yıxdıqlarını, evlər və xanimanlar dağıtdıqlarını, məsum qızları səfalətə sürüklədiklərini təsvir edərkən «Aydın» bu xəstəliklərin tədaviyyəsini bolşevizmdəmi görürdü? Xayr, o bütün salon xəlqinin saatlarca davam edən alqış tufanları altında aydın və aşikar Azərbaycanda rus hakimiyyəti, Ərəbistanda Osmanlı sultanı, Hindistanda ingilis imperializmi əleyhinə «protesto» edərək diyordu ki, «mən istərəm fərd azad, millət azad olsun, kimsə kimsəyi istismar etməsin. Heç bir millət, digər bir millətin əsiri və köləsi olmasın!»...

Bolşeviklərin müsəlləh üsyan, burjuaziya, qətl, fabrika və məmurları amansız bir surətdə yıxmaq, tələf etmək üsulları yerinə Aydının üsyan edən, müsəlləh qiyamə qalxan arkadaşlarına qarşı «yıkma, yakma» - deyə yalvarması bolşevizmin bütün fəlsəfə və üsüllarını rədd və inkardan başqa bir şeydimi?».[1]

Müdriklərin, filosofların dedikləri kimi bəzən tarixdə, onun hadisələri də çox oxşar şəkildə təkrar olunur. Belə təkrarlanmalar, özü də amansız, ibrətli, faciələrlə dolu təkrar olunmalar Azərbaycan türklərinin həyatında dönə-dönə təzahür etmişdir. Bunlardan ən ibrətlisi və acınacaqlısı əzəli Romanovlarla başlamış şər imperiyasının öz qarətçiliyini əbədiləşdirmək naminə xalqlar və millətlər arasında saldığı milli qırğınlar və ziddiyətlərdir ki, çağdaş günlərimiz – də daha amansız, daha qanlı şəkildə davam edir. C.Məmmədquluzadənin 1919-cu ildə tamamladığı «Kamançа»da XX əsrin əvvəllərində çarizmin, eyni zamanda bolşeviklərin bilavasitə təhriki və iştirakı ilə törədilmiş erməni-azərbaycanlı qırğınının ibrətli tarixi bədii əksini tapmışdır.

«Kamançа»nın əsas obrazlarından biri Qəhrəman yüzbaşı xalqımızın tarixi faciəsini, «məlun iblisin» - şər imperiyasının törətdiyi qanlı qırğını ikicə kəlmə lik bir aforizmdə çox ibrətli şəkildə mənalandırmışdır: «Eh, namərd dünya!». Bu adicə, gəlişi gözəl sözlər deyildir. Bu, keşməkeşli, qanlı-qadalı, kiçik xalqları parçalayıb udmaq istəyən imperiyanın milli qırğın törətdiyi, haqqı, ədaləti, xeyiri, şəri öz yerində olmayan zəmanə üçün ümumiləşdirici aforizmdir. Müəllif bununla bir daha oxucuya bildirir ki, Qəhrəman yüzbaşı kimi Azərbaycan türkü heç də vəhşi ehtirasların əsiri olan yırtıcı deyil, xeyirxahlığı, insansevərliyi uca tutan müsbət adamların obrazıdır.

---

[1] Mirzəbala Məhəmmədzadə. Azəri türk ədəbiyyatının dünəni və bu günü. «Ədəbiyyat qəzeti», 1993, №38

«Kamançа»da Zeynəb surəti çox qısa, lakin son dərəcə mənalı, gərgin ştrixlərlə verilsə də, əsərin bədii tragizmini şərtləndirir. Sanki, müəllif üzünü oxucuya tutaraq demək istəyir ki, ehtiyatlı və təmkinli olun, əgər adamların fəlakətini, Qəhrəman yüzbaşının, kamançaçı Baxşının faciəsini olduğu kimi dərk etmək istəyirsinizsə, Zeynəbdən İbrət götürün. Zeynəbin sevimli, «pəhləvan cüssəli» oğlu Şirəlini «ermənilər öldürüb», ananın ürəyini dağlayıblar. Lakin ana qəlbi dərddən, oğul müsibətindən parçalansa da, qəməni çəkib nəinki ermənini öldürmür, sarsıdıcı, dərin psixoloji gərginliyin təsiri ilə Qəhrəman yüzbaşını da onu öldürməyə qoymur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış dramaturgiya haqqında yığcam elmi mülahizələrin mənzərəsi göstərir ki, bu dövrdə yaranan dram əsərləri az olsa da, dövrün ən aktual, gərəkli, taleyüklü problemlərini yüksək sənətkarlıqla əks etdirmişdir. Odur ki, həmin əsərlər bu gün də Azərbaycan dramaturgiyasının tarixində layiqli bədii örnəklər kimi dəyərləndirilir.

ƏDƏBİ TƏNQİD. Azərbaycanın istiqlalı milli-estetik düşüncənin də inkişafına müsbət təsir göstərmişdir. Bu dövrdə ədəbi düşüncəni məşğul edən problemlər daha da dərinləşmiş, uğurlu tənqid örnəkləri yaranmışdır. Milli müstəqillik əldə olunması ədəbiyyatın və mədəniyyətin yüksəlişi üçün əlverişli şərait yaratmışdı. Təsadüfi deyil ki, tədqiqatlardan birində mədəniyyət tariximizdə 1905-ci ilə qədərki dövr «Hazırlıq dövrü», 1905-ci ildən 1918-ci ilə qədərki dövr «fikir və ideal dövrü», 1918-20-ci illər isə «istiqlal dövrü - əməl dövrü»[1] kimi səciyyələndirilir.

Ədəbi tənqid örnəklərinin yayılmasında, oxuculara çatdırılmasında əsas tribuna rolu dövri mətbuatın üzərinə düşürdü. Maraqlıdır ki, 1919-cu ildə ədəbiyyat nəzəriyyəsi məsələlərinə həsr olunmuş ayrıca kitab da nəşr olunmuşdur. Hüseyn Cavid və Abdulla Şaiqin birgə tərtib etdikləri «Ədəbiyyat dərsləri» adlı kitab bu sahədə ilk uğurlu addım idi. İlk dəfə olaraq bu kitabda ədəbiyyat terminlərinin izahı verilmişdir. «Qəvaidi-ədəbiyyat» kitablarına da böyük bir ehtiyac olduğunu[1] anlayan müəlliflər sənət və sənayeyi-nəfisə, ədəbiyyat, şeir, şair, ədib, mövzu, məal, məcaz, təşbih, istiarə, nəzm, nəsr, ədəbiyyatın növləri və s. terminlərin olduqca anlaşıqlı bir dildə şərhini vermişlər. A.Şaiqin «Türk çələngi», A.Şaiqlə M.Mahmudbəyovun «Milli qiraət» kitabları da bu dövrdə çıxmışdır.

Ədəbi birliklər də tənqidin inkişafına təsir göstərmişdir. 1919-cu ildə yaranan, demokratik istiqamətli, milli istiqlalı sevinclə qarşılayan ədibləri əhatə edən «Yaşıl qələm» birliyinin fəaliyyətində də ədəbi tənqid məsələləri mühüm yer tuturdu. Cəmiyyətə XX yüzilliyin peşəkar tənqidçisi Kazımoğlunun - Seyid Hüseynin rəhbərlik etməsi onun fəaliyyətində ədəbi tənqid məsələlərinin xüsusi yer tutmasını şərtləndirən başlıca amillərdən olmuşdur. «Ədəbi-elmi cəmiyyət» kimi tanınan «Yaşıl qələm»in ətrafında M.Ə.Rəsulzadə, H.Ağayev, Ü.Hacıbəyov, S.Hüseyn, N.Vəzirov, H.Cavid, Ə.Cavad, A.Şaiq, C.Cabbarlı, S.Mümtaz, Əli Yusif, Cənnəti kimi müstəqillikdən sonra ədəbiyyatda da dönüş yaranacağına inanan sənət adamları birləşmişdi. «Yaşıl qələm» üzvlərinin əksəriyyəti çoxsahəli yaradıcılıq diapazonuna malik idi. İctimai xadim, şair, publisist, tənqidçi kimi tanınan bu adamlar ictimai həyatın və mədəniyyətin müxtəlif sahələrində milli yüksəliş yolunda çalışırdılar. Məramnaməsində göstərildiyi kimi, «Cəmiyyətin məqsədi Azərbaycan xalqının fikrən yüksəlməsinə çalışmaq və Azərbaycan ədəbiyyatında müşahidə edilməkdə olan yeniliyi qüvvətləndirmək, onu

[1] İbrahim Yüksel. Azərbaycanda fikir həyatı və basın, Ankara, 1989, səh.11

[1] H.Cavid, A.Şaiq. Ədəbiyyat dərsləri, Bakı, 1919, səh.5

türklüyə və sadələşməyə sövq etmək»[1] kimi müəyyənləşdirilmişdir. Göstərilirdi ki, cəmiyyət ilk növbədə ədəbiyyatımızı təhlil və tarixi ədəbiyyatımızı tərtib edəcək, yazıçılıq sənətini təşviq və tərciblə bu sənət həvəskarlarını bir araya toplayacaq, onları ədəbi bir araya vəz etməklə, aralarında yazı müsabiqələrini açacaq, ədəbiyyatımıza, elm və fününa aid əsərlərin toplanıb nəşr olunmasına çalışacaq, nəşriyyata əhəmiyyət verəcək, ədəbi məcmuə və qəzetələr tərtib edəcək, yeni fikirlərin onların arasında nəşvü-nümasına səy edəcək, gənc qələmləri yeni ədəbiyyat üsulu ilə aşina edəcək, xalq üçün lazımlı əsərlərin dilimizə tərcümə edilməsinə çalışacaqdır. «Yaşıl qələm» cəmiyyətinin məramnaməsi, qarşıya qoyulan vəzifələr ədəbi tənqidin də inkişafına dair mükəmməl bir proqram hazırlandığını deməyə tam əsas verir. Rus bolşeviklərinin Azərbaycanı işğal etməsi bu vəzifələrin yerinə yetirilməsinə imkan vermədi, «Yaşıl qələm» cəmiyyətinin fəaliyyəti yarımçıq qaldı. Millilik mövqelərindən yox, imperiya mövqelərindən ədəbiyyata yanaşma hakim prinsipə çevrildi. Qısa müddətli fəaliyyəti dövründə cəmiyyətin iclaslarında Sabir «Hophopnamə»sinin təb və nəşri məsələsi qaldırılmış, xalq şairinin yaradıcılığı, H.Cavidin, A.Səhhətin, T.Fikrətin əsərləri müzakirə edilmiş, erməni daşnakları tərəfindən dağıdılmış «İsmailiyyə» binası haqqında yazı müsabiqəsi keçirilmişdir. «Yaşıl qələm» üzvlərindən Hüseyn bəy Mirzə Camalov və Məhəmməd Ağayev «İstiqlal» adlı muzey yaratmışlar.

Bütövlükdə istiqlal dövrü ədəbi tənqidinin nümunələrini nəzərdən keçirdikdən sonra belə qənaətə gəlmək olar ki, «Yaşıl qələm» cəmiyyətinin qarşıya qoyduğu vəzifələr tənqidi də düşündürən başlıca məsələlər olmuşdur. Bu illərdə ədəbiyyat tarixi məsələlərinə marağın güclənməsi özünü göstərir. Azərbaycan hökumətinin

[1] «Azərbaycan» qəzeti, 1919, 28 avqust, №-263

İstanbul səfiri Yusif Vəzirin «Azərbaycan ədəbiyyatına bir nəzər», Azərbaycan hökumətinin xarici işlər nazirinin müavini Adilxan Ziyadxanın «Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat» və Əmin Abid Mütəllibzadənin «Azəri türklərinin ədəbiyyat tarixi» əsərləri məhz bu dövrdə yaranmışdır.

Yusif Vəzirin fikrincə, ədəbiyyat tarixi milləti dünya xalqları arasında tanıtmaq üçün ən əsas vasitələrdən idi. Əsrin əvvəllərində ilk ədəbiyyat tariximizin yaradıcısı Firidun bəy Köçərlinin yaradıcılığına həsr olunmuş məqaləsində o yazırdı: «Hər bir insanın mahiyyəti və məzmunu onun fikri və işi ilə bəlli olan kimi, millətin də bütün istedad və qabiliyyəti qüvveyi-fikriyyə və xəyaliyyəsi onun ədəbiyyatında bəyan olunur. Bir milləti öyrənmək üçün onun tarixi ilə bərabər, ədəbiyyatını da öyrənirlər».[1]

Yusif Vəzir Köçərlinin əsərləri haqqında ona görə ürək dolusu, fəxrlə danışırdı ki, onun fikrincə, bu şəxs ədəbiyyat tariximizi yazmaqla bütün keçmişimizi diriltdi... Bizə kitab lazımdır ki, bizi həm özümüzə, həm əcnəbilərə tanıtsın, bu kitab da bizim ədəbiyyat tariximizdir».[2]

Əmin Abid Mütəllibzadənin əsəri isə daha qiymətli bir cəhəti - Azərbaycan ədəbiyyatının ümumtürk ədəbiyyatı kontekstində araşdırılması konsepsiyasının irəli sürülməsi ilə yeni idi, türkləşmək ideallarının estetik fikirdə təsdiqi kimi səslənirdi. O, Azərbaycan ədəbiyyatını ümumtürk xalqları mədəniyyətindən ayrı öyrənməyi mümkünsüz sayırdı.

Hər bir vətənsevər ziyalını xalqın nüfuz və səviyyəsinin yüksəldilməsinə çalışmağa çağıran Adilxan Ziyadxan isə öz əsərində daha çox bütövlükdə Azərbaycan

[1] Yusif Vəzirov. Köçərlinin əsərləri. «Azərbaycan» qəzeti, 1919, 3 avqust, № 241

[2] Yenə orada.

mədəniyyəti haqqında yığcam bilgi verməyə çalışmışdır. Qısa müddət ərzində ədəbiyyat tarixi məsələlərinin aktuallaşması, xalqın milli sərvətinə qayğının və diqqətin daha da güclənməsi, şübhəsiz milli müstəqillik əldə olunması ilə birbaşa bağlı idi.

Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi, milli mədəniyyətin, ədəbiyyatın təbliği həm ictimai fikri, həm də tənqidi düşündürən məsələlər idi. Məqsəd müstəqillik əldə etmiş Azərbaycanın millətlər arasında layiq olduğu yeri tutmasına çalışmaq idi. Üzeyir bəy Hacıbəyli milli mədəniyyəti geniş miqyasda yaymağı beynəlmiləl aləmdə nüfuz qazanmaq yolu sayırdı. Musiqimizin ümumqafqaz millətlərinə zövq və ləzzətiruhani verən bir musiqi olduğunu bildirirdi.

XX əsrin əvvəllərində artıq Azərbaycan ədəbiyyatı konsepsiyası Firidun bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Abdulla Sur kimi sənətkarların əsərlərində sistemli-elmi şəkildə, digər müəlliflərin əsərlərində (Seyid Hüseyn, M.Hadi) isə mülahizələr şəklində öz ifadəsini tapırdı. Adilxan Ziyadxanın məlum tarixi səbəblər üzündən son dövrə qədər obyektiv qiymətini almayan, tədqiqata çəkilməyən «Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat» adlı əsəri bu baxımdan olduqca qiymətli mənbədir. Əsər 1919-cu ildə həm ayrıca kitab halında, həm də Azərbaycan və rus dillərində «Azərbaycan» - «Азербайджан» qəzetlərində çap olunmuşdur.

Həmin dövrdə milli hökumətin xarici işlər nazirinin müavini vəzifəsində çalışan, gəncəli Cavad xanın nəslindən olan A.Ziyadxan F.Köçərlidən sonra Azərbaycan ədəbiyyatını regional şəkildə öyrənməyə cəhd etmişdir. O, professional ədəbiyyat tarixçisi olmasa da, erudisiyası, Azərbaycan və dünya xalqlarının mədəniyyətinə yaxından bələdliyi milli ədəbiyyatımıza, sənətkarlara obyektiv münasibəti göz önünə gəlir. Onun fikirləri öz

elmiliyinə və obyektivliyinə görə bugünkü tənqidin və ədəbiyyatşünaslığın qənaətləri ilə yaxından səsləşir. Sonralar Azərbaycan ədəbiyyatşünasları klassik irsin tədqiqində A.Ziyadxanın qənaətlərinə söykənmiş, ancaq məlum səbəblər üzündən mənbəyi - müəllifini göstərməmişlər.

O, ərəb və fars dillərində yaranmış ədəbi nümunələri Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsi kimi öyrənməyi vacib bilmiş, vahid Azərbaycan ədəbiyyatı və mədəniyyəti anlayışına xələl gətirmədən ayrı-ayrı klassiklərdən həm də ərazi-zona kontekstində bəhs etmişdir. Gəncə, Qarabağ, Borçalı, Şəki mahallarında yaşayıb-yaratmış sənətkarlardan bəhs edərkən A.Ziyadxan obyektiv mövqedə dayanmış, həm sənətkarlar, həm də onları yetirən ictimai-siyasi, coğrafi mühit haqqında təsəvvür yaratmağa çalışmışdır.

Kitabda Gəncə ədəbi mühiti haqqında geniş bilgi verən müəllif «bizim ədəbiyyat və musiqi xəzinəmiz» Qarabağ, Şirvan, Şəki və Bakı mahallarıdır - qənaətinə gələrək elə sənətkarlardan və ədəbi hadisələrdən bəhs edir ki, onlarla bütöv Azərbaycan ədəbiyyatı təmsil olunur.

A.Ziyadxan milli ədəbiyyatdan öyünərək söz açır. Nizaminin Şillerə təsirindən danışır, Mirzə Şəfinin əsərlərinin Avropada dəfələrlə basıldığını iftixarla xatırlayır. M.F.Axundov haqqında «dünyada məşhur olan Azərbaycanın yeganə namdar oğlu», A.Bakıxanov haqqında «Azərbaycanımızın ən dərin fikir sahibləri ilə çiyin-çiyinə dura bilən» şəxsiyyət kimi bəhs edilir.

A.Ziyadxanın «Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat» əsəri istiqlal dövrü ədəbi tənqidinin də spesifik nümunəsi kimi nəzəri cəlb etməkdədir və geniş araşdırmaya möhtacdır.

Avropa şairlərindən geri qalmayan şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə xüsusi bir mədəniyyətə malik olduğumuzu

əyan və aşkar etməliyik»[1] - deyən Üzeyir bəy Hacıbəyli kimi, A.Ziyadxan da milli mədəniyyətin öyrənilməsinə və təbliğinə xüsusi diqqət yetirməyi vacib sayırdı.

Yusif Vəzirov isə «Füyuzat», «Şəlalə» kimi məcmuələri ona görə milli məcmuə sayırdı ki, bu jurnallar türkçülük və islamlaşmaq ideyalarına daha çox üstünlük verirdi: «Hindistan və Misir camelərinin təsvirini qeyd edərək ümum islam aləminə aid şeylər yazırdılar. Halbuki bizi həvəsləndirən birinci məsələ Azərbaycanımız gərək olsun... Tariximiz, ədəbiyyatımız, teatro və musiqimiz və başqa mədəni məhsullarımız çox-çox var. Bunlara dair yazılsa, həm özümüz özümüzü, həm də əcnəbilər bizi tanıyar».[2]

Milli dövlət quruculuğu sahəsində ilk addımlar atıldığı bir vaxt bu tələb tamamilə haqlı görünürdü.

Türkçülük, islamçılıq ideyalarından daha çox azərbaycançılıq ideyaları tənqiddə də tez-tez ifadə olunurdu. Diplomatik nümayəndə kimi Ukraynada olduğu müddətdə də Yusif Vəzir xalqının tanınması yolunda az iş görməmişdir. Burada yaşadığı, təhsil aldığı zaman o xalqının şöhrətlənməsi üçün var qüvvəsi ilə çalışmışdır. «Bizim vəzifəmiz və qayəmiz bu oldu ki, birinci olaraq əvvəl Rusiya əfkari-ümumiyyəsinə Azərbaycanı tanıdaq. O zamandan Azərbaycan haqqında onun tarixi, ədəbiyyatı, mədəniyyəti haqqında ticarət və iqtisadiyyatı barəsində bir çox məqalələr yazdıq, yavaş-yavaş Azərbaycan şöhrət tapmağa başladı. Hər kəsdən artıq Ukrayna Azərbaycana əhəmiyyət verirdi. Onlar deyirdi: biz hər xüsusda Azərbaycana kömək edəriz».[3]

Görkəmli ədibin rəhbər tutduğu «bir məmləkət yaşamaq üçün özünü yaşatmalıdır. Dişarıdan təzyiq

[1] Ü.Hacıbəyli «Mühüm məsələlər». «Azərbaycan», 1 dekabr, 1918, № 63

[2] Azərbaycan q., 1919, 29 iyul, №-237

[3] Azərbaycan q., 1919, 31 iyul, №-239

gözləməməlidir[1] - prinsipi ədəbi tənqidin əsas tutduğu prinsiplərdən idi.

Tənqidin daha görkəmli nümayəndəsi M.Ə.Rəsulzadə ədəbiyyatı və incəsənəti ən güclü silahdan da kəsərli bilərək yazırdı: «Azadlıq və istiqlaliyyət əsgər süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olnur».[2] Onların xalq arasında inkişafı və təbliğinin xidmətçiləri yazıçılar, jurnalistlər, artistlər hesab olunur». Bu, ədəbiyyatın ictimai roluna verilən ən yüksək qiymət, «sənət - həyat üçündür» tezisinin bariz ifadəsi idi.

Tənqid ədəbiyyatın xalqın istək və arzuları ilə, ictimai-siyasi şəraitlə bağlılığını yüksək qiymətləndirir, yeni həyatı, Azərbaycanın müstəmləkə zülmündən azad olunmasını alqışlayan bədii ədəbiyyat nümunələrini bəyənirdi. Xalq ruhu, istəkləri ilə bağlılıq ədəbiyyat üçün başlıca xüsusiyyətlərdən sayılırdı. M.Ə.Rəsulzadə Bakının azad olunması münasibətilə yazdığı məqaləsində şairləri, ədibləri yeni varlığı, onun xüsusiyyətlərini əks etdirməyə, xalqda hürriyyət eşqi təlqin etməyə çağırırdı. İstiqlal dövrü poeziyasının əksər nümunələri sanki bu çağırışa cavab kimi səslənirdi. Bu mənada tənqidin ədəbi prosesə təsiri olduqca güclü idi.

Dövrünün həm də nüfuzlu tənqidçisi olan M.Ə.Rəsulzadənin müxtəlif yazılarında, məruzə və çıxışlarında da əsl ədəbiyyat xalq mənafeyini müdafiə etməlidir - fikri irəli sürülürdü. «Mətbuatın, ədəbiyyatın millətin qəlbinə millət və istiqlal toxumu saçan bir amil olduğu məlumdur» deyən tənqidçi «ədəbiyyat ümumiyyətlə xalq ruhilə, xalq fikrilə, ümumiyyət naminə yaşayır» tezisini müdafiə edir, xəlqiliyi ədəbiyyatın başlıca xüsusiyyəti kimi qiymətləndirirdi.

Tənqid klassik ədəbiyyatın tənqidi məsələlərinə də geniş yer verirdi. «Qiraət dərs kitablarımız» adlı silsilə

[1] Yenə orada, 7 iyul, 1919, №-218

[2] «Azərbaycan» q., 1919, 7 iyul, №-218

məqalələrində Rəşidbəy Əfəndiyevin «Bəsirətül-ətfal», Abdulla Şaiqin «Gülzar» və Fərhad Ağazadənin «Ədəbiyyat məcmuəsi» dərsliklərindən bəhs edən Yusif Qasımov Azərbaycan xalq klassik ədəbiyyatına az yer ayrılmasını həmin dərsliklərin əsas nöqsanlarından biri kimi göstərir. O, F.Ağazadənin «Ədəbiyyat məcmuəsi» dərsliyində milli ədəbiyyatımızın nümunələrinə az yer ayrılması ilə razılaşa bilmirdi: «Əcəba, necə ola bilər ki, türk ədəbiyyatını təmsil üçün təyin olunmuş bir kitabda onun nazənin çiçəklərindən təmsil edən Vaqif, Mirzə Fətəli, Zakir, Seyid Əzim, Sabir və bu kimi şüəramız unudulub güşeyi nisvanə atılsın?».[1]

A.Şaiqin «Gülzar» dərsliyini də tənqidçi bu cəhətə görə qüsurlu hesab edirdi. Şaiqin, Axundovun yalnız «Aldanmış kəvakib» əsərini dərsliyə daxil etməsi ilə kifayətlənmir. Axundovun ədəbiyyatımızda əsasən komediya janrını gətirməsilə yenilik etdiyini nəzərə alaraq, tələb edirdi ki, müəllif ilk növbədə Axundovun komediyalarını dərsliyə daxil etsin. Və Yusif Qasımov bu tələbində haqlı idi: «Və halonki Mirzə Fətəlnin varlığı, onun adı komediyaları ilədir. Milli ədəbiyyat nümunələri ilə aşina etmək fikrində olub, ədəbiyyatımızın Hacı Qara, Molla İbrahim Xəlil Kimyagər, Dərviş Məstəli şah və s. kimi tip növlərini unutmaq böyük səhv və xəta deyilmi?».[2]

Ola bilər ki, Yusif Qasımovun bu fikirləri pedaqoji baxımdan qüsurlu olsun, şagirdlərin yaş xüsusiyyətlərini əks etdirməsin, ancaq çox qiymətli cəhət ondadır ki, tənqidçi Azərbaycan ədəbiyyatının və onun görkəmli nümayəndələrinin öyrədilməsi və təbliği məsələlərini irəli sürürdü. Məktəb qiraət dərsliklərində milli ədəbiyyat nümunələrinə az yer verilməsindən şikayətlənirdi.

Ədəbi tənqiddə sənətkara - klassikə münasibətin

[1] «Azərbaycan» qəz., 1920, 30 mart, № 63
[2] «Azərbaycan» qəz., 1920, 1 mart, № 43

ölçüsü onun vətəninin, xalqının tərəqqisinə xidməti idi. Bu dövrdə vəfat etmiş Abbas Səhhətin, Abbasağa Nazirin, Mirzə Səməndərin, Əlimişan Hüseynzadənin ölümü münasibətilə dərc olunan məqalələr bu fikrə sübut ola bilər. Məhəmməd Hadi A.Səhhətdən ona görə təəssüf hissi ilə yanıqlı bir dillə bəhs edirdi ki, Abbas Səhhət bütün həyatı boyu, həm yaradıcılığı ilə, həm də şəxsi həkimlik fəaliyyəti ilə maddi və mənəvi cəhətdən xalqının tərəqqisinə xidmət etmişdir. Belə görkəmli şəxsiyyətin vəfatının mətbuatda sükutla qarşılanması, əsərlərinin geniş oxucu kütlələrinə çatdırılmaması, çap olunmaması Hadiyə təsir etmiş və o şair dostunun ölümünü ədəbiyyatımız və xalqımız üçün böyük itki kimi dəyərləndirərək «Abbas Səhhətin üfuli əbədisi» adlı məqaləni yazmışdır. Səhhətin ölümündən sonra Tiflisdə nəşr olunmuş «Gələcək» qəzetində də onun ölümünə nekroloq dərc olunmuşdu. Nekroloq bu sözlərlə başlayırdı: «Bu günlərdə Azərbaycandan qara bir xəbər gəldi. Ədəbiyyat və mətbuat aləmində Abbas Səhhət adı ilə şöhrət tapmış Azərbaycan türk şairlərindən Mirzə Abbasqulu Səhhət Mehdizadə vəbadan vəfat etmişdir».[1]

Ədəbi tənqid klassikləri daim ehtiramla yad edir, onlara xüsusi qayğı ilə yanaşırdı. Tənqidi yazılarda Sabir «xalq şairi», Məhəmməd Hadi Qafqasiyanın görkəmli şairlərindən biri, Ömər Faiq «Millətin malı», Hüseyn Cavid «Azərbaycanın benam şairi», Abbas Səhhət «Həm maddi, həm də mənəvi xadimi - millət olan bir şəxsiyyət», Əhməd Cavad «milli bir şair» kimi təqdim olunurdu. Lakin tənqid yalnız ədəbiyyatın ən görkəmli nümayəndələri ilə məşğul olmurdu. Akademik K.Talıbzadənin XX əsr tənqidindən danışarkən haqlı olaraq yazdığı kimi; demokratik tənqid, yeri gələndə nəinki dövrün görkəmli şairlərindən, hətta, «təzə

[1] «Gələcək» q., 27 iyul 1918, №5

səpkidə yazan» ikinci, üçüncü dərəcəli şairlərdən də bəhs açır, onları tərğib və təşğib edirdi».[1] XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış Abbas ağa Nazirin ölümü münasibətilə təkcə «Azərbaycan» qəzetində üç məqalə çap olunması bu qəbildəndir.

Tənqidçi Yusif Qasımov A.Nazirin yaradıcılığını ona görə yüksək qiymətləndirirdi ki, o, doğma xalqının tərəqqisinə, xoşbəxtliyinə xidmət etmişdir. Lakin bu sənətkarın dəfninin təmtəraqsız olmasını ona hörmətsizlik, laqeydlik kimi qiymətləndirmişdir: «Nədən isə bir şairin, ədibin, ümumən ərbabi-qələmin bəxti qara olur, ona qədir və qiymət qoyan olmur». Yusif Qasımov şairin:

Gözün aç xabi-qəflətdən oyan millət, oyan millət
Nəzər qıl bircə ətrafə, aman millət, aman millət -

misralarını xatırladıb, belə nəticəyə gəlirdi ki, «şair özünü, həyatını millətə vəqf etmiş olur, o onun üçün göz yaşı tökür, dərdinə çarələr arayır».[2] F.Ağazadə isə şairi ona görə qiymətləndirirdi ki, o, bütün yaradıcılığı boyu milli azadlıq, ümumiyyətlə insani azadlıq tərəfdarı olmuş, xalqını dərin məhəbbətlə sevmişdir: «Abbas ağa Nazir vətəni və millətini sevən bir Azərbaycan şairidir.[3]

Ə.Qəmküsar, Əlimişan Hüseynzadə, Dərbəndli Mirzə Səməndər haqqında yazılarda tənqid həmin sənətkarların yaradıcılığına obyektiv qiymət verirdi. Məfkurə müxtəlifliyi, ideoloji fərq heç vaxt ayrıseçkiliyə səbəb olmurdu. Əliqulu Qəmküsar Azərbaycan hökumətinin fəaliyyətini tənqid edən «Ələman» rədifli satirasını bolşevik mətbuatı səhifələrində dərc etdirmişdi.

[1] K.Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi, Bakı, «Maarif», 1984, səh.213.
[2] «Azərbaycan» q., 1920, 12 yanvar, № 10
[3] Yenə orada

Lakin onun ölümü haqqında hökumətin orqanı «Azərbaycan» qəzetində nekroloq dərc olunmuş, onun vəfatı «ədəbiyyatımıza və səhnəmizə dəyən ağır itki» kimi qiymətləndirilmişdi. Bu fakt belə qənaətə gəlməyə əsas verir ki, istiqlal dövründə tənqid sənətkarların vətənə, xalqa, sənətə xidmətini əsas prinsip kimi götürürdü, ideoloji yanaşma müşahidə olunmurdu.

Seyid Əzim ədəbi məktəbinin davamçısı Dərbəndli Mirzə Səməndərin ölümünə həsr olunmuş yazıda müəllif daha çox sənətkarlıq xüsusiyyətlərindən danışır, Mirzə Səməndəri «yalnız Azərbaycanda deyil, bəlkə Türküstanda və İranda tanınmış olan bir şair» kimi tanıdırdı. Yusif Vəzir «Azərbaycan ədəbiyyatına bir nəzər» əsərində Sabirin müasirlərindən danışarkən «gözəl təbini həcvguluğa və latayilə sərf etdi» - deyərək qayğılanırdı. Yazı müəllifi isə Mirzə Səməndərin həcv janrına sadiq qalmasını təqdir edirdi: «Mirzə Səməndər Hacı Seyid Əzim dövrü şairlərinin məruflarından idi. O, tam mənası ilə bir şair həyatı keçirdi, həm də orta əsrin Şərq şairləri həyatı... Mirzə Səməndər əski şairlər arasında kəndisinin həcvləri ilə məşhurdur. O, Seyid Əzim kimi dahi bir müvəccibi susdurmuşdur. Müəllif «sənət sənət üçündür» tezisini müdafiə edirsə də, belə meyllər dövrün tənqidi üçün səciyyəvi deyildi, tənqid «sənət həyat üçündür» prinsipini daha çox müdafiə edirdi.

Mətbuat tariximizdə ilk ədəbiyyat və incəsənət məcmuəsi olan «Övraqi-nəfisə» jurnalında da Azərbaycan ədəbiyyatının təbliğinə geniş yer verilir, M.P.Vaqif, M.F.Axundov, Nəbati, Əlibəy Hüseynzadə, H.Vəzirov, Ə.Vahid və başqalarının tərcümeyi-halı və əsərlərindən nümunələr çap olunurdu.

Yeni çap olunan əsərlərə tənqidin fəal münasibəti maraqlıdır. C.Cabbarlının «Ədirnə fəthi», Ə.Cavadın «Dalğa» əsərlərinin haqqında çap olunan resenziyalar, bu baxımdan, maraq doğurur. XX əsrin əvvəllərində

güclü ictimai-siyasi dəyişikliklərin təsiri altında yaranan ədəbiyyata tənqidin münasibəti müsbət idi, nikbin xarakter daşıyırdı. M.Ə.Rəsulzadənin belə bir fikri olduqca səciyyəvi səslənirdi: «Yeni türk ədəbiyyatı fəqət xalqın qalın təbəqəsinə enir və yazıların həpsi xalq üçün yazılır».[1]

Bu illərdə Bakıya gəlmiş türk mühərriri Rövşən Əşrəf bəy də yeni ədəbiyyata münasibət bildirərkən demişdi: «Ədəbiyyat həyata doğru qoşuyor, istiqbal yollarını açan bir məşəl oluyor».[2] Tənqidin qənaəti çox vaxt belə yekunlaşırdı ki, yeni ədəbiyyat ilk növbədə milli həyatımızda baş verən yenilikləri, xalqın, millətin taleyi ilə bağlı problemləri, bir-birini təqib edən güclü ictimai-siyasi dəyişiklikləri, hadisələri əks etdirməlidir. Epiqonçu poeziyasındakı eybəcərləşdirilmiş qadın təsvirləri ədəbiyyata yabançıdır. «Bir sərv üzərindəki iki ox-yayı olursa, kipriklər oxlara bənzərsə və bir başın sağından, solundan bir kaç tikə yılan asılmış olursa, o qadında nasıl bir gözəllik meydana çıxacaq?!.[3]

Tənqidin yeni ədəbiyyatda görmək istədiyi əsas xüsusiyyət millilik idi. Çünki Azərbaycan tarixində fövqəladə anlar yaşanmaqda idi. Ədəbiyyatın xalqın milli azadlığını təbliğ etməsi tamamilə təbii idi. Bu mənada Əhməd Cavadın «Dalğa» kitabı istiqlal dövrü poeziyasının ən səciyyəvi nümunələrindən sayılırdı.

«Dalğa» artıq kamilləşmiş, qələmi bərkimiş bir şairin dərin ilham və istedadının vəhdətindən yaranmış əsl sənət nümunəsi idi. Bu kitabda 1918-1920-ci illər Azərbaycanda baş verən əksər ictimai-siyasi hadisələrə şairin münasibəti öz poetik ifadəsini tapmışdı. Milli istiqlal sevinci görünməmiş bir coşqunluqla tərənnüm

[1] «Azərbaycan» qəz., 1918, 20 noyabr, № 45
[2] Yenə orada, 1918, 30 oktyabr, № 27
[3] Yenə orada.

olunmuş, vətən, millət sevgisi solmaz boyalarla işlənmişdi «Dalğa»da şairin səmimiyyəti o qədər güclü idi ki, sonralar sosializmi mədh etməyə məcbur olanda, mədhlərin qeyri-səmimiliyi vulqar-sosioloji tənqidin nəzərini cəlb etmişdi: həmin mədhiyyələri «bayram şeirləri» adlandıran bir tənqidçi yazırdı: «ilk əsərlərdə olan səmimiyyət, liriklik Cavadın indi yazdığı bayram şeirlərində və ümumiyyətlə, indiki şeirlərində tapıla bilərmi?».[1]

- Bu suala müsbət cavab yoxdu...

«Dalğa» əsərini 1918-20-ci illər ədəbiyyatının «eyi bir nümunəsi» (Ə.Nazim) adlandıranda tənqid, əlbəttə yanılmırdı. Çap olunduqdan az sonra tənqidin kitab haqqında rəylə çıxış etməsi, onu təqdir etməsi tamam təbii idi.

Dövrünün tanınmış publisist tənqidçilərindən olan Əhməd Həmdi Qara Ağazadə Ə.Cavadı «milli bir şair» kimi təqdir edərək, yaradıcılığında «milli həyatımızın əkslərindən» danışır, lirizmi onun poeziyasnın başlıca keyfiyyəti sayırdı. «Şairdə lirizm o kadar qüvvətlidir ki, hissi-vətənin və milli ilə yazdığı şeirlərində belə qeyri-ixtiyari, əxlaqi bir lirizmə boyun əyir».[2]

Şairin poeziyasında ictimai-siyasi həyat hadisələrinə müraciətin güclənməsi hesabına lirizmin zəifləməsini də müəllif qanunauyğun təbii hal kimi müşahidə edir. Tənqidçi bu qüsuru şairin «vətənpərvər və millətçi olmasında, yəni xalqın taleyi, bu günü, gələcəyi ilə bağlı məsələlərə tez münasibət bildirməsində görürdü. Tənqidçi Cavad poeziyasını güclü şeiriyyətinə görə gürcü şairi Vaja Pşavela, türk şairi Rza Tofiqlə müqayisə edirdi, «o, ən ziyadə sadəliyə və təbiiliyə mütəxəyyüldür» - deyərkən də yanılmırdı.

Ə.Cavad poeziyasına verilən qiymət həm də istiqlal dövrü poeziyasına münasibət kimi anlaşıla bilər.

[1] «Azərbaycan» qəz., 1918, 30 oktyabr, № 27
[2] Yenə orada, 11 noyabr, 1919, № 319

Tənqidin dünya ədəbiyyatına - ən çox da Şərq və Türkiyə ədəbiyyatına marağı gəlimlidir. Tənqidi yazılar da «böyük cahan şairi Şekspir», «dünya şairi Şiller» kimi ifadələr işlədilir. Lakin tənqid belə sənətkarları çox vaxt ona görə xatırladır ki, onlar Nizami Gəncəvi kimi qüdrətli Şərq klassiklərinin təsiri altında yazıb-yaradırdılar. Bəzən qədim Şərq mədəniyyətindən iftixarla bəhs edən müəlliflər «müasir mədəni səviyyədən narazılıq ifadə edirdilər. M.Ə.Rəsulzadə yazırdı: «Bir zaman Şərqdə əski bir mədəniyyət var imiş, o da xas olub, gün-gündən əzm-hala uğradı».[1]

Türk ordusunun xilaskar kimi çıxış etməsi, ictimai-siyasi ilgilərin güclənməsi tənqidin yönünü bu xalqın ədəbiyyatına daha çox döndərirdi. 1918-ci ildə Bakıda təşkil olunmuş «Türk ocağı» cəmiyyətinin əsas məqsədi «türk millətini əxlaqi məişət və ürfanca yüksəltmək, osmanlı türkləri ilə azəri türklərini bir-birinə qarışdırmaq»[2] idi. Türk ruhunun Azərbaycan ruhuna hədsiz yaxınlıq və doğmalığından danışarkən Əhməd Cavad yazırdı: «Osmanlı türkünü tanımaq bizə bir ehtiyacdır. Əsrlərdən bəri biri-birindən uzaq düşmüş bir nənənin övladı olan osmanlı türkləri ilə azəri türkləri həmd olsun bu gün pək uzun sürən bir ayrılığın pəncəsindən yaxayı qurtardılar».[3] Türk ədəbiyyatına və mədəniyyətinə marağın güclənməsi mətbuatda xüsusi rubrikaların fəaliyyətində də öz əksini tapırdı. «Azərbaycan» qəzetində «Türk duyğuları» adlı rubrika müntəzəm fəaliyyət göstərirdi. Bu rubrikada həm Namiq Kamal, Məmməd Əmin bəy kimi böyük türk klassiklərinin, həm də 1918-20-ci illərdə Azərbaycanda yaşayan türk şairlərinin - Feyzulla Sacidin, Rövşən Əşrəf bəyin əsərlərinin nəşrinə geniş yer verilirdi. «Övraqi-nəfisə» jurnalı türk klassiklərini, türk tarixi və ədəbiyyatını daha çox təbliğ edirdi. 1919-cu ildə Bakıda türk şairlərinin əsərlərindən ibarət «Milli nəğmələr» adlı məcmuənin və türk şairi Feyzulla Sacidin «Fəryad» adlı şeirlər kitabının nəşr olunması da Azərbaycan-türk ədəbi ilgilərinin gücləndiyini göstərirdi.

1918-20-ci illər ədəbi tənqidi XX əsr Azərbaycan tənqidinin inkişafında xeyli iş görmüşdür.

Türkiyəli şairlər Azərbaycan Xalq Cümhuriyyətində. Birinci dünya müharibəsi çar Rusiyasında gedən ictimai-siyasi və iqtisadi böhranı dərinləşdirməklə yanaşı, illərdən bəri özlərinin milli müstəqillikləri uğrunda mübarizəyə hazırlaşan xalqların arzularının reallaşmasına da şərait yaratdı... 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin istiqlal Bəyannaməsi elan edildi. Lakin beynəlxalq siyasi vəziyyətin mürəkkəbliyi, dünyanın yenidən bölüşdürülməsi cəhdi ilə bərabər, Azərbaycan torpaqlarına, Azərbaycanın təbii – yeraltı və yerüstü sərvətlərinə dikilən gözlərdən yağan məkr, hiylə və vəhşətdən qorunma zərurəti Cümhuriyyət rəhbərlərini ehtiyat tədbirləri görməyə sövq edirdi. Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında 1918-ci il iyunun 4-də bağlanan müqaviləyə əsasən qarşı tərəf Osmanlı dövləti «qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə Azərbaycan hökumətinə silahlı qüvvələrlə yardım etməyi» öz öhdəsinə götürdü.

Bu dövrdə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət son dərəcə mürəkkəb idi. Belə bir vəziyyətdə Tiflisdən çətinliklə Gəncəyə gələn Azərbaycan hökuməti ölkədə əmin-amanlığı bərpa etmək, həm də sərhədlərimizin toxunulmazlığına nail olmaq məqsədilə kömək üçün müqavilə bağladığı dövlətə – Osmanlı imperiyasına müraciət etdi və bu ölkənin hərbiyyə naziri

[1] «Azərbaycan» qəz., 1919, 11 noyabr, № 319

[2] Cavad. Rövşən Əşrəf bəy - «Azərbaycan» q., 1918, 24 oktyabrr № 21

[3] Yenə orada

Ənvər Paşanın qardaşı Nuru Paşanın komandandığı altında Qafqaz İslam Ordusu Azərbaycana gəldi.

Nuru Paşa Azərbaycana gələn kimi yerli qüvvələrin də səfərbərliyə alınaraq onların gücü ilə Qafqaz İslam Ordusunun gücünün birləşdirilməsi – ordu quruculuğu istiqamətində də fəaliyyət göstərməyə başladı. Lakin çar Rusiyasının əsarəti dövründə digər türk xalqları ilə yanaşı, Azərbaycan gəncliyi də ordu sıralarına çağırılmadığı üçün hərb qanunlarını, hərbi döyüş qaydalarını bilmirdi. Əlavə olaraq erməni və rus hərbi birləşmələrinin Azərbaycanda törətdikləri qanlı qırğınlar və talanlar doğma yurd-yuvasından pərən-pərən düşmüş, var-yoxları dağıdılıb əzizləri qətlə yetirilmiş əhalinin (azərbaycanlıların) sabaha inamını sarsıtmış, onları ruh düşkünlüyünə, ümidsüzlük və bədbinliyə düçar etmişdi.

Odur ki, bu acınacaqlı vəziyyəti görən Nuru Paşa təcili olaraq qardaşı Ənvər Paşaya müraciət edib Azərbaycanda ordu quruculuğu ilə məşğul ola bilən zabit kadrlar və eyni zamanda əhalinin qırılmış ümidlərinin qaytarılaraq, onların vətənpərvərlik duyğularını oyada bilən şair və yazıçılar göndərməsini xahiş etdi. Bu haqda vaxtilə Türkiyə Cümhuriyyətinin Bakıdakı səfirliyinin mətbuat müşaviri işləmiş Turqut Ər yazırdı:

«Ayrıca kan içen düşmanların o zorakılığı altında evlərdə, çayxanalarda, köylərdə yazdıqları şeir və nəşr etdikləri yazıları əhaliyə gizli-gizli paylaşdıran ayıq türkçü vətənpərvər şair və yazarlara türkiyəli həmkarlarının Azərbaycana gələrək sürətlə qoşulmalarının vacibliyini fikirləşdi. Bu təklifini İstanbuldakı qardaşı Baş Komutan vəkili Ənvər Paşaya sürətlə (teleqramla – A.B.) çatdırdı və xahiş etdi. Ənvər Paşa qardaşı Nuru Paşanın bu tələbini uyğun görərək bir qrup məşhur türkiyəli şair və yazarları Azərabycana göndərməyi qərarlaşdırdı».[1] Qeyd edək ki, Azərbaycan xalqı və ədəbi ictimaiyyəti Qafqaz islam Ordusunu böyük sevinc və ruh yüksəkliyi ilə qarşıladı. Qazaxda şair Abbas ağa Qayıbov Nazir onun komandirlərindən birinə həsr etdiyi «Miralay Cəmil Cahid bəyin mədhində»* şerində qəhrəmanın şəxsində türk ordusunun 1 Dünya müharibəsində keçdiyi şanlı yolu xatırlayaraq belə mənalandırır:

Edibsən dörd sənə millət yolunda himmətü-qeyrət,
Sənə, ey cani millət, mərhəbalar səd həzər olsun.
Çəkibsən rəncü zəhmətlər, əziyyətlər, məşəqqətlər,
Bu niyyətlə ki, qövmi-türk sahibi-iqtidar olsun.
Daha göstər həmiyyət, ərşə yüksəlt türk növrağın,
Sənin üçün şövkətü izzət, bizim üçün iftixar olsun.

Göründüyü kimi, şair türk ordusunun öz millət və dövlətinin salamatlığı, iqtidar sahibi olması naminə döyüşlərə atıldığını diqqətə çadırır. Ona görə də Cəmil Cahid bəyə müraciətlə onu türklük adının göylərə, ərşə yüksəlməsi naminə yeni-yeni, daha böyük qəhrəmanlıqlar göstərməyə çağırır. Elə qəhrəmanlıqlar ki, onu göstərənə şan-şöhrət, türk, Azərbaycan ellərinə isə iftixar gətirsin. Elə bir qəhrəmanlıq ki, xüşksal, quraqlığın zülmü ilə saralıb-solan islam ümmətinə yeni həyat verib, onu al-yaşıla qərq etsin, göyərtsin:

Saralmış xüşksal zülmlə gülzarı İslamın,
Axıt sərçeşmeyi-ədlin ki, sərsəbz abdar olsun.

Şair qələmə aldığı sətirləri coşan türklük hissinin təsiri ilə yazdığını belə nəzərə çatdırır:

[1] Turqut Er. Tarixi gerçəklər. Alxan Baramoğlu. Qafqaz imdadına çatan türkün könül nəğmələri. Bakı, 2002, s. 10

* Şairin əlyazmasını bizə tədqiqatçı-jurnalist, polkovnik-leytenant Şəmistan Nəzirli verib. Təşəkkür edirik. (A.B.)

Bunu yazmağa etdi hissi-türkiyyət məni vadar,
Sənə bəs türklüyün adından bu şerim yadigar olsun.
Qazağın şairi Abbas Qaibzadə Nazirdən
Səmimi qəlbdən ərzi-salami-bişümar olsun.

Bu tipli nümunələr indiyədək təhlil olunarkən yazıldığı tarixi-ictimai şəraitdən ayrılır, onların meydana çıxma səbəbləri araşdırılmadan millətçi, pantürkist ruhlu əsərlər kimi damğalanırdı. Qəsdən nəzərə alınmırdı ki, xalqların yarış və vuruş meydanı olan yer üzündə türkdilli xalqlara, o cümlədən azərbaycanlılara qarşı, necə deyərlər, səlib yürüşü təşkil olunduğu bir vaxtda öz qardaşlıq köməyini əsirgəməyən türklərə bu cür münasibətin olması təbiidir. Real vəziyyətdən, bəşəri duyğulardan doğan hisslər heç bir riya, siyasət və ideologiya tanımır. Təsadüfi deyil ki, şair türkdilli xalqların bir cəbhədə möhkəmlənməsindən razılıq hissi ilə belə bir nəticəyə gəlir ki, türkdilli xalqlar yer üzünün bütün qabaqcıl, seçilən xalqlarının hamısından uca olacaq və türklük şərəfi öz şanlı dövranını sürəcək.

Məhəmmədəmin oğlu Salman Mümtaz isə Qafqaz İslam Ordusunun Şəkiyə daxil olması münasibətilə bədahətən söylədiyi «Öyün, millət»[1] şeirində sevinclə bildirirdi ki, daha dərd-ələmli günlərimiz arxada qaldı. Bundan sonra türklük adı, türkün növrağı ərşə yüksələcək:

...Təfaxür eylə, ey millət, muradın hasil oldu.
Daha əflakə yüksəlməz ənînü-ahü-əfcanın.
Ziyasız rus zülmündən o yüksək ruhun ölmüşdü,
Tuturdu şişəyə hərdəm şərabi-nab tək qanın.
Qızılgül tək açıl, gül, gör ki, türkün şanlı ordusu
Rəfaq-ərşə nəsəb etmiş Böyük Osmanlı ünvanın.

[1] "Azərbaycan" qəz., 30 təşrini-əvvəl 1918.

Məhəmməd Hadi «Türkün nəğməsi»[1] şeirində azadlıq və istiqlaliyyət uğrunda türk xalqlarının illərdən bəri çəkdikləri zəhmətin, tökülən qanların nəticəsiz qalmayacağını inamla yazırdı:

Türkün tökülən qanları bihudə gedərmi ?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi ?
... Qan ilə qazandıq zəfəri, verməyiz əldən,
Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,
İstərsə cahan çevrilib varsın da təməldən
Türklər geriyə dönməyəcək müslih əməldən.

M.Hadi ölkədə aparılan ordu quruculuğunu da təqdir edərək bildirdi ki, hər bir kəs öz vətəninin və xalqının şərəfini, irz-namusunu, toxunulmazlığını düşmənlərin istənilən təcavüzündən qorumağa borcludur. Türkləri isə bu müqəddəs vəzifənin öhdəsindən heç bir qorxu, dəhşət və qüvvə çəkindirə bilməmişdir.

Həmin fikirləri şair yüksək vətənpərvərlik duyğusu və poetik pafosla qələmə aldığı «Zəfəri-nəhayəyə doğru», iki hissəli «Əsgərlərimizə - könüllülərimizə» və başqa şeirlərində irəli sürmüşdür. Məsələn, «Zəfəri-nəhayəyə doğru»[2] şeirində oxuyuruq:

Mərd olan əsgərliyi təqdir edər əyzan ilə,
Əsgər olmaq fərzdir hər mömînə Quran ilə.
Əsgər olmaq bir şərəfdir türk üçün, islam üçün,
Əsgəriyyətlə yaşar millət həyatı şan ilə.
Ən işıq bir ömr istəsək günəş altında biz,
Dumanlı iddəaya qarşı qeyrəti-rəxşan ilə.

Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi və qısa vaxtda əldə etdiyi zəfərlər düşmənlərin canına vəlvələ

[1] «Azərbaycan» qəz., 15 sentyabr 1918.
[2] «Azərbaycan» qəz., 6 təşrini-əvvəl (oktyabr) 1918.

saldığı kimi, xalqımızın istiqlal və istiqbal, arzu və ümidlərinin qığılcımlarını da şölələndirdi. Bunu dövrün bədii nümunələrində də görürük. Qafqaç İslam Ordusunun xilaskarlıq missiyasından doğan ümid və sevinc hissləri dövrün bədii nümunələrində öz əksini qabarıq şəkildə tapıb. Məsələn, Əhməd Cavad «Xəlil Paşaya» ithaf etdiyi «Röyasını görmüşdüm»[1] şeirində sevinclə bildirirdi ki, düşdüyümüz ən çətin, ən böhranlı vəziyyətdə qan qardaşlarımızın bizə köməyə gəlib-gəlməyəcəyi dilemması qarşısında çoxları ümidini itirdiyi bir vaxtda:

Bən röyada nazlı yarın
Tellərini öpmüşdüm.
Bu sevincli zamanların
Röyasını görmüşdüm.

Şair göstərir ki, qoy buna inanmayan inanmasın, ancaq bizim günəş qara tülə sarılıb, hər kəs ümidsiz dayananda «mənim könlüm darıldı ki», belə olmaz. «Millətimin sərmayəsi tükənməz». Hökmən kömək gələcək. Şairi sevindirən röyasının çin olması ilə vətəninin xilasının bağlılığıdır. Onun «Ordumuza ərməğan» etdiyi «Ey əsgər»[2] adlı digər şerində isə Xəlifənin fərmanına baş əyib, məzlumların imdadına yetişən Qafqaz İslam Ordusunun gəlişi ilə yurdumuzda vəziyyətin yaxşılığa doğru dəyişildiyi göstərilməklə yanaşı, zəfərləri tərənnüm edilir, eyni zamanda onun (ordunun) Azərbaycana göstərdiyi xidmətlər konkret misallarla belə təsvir edilirdi:

...Şu qarşıkı duman çıxan bacadan
Sən gəlmədən iniltilər çıxardı.
Geciksəydin, məzlumların fəryadı
Yeri, göyü, kainatı yaxardı.

[1] «Azərbaycan» qəz., 14 təşrini-əvvəl 1918.
5 «Azərbaycan» qəz., 27 təşrini-əvvəl 1918.

Yürü, yürü, batan günəş izinə,
Gülümsəyir doğan günəş yüzünə.

Gənc şairə Umgülsümün qələmə alıb «İstiqlal» qəzetində dərc etdirdiyi «Bu ilki mayısda» [1] şeirində belə bir təsəlli və inam var ki:

Səfa ümidilə cəfa gələrsə,
Ağlama. Hər cəfa səfa bəklədir.
Ümidini kəsmə, bəla gələrsə,
Boynunda çox yasın məsərrət uyur...
...İrəlidədir sənin aydın günlərin,
Vəslətini bəkləməkdə dilbərin!

Buradakı nikbinliklə yanaşı, şairənin növbəti — «Yolunu bəklərdim!»[2] şeirində «Qafqaz İslam Ordusu»nun Azərbaycanda yerinə yetirdiyi xilaskarlıq missiyası minnətdarlıq duyğusu ilə yad edilir. Şeirin əvvəlində verilən qeyd fikrimizi təsdiq edir. Qeyddə deyilir: «Bu şeir bir il qabaq mart hadiseyi-əliməsindən Azərbaycan Türk islamlarının yaxasını düşmən əlindən almaq və ölümdən qurtarmaq üçün qardaş, arkadaş, — deyə dərə, təpə, dağ, daş aşaraq yardıma gələn şanlı Türkiyə ordusuna ithafa yazılmışdır».

Şeirin əvvəlində ana yurdun düşmənlər əlində ağlar günə qalması, ulu bir türk elinin xanimanının qəddarlıqla dağıdılması, yandırılıb-yaxılması, qəhrəmanların ləpə vuran qan içində çapalayaraq can vermələri, qız-gəlinlərimizin öz namusunu qoruyaraq düşmən əlindən qurtulmaq üçün çöllərə düşməsi və s. faciəli mənzərələr təsvir edildikdən sonra belə bir tarixi həqiqət nəzərə çatdırılır ki, Ey Qafqaz İslam Ordusu!

[1] «İstiqlal» qəz., 10 mart 1919.
[2] «Bəsirət» qəz., 1919, № 219

İştə gəldin, gözlərimin yaşlarını qurutdun,
Nəvazişin ovunmayan qərib ruhu oxşadı.
Heç ölçüyə sığınmayan dərdlərimi ovutdun,
Qara günüm hilalının işığıyla parladı.
— Artıq bana nəsib deyil şadlıq, sevinc, — deyərkən
Gəldin, aldın yürəgimi, — Ağlama, gül, — dedin sən.

Bütün bu minnətdarlıq duyğusu Azərbaycanın səadətinin parlamasında türk hilalının işığının, oynadığı roldan, Qafqaz İslam Ordusunun dar gündə xalqımıza etdiyi misilsiz köməkdən irəli gəlir. Burada yurdumuzun azadlığının, xalqımızın istiqlaliyyətinin əbədiliyinə də dərin inam var. Həmin inamı türkdilli xalqların bir-birinə dayaq, arxa və kömək durması, onların azadlıq eşqi və mübarizlik əzmi daha da möhkəmləndirir. Bu inam yurdumuzu şimaldan hədələyən Denikin ordusuna və ümumən Sovet Rusiyasından gələn təhdidlərə qarşı yazılan əsərlərdə də özünü göstərir.

Umgülsüm isə milli qurtuluşu, türklüyün xilasını hamının bir nəfər kimi mübarizəyə qalxmasında görür. Onun fikrincə, milli müqəddəratımızın ölüm-qalım dilemması qarşısında qaldığı bir zamanda türk qızları da fəal olmalı, öz oğullarına, ərlərinə dayaq durmalıdırlar. Bu fikri «Türk qızlarına» müraciətlə qələmə aldığı «Səs verin»[1] şerində ifadə edərək yazırdı:

Türklük deyil, biz türklüyün özüyük,
Millətimiz bizim ilə canlanır.
Qazanalım. Fateh xanın qızıyız,
Türklük adı fütuhatla şanlanır.

Umgülsüm öz həmcinslərini, soydaşlarını mübarizəyə ruhlandırmaq üçün onların milli-tarixi yaddaşlarını oyatmağa çalışır ki, onlar türklüyün özüdürlər, yəni əsl türk irqinə məxsusdurlar. Türkün adı isə həmişə fütuhatla, yəni ölkələr fəth etməklə şan-şöhrətə minib. Bir halda ki, belədir, bizim susmağa, əli qoynunda dayanmağa haqqımız yoxdur. Çünki biz əsilli-nəsilli türk xaqanlarının qızlarıyıq. Ona görə də soykökümüzə sadiq qalaraq:

Səslənməli, varlığımız bilinsin,
Türk oğlunu yadlar öksüz sanmasın.
Güc verəlim, qüvvətimiz görünsün,
Qız, qadınlıq həyansız kibi qalmasın.

Umgülsümə görə, türk oğullarına arxa, dayaq durmaqla qız-gəlinlərimiz həm də özlərinə kömək, arxa, həyat təmin etmiş olurlar.

Şairəni tək Azərbaycan türklərinin deyil, bütövlükdə türk irqinin müqəddəratı, tarixi taleyi narahat edirdi. Odur ki, S.M.Qənizadə, A.Şaiq, Ə.F.Nemanzadə və başqaları ilə bərabər[1], Birinci Dünya müharibəsi cəbhələrindən ruslar tərəfindən əsir edilərək Bakının yaxınlığındakı Nargin adasında saxlanılan türk əsirlərinin acınacaqlı vəziyyətinə biganə qala bilmirdi. Şairənin «Nargin əsirlərinin dilindən» qələmə aldığı «Turan düdüyü»[2] şerində türk irqinin taleyindən doğan vətəndaş narahatlığı qabarıqlığı ilə görünməkdədir.

Burada türkün düşdüyü vəziyyət son dərəcə ağır şəraitdə saxlanıb, həftələrlə çörək, su üzünə həsrət qoyulan dərmansız xəstələrin dili ilə belə təsvir olunur:

Məskənimiz həp fəlakət bucağı,
Bəstərimiz fırtınalar qucağı;
Sönmüşmüdür, əcəb türkün ocağız
Anadolu nerdə, Turan nerədə
...Qərib, sürgün, öksüz cocuqlar ağlar,

[1] «Açıq söz» qəz., 18 may 1917.

[1] Ətraflı bax: *Ağarəfi Zeynalzadə.* Çar Rusiyası, türk əsirləri və Azərbaycan ziyalıları. «Yeni Müsavat» qəz., 4 fevral 1993.
[2] «Açıq söz"» qəz., 24 dekabr 1917.

Ninni söylər uğultulu dalğalar;
Mərhəmət namına səni haraylar
Ədalətin nerdə, vicdan neredə

Turan düdüyünün poetik səsini bütövlükdə Turan elinin qulağına çatdırmağa çalışan Umgülsüm türk xalqlarının hər nəfərinin belə qədrini bilməyə, bir-birinə arxa, kömək durmağa səsləyirdi. O, analarımızın türkdilli xalqları başladığımız istiqlal savaşının səsinə səs verməyə çağırırdı ki, qoy bu güc birliyi bizim doğan günəşimizin şəfəqlərinə boy versin, möhkəmlənsin.

Öz növbəsində, Qafqaz islam Ordusu ilə birgə Azərbaycana gələn türkiyəli şair, ədib və mədəniyyət xadimləri özlərinin ölkəmizdəki ədəbi fəaliyyətlərində xalqımızın istiqlal savaşını alqışlayır, onu vəsf etməklə bərabər, belə bir duyğu aşılamağa çalışırdılar ki, qazanılan bu böşəri neməti - azadlıq və istiqlaliyyəti əldə saxlamaq üçün qarşıya çıxan hər hansı maneəni dəf etməyə hazır olmaq lazımdır. Çünki türk irqi özünün genetik kök və bağları, şöhrətli tarixi, ulu keçmişi, dərin zəkası, geniş qəlbiylə azadlıq və istiqlaliyyətə tam mənası ilə haqlı və qadirdir. Məsələn, türkiyəli şair Arif Ürfan Qaraosman «Qafqaz türklərinə» həsr etdiyi «Türk duyğuları» silsiləsindən olan birinci şeirə «Gül və sevin»[1] başlığı qoyaraq Qafqaz İslam Ordusunun özünün qan qardaşlarına - azərbaycanlılara köməyə tələsməsini belə müjdələyirdi:

Ey Qafqasiyanın nurlu səmasi!
Ey əcdadımın şirin yuvası!
Ey türk irqinin böyük anası!
Ey uca dağın münbit ovası!
Gül, sevin, artıq sana biz gəldik,
Səni qurtarmaq üçün yüksəldik!

[1] «Azərbaycan» qəz., 13 təşrini-əvvəl 1918.

Arif Ürfan Qaraosman Qafqaz gənclərini öz haqqını müdafiəyə çağırır. O, «Artıq oyan»[1] şeirində üzünü qan qardaşlarına tutaraq Allah və Vətən yolunda atılan hər bir addımın müqəddəsliyi duyğusunu təlqinlə Azərbaycan gəncliyini səfərbərliyə, döyüş vaxtı gəldiyi üçün silaha sarılmağa çağırırdı:

Bir Allah var, bir də Vətən,
Ey türk oğlu, buna inan.
Hər addımda dinə dayan,
Vakıt gəldi, artıq oyan!

Şair Azərbaycan gəncliyini döyüşə ruhlandırmaq üçün ona izah edirdi ki, uğrunda döyüşəcəyin torpaq, yurd sənin doğma vətənindir. Odur ki, öz qüdrətinlə yaşamağa haqlı olduğunu düşmənə və bəşər övladına sübut et:

Sən də göstər, alnın ağdır,
Öz yerlərin bu torpaqdır,
Yaşamaq da sana haqdır,
Vakıt gəldi, artıq oyan!

Bütün bu çağırış nidaları səbəbsiz deyildi, o dövrdə gənc Azərbaycan dövlətinin milli ordusu yox idi. Qafqaz İslam Ordusu komandanlığı milli ordunun formalaşdırılması işində də öz köməyini əsirgəmirdi. Bu yöndə görülən işlərə mənəvi dayaq olmağa çalışan türkiyəli şairlər özlərinin poetik çağırışları ilə Azərbaycan gənclərində vətənpərvərlik hisslərini gücləndirir, onları ordu sıralarında vətənin müdafiəsi, əldə olunan istiqlaliyyətin qorunması üçün döyüşə ruhlandırırdılar. Bu münasibətlə Arif Ürfan Qaraosman «şimali qafqasiyalılara» müraciətlə qələmə aldığı «Haydı, qalx!»[2] şeirində yazırdı:

[1] «Azərbaycan» qəz., 15 təşrini-əvvəl 1918.
[2] «Azərbaycan» qəz., 22 təşrini-əvvəl 1918.

Ey qardaşım, sən atəş qarşısında titrərkən
Bən qəlbimdə yaxılan atəş ilə yandım.
Sən «bir udum soyuq su « yalvararaq istərkən
Bən daşqın nəhrə kiçik deyə ağlardım...
... Titrədiyin atəşlər sənin artıq sönmüşdür.
Qır zənciri, haydı qalx! Yürü, çalış, usanma.
Bəklədiyin işıqlar parıldayır, yanmışdır.
Sana atəş, sana su, sana işıq, sana yol...
Sana hər şey gətirdim: iştə tüfəng və bomba,
Al bunları, yürü, aş, sən də bizə yoldaş ol.

Azərbaycan türklərinin milli mənlik duyğusunu əzmək üçün düşmənlər hər cür vəhşilikləri heyrətdə qoyan əməllərə əl ataraq xalqımızın, ana və bacılarımızın şərəf və ləyaqətini, namusunu tapdalayır, öz qəddarlıqları ilə gəncliyin, xalqın gözünü qorxudub onda köləlik duyğusu yaratmağa çalışırdılar. Arif Ürfan Qaraosman həmin silsilədən «Yeni əsgərlərə» müraciətlə yazdığı «Böyük yol, böyük iman»[1] şeirində gənclərimizi getdikləri döyüş yolunda qarşılaşacaqları müdhiş mənzərələrə psixoloji cəhətdən hazırlamaq qayğısına da qalırdı. Eyni zamanda, gənc əsgərləri düşmən pəncəsində inləyən qızlarımızın xilası üçün tələsməyə, zəfərlərə səsləyərək onları döyüşə bu cür ruhlandırırdı:

...Xain, qanlı və qəddar əllərlə
Parçalamaqda onlar...
Nurlu bacılar həpsi də murdar
Oldu pək yazıq pis əməllərlə...
Durma, yürü, qoş, bunları qurtar,
Təmiz qalanlar bərbad olmasın...
Düşmən altında inləyən qızlar
Qurtarsın, artıq fəryad qalmasın...

[1] «Azərbaycan» qəz., 31 təşrini-əvvəl 1918.

Arif Ürfan Qaraosman «Yanmış anamın gülləri qarşısında»[1] şeirində düşmən tərəfindən anası yandırılaraq külə döndərilmiş qəhrəmanın hiss və həyəcanlarını, keçirdiyi dərin sarsıntıları təsvir edir, yanmış ananın külləri üzərindən əsən yellər də qan qoxur. Qəhrəman daxilən, ruhən çox əzab çəkir. Lakin o ağlamır. Daha doğrusu, ağlamağa qorxur. Qorxusunun səbəbini isə belə izah edir:

Qorxuram... ağlar isəm yürəgimdə
Azalacaq dərdim kibi, ah, kinim də...
... Bən o kinlə yenə sənə qoşacağam,
O kinimlə bən atəşlər saçacağam.

Şairin məqsədi birinci növbədə öz oxucusunu düşmənə qarşı barışmazlığa, hər hansı şəraitdə ona mərhəmət və ya güzəşt hissi bəsləməkdən tamamilə uzaq olmağa səsləməkdir. Bu çağırışın arxasında öz qəhrəmanını barışmaz, təəssübkeş və mübariz görmək kimi bəşəri məqsədlər durur. Həmin bəşəri hisslər hər kəsi öz elinə və yurduna daha doğma hisslərlə bağlayaraq onun laqeydləşə bilcəyinə imkan verə bilməz. «Çiçəklərlə»[2] şeirində olduğu kimi.

Şeirin qəhrəmanı vətən çiçəklərinə belə bir sualla müraciət edir ki, əvvəllər sizin rənglərinizi cürbəcür - sarı, pənbə, mavi, bəyaz... olduğu halda niyə indi hamınız eyni rəngdə - qırmızısınız? Çiçəklərin cavabları son dərəcə təsirli və ibrətamizdir. Onlar cavablarında bildirirlər:

...Buralarda sanki bir il
Hər gün bizim kökümüzə
Bir qırmızı su dögüyor

[1] «Azərbaycan» qəz., 14 təşrini-sani (noyabr) 1918.
[2] «Azərbaycan» qəz., 5 təşrini-sani 1918.

Torpaqlardan üzümüzə
Qızıl bir şey süzülüyor...

Qəhrəmanın «Bu qızıl şey nədir» sualına çiçəklər belə cavab verir:

- Qoxla
Birər kərə həpimizi
Mayamızı sən də anla!
Söylətməkdən isə bizi...

Çiçəklərin sözünə əməl edən qəhrəman qarşılaşdığı mənzərənin qarşısında sarsılır. Onun sarsıntısının səbəbi aşağıdakı misralarda öz əksini belə tapır:

Hər çiçəkdən bir qoxladım,
Baxa qaldım heyran-heyran,
Qərib-qərib çox ağladım,
Qoxuyurdu həpsi də qan.

Həmin günlər Azərbaycanda olan digər türkiyəli şairin - Rövşən Əşrəfin şeirlərində də vətən sevgisi, torpağa bağlılıq hissi, onun gülünə, çiçəyinə, taxılına, yarpağına, insanlarına məhəbbət vasitəsilə aşılanmağa çalışılır. Onun hələ 1916-cı ildə İstanbulda şair dostu Əhməd Cavada ithaf etdiyi «Dəyirman»[1] şeirində göstərilir ki, kəndin kənarındakı dəyirmana torpaqda yetişən taxılın dəni arabalarla gətirilir. Dəyirman fırlandıqca o dən ağ una çevrilir. Şair dəyirmanda çəkilən bu zəhmətin, dəyirmançının una bələnməsinin və s. əhəmiyyətini uşaqlara bu cür başa salır:

Gecə-gündüz didinmək
Bizə verər səadət,

[1] «Azərbaycan» qəz., 28 təşrini-əvvəl 1918.

Əkmək böyük bir nemət
Ugütməzsək əgər un,
Tutmaz olur bərfürun,
Artıq həyat tükənir,
Qıtlıq ol dəm başlanır.

«Həsən dayı»[1] şeirində şən, zarafatcıl, uşaqların sevimlisi olan Həsən dayının mehribanlığı, istiqanlığı diqqət mərkəzinə çəkilir. Sonra onun qocalıb ölməsi, torpağa çevrilməsi haqda deyilir:

Həsən dayı torpaq oldu...
Qoyun, quzu, keçi, oğlaq
«Məə, məə «, - deyə ağlayaraq
Məzarından otlar yoldu.

Rövşən Əşrəfin «çocuq şeirləri» silsiləsindən dərc etdirdiyi növbəti şeir «Məktəb şərqisi» [2] adlanır. Bu şeirdə uşaqlar həyata, zirəkliyə, oxumağa səslənir. Müəllif baharın sona çatması, payızın gəlməsi ilə məktəblilər üçün əsl baharın məktəbdə yenidən başlandığını söyləyərək uşaqları «bu baharın» gülşənindən bəhrələnməyə çağırır:

Xəzan oldu, xəzan oldu,
Yarpaqlar da artıq soldu.
Bahar şimdi məktəblərdə,
Dolaşma sən başqa yerdə.

Türkiyəli şairlərin azərbaycanlı həmkarları onların gəlişlərinə laqeyd qalmamışdılar. Şair Əhməd Cavad həmin günlərdə qələmə aldığı "Rövşən Əşrəf bəy"[3]

[1] «Azərbaycan» qəz., 28 təşrini-əvvəl 1918.
[2] «Azərbaycan» qəz., 25 təşrini-əvvəl 1918.
[3] «Azərbaycan» qəz., 25 təşrini-əvvəl 1918.

məqaləsində Osmanlı türkləri ilə Azərbaycan türkləri arasında uzun illər davam edən ayrılığın getdikcə birbirinə yadlaşmaya çevrilməyə başladığından bəhs edərək bizim müstəqillik əldə etməyimizlə bu əlaqələrin nəhayət bərpa olunmaq imkanı qazandığını bildirməklə yanaşı, həmin əlaqələrin onsuz da mövcud olan diplomatik münasibətlərlə məhdudlaşıb qalmaması, onun mənəvi, mədəni istiqamətdə daha da inkişaf etdirilməsi qayğısına qalmağın vacibliyi məsələsini qaldırır.

Əhməd Cavad Azərbaycanda Osmanlı türklərinə hər hansı marağın olduğunu savadı olan kimsələrin Məhəmməd Əmin Yurdaqul və başqa Osmanlı şairlərini tanıdıqlarını söyləməklə bərabər, Osmanlı gənclərinin Azərbaycan haqqında təsəvvürlərinin məhdud olduğunu təəssüflə qeyd edir. O, həmin boşluğun aradan qaldırılması istiqamətində müntəzəm iş görməyin vacibliyini irəli sürməklə, indiyədək Osmanlı ədiblərinin həm özlərinin bizə, həm də bizim Osmanlı gəncliyinə tanıdılmağımız istiqamətində çox ləng fəaliyyət göstərmələrindən bəhs edib bildirir ki, həmin soyuqluq son zamanlar aradan qalxmaqdadır. Bundan başqa, həmin dövrdə Azərbaycan və Türkiyə ədiblərinin qarşılıqlı hörmət və əməkdaşlıqlarını ifadə edən bir neçə işgüzar kütləvi tədbir də keçirilmişdir. [1]

Türkiyəli şair və ədiblərin yaradıcılığına Azərbaycan ziyalılarının, ədəbi ictimaiyyətinin hörmət və diqqəti bununla məhdudlaşmır, azərbaycanlı şair və ədiblərdən M.Ə.Sabirin, M.Hadinin, H.Cavidin, A.Şaiqin və başqalarının türkiyəli həmkarlarının yaradıcılıqlarına, Türkiyə və orada cərəyan edən hadisələrə həssaslıqla yanaşdıqları haqda çoxsaylı ədəbi və tarixi faktlar var. Bu hal həm cümhuriyyətə qədər, həm də cümhuriyyət dövründə davam etməkdə idi. Məsələn, böyük türk şairi Tofiq Fikrətin vəfatı ilə əlaqədar «Açıq söz» qəzetində M.Ə.Rəsulzadənin imzası ilə «Böyük bir itki» yazısı çap olunmuş, Ə.Hamid isə «Tofiq Fikrət bəy və şeirləri» başlığı ilə silsilə məqalə dərc etdirmiş, qəzetin nömrələrinin birində şairin «Fərda» şeiri çap olunmuşdur. Bundan başqa, «Açıq söz», «Azərbaycan», «İstiqlal» qəzetlərinin 1917-1918-1919-cu il nömrələrində alovlu türk şairi Məhəmməd Əmin Yurdaqulun yaradıcılığından nümunələr çap olunmuşdur.

Şairin «Ey türk, oyan»[1] poemasında türk xalqlarının zəfərlərlə, şan-şöhrətlə olan tarixi poetik bir dillə təsvir edilir. Şair «Ey türk, oyan! Ey qardaşlar, oyanın!» - deyə oxucusunu səslədikdən sonra onlara tarixi həqiqətləri bu cür açır:

Ey millətim! Sən bundan tamam beş min il əvvəl
Altaylarda yaşarkən,
Tanrım sənə dedi ki: «Ey türk irqi, bu yerdən,
Günəşlərə süzülən qartal kimi uç, yüksəl!..»

Poemanın ideya-bədii təsir gücü həm də onun poetik pafosunun yüksək olmasındadır. Şairin dərin vətəndaşlıq yanğısı ilə irəli sürdüyü müqəddəs vəzifələrin gec-tez həyata keçəcəyinə inamı poema boyu oxucuya təlqin olunur. Və adam həmin amal və arzuların xoş, cazibəli və coşqun təsirindən uzun müddət çıxa bilmir.

Təsadüfi deyil ki, Məhəmməd Əminin «Zəfər yolunda» poemasının böyük bir hissəsini dərc etməyə başlayan «Azərbaycan» qəzetinin əsərə və şairin yaradıcılığına verdiyi qiymətdə deyilirdi:

«Görün müharibədən əvvəl və görün müharibə əsnasında böyük və möhtərəm Türk şairi Məhəmməd Əmin bəy Türk millətinə Türk duyğularını bir Türk qə-

[1] Bax: Alxan Bayramoğlu.Qafqaz imdadına çatan türkün könül nəğmələri.Bakı Universiteti nəşriyyatı 2002, səh.30-34.

[1] «Açıq söz» qəz., 9-16 may 1917 №468-474.

ləmilə yazdı. Bu böyük ədibin ruhunda həm biz Türklərin oyanması üçün böyük-böyük hisslər doğar. Bunlar birər cövhər, hər Türk üçün saxlanacaq, əzbərlənəcək birər böyük və qiymətli əsərlərdir. Biz də bunları yurdumuzdakı yeni oyanan millət hisslərini qüvvətləndirmək üçün bu gündən etibara qəzetimizdə təfriqə surətilə nəşr edəcəgiz. Birinci olaraq «Zəfər yolunda»kı əsəri intixab etdik. Məqsədimiz böyük millətimizin oyanması, oxucularımızın ziyadələnməsidir.

Bizdən qeyrət, millətdən rəğbət...»[1]

Doğrudan da, «Zəfər yolunda» əsəri öz əhatəliyi, epik təsvir zənginliyi, tarixə ayıq baxışı və bu baxışın fonunda türk xalqlarının yenilməzliyinə, müdrikliyinə, mərdliyinə, ulu və müqəddəs tarixi ənənələrə malik olmasına və s. dərin inamı, milli qürur hissinin qabarıqlığı ilə diqqəti cəlb edir. Türk millətini hədələyən qorxunun – beynəlxalq irticanın iç üzünü, onun türk irqinə qənim kəsilən vəhşi və hiyləgər xislətini açıb göstərən şair gəncliyə belə bir haqlı ideyanı təlqin etməyə çalışır ki, onun tarixi qədim, kökü dərin, əcdadı şöhrətli olduğu kimi, bügünkü övladı da sələflərinə sadiq qalmalıdır. Çünki minilliklərin sınaqlarından süzülüb gələn

...bizlər o pozulmuş Bizansların, Babillərin
Qəlbi, ruhu alçaqladan şeylərindən uzaq qaldıq;
Atəş, dəmir yurtlarından gələn fateh insanların
Qəhrəmanlıq vicdanından, həyatından qüvvət aldıq.
Ona görə də təsadüfi deyil ki:
Millətləri öldürməyən fəzilətlər yenə bizdə;
Sözdə səbat, işdə əzm, səbr bizim qövmümüzdə;
O cahangir oğuzları
Fateh yapan cəsarətlər bizim ərkək ruhumuzda;

[1] «Azərbaycan» qəz., 15 təşrini-əvvəl 1918

O qəhrəman yavuzları
Qalib edən itaətlər bizim yigit ordumuzda.

Demək, türkün ulu əcdadının cəsur və qaynar, sağlam və döyüşkən ruhu, ona fütuhatlar gətirən cəhətləri bugünkü gəncliyinin qanındadır. Bu sağlam genetik yaşarılığın nəticəsində türkü heç bir qüvvə sındıra, məğlub edə bilməz. Şair də elə bu inamla düşmənə belə xəbərdarlıq edir:

...Bilsinlər ki, Tomrislərin böyük İran fatehinə,
Göstərdiyi aqibətlər
Şu bu günkü düşmənlərə eyni şeyi qazmaqdadı
Bunlara da fəlakətlər
Keyxosrovun, Romanusun bəxtlərini yazmaqdadı.
Türk yurduna yaxlaşanlar burda iki şey bulurlar:
Öldürücü bir dəmir əl, bir də qanlı, dərin məzar.

Bütün bunlar gəncliyi döyüşə, qələbə uğrunda qətiyyətə səsləməsi, ona zəfər çalacağına dərin inam yaratması ilə də diqqəti cəlb edir.

Məhəmməd Əmin Yurdaqulun «Vətən qəhrəmanlarına ithaf" etdiyi «Ya qazi ol, ya şəhid»[1] şeiri də çağırış ruhunun, döyüşə yollanan igiddə qələbə əzminin yaradılması baxımından daha poetik, daha qüvvətlidir. Oğlunu döyüşə yola salan ana ona belə öyüd verir:

Haydı, yavrum: bən səni bu gün üçün doğurdum,
Xamırımı yigitlik duyğusuyla yoğurdum;
Türk övladı odur ki, yuru olan torpağı
Ana irzi bilərək yad ayağı basdırtmaz...

Şeirdən görünür ki, oğlunu döyüşə göndərən ana üçün bu, heç də asan deyil. Onun sarsıntı keçirdiyini öy-

[1] "İstiqlal" qəz.,7 iyul 1919.

üdünün - tonunun tez-tez dəyişməsi də göstərir. Bununla belə, ana öz oğluna belə bir fikri təlqin edir ki, qoy onun dərdli-dərdli axıtdığı göz yaşları oğlunun düşmənə olan kinini, döyüş meydanındakı rəşadətini artırsın.

Bu qəhrəmanlıq, mərdlik, döyüşkənlik çağırışları, qələbəyə inam duyğusunun aşılanması və s. cəhətlər milli müstəqillik qazanmış Azərbaycan xalqının və onun gənclərinin sağlam, cəsur türk irqinin öncül nümayəndələrindən biri olaraq qazandığı nemətin keşiyində durmaq əzmini artırırdı. Apardığımız təhlillər göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qorunması və möhkəmləndirilməsi işində Osmanlı imperiyasının Qafqaz İslam Ordusu ilə bərabər, qələm əhli, xüsusən bəzi şairləri həm əməlləri, həm də əsərləri ilə əyani və qiyabi şəkildə yaxından iştirak etmiş, milli mənlik duyğumuzun yüksəldilməsi, işıqlı sabaha olan inamımızın möhkəmlənməsi və düşmən üzərində qələbəmizin təmin edilməsi naminə xeyli iş görmüşlər. Eyni zamanda, Azərbaycan ədibləri Qafqaz İslam Ordusu və türkiyəli şairlər öz qan qardaşlarına köməyə gələndə sevindikləri kimi Birinci Dünya müharibəsinin nəticələrinə görə Türkiyə ağır vəziyyətə düşəndə bu acınacaqlı halı öz kədər və faciələri kimi qarşıladılar.Bunu dövrün poetik nümunələrində aydın görmək olur. Hətta Azərbaycan bayrağından danışanda belə Türk dünyasının taleyi göz önünə alınırdı. Milli bayrağın müqəddəs bir ülviyyət simvoluna çevrilib yalnız Azərbaycanda deyil, eyni zamanda bütövlükdə türk dünyasında tanınaraq sevilməsi arzusu təkcə ayrı-ayrı fərdlərin ürəyindən keçməyib, bütövlükdə xalqın öz soykökünə qayıdışının, həmin söykök ətrafında sıx birləşmək cəhdinin nəticəsidir. Bu arzunun arxasında bir vətəndaş narahatlığı da duyulur. Bütövlükdə, Turan ellərinin istiqlalı və birliyi arzusundan doğan həmin həsrət və narahatlığı Cəfər Cabbarzadə «Məhəmmədzadə Mirzəbala qardaşıma töhfə» kimi yazdığı «Salam»[1] şeirində belə ifadə edir:

[1] «İstiqlal» qəz., ? şubat (fevral) 1920

Əməl quşu şərqə doğru uçarkən,
Gündoğuşda murad suyu içərkən,
Sabah yeli Altundağdan keçərkən,
Turan ellərinə salam söyləyin.

...İntizar gözlərdən Xəzər doğuldu,
Həsrət yürəgimiz Yanardağ oldu,
Dillərimiz Turan deyə yoruldu,
Turan ellərinə salam söyləyin.

Aşiqin öz yarına yetirmək istədiyi yaylığın əlamətlərinə diqqət yetirdikdə bu intizar gözlərin, həsrətli ürəklərin arzusunun azadlıq və istiqlaliyyət, özü də ümumtürk istiqlaliyyəti olduğu daha aydın nəzərə çarpır. Belə ki, əslində bu yaylıq ulduzlu, göy taclı, üstü ayparalı al bayraqdır:

Yıldızlı bəz, gök tac, üstü aypara,
Bir al yaylıq verim, yetirin yara,
Durnalar, durnalar, bizdən dübara
Turan ellərinə salam söyləyin.

Bu həsrət şairin öz yurduna olan məhəbbət və bağlılığından, onu azad və abad görmək istəyindən güj alır. Müəllif başa düşür ki, Azərbayjan istiqlalının möhkəmliyi və əbədiliyi bütövlükdə Turan ellərinin azad və yekdil olmasından çox asılıdır. Bununla bərabər o, öz ölkəsinin — Azərbaycanın yer üzərində olan çəkisinin bənzərsizliyi, sərvətinin bolluğu, «Yanardağ»larından coşub-çağlayan alovuna bir çox ellərin tapınaraq ziyarətə gəlmələrini, bu yurdun qibləgaha, səcdəgaha çevrilə biləcək qədər müqəddəs olmasını və vaxtilə azad yaşadığını «Sevimli ölkəm»[1] şeirində nəzərə çatdırdıqdan sonra belə bir cəhəti xüsusi vurğulamağı da lazım bilir ki:

[1] «Azərbaycan"» qəz., 20 kanuni-sani 1919; *Qeyd*: Cəfər Cabbarlının bu şeiri onun kitablarına «Ölkəm"» adı ilə düşmüş və məşhurlaşmışdır (A.B.).

Əpbəgindən qızlar çadır əkərlər.
Ölkələrin azad görmək dilərlər,
Bu yerləri bütün ellər sevərlər,
Yalnız bizdə gözləri var ölkəmin.

Şairin vətəndaş qəlbini iftixar hissi ilə döyündürən də çoxlarının gözü olan «Bu rəngin və zəngin» (M.Hadi) ölkənin yalnız bizdə — Azərbaycan türklərində gözü olması, yalnız bizə məxsusluğudur. Odur ki, belə bir ölkə hər birimiz üçün sevilməli, sevimli olmalıdır. Moğul nişanlı, islam inamlı, türk zəkalı, od qüdrətli, mələk qanadı qədər ülvi, müqəddəs rəmzləri, dövlətçilik atributları olub, zəngin yeraltı və yerüstü sərvətlərə malik cənnətməkan, azad bir ölkə, sevgili Vətənə hər birimizdə dərin sahiblik hissi olmalıdır. Bu hiss və duyğu Vətənin qorunması, abadlaşdırılması və xalqın firavanlığı kimi müqəddəs əməllərə qida verməli, onları mayalandırmalıdır. Cəfər Cabbarlının şeirlərini oxucularına, soydaşlarına bu amal və ideyaları təlqin etmək istəyi birləşdirir.

1919-cu ilin axırları – 20-ci ilin əvvəllərində türk dünyasının, o cümlədən Türkiyənin başı üstündə dolanan qara buludların kölgəsi Azərbaycan şairlərinin ilham pərisinin üzərinə də düşür. Həmin kölgənin təsirindən doğan həsrətli, intizarlı, bir qədər də imdadlı notları C.Cabbarlının yuxarıda nəzərdən keçirdiyimiz «Salam» şeirində də gördük. Əhməd Cavadın «İstanbul»[1] şeiri isə tamamilə bu mövzuya həsr edilib.

Şair öz sevgilisinin yad əllər pəncəsində, həsrətli gözlərindən qanlı yaş axıtması xəbərini eşitdiyini belə söyləyir:

[1] «İstiqlal» qəz., 12 nisan (aprel) 1919.

Bən sevdigim mərmər sinəli yarın
Deyirlər, qoynunda yabançı əl var.
Baxıb üfüqlərə, uzaq yollara
Ağlarmış mavi gözlər axşamlar!
Ah, ey solğun üzlü dalğın İstanbul!
Mavi gözlərin pək bayğın İstanbul!

Eşitdiyi xəbərin doğurduğu ahın alovu şairi həm də ona görə bərk qarsıyır ki, o, öz istəklisinin köməyinə çatmaqda acizdir. Aşiqin əl-qolunu bağlayan, onun qarşısını kəsən keçilməz siyasi sədlərdir. Bu siyasi sədlər qarşısında ümidsizliyə qapılan aşiqin dərd yükünün ağırlığı şerin misralarına belə çökür:

Bu qəlbimdən qopan hər yanıq fəryad
Çəkdigim dərdlərin tərcümanımı
Yoxmudur kimsədən könlümə «imdad»,
Bu bəxtsiz sevdamın son məqamımı
Ah, ey solğun üzlü, dalğın İstanbul,
Mavi gözlərin pək bayğın İstanbul.

Bu kədərin ağırlığı altında inləyən vətəndaş şair son məqamda üzünü Tanrıya tutub, ondan azadlıq və istiqlal nəğmələrinin şaqraq melodiyalarını çalan könül sazının incə telini qırmasının, bununla da Turan elini yasa qərq etməsinin səbəblərini soruşur:

Yarəb, bilməzmidin qəlbimi sən də
Ki, qıydın sazımın canlı teliniə!
Doğurkən yeni bir ümid bəndə,
Neyçün məyus etdin Turan elini?!
Ah, ey solğun üzlü, dalğın İstanbul!
Mavi gözlərin pək bayğın İstanbul!

Turan ellərinin yadlar pənjəsində çırpınması xəbərinin doğurduğu dərin vətəndaş kədəri və bu bəladan qurtulmaq üçün yollar aranması jəhdi Abdulla Şaiqin «Araz»dan «Turana» [1] poemasında da əsas xətdir. Bu əsərdə də aşiq öz sevgilisinin ətrafını qara quzğunların alaraq, başlarını onun dizinə söykəməsi xəbərindən sarsılıb. Onun qəlbini parçalayan sevgilisinin ümidsizlik girdabında «gözlərindən inci kimi yaşlar axıdıb, bərələnmiş gül kibi gündən-günə solmasıdır». Şair vəziyyətdən yeganə çıxış yolunu türk oğlunun öz əlində, öz qüdrətinin gücündə görür. Təsadüfi deyil ki, yadlar pəncəsində inləyən gözəl də inilti ilə soruşur ki, Türk dünyasında, Turan elində məni qurtaracaq bir ər yoxdurmu? Bu gözəlin yeganə sevgilisi onun halalca nişanlı olduğu türk oğludur. Ona görə belə nalə çəkir:

Nerdə o türk nişanlım, o qoç igid qəhrəmanım
Yolunu pək gözlədim, yol ver ona, Yaradan!
Yel atına binsin də, gəlsin bəni qurtarsın.
Sevmədigim şu xain başları həp qoparsın.
Şu sehirli tilsimi qırsın namus eşqinə,
Quruntulu bir kədər çökmüş Turan elinə.

Bu acı xəbər «Araz»ın vasitəsilə «Kür»ə, oradan da hər ikisinin səyi ilə coşğun dənizə çatdırılır. Coşğun dəniz eşitdiklərindən qəzəblənərək ildırım kimi çaxır, onun kipriklərində şimşəklər oynaşır və Turan ellərini saran dalğalar bütün əngəlləri aradan qaldırır. Sehrli divlərə yedikləri nə varsa, qusdurulur.

Turan elində əmin-amanlıq bərpa ediləndən sonra dəniz ancaq ləpələrlə oynaşır. Onun göbəyində zümrüd bir ada, adanın ortasında isə altun kərpicli bir köşk görünür. Şeir belə bir romantik sonluqla qurtarır:

[1] «Qurtuluş» məcmuəsi. 1920, № 2, s.6-7

Köşkün qarşı tərəfi qızıl alma bağıdır,
Ayaq bassa daş olur, hər kəs ora yağıdır.
Qızıl alma bağında gəzər dünya gözəli,
Gülər coşğun sevinclə türkün əlində əli.

Göründyü kimi, şair Turan ellərinin simvolu olan dünya gözəlinin divlərin əlindən xilasının real yollarını tapa bilməyib, onun əlini türk oğlunun əlinə özünün romantik şair dünyasının vasitəsi, bu romantikanın sehrli gücü ilə verir. Turan ellərinin işıqlı sabahı, türk gözəlinin azadlıq və istiqlaliyyətinin romantik bədii əksi Abdulla Şaiqin şair-vətəndaş idealının bəşəriliyindən, nəhayətsizliyindən və nurlu sabaha, Türk dünyasının azadlıq və səadətinə dərin inamından güc alır. Lakin ictimai-bədii və poetik fikir vəziyyətdən çıxış yolunu daha çox reallıqda axtarırdı.

Alovlu vətənpərvər şair Məhəmməd Hadi isə inanırdı ki, vətən və xalqın azadlığı, səadəti və işıqlı istiqbalı yolunda gedən qurbanların adı əbədi, diri olmaqla, ruhları «behişti-əlada»dır. Həmin fikri o, 1918-ci ildə Bakıda törədilən mart qırğınlarının və azadlığımız uğrunda mübarizə qurbanlarımızın xatirəsinə həsr etdiyi 31 mart 1919-cu il tarixli «Şühədayi-hürriyyətimizin ərvahına ithaf»[1] şeirində belə əsaslandırırdı:

...Müəbbədən diridir namınız bu dünyada,
Sizin də ruhunuz uçsun behişti-əlada.
Biçi xilas edərək pənjeyi-əsarətdən
Nicatbəxş olaraq dəsti-əhli vəhşətdən.
Çəkildiniz ədəbi xüldzari-rəhmanə,
Behişti-rəhmətə, yəni diyari-rəxşanə.
O xuninizlə açıldı bəhari-hürriyyət,
Sizin də yurdunuz olsun behişti-ülviyyət.

[1] «Azərbaycan» qəz., 31 mart 1919.

Əlbəttə, hər tərəfi düşmənlərin sardığı bir şəraitdə aparılan ağır və şanlı mübarizədə təkbaşına qalib gəlmək çətin olardı. Abdulla Şaiq vəziyyətdən çıxış yolunu türkdilli xalqların mənəvi və sosial-siyasi birliyində görürdü. Həmin ideya şairin «Yeni ay doğarkən» [1] şeirində öz əksini tapıb.

Əsərdə təsvir edilir ki, Türk anası öz oğluna türkün yenicə doğan hilalını göstərərək bu qız ismətli gözəlin — yenicə doğan ayın ondan — türk oğlundan nəsə umduğunu bildirir. O, diqqəti ayın ətrafındakı yeddi ulduza cəlb edərək, göstərir ki, bunlar yeddi türk dövlətinin rəmzidir. Həmin ulduzlar ayın ətrafında daha parlaq göründüyü kimi, türk dövlətləri də öz hilalı ətrafında sıx birləşsələr, daha qüvvətli və yenilməz olarlar.

Maraqlıdır ki, türk oğlu Yavuz Günəşi Aydan və Ülkərlərdən çox sevsə də, bu yeni aya baxarkən onun varlığını özünün də baş açа bilmədiyi qəribə hisslər çulğalayır:

– Annacığım! Bən günəşi aydan, yeddi ülkərdən
Çox sevirəm. Bilməm şu aya bən baxarkən
Neçin əski diləklərim dalğalanır gözümdə
Neçin tatlı, uğurlu bir duyğu doğar içimdə
Neçin bu ay ruhuma pək uyğun, munis görünür
İçim, dışım günəş kibi neçin nura bürünür?

Genetik yaddaşın oyatdığı bu tükənməz, bu ülvi duyğular türk dünyasının işıqlı sabahına nur çiləyən milli-mənəvi potensiyamızın istinad nöqtəsi, enerji, güc mənbəyi kimi diqqəti cəlb edir. Təsadüfi deyil ki, Anasının köməyi ilə «hər biri bir igidin yıldızı», daha doğrusu, hər biri bir türk dövlətinin rəmzi olan ülkərlər arasında özünün «pək parlaq o qırmızı ulduzunu» müəyyənləşdirib tapan Yavuzun ürəyi həmin ülkərlərin bir-birlərindən uzaq yaranıb sönük görünməsinə dözmür və qəlbində onları birləşdirmək, mənən yaxınlaşdırmaq arzusu baş qaldırır:

«– Ülkərlər, anajığım, bax, nə qədər ufaqdır!
İşıqları pək sönük», həp biri birindən uzaqdır.
Bən istərəm yeddi ülkər qovuşsun bir-birinə,
Üzərimizə günəş kibi doğsun ülkər yerinə.

Həmin günəşi — türkdilli dövlətlərin yaxınlaşmasından, mənəvi-siyasi birliyindən yaranan Günəşi «taleyinin ülkəri» adlandıran Yavuz bütün dünyanın həmin «Günəş»«ə tapınması, ondan vulkan kimi həyat qaynaması və yer üzündə əmin-amanlığın bərqərar olaraq, qurdun quzu ilə otlaması arzusu ilə çırpınır. Bu müqəddəs arzudan fərəhlənən Ana oğluna belə xeyir-dua verir:

– Öylə isə, öklü oğlum, ayı, yıldızları
Bir-birinə bitişdirib uğurlu bir günəş yap!

Anamın xeyir-duası əslində türkdilli xalqları, türk dövlətlərini birliyə çağıran milli-mənəvi bir ideya kimi səslənir. Həmin çağırış öz aktuallığını bu gün də saxlamaqdadır.

[1] "Açıq söz" qəz., 17 dekabr 1917.

KİTABIN İÇİNDƏKİLƏR

Qeyd üçün:

«Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 yanvar 1998-ci il) 3

«Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (15 fevral 2008-ci il) 5

İnstitutdan..... 9

Cümhuriyyətə qədərki ədəbiyyatda milli intibah və istiqlal ideyaları (Yaşar Qarayev)..... 16

İNTİBAH DÜŞÜNCƏSİ. XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ƏDƏBİYYAT, DİL, MƏDƏNİYYƏT QURUCULUĞU..... 117

Cümhuriyyət dövrü (1918-1920) – (Yaşar Qarayev) 117

Dil məsələləri (Ağamusa Axundov) 142

"Dövlət dili" haqqında 142

Parlamentin dili (Ağamusa Axundov) 149

İncəsənət və teatr (Rasim Əfəndi və Rauf Sadıxov) 179

Dövrün tarixi-ictimai, ədəbi və mədəni xülasəsi (Alxan Bayramoğlu) 193

CARİ ƏDƏBİ PROSES: MƏTBUAT, PUBLİSİSTİKA, POEZİYA, NƏSR, DRAMATURGİYA VƏ ƏDƏBİ TƏNQİD 203

Mətbuat və publisistika (İslam Ağayev)..... 203

Poeziya (Aybəniz Əliyeva)..... 223

Nəsr (Alxan Bayramoğlu) 241

Dramaturgiya (Hüseyn İsrafilov) 263

Ədəbi tənqid (Aybəniz Əliyeva)..... 290

Türkiyəli şairlər Azərbaycan Cümhuriyyətində (Alxan Bayramoğlu) 305

Qeyd üçün:

Formatı 84x108 1/32.. Həcmi 21 ç.v.
Tirajı 500.
Qiyməti müqavilə əsasında

«Qoliot Qkup» QSC nəşriyyatında çap olunmuşdur.